**Çingiz Abdullayev**

# UZUN ÇƏKƏN SÖZARDI

**Tərcümə:** İlkin Həsənov.

©Vivo-Book.com |Bakı - 2015

vivo www.vivo-book.com




**Çingiz Abdullayev**

# UZUN ÇƏKƏN SÖZARDI

Çingiz Abdullayev

# UZUN ÇƏKƏN SÖZARDI

***Dronqo qaşqabağını tökdü. Verdiyi sual özü üçün də gözlənilməz oldu:***

***– Onda de görüm, Əhməd Elqarovu və Feliks Qorditskini sürücüsüylə birlikdə niyə öldürmüsən? Onlar sənə neyləmişdilər?***

***– Bu ən mühüm sualdır, – qatil cavab verdi, – cavabını tapsan, hər şeyi biləcəksən.***

Yer üzünün nemətləri müxtəlif insanlar arasında qəribə şəkildə bölünüb. Dilənçiyə heç nə, yoxsula az, varlıya çox, bəzilərinə daha çox pay düşüb, ancaq razı qalan demək olar ki, yoxdur. Bu dünya belə qurulub.

*Əli Əfəndi*

Biz – amansız taleyin hökmü altında olan zavallı oyuncaqlarıq... təbiətin dəyişməz qanunlarına tabe ola-ola həyat uğrundakı aramsız

mübarizədə iştirak etməyə məhkum olunmuşuq – qarşıda isə mütləq məğlubiyyətdən savayı heç nə yoxdur.

*Somerset Moem*

Mən bu barədə susuram, ancaq ucadan deməyə özümü məcbur etmək istərdim: bəli, mən sizə həsəd aparıram, Conniyə həsəd aparıram – həmin o dünyalıq Conniyə ki, o olmasaydı, heç kəs o dünyanın nə olduğunu bilməzdi. Mən onun onsuz da heç kimin anlamayacağı iztirablarından başqa hər şeyə həsəd aparıram, lakin hətta iztirab içində olsa belə, onda mənə bəxş olunmayan daxili bir nurlanma var. Mən Conniyə həsəd aparıram, həm də ona acığım tutur ki, o özünü məhv edir, öz istedadını israf edir, özünü onu hər yandan əhatə edən çirkabın içinə atır.

*Xulio Kortasar*
*“Təqibçi”*

## Birinci fəsil

Ona elə gəlirdi ki, son illər Moskvada baş verən tufanlar adi hadisəyə çevrilməkdədir. Bir-birilə toqquşan Atlantik və Aralıq dənizi siklonları ağacları qırıb, maşınları çevirən leysanlar, şiddətli küləklər

yaradırdı. Ola bilsin, o, əvvəllər təbii fəlakətlərə sadəcə əhəmiyyət vermirdi, lakin illər keçdikcə ya bu cür metamorfozlara qarşı daha həssas olmuşdu, ya da qabaqlar Mərkəzi Rusiyada ümumiyyətlə belə fəlakətlər baş verməmişdi. Hər halda belə tez-tez baş verən tufanlar heç yaşlı sakinlərin də yadına gəlmirdi.

O, kompüterin qarşısında oturub İnternetdə son xəbərləri izləyirdi. Buna hələ iyirmi, yaxud otuz il qabaq gündəlik səhər qəzetlərini oxuduğu kimi vərdiş eləmişdi. Moskvaya iki gün əvvəl gəlmişdi. İtaliyadan köhnə dostu və həmkarı Edqar Veydemanis zəng vurub bildirmişdi ki, onu Qorçilin adlı bir nəfər axtarır. Bu adamı Veydemanisə hələ Sovet dövründə Edqarla bir işləmiş SSRİ DTK-nın baş idarəsinin sabiq əməkdaşlarından biri tövsiyə etmişdi. Qorçilin artıq bir neçə gün idi ki, çox mühüm məsələ barəsində söhbət etmək üçün israrla Dronqonu axtarırdı.

"Qəribədir ki, bu ləqəb adıma necə də möhkəm yapışıb" deyə o düşündü. O, bu ləqəbi çox illər bundan əvvəl Cənub-Şərqi Asiyada yaşayan bir quşun adından götürmüşdü. Bu quş başqa quşların səslərini məharətlə yamsılayır və hətta yuvasını müdafiə etmək üçün cəsarətlə yırtıcıların da üzərinə hücum edirdi. Bu quş da, cəsarəti də onun xoşuna gəlmişdi. Və budur, artıq uzun illərdir ki, onu çox vaxt əsl ad və soyadını bilmədən bu quşun adıyla çağırmağa adət etmişdilər.

O qalxdı, çaydanı işə salmaq üçün mətbəxə keçdi. Tezliklə Veydemanis və ekspertlə israrla görüşmək istəyən bu naməlum Qorçilin gəlməliydilər. O, yaşına baxmayaraq, bədən formasını hələ də yaxşı saxlayır, normal qamətini itirməməyə, artıq çəki yığmamağa çalışırdı. Yüz səksən yeddi santimetrlik boyu, doxsan yeddi kiloqram çəkisi ilə hətta güclü qabaritləri nəzərə alınsa belə təmkinli və boylu-buxunlu bir kişiydi. Belə “şkaflar” adətən cangüdən, yaxud gözətçi vəzifəsini yerinə yetirirdilər – onlar üçün sərbəst düşüncənin olmaması və böyük güc xarakterik idi. Ancaq onun görkəmində dərhal gözə dəyən irəli çıxmış böyük alın, diqqətli, ağıllı, müşahidəçi gözlər, nazik, bir-birinə tərs-tərs sıxılmış dodaqlar olurdu.

Dronqo kompüterin yanına qayıdıb Qorçilinin prezident olduğu şirkəti axtarmağa başladı. Şirkətin adı “Beşinci ölçü” idi və nasos stansiyalarının və hidroelektrik aqreqatların istismarı üçün zəruri olan texniki avadanlığın təchiz edilməsi ilə məşğul olurdu. Şirkətin dövriyyəsi ötən il bir neçə on milyon dollar olmuşdu. Qorçilin hələ çox cavan idi. Cəmi qırx bir yaşı vardı və öz şirkətini praktik olaraq sıfırdan yarada bilən və artıq yeni əsrin birinci onilliyində sanballı dövriyyəyə çıxardanlardan idi.

O, bu müddət ərzində iki dəfə evlənib-boşanmışdı. Birinci nikahdan qızı, ikincidən isə oğlu olmuşdu. Qızı Zinaidanın artıq on altı yaşı vardı, oğlu Maksimin beş yaşı təzəcə tamam olmuşdu və Qorçilin onun anasıyla – ikinci arvadıyla təxminən iki il əvvəl boşanmışdı.

Şirkətin saytında Qorçilinin özünün portreti yerləşdirilmişdi: inamlı baxışlar, iradəli adamlara xas olan çənə, ciddi üz ifadəsi, qəşəng, dəbdəbəli saç düzümü. Belə kişi yəqin ki, qadınların xoşuna gələrdi. Əgər dövlətinin on dörd milyon dollar dəyərində olduğunu nəzərə alsaq, o, qadınların daha çox xoşuna gəlməliydi.

Maraqlıdır ki, “Beşinci ölçü” şirkətinin iqtisadi göstəricilərinə, əsasən, iki min səkkizinci ilin böhranı onun gəlirlərinin inamlı artımına demək olar ki, təsir edə bilməmiş, yalnız artımın tempi bir az aşağı düşmüşdü. “Maraqlıdır, gəlirləri belə inamla artarkən Qorçilini hansı problemlər narahat edə bilər”, – Dronqo düşündü. Onun şəxsi problemləri olmamalıdır. Keçmiş arvadlarının ikisi də təmin olunub, uşaqlarına şərait yaradıb. Böyük qızı İsveçrədə təhsil alır, oğluna pis aliment vermir. Bəlkə səmimi-qəlbdən inanmadığı bir məşuqəsi meydana çıxıb? Yox. Bu, sadəcə, axmaqlıqdır. Bu halda Dronqo kimi ekspertə müraciət etmək nəyə lazımdır axı? İstənilən şəxsi xəfiyyəni işə cəlb edib gənc qadını və onun kimlərlə görüşdüyünü izləmək olar. Bəs onda nə məsələdir? O, Qorçilinə niyə lazım olub?

Telefon zəng çaldı. Bu, Edqar Veydemanisi üzdən tanıyan keşikçi idi. Keşikçi məlumat verdi ki, Edqar naməlum bir kişiylə gəlib, yuxarı qalxmaq istəyirlər. Dronqo dedi ki, ikisini də gözləyir; dəstəyi asıb qapını açmağa getdi. Veydemanis naməlum adamı nəzakətlə qabağa buraxdı. O, orta boydan bir az hündür, cüssəli, enlikürək idi. Qüvvətlə, enerjiylə əl sıxırdı. Qorçilin boz rəngli qəşəng, bahalı

kostyum geyinmiş, göy qalstuku amerikansayağı bağlanmışdı. Onlar qonaq otağına keçdilər, qonaq yumşaq kresloda yerini rahatladı. Onun qarşısındakı kresloda Dronqo özü əyləşdi. Qonağı öz həmkarıyla birlikdə dinləməyə hazır olan Edqar divanda oturdu.

– Sizi eşidirəm, – Dronqo başını tərpətdi, – axı mənimlə təcili danışmaq istəyirdiniz?

– Bəli, – qonaq təsdiqlədi, – icazənizlə, özümü təqdim edim. “Beşinci ölçü” şirkətinin prezidenti Qorçilin Yuri Dmitriyeviç. Sizin haqqınızda çox eşitmişəm, buna görə də qərara gəldim ki, mənə kömək edəcək adam məhz sizsiniz.

– Ümid edirəm ki, bacararam, – Dronqo mızıldandı. – Hərçənd qabaqcadan heç nə söz verə bilmərəm. Əvvəlcə gərək sizə axıradək qulaq asım və məhz necə kömək edəcəyim mənə aydın olsun.

– Mənə elə siz lazımsınız, – Qorçilin ah çəkdi. – Amma haqlısınız, gərək hər şeyi yerli-yataqlı danışım. Xəbərdar etmək istəyirəm ki, işim qətiyyən adi iş deyil. Sizin hər şeyi başa düşməyiniz üçün gərək lap əvvəldən başlayım. Bu, çoxdan olub. İyirmi iki il əvvəl. Sualıma görə üzr istəyirəm... Siz Əfqanıstanda olmusunuz?

– Əgər hərbi əməliyyatlarda iştirak etməyimi nəzərdə tutursunuzsa, etməmişəm. Ancaq Əfqanıstanın özündə olmuşam.

– Onda nədən danışdığımı anlayarsınız. Kabul Pakistan sərhədinin lap yaxınlığında, yüz əlli kilometr şərqdə yerləşir. Bizim hərbi hissəmiz onda Cəlalabadda idi. Mənim bölməm də dağlara adi

patrul üçün göndərilmişdi. Biz səkkiz nəfər idik. Mən bölmə komandiriydim, artıq serjant nişanım vardı. Yefreytor Əhməd Elqarov müavinim hesab olunurdu. Bir də altı nəfər sıravi əsgərim vardı. Onda, artıq səksən səkkizinci ildə Əfqanıstana müsəlman respublikalarının nümayəndələrini, yerli adət-ənənələri bilən, hətta ümumi düşmənlərlə belə dil tapmağı bacaran daha çox müsəlman göndərməyə çalışırdılar. Mənim bölməmdə üç müsəlman xidmət edirdi: haqqında sizə danışdığım yefreytor Əhməd Elqarov, kabardin Samar Yaqubov və çeçen Salambəy Muzayev. Yeri gəlmişkən, Yaqubov Buxaradan idi və təkcə özbək dilində yox, tacik dilində də yaxşı danışırdı. Hələ az-maz puştuca da başa düşürdü.

– Sizinlə birlikdə dörd nəfər oldu, – Dronqo başını tərpətdi. – Bəs qalan dörd nəfər kimdir?

– Kursklu Lena Subbotin. Onu düz institutdan aparmışdılar, onda tələbələri də aparırdılar, adam çatışmırdı. O, bizdən iki yaş böyük idi. Ternopollu Mişa Şevçenko; onda onun cəmisi on doqquz yaşı vardı. Bir də Kutaisidən Şalva Çiladze və Vitebskdən Feliks Qorditski. Onu da institutdan aparmışdılar. Bizdən bir yaş böyük idi. Qalanların iyirmi yaşları vardı. Hamısı çox cavan idi... Amma bizim bölmədə əsl beynəlmiləl yaranmışdı.

Biz zonamıza keşik çəkə-çəkə sərhədə yaxınlaşırdıq. Bu sahə az-çox dinc sahə hesab olunurdu. Mən Elqarova əmr verdim ki, iki nəfər götürsün və bizi o tərəfdən qarşılamaq üçün dağın yamacını dövrə

vursun. O, Lena Subbotinlə Salambəy Muzayevi götürdü. Biz beş nəfər qaldıq. Hamımız zəncirvarı hərəkət edirdik, ancaq komandir olduğum üçün mən qabaqda gedirdim. Bu zaman qışqırtı səsləri eşitdik. Səslər aşağıdan, çayın yanından gəlirdi. Biz aşağı enməyə başladıq. İçində iki ölü kişi olan yanı üstə çevrilmiş yük-sərnişin avtomobili gördük. Bir qadın qışqırır, kömək istəyirdi. Yanında bir neçə kişi vardı. O dəqiqə aydın oldu ki, bunlar mücahidlərdi, onu öldürmək istəyirlər. Onlar üç nəfəriydilər. Yox, daha dəqiq, dörd nəfər. Biz beş nəfəriydik, dağlarda yaxşı təlim keçmişdik, özümüzü aparmağı bilirdik. Hər halda bizə Sovet Ordusunda pis təlim keçməmişdilər. Mən atəş açmağı əmr etdim. Üçünü öldürdük, dördüncü qaçdı. Yaralı qadını avtomobilin salonundan çıxarıb bacardığımız qədər sarıdıq. İki güllə yarası almışdı, aydın idi ki, çox davam gətirməyəcək. O bildirdi ki, öldürülən əri və sürücü maşındaymışlar. Almazlar haqqında nəsə danışmağa başladı, heç nə başa düşmədik. Mən Yaqubovu çağırdım, xahiş elədim ki, onunla danışsın, iki nəfəri pusqu yerinə baxmağa göndərdim. Qorxurdum ki, qaçmış mücahid kömək çağırar. Ratsiya vasitəsilə yefreytorla əlaqə saxladım və tez yanımıza gəlməyi əmr elədim.

Vəziyyətimi təsəvvür edirsiniz? Qollarımda ağır yaralanmış, can üstə olan qadın, yanımda bir neçə mücahid cəsədi. Ətrafda da heç kim yox. Feliks Qorditski məni çağıranda ratsiya ilə vəziyyət barədə məlumat vermək istədim. O, aşağını göstərdi və düşündüm ki,

bacardıqca tez getməliyik. Orada silahlı adamların fiqurları görünürdü, açıq-aşkar mücahidlər idi. Qərara aldım ki, ikimiz qadını aparsın, qalanlar isə Elqarovun qrupu gəlib çıxanadək geri çəkilməyimizə nəzarət eləsinlər.

Sonra isə çayın dayazlaşmış məcrasıyla bizə tərəf "əcinnələrin" qalxdığını gördüm. Onlar çoxuydular, lap çoxuydular, əlli-altmış nəfər olardılar. Bəziləri əllərində qrantamyot və pulemyot tutmuşdu. Bizimsə bircə pulemyotumuz və dörd avtomatımız vardı. Elqarovun qrupunun gəlib çıxmasını nəzərə alsaq, ən çoxu yeddi avtomat ola bilərdi. Mən uşaqlara yerlərini tutub döyüşə hazırlaşmağı əmr etdim. Kömək çağırdım, arxamızca vertolyot göndərməyi, ya da hücum edənlərə atəş zərbəsi endirməyi xahiş etdim. Lakin bu zaman dərəyə duman çökdü və ətrafı görməyimiz çətinləşdi. Məlumat verdik ki, vertolyot bizə yaxınlaşa bilməz. Elqarova əmr etdim ki, tələssin. Bu zaman Yaqubov yanıma sürünüb məlumat verdi ki, qadınla əri kral ailəsinin qohumlarıdı. Onlar şərqə, Pakistana gedərkən yolda pusquya düşüblər. Kişi onların yolunu mücahidlərə bildirən sürücünü güllələyə bilmişdi. Ailəni satıb pusquya gətiribmiş ki, onların apardığı brilyantlara sahib olsun. Yaqubov məlumat verdi ki, qadının çantasında brilyant var. Sözün düzü, həmin anda brilyant hayında deyildim. Heç düşünmürdüm də; mücahidlər qrantamyot və pulemyotlardan bizə atəş açırdılar. Və mən bildim ki, Elqarov

tələsməsə, heç kim bizə köməyə gəlməyəcək. Bir yandan da onlar üçlükdə əlli nəfərə qarşı neyləyə bilərdilər?

Qorçilin ağır-ağır nəfəs aldı. Cib dəsmalını çıxarıb üzünü sildi. Sonra davam elədi:

– Qeyri-bərabər döyüş iyirmi-iyirmi beş dəqiqə çəkdi. Gözümüzün qarşısında pulemyotdan növbəylə atəş açıb Samar Yaqubovu deşik-deşik elədilər. Şalva Çiladzeni ağır yaraladılar. O bizim pulemyotçumuz idi və onlar dərhal dörd qrantamyotdan onu atəşə tutdular. Təsəvvür edirsiniz, orada nələr oldu! Biz onu güclə apara bildik, amma artıq huşunu itirmişdi. Üç nəfər qalmışdıq: mən, Mişa Şevçenko və Feliks Qorditski. Feliks bizə çox kömək elədi. O, Çiladzenin pulemyotunu götürdü və hündür bir yerdə dayanıb hücumları dəf etməyə başladı. Mən qadına tərəf süründüm. O daha nəfəs almırdı: görünür, aldığı yaralar çox ağır olmuşdu. Mən çantanı götürüb baxdım. İçi parlaq daşlarla doluydu. Çantanı bir kənara qoydum, o anda bu daşlar məni maraqlandırmırdı. Döyüşümüzün necə qurtaracağını bilmirdim, ancaq üç nəfərin əlli nəfər qarşısında davam gətirməsi qeyri-mümkün idi. Mənim qolum, Feliksin ayağı yaralanmışdı, amma hələ də davam gətirirdik.

Ən gərgin anda axır ki, Elqarovun qrupu gəlib çıxdı. Bizim çeçen də ordaydı. Salambəy özünü əsl qəhrəman kimi apardı. Hamının qranatını götürüb hücum edənlərə tərəf süründü. Bu çeçenlər bəzən axmaqlıq dərəcəsində igid olurlar. Yəqin, bu qanlarındadır. Xülasə, o,

mücahidlərə qranat atmağa başladı, amma özü də qarnından ağır yara aldı. Buna baxmayaraq, səkkiz nəfəri məhv elədiyini öz gözümüzlə gördük. Elqarovla Subbotin dağın yamacında rahat mövqe tutdular və var gücləriylə müqavimət göstərdilər. Mən Mişa Şevçenkoya hücumçuların arxasına keçmək əmri verdim. O, dağlara tərəf can atan hücumçuların qrupunu ayırmaq üçün dövrə vurdu. Siz onun necə qəhrəmanlıq göstərdiyini təki görəydiniz! Mən hər şeyi öz gözümlə gördüm. Onu mühasirəyə alanda isə qranatla özünü də, hücumçuları da partlatdı. Düz gözümün qabağında. Aramızda ən cavan olan bu oğlan belə oğlan idi... Leonid Subbotin Şevçenkonun həlak olduğunu görəndə ağladı. Sonra onu da yaraladılar. Amma bu vaxta kimi hücumçular da əldən düşmüşdülər. Həm də hava qaralmağa başlayırdı. Onlar otuz nəfər qalmışdılar. Bizdən iki nəfər öldürülmüş, dörd nəfər yaralanmışdı, onların da ikisi ağır yaralıydı. Gecə, dağlarda göz-gözü seçməyəndə müqavimət göstərməyə zərrə qədər imkan belə yoxdur, mücahidlər sadəcə yanımıza qalxıb başımızı qoyun başı kimi kəsə bilərdilər. Salambəy hələ dözürdü. Qarnından yara almağına baxmayaraq, döyüşməyə hazır idi. Mən qolumu, Feliks ayağını sarıdı. Ölməyə hazırlaşırdıq. Mücahidlərin üstümüzə belə inadla hücum çəkmələri anlaşılmaz idi. Axı onlar çox ciddi itki vermişdilər. Yenə də ağılsızlıqla üstümüzə gəlirdilər. Nəzərinizə çatdırmaq istəyirəm ki, bu hadisələr səksən səkkizinci ilin payızında baş vermişdi, o zaman artıq hamıya məlum idi ki, bizim qoşunlarımız tezliklə Əfqanıstanı tərk

edəcək. Başqa yerlərdəki mücahidlər də bizə hücum etməyə çalışmır, sakitcə evakuasiya olunmağımıza imkan verirdilər. Burdakılar isə elə bil dəli olmuşdular.

Qorçilin ağır-ağır nəfəs alıb davam etdi:

– Elqarov yanıma düşüb dedi ki, çox davam gətirə bilməyəcəyik. Soruşdum ki, neyləyək. İki ölü və iki ağır yaralıyla heç yerə gedə bilməzdik, həm də mövqeyimiz əlverişliydi. Hava demək olar ki, tam qaralmışdı. Mən uğursuzluqla vertolyot çağırmağa çalışdım. Duman seyrəlməyə başlayırdı və biz ulduzları və bədirlənmiş ayı gördük. Təxminən həmin anda mənə ratsiya ilə məlumat verdilər ki, arxamızca iki vertolyot gəlir. Əhvalım dərhal yaxşılaşdı, ancaq bu zaman mücahidlər yenə hücuma keçdilər. Mənim qranat və patronlarım qurtarmış, bircə daşlar qalmışdı. Və bu lənətə gəlmiş brilyantlar yadıma düşdü. Çantanı tapıb bu daşlardan bir ovuc götürərək hücum edənlərə atdım. O an onların hamısını bircə qutu patrona, yaxud ikicə qranata verərdim.

Siz bu daşların ay işığında necə parıldadığını görəydiniz! Mücahidlər o dəqiqə atəşi dayandırıb rusca babat danışan bir elçi göndərdilər. O, ağ bayraqla yuxarı qalxıb bizə qışqırdı ki, atəşi dayandıraq. Mən uşaqlara əmr elədim ki, atəş açmasınlar və onu yaxşı eşitmək üçün yaxına buraxsınlar. Bizim vəziyyətimizdə bu danışıqları mümkün qədər uzatmaq olardı, axı hər bir artıq dəqiqə həyatımızı xilas edə bilərdi. Vertolyotlar arxamızca uçurdu və mən vaxt

qazanmalıydım. Elçi yanımıza qalxıb danışmağa başladı. Onlar bizə öz yaralılarımızı götürüb getməyi, brilyant çantasını isə onlara saxlamağı təklif edirdilər. Bax, onda mən axır ki, onların bizə niyə belə inadla hücum etmələrinin səbəbini anladım. Bu əclafları narahat edən inam və vətənin müdafiəsi deyil, ölmüş qadının çantasındakı qiymətli daşlar idi. Yəqin, maşına hücum edəndə daşları dərhal tapmamışdılar, onların çantada olduğuna inanmamışdılar, buna görə güman ki, maşında axtarmışdılar.

Vəziyyətimi təsəvvür edirsiniz? Hamı mənə baxırdı. Razılaşmamaq mümkün deyildi, bizi məhv edərdilər. Patronlarımız demək olar ki, qurtarmışdı. Razılaşmaq isə sadəcə axmaqlıq olardı – bizdə iki meyit və iki ağır yaralanmış döyüşçü vardı. Dörd nəfərdən qalan ikisi də yaralıydı. Heç yerə gedə bilməzdik. Bizə asanlıqla çatar və sadəcə avtomat ağzına verərdilər. Bu tipik asiyalı hiyləsiydi. Dağın yamacından getməyimiz kifayət idi ki, bizi haqlayıb qırsınlar. Düzənlikdə bircə şansımız da yox idi.

Mən fikirləşmək üçün vaxt istədim. Onlar köməyin yolda olduğunu ağıllarına belə gətirmədən razılaşdılar. Mən yarım saat istədim, onlar cəmisi on beş dəqiqə vaxt verdilər. Amma bu onların səhviydi. Mən uşaqlara qışqırdım ki, möhkəm dayansınlar, vertolyotlar indi gəlib çıxmalıdır. On iki dəqiqədən sonra, düşmənlərimiz artıq əsəbiləşməyə başlayanda vertolyotlar gəlib çıxdı. İki raket mücahidlərin sıralarına çaxnaşma saldı. Biz də atəş açdıq. Məsəl var,

deyərlər: dəvədən böyük fil var. Bu soyğunçu və qarətçilər vertolyotlarımızın atəş gücü qarşısında demək olar, aciz idilər. Ancaq biz bunun da müvəqqəti olduğunu yaxşı başa düşürdük. Əgər vertolyotlar indi uçub getməsələr, mücahidlər mütləq kömək çağıracaqdılar və buraya onların "stinqer"li döyüşçüləri gəlib çıxacaqdı, onlar üçün isə vertolyotlarımız əlverişli hədəfə çevriləcəkdi. Mən batalyon komandirindən qəti surətdə mümkün qədər tez evakuasiya etmək əmri aldım. Biz yaralılarımızı götürdük, hətta Samar Yaqubovun cəsədini də yükləyə bildik. Mişa Şevçenkonun meyitini götürmədik – o, tikə-tikə olmuşdu. Mən o tərəfə sürünüb onun ordu çəkməsi geyindiyi ayağını gördüm. Hətta daxili orqanları daşların üstünə dağılmışdı. Mişanın qalıqlarını ertəsi gün qonşu polkun təyyarəçiləri yığıb bizə göndərdilər. Onu adət üzrə sinkdən hazırlanmış tabutda doğma Ternopola aparıb orada dəfn elədilər, Samar Yaqubovun cənazəsini isə Daşkəndə yola saldılar. Ancaq uçmazdan əvvəl mən daş dolu çantanı götürdüm, həlak olmuş qadının cəsədinin yanına isə iki qranatla yanaşı piyada əleyhinə mina da qoydum. Qoy kim onun meyitini yoxlamaq istəyirsə, mənim hədiyyəmi alsın. Biz yalnız bundan sonra uçduq. Yolda mən müstəqil qərar qəbul etdim. Hər iki yaralımızın – Salambəylə Şalvanın hərəsinin cibinə üç kiçik daş qoydum, daha bir neçə daş da Lena Subbotinə, Əhməd Elqarova və Feliks Qorditskiyə verdim. Sonuncuya lap bir ovuc verdim – o,

faktiki olaraq hamımızı xilas etmişdi. O hətta təəccübləndi, soruşdu ki, bu nədir.

– Elə-belə, xatirə saxlamaq üçün suvenir daşlarıdır, – deyə zarafata salıb yenə də ona heç nə demədim.

Çantanın yarısını özümə saxladım, yaxşı başa düşürdüm ki, əgər bu daşları payladığımı bilsələr, məni həbsxanaya salarlar. Ancaq hər şey ötüşdü. Yaralıları hospitala, Felikslə məni sarğıya apardılar.

Bu daşları necə möcüzəli şəkildə qoruyub saxladığımı danışmayacam, lap Monte Kristonun macəraları kimi bütöv bir roman alınar. Hər halda mən onları qoruya bildim. Sonra bizi birbaşa reyslə Daşkəndə yola saldılar. Bu müddətdə bizim diviziyanın çıxarılması haqqında əmr gəldi və batalyonumuz birinci çıxdı. Mən daşları götürüb Daşkəndə gəldim, kiçik qardaşımı oraya çağırıb çantanı verdim. Sonra məlum oldu ki, oradakı brilyantların dəyəri yüz altmış min dollardı. Bu, o vaxt mənim üçün misli görünməmiş pul idi. Mənə inanılmaz, qeyri-mümkün görünürdü. Bir neçə aydan sonra tərxis olundum və mən Podolska, valideynlərimin yanına qayıtdım.

Qorçilin Dronqoya baxdı.

– Hesab edirdim ki, bu bizim qan pulumuzdur, – o izah elədi, – elədiyimə də peşman deyiləm.

– Sizin komandanlıq heç nə bilmədi? – Dronqo dəqiqləşdirdi.

– Əlbəttə, bildi, – Qorçilin cavab verdi. – Döyüş yerində mənim mücahidlərə atdığım səpələnmiş almazları tapmış və belə qərara

gəlmişdilər ki, onlar döyüş zamanı itirilib. Sonradan daşların bir hissəsini yığmış, hətta bir mücahidi də tutmuşdular. O, hamını inandırmışdı ki, rus əsgərləri təslim olmaq istəməyib almazları atırmışlar. Bu da mənim versiyamın xeyrinə işləmişdi. Məni Daşkənddə, hərbi prokurorluqda iki dəfə sorğu-sual elədilər, lakin o vaxt daha heç nə sübut eləmək mümkün deyildi. Və unutmayın ki, biz demək olar, qəhrəman hesab olunurduq. Mənə Qırmızı Bayraq ordeni verdilər, Yaqubov və Şevçenkonun ailələri ölümdən sonra verilən medallarla təltif olundu. Yaqubovun valideynləri, dörd qardaşı, bir bacısı, Mişa Şevçenkonun isə yalnız anası qalmışdı, o da bir neçə il sonra vəfat elədi.

Bu iyirmi iki il əvvəl olub. Düşünürdüm ki, bizim bölmənin başına gələn bu faciəni daha heç kəs, heç zaman xatırlamayacaq. Ancaq yanılmışdım. Sonra elə hadisələr baş verdi ki, mən onları o vaxt Əfqanıstanda baş verənlərlə əlaqələndirməyə məcbur oldum. Əgər istəyirsinizsə, – bu, çox anlaşılmaz və uzun çəkən sözardıdır.

– Danışın görək, – Dronqo başını tərpətdi, – bu hadisələrdən sonra başınıza nələr gəlib?

## İkinci fəsil

Qorçilin öskürdü, sanki fikirlərini cəmləşdirirdi.

– Davam edin, – Dronqo təklif etdi, – bəlkə bir şey içəsiniz? Nə istəyirsiniz? Spirtli içki, yoxsa su?

– Mineral su olsaydı, daha yaxşı olardı. Əgər mümkünsə, qazlısından, – Qorçilin xahiş etdi.

– “Yesentuki” sizi təmin edir?

– Bəli, sağ olun.

Dronqo ayağa qalxıb otaqdan çıxdı. Qorçilin Veydemanisə baxdı.

– Necə bilirsiniz, o mənə kömək etməyə razı olacaq? – deyə Edqardan soruşdu.

– Bu yalnız onun özündən asılıdır, – Veydemanis mühakimə ilə cavab verdi. – Amma məncə, onun praktikasında çox illər qabaq baş vermiş əhvalatın xatırlandığı bu cür hallara elə də tez-tez rast gəlinmir.

Dronqo əlində mineral su butulkası qayıtdı, iki stəkan götürüb, butulkanı demək olar ki, yarıbayarı töküb stəkanları Edqarla qonağına uzatdı. Qorçilin suyu birnəfəsə içdi, stəkanı yanındakı stola qoydu və davam elədi:

– Biz ordudakı dostlarımızla hərdənbir yazışırdıq, hətta bir dəfə görüşmüşdük də. Hərəmizin taleyi bir cür gətirmişdi. Bu daşlar onda mənə çox kömək etmişdi. Qıtlıq zamanı gəlmişdi, atamı işdən çıxarmışdılar, infarktdan yatırdı, anam müəlliməydi, qəpik-quruş alırdı. Qardaşımla mən işsiz-gücsüz idik, bir yandan da mən hələ oxumaq fikrindəydim. Elə onda da dolanmaq üçün bu daşları satmağa

başladım. Ancaq daşların bir hissəsini ən qara gün üçün saxladım. Sonra institutu bitirib özümçün iş qurdum: əvvəlcə xarici texnika – maqnitofon, videoaltlığı satırdım, sonra başqa mallara keçdim. Get-gedə özümüzə gəlirdik, lakin çətin vaxtlar idi: həmişə üstümüzə gah banditlər, gah da məmurlar düşürdü, bəzən bir yerdə gəlirdilər. Biz ancaq son on ildə həqiqətən dirçəlməyə başlayıb iri bir şirkətə çevrildik. Amma bu mənim tərcümeyi-halımın yalnız bir hissəsidir, – Qorçilin üz-gözünü turşutdu, – mən sizə uşaqların başına nələr gəldiyini danışmalıyam.

Yəqin inanmayacaqsınız, lakin Salambəy onun üçün qoyduğum daşları, sadəcə, itirmişdi. Bəlkə də o hospitalda olarkən onları oğurlamışdılar. Mən ona iki il sonra, doxsan birinci ildə zəng vurdum, o, əvvəlcə heç mənim nəyi soruşduğumu başa düşmədi də. Amma Şalva ağıllı tərpənmişdi. O, kisə tikib daşları sinəsində gizlətmiş, beləcə də qoruyub saxlamışdı. Və kişi kimi mənə etiraf elədi ki, onları indiyədək möcüzə nəticəsində sağ qaldığımız həmin hadisələrdən xatirə kimi saxlayır.

Əhməd Elqarov onları atmışdı, elə bilmişdi ki, bunlar adi suvenir daşlarıdır. O axı biz maşını və qadını tapanda yanımızda olmamışdı, buna görə də bütün bu cəncəlin yaranmasına səbəbin əsl brilyantlar olduğunu bilə bilməzdi.

Leonid Subbotin daşları batalyon komandirinə vermişdi. Biz qadını daşlarla bir yerdə tapanda o da bizimlə olmamışdı, buna görə də

almazları mayorumuza verməyi qərara almışdı. Həm də məlumat vermişdi ki, onları yerdən tapıb, bu da dolayısı ilə mənim alibimi təsdiq edirdi. Prokurorluq bu almazların itməsi faktı üzrə cinayət işini bağlamışdı.

Feliks isə ən ağıllı çıxmışdı. O, daşları adi bağlama ilə Daşkənddən evlərinə göndərmişdi. Sonra mənə danışdı ki, bu daşların valideynlərinə həyatlarının ən çətin məqamlarında çox köməyi dəyib.

– Hərənin öz taleyi var, – Edqar əlavə etdi.

– Elədir, – Qorçilin təsdiqlədi. – Feliks Qorditski Vitebsk icra hakimiyyəti başçısının müavini oldu. Leonid Subbotin diplomatdır, hazırda bizim Fransadakı səfirliyimizdə işləyir: o elə onda da aramızda ən məqsədyönlü və ağıllıydı. Salambəy İkinci Çeçen müharibəsi zamanı həlak olub, onun izini heç cür tapa bilmədik. Şalva Gürcüstanda iri biznesmenə çevrilib, tez-tez görüşürük. Və nəhayət, Əhməd Elqarov DİN Ali Məktəbini bitirib, keçən il polkovnik rütbəsi alıb. Belə-belə gəlib vəzifə sahibi olmuşuq. Mən fotoşəkil gətirmişəm. Orada hamımız varıq, səkkizimiz də. Hələ sağkən...

– Maraqlı əhvalatdır, – Dronqo fotoşəkli qonağa qaytardı. – Deməli, hamınız varlanıb həyatda yerinizi tutmusunuz? Altı nəfərin hamısı?

– Təəssüf ki, yarımız haqqında artıq keçmiş zamanda danışmaq lazımdı, – Qorçilin qaşqabaqla məlumat verdi.

– Sizi o qədər yaxşı başa düşmədim.

– Elə buna görə də sizin yanınıza gəlmişəm. Qorxuram ki, yoxa çıxmış Salambəy ağır yara alandan və az qala il yarım hospital və xəstəxanalarda yatandan sonra öz köhnə yoldaşlarından qisas almaq qərarına gəlib.

– Niyə belə güman edirsiniz?

– O, yoxa çıxıb və bütün sorğularımıza aldığımız cavab odur ki, xəbərsiz-ətərsiz yox olub, – Qorçilin bildirdi. – Amma ən xoşagəlməz olan heç bu da deyil. Əvvəlcə Feliks Qorditski həlak oldu. Onun maşınını – fasilədə evə getmək üçün maşına oturanda – düz İcraiyyə Komitəsinin binasının qabağındaca partladıblar. Ən dəhşətlisi budur ki, maşını sürücüylə bir yerdə partladıblar. Belə bir cinayət sakit belorus Vitebski üçün sadəcə misli görünməmiş işiydi. Orada heç vaxt belə şey olmamışdı. Milisi, prokurorluğu, yerli DTK-nı – onların hələ öz DTK-sı vardı – hamısını ayağa qaldırdılar, bütün yerli kriminal avtoritetləri silkələdilər, amma heç nə tapmadılar. Feliksin heç bir düşməni-zadı yox idi, ola da bilməzdi. Ancaq yenə də onu öldürdülər. Mən dəfndəydim, milis və prokurorluq əməkdaşlarının çaşbaş düşdüklərini eşidirdim, başa düşə bilmirdilər ki, sakit Vitebskdə belə vəhşicəsinə qanlı cinayət törətmək kimə və nəyə görə lazımmış. Onlar "terrorizm" maddəsiylə cinayət işi qaldırıblar, müstəntiqləri mənə belə dedi.

– Və siz də bu qərara gəldiniz ki, partlayış hər hansı bir şəkildə bu brilyantlarla əlaqədardır?

– Əvvəlcə yox. Ancaq təxminən bir ay sonra Əhməd Elqarovu öldürdülər. Daha dəqiq desək, üç həftə sonra. Dəfninə mən də getmişdim. Naməlum qatil onu küçə qapısında gözləyirmiş. Bilirsiniz, ən heyrətamiz olan nədir? Polkovnikin öz mühafizəçiləri varmış, o, küçə qapısından girəndə onu gözləyən adamı tanıyıb, buna görə də öz idarəsinin hər iki əməkdaşını buraxıb. Onlar naməlum qatillə iyirmi dəqiqə söhbət ediblər, sonra qatil üç atəş açıb və yoxa çıxıb. Polkovniki girişdə ölü tapıblar. İndi mən bunun bizimkilərdən biri olduğuna şübhə eləmirəm. Elqarov sadəlövh oğlan uşağı, yoldan ötən deyildi. Əgər onu bir təhlükə gözlədiyini hiss eləsəydi, mühafizəçilərini buraxmazdı. O, silahlı olub, ancaq öz silahını çıxartmayıb, qatil isə heç bu silahı oğurlamağa cəhd də etməyib. İndi mən artıq onun Salambəy olduğuna şübhə eləmirəm.

– Niyə məhz o?

– Çünki daha heç kəs yoxdur. Biz üççə nəfər qalmışıq. Subbotin Parisdə işləyir və əgər gəlsəydi, hətta diplomat olduğunu nəzərə alıb öz pasportunda qeyd etməliydi. Şalva isə Gürcüstanda yaşayır, Rusiyaya gəlmək üçün gərək Rusiya vizası alsın, bu onda yoxdur və hal-hazırda gürcülərə verilmir. Mən axı bilirəm ki, indi Gürcüstanda bizim səfirliyimiz yoxdur. Feliks Qorditskiylə Əhməd Elqarovu artıq öldürüblər. Bunu eləyə biləcək yalnız iki adam qalır: ya mən, ya da yoxa çıxmış Salambəy. Başqa heç bir variant yoxdur. Əgər bu

Salambəy olsaydı, Əhməd Elqarov heç vaxt ona güllə atmazdı. Onlar bir-birini yaxın dost, az qala qardaş bilirdilər.

– Onda belə çıxır ki, dostunu elə Salambəy öldürüb? – Dronqo təklif etdi.

– Bəli, – Yuri Dmitriyeviç başını tərpətdi, – elə buna görə də sizin yanınıza gəlmişəm. Bilmirəm, nə yolla olursa olsun, qatili tapmalısınız. Ona görə yox ki, mən ondan qorxuram; əksinə, qətiyyən qorxmuram. Ancaq onun tapılması heç olmasa ölənlərin ruhuna ehtiram olardı – dostluq etdiyimiz Feliksin, Əhmədin ruhuna. Mənim bu təhqiqatı axıradək aparmaq və özünün və mənim dostlarıma əl qaldıran qatili tapmaq fikrim qətidir.

– Deməli, siz əminsiniz ki, bu Salambəydir?

– Başqa variant yoxdur. Biz səkkiz nəfər idik. İkisi gözümüzün qabağında dağlarda həlak oldu, ikisini də indi öldürdülər. Üç nəfər biz, bir də Salambəy qalıb. Bilmirəm, bəlkə müharibə vaxtı psixikasına nəsə olub. Baş aça bilmirəm, o belə bir işə necə qol qoya bilib? Axı biz oradan Salambəyi qollarımız üstə çıxarmışdıq. Onu çıxaran elə Elqarov özü olmuşdu. Amma bəzən adamlar çox dəyişirlər. İyirmi ildən artıq vaxt keçib, Çeçenistanda iki müharibə olub. Mənə demişdilər ki, birinci müharibə zamanı Salambəyin iki kiçik qardaşını öldürüblər. Bəlkə də o qəzəblənib, bir söz deyə bilmirəm. Lakin hərgah bu belədirsə, təsəvvür edə bilərsiniz ki, hətta həyatını belə xilas

etmiş milis polkovnikinə necə nifrət bəsləyir. Mən mərhum Elqarovu nəzərdə tuturam.

Dronqo susurdu. Bir xeyli susdu. Qorçilin Veydemanisə baxdı, ancaq o da dinmir, dostunun sözə başlayacağını gözləyirdi.

– Niyə belə hesab edirsiniz ki, Salambəy bu yolla sizdən qisas almaq qərarına gəlib? – Dronqo dəqiqləşdirdi. – Axı o deyib ki, siz onun həyatını xilas etmisiniz. Qafqazın özünəməxsus şərəf qanunları var. Çeçen – həyatını xilas edən adamı öldürməz. Yaxud hər hansı daşa görə ondan intiqam almaz. Siz axı bu haqda da fikirləşmisiniz?

– Əlbəttə, fikirləşmişəm. Axı onun almazları itmişdi. Bəlkə onda elə bilib ki, onları bizlərdən birimiz götürmüşük? Bəlkə o, sadəcə, inciyib, təhqir olunub? Siz axı özünüz deyirsiniz ki, onların öz şərəf qanunları var. Bəlkə o, bu yolla ona normal həyat üçün heç bir şans verməyən oğruları cəzalandırmağı qərara alıb? Siz ki Sovet İttifaqı dağılan zaman xüsusilə Çeçenistanda vəziyyətin necə çətin olduğunu xatırlayırsınız!

– Hər yerdə vəziyyət çətin idi, – Dronqo xatırlatdı. – O vaxt Tacikistanın prezidentini Düşənbənin mərkəzində Leninin abidəsindən asmışdılar, ancaq demokratik Rusiya mətbuatı bu barədə heç nə yazmadı. Əfqanıstanın keçmiş rəhbəri Nəcibulla Hindistana uçmaq istəyərkən onu öz xarici işlər naziri satmışdı. O, aeroportdan Kabula qayıdıb uçmaq üçün başqa imkan düşəcəyini gözləməli olmuşdu. Bir

neçə aydan sonra Kabula girən taliblər isə onu doğrayıb cəsədini mərkəzi meydandan asmışdılar. Vəziyyət təkcə sizdə çətin deyildi.

– Bax, görürsünüz, – Qorçilin canlandı, – mən də elə bu haqda danışıram. Hətta daxili işlər naziri öz prezidentini satırsa, deməli, adamlar dəyişiblər. Qalanlardan nə tələb eləmək olar...

– Təsadüfən satqın olmaq mümkün deyil, – Dronqo etiraz etdi, – necə ki, gözlənilmədən əclaf olmaq qeyri-mümkündür. Bu sizin qəlbinizdə yetişməli, bütün əvvəlki həyat təcrübənizdən qidalanmalıdır – sakit və mülayim bir adamın qəfil göstərdiyi qəhrəmanlıq kimi.

– Sizinlə razıyam, – Qorçilin təsdiqlədi, – ancaq insanlar başqa illərə nisbətən doxsanıncı illərdə daha çox və tez dəyişdilər. Çeçenlər də dəyişdilər. Yadınıza salın, general Dudayev Estoniyada bazası olan aviasiya diviziyasının komandiri, polkovnik Məshədov isə polk qərargahının rəhbəriydi. Sovet İttifaqında belə rütbə və vəzifələri kimə gəldi vermirdilər. Deməli, hər iki çeçen doğrudan da gözəl zabit olub və bunu sonralar da dəfələrlə sübut etdilər. Amma onlar köhnə yoldaşlarına qarşı sakit vuruşublar. Məgər belə deyil?

– Onların öz borc anlayışları vardı, – Dronqo yenə fikirləşib dedi. – Lakin Salambəy niyə öz köhnə yoldaşlarından indi, bu qədər illər keçəndən sonra qisas alsın? Yalnız o vaxt bu daşların bir neçəsi itdiyi üçünmü? Motiv heç inandırıcı səslənmir. Axı siz o vaxt onu döyüşdən çıxarıb xilas etmisiniz. İndi isə o hansısa daşları yadına salıb və köhnə dostlarının ovuna çıxıb? Yoxsa siz nəyi isə gizlədirsiniz?

– Mən sizə hər şeyi olduğu kimi danışdım, – Qorçilin gözlərini yayındırıb ağır-ağır nəfəs aldı və hirslə əlini burnuna vurub davam etdi. – Əgər lap açıq desəm, heç özüm də nə baş verdiyindən düz-əməlli baş aça bilmirəm. Hələ də anlaya bilmirəm ki, Əhməd Elqarovu öldürmək nəyə lazım idi. Hər halda o, milis polkovnikiydi, altı ay Çeçenistanda vuruşmuşdu. Bunu mən də bilirdim. Amma Feliks Qorditskinin bura nə dəxli var? Əgər o, hələ də rus məmuru olsaydı, heç olmasa, motivləri başa düşmək, yaxud müəyyən ehtimallar irəli sürmək olardı. Məmurlar da dövlət hakimiyyətinin nümayəndələridir. Amma o belorus məmuruydu. Kabardin-Balkarlı milis polkovnikinin Vitebsk İcraiyyə Komitəsinin sədr müaviniylə nə əlaqəsi ola bilər? Hər ikisinin orduda mənim bölməmdə xidmətlərindən savayı ümumi nə bağlılığı var? Və niyə onları bir-birinin ardınca öldürsünlər?

– Siz əminsinizmi ki, Subbotin Fransanı, Çiladze isə Gürcüstanı tərk etməyib?

– Özləri belə deyirlər. Amma bunu yoxlamaq asandır.

– Və siz qatili tapmaq üçün mənə müraciət etməyi qərara almısınız?

– Bəli. Bundan başqa, siz ən məşhur ekspertlərdən birisiniz və qatili tapa bilərsiniz, həm də Bakıda doğulmusunuz. Deməli, yoxa çıxmış Salambəyin izini də axtarıb tapa bilərsiniz, əgər bu həqiqətən də o olubsa.

– Demək, siz yenə də şübhə edirsiniz?

– Bəli, şübhə edirəm. Mən onun iyirmi il sonra da belə dəyişməsinə inanmıram, inanmaq istəmirəm. Hətta öz qardaşlarını müharibədə itirəndən sonra da; hətta yoxa çıxandan sonra da. Mən onun necə igidliklə vuruşduğunu, bölməmizi necə xilas etdiyini, ağır yara alıb güclə sağ qaldığını xatırlayıram. Hətta yaralanandan sonra döyüşməyə hazır idi. O əsl döyüşçü idi, bandit deyildi. Mən onun bu cür dəyişdiyi haqda düşünmək istəmirəm. Ancaq hələlik başqa şübhələndiyim adam yoxdur. Qalan dördü qəbirdədir və biz Salambəyi çıxmaqla üççə nəfər qalmışıq.

– Siz Əfqanıstan dağlarında başınıza gələnlər barədə kiməsə danışmısınızmı? Məsələn, yaxınlarınıza, doğmalarınıza?

– Əlbəttə, danışmışam. Elə bilirdim, bu əhvalat çoxdan qurtarıb və onu hətta bir az məmnuniyyətlə danışırdım...

– Onda belə çıxır ki, bu illər ərzində belə qeyri-adi üsulla qisas almaq fikrinə düşən bir adam meydana çıxıb. Maraqlıdır ki, bununla o öz almazlarını tələb etmir.

– Qraf Monte-Kristo kimi birisidir, – Qorçilin könülsüz gülümsündü, – başımızın üstünü alıb.

– Qraf Monte-Kristo öz var-dövlətini və ona xəyanət edənlərdən qisasını almışdı, – Dronqo xatırlatdı. – Sizin Monte-Kristonuz isə deyəsən, öz almazlarını yox, sadəcə, qisas almaq fikrindədir. Bəlkə bu, həlak olmuş əfqanların ailə cütlüyünün qohumlarından biridir? Onda kim bu fikrə düşə bilər ki, ər-arvadı sürücü satmayıb, mücahidlər

öldürməyib, məhz siz, Sovet əsgərləri almazları əldə etmək üçün pusqu qurub onları qətlə yetirmisiniz?

– Mən bu barədə də fikirləşmişəm, – Qorçilin başını tərpətdi, – amma yenə də bir şey alınmır. Axı almazların rəsmi surətdə dağlarda itdiyi hesab olunurdu və onları döyüşdən sonra adi daşların arasından tapmışdılar. Hər bir əfqan bunu öyrənə və belə nəticə çıxara bilərdi ki, biz brilyantları götürməmişik.

– Gəlin bir də dəqiqləşdirək: oradakılar almaz, yoxsa brilyant – işlənmiş daşlar idi?

– Əlbəttə, işlənmiş daşlar, brilyantlar idi. Və onları bizim döyüş yerinin yanında tapmışdılar. Buna görə əfqanlar bizi axtarmazdılar. Fikirləşərdilər ki, brilyantlar orada, döyüş meydanında qalıb.

– Onda gəlin xatırlayaq, görək, bu əhvalatı yaxınlarınızdan kimə danışmısınız? Axı kiçik qardaşınızın ondan xəbəri olmalıydı?

– O, hamısını bilir. Ancaq indi ailəsiylə birlikdə Amerikada yaşayır, bizim Nyu-Yorkdakı nümayəndəmizdir. Doğrudanmı siz düşünürsünüz ki, mən ondan şübhələnə bilərəm?

– Siz iki dəfə evlənib-boşanmısınız. Dağlarda tapılmış brilyantlar haqda keçmiş arvadlarınıza danışmısınızmı?

– Sözsüz ki, danışmışam. Amma əgər siz düşünürsünüz ki...

– Birinci arvadınız indi haradadır?

– İsveçrədə. Qızıyla orada yaşayır.

– Siz onları təmin edirsiniz?

– Bəli, aliment verirəm. Lakin birinci arvadım çox ağıllı qadındır. Həm də ixtisasca riyaziyyatçıdır. Bəlkə elə buna görə sərhesab və praqmatikdir. Biz evlənəndə tələbəydi, sonra diplomlu mühəndis oldu. Ancaq öz ixtisası üzrə bircə gün də işləməyib. İki dəfə ərə gedib, ikisində də varlı adamlara. İndi qızlarının ikisi də İsveçrədə yanındadır. Keçmiş ərlərinin ikisi də qızlarına aliment verir. Mən böyük qızı – on altı yaşlı Zinaidaya, "xələfim" isə öz qızı – səkkiz yaşlı Qalinaya.

– Arvadınızın adı nədir?

– Rostislava. Çox gözəl rus adıdır. Düzdür, o əsl əclafdır, ancaq ona pislikdən savayı heç nə verməyən bir layihədə iştirak etməzdi, bu dəqiqdir.

– Aydındır. Bəs ikinci arvadınız?

– O, model idi, hətta bir müddət Yudaşkinin yanında işləmişdi. Öz "labutan"larını geyinəndə məndən də bir baş hündür olurdu. Bəlkə elə bu səbəbdən onun yanında həmişə özümü yaxşı hiss eləmirdim. Biz təxminən iki il yarım əvvəl boşandıq. Ancaq bu nikahdan mənim Maksim adlı bir oğlum var. Düzdür, Diana oğlunun tərbiyəsiylə məşğul olmur, onu anasının himayəsinə verib. Mən biləni, indi onun "dostları" arasında naməlum bir professorun adı çəkilir. Ümumiyyətlə, o da pis vəziyyətdə qalmaz, ondan nigaran qalmamaq olar. Bircə heyif ki, oğlu ilə az məşğul olur.

– Onlar sizin macəralarınız haqda kiməsə danışa bilərdilər, – Dronqo ehtimal etdi.

– Əlbəttə, danışa bilərdilər. Nə olsun ki? Vitebskdə yaşayan Feliksi qətlə yetirmək, yaxud milis polkovniki Əhməd Elqarovu öldürüb riskə getmək nəyə lazımdır ki? Milis işçisini öldürmək üstündə hətta ömürlük həbs cəzası da verilir.

– Bəs əgər bu qətllər sizin xəstəhal reaksiyanızı nəzərə alaraq qəsdən törədilmişsə? Yadımda qalanı, siz iki dəfə dəfndə olmusunuz. Bəlkə kimsə qərara alıb ki, bu cinayətlərdən sonra sizin işinizi bitirmək üçün istifadə eləsin? Axı sizin yoxa çıxıb tapılmayan konkret şübhələndiyiniz şəxs var – bu cinayətləri asanlıqla Salambəy Muzayevin üstünə atmaq olar. Nəticədə bu qətllərlə məhz sizə yetişmək faktını gizləmək istəyirlər. Belə bir versiya mümkündürmü?

Qorçilin heyrətdən donub qaldı. Əllərini yellədi.

– Qəliz məsələdir, – deyə etiraf etdi, – belə bir şey heç ağlıma gəlməyib. Doğrudanmı belə şeyin mümkün olduğunu güman edirsiniz?

– Bizim dünyamızda hər şey mümkündür, – Dronqo kədərlə təsdiqlədi. – Məndən kömək istəməyə gəlmisiniz, deməli, sizə bu işdə necə kömək etməyi düşünməliyəm.

– Hesab edirsiniz ki, mənə kömək edə bilərsiniz?

– Hər halda çalışacağam. Bu məsələdə artıq iki nəfərin öldürüldüyünü nəzərə alsaq, tələsməliyik. İndi isə açıq deyin görüm,

mənə daha nələri danışmadınız? Ancaq düzünü deyin, yoxsa sizə kömək edə bilməyəcəm.

– Siz artıq soruşdunuz.

– Siz isə mənə yalan dediniz. Mən yalanı doğrudan seçə bilirəm. Siz qurcalandınız, gözlərinizi yayındırdınız, burnunuza toxunub üzünüzü gizlətmək istədiniz, bir sözlə, açıq-aşkar hirslənməyə başladınız. Siz məndən nəyi gizlədirsiniz və niyə əminsiniz ki, bu Salambəydir?

Qorçilin başını buladı.

– Görünür, siz doğrudan da yaxşı ekspertsiniz. Mən istəyirdim ki, siz müstəqil, sərbəst təhqiqat aparasınız. Sizə heç kəs istiqamət verməsin. Amma madam ki, israr edirsiniz... Məsələ ondadır ki, Feliks ölümündən bir sutka qabaq Əhməd Elqarova zəng vurub məlumat verib ki, sabah bizim çoxillik susqunluqdan sonra ortaya çıxan bir köhnə yoldaşımızla mühüm görüşü var. Mən dərhal bunun kim olduğunu anladım və Qorditskiyə zəng vurdum ki, Salambəyin telefon nömrəsini mənə versin. Salambəyə bacardığım qədər kömək etmək, onun işinə yaramaq istəyirdim. Ancaq həmin gecə Feliksi tapa bilmədim. Mobil telefonu söndürülmüşdü, şəhər telefonları isə cavab vermirdi. Bunlar hamısı nə ilə nəticələndi? Qatil Qorditskinin maşınını partladıb onunla bir yerdə sürücünü də öldürdü. Buna görə də mən qatilin axtarılmasında israrlıyam ki, nəhayət, onun niyə bu işləri tutduğunu öyrənim. İndi hər şeyi başa düşdünüz?

Dronqo susdu.

– Sizin bütün xərclərinizi ödəməyə hazıram, – Qorçilin bildirdi, – ancaq mənə konkret nəticə lazımdır. Mühafizəmi gücləndirməyimə baxmayaraq, heç özüm barədə də o qədər narahat deyiləm: mənim üçün vacib olan bunu kimin və niyə eləməsidir. Buna görə də, cənab ekspert, sizdən yardım istəyirəm.

## Üçüncü fəsil

Qonaqlar gedəndən sonra Dronqo kompüterin arxasına keçdi. Vitebsk İcraiyyə Komitəsinin sədri Feliks Qorditski və sürücüsünün ölümü barədə məlumat bütün belorus qəzetlərində dərc olunmuşdu. Bu gözlənilməz ölüm demək olar ki, buna bənzər hallar baş verməyən dinc respublikada bir çox şayiələrə səbəb olmuşdu. Bunların Qafqaz avtoritetlərinin iştirakıyla aparılan kriminal münaqişələr olduğunu ehtimal edirdilər. Ancaq Qorditski təmiz imicli, böyük hörmət sahibi idi, heç bir zaman kriminal aləmlə əlaqəsi olmamışdı və ümumiyyətlə, tikinti işlərinə baxırdı, restoran və ticarət məntəqələrinə isə başqa müavin nəzarət edirdi.

Təhqiqat əyalət DTK-na həvalə edilmişdi, komitə əyalət prokurorluğu ilə birlikdə maşının partladılmasının bütün detallarını yoxlamışdı. Birmənalı olaraq müəyyən edilmişdi ki, maşın şüurlu

şəkildə partladılıb və cinayəti öz vəzifələrini yerinə yetirərkən dövlət nümayəndəsinə qarşı törədilmiş terror aktı kimi qiymətləndirmək olar.

Nalçikdəki qətl də az əks-səda doğurmamışdı. Bu haqda hətta mərkəzi – Moskva qəzetləri də yazmışdı. Polkovnik Əhməd Elqarov Kabardin-Balkarıstanda məşhur adam idi, onun igidliyi haqqında əfsanələr gəzirdi. Buna görə də polkovnikin ölümü onun qatili tapıb cəzalandırmağa and içən həmkarlarının qəzəbinə səbəb olmuşdu.

Salambəy Muzayev haqqında demək olar, heç bir məlumat yox idi. O, doxsan doqquzuncu ildə İkinci Çeçen müharibəsi zamanı yoxa çıxmış və xəbərsiz itkin düşənlərin siyahısına salınmışdı. Bircə o məlumat verilirdi ki, o, Dağıstana hücum eləmiş dəstələrin tərkibində vuruşurmuş. Buna baxmayaraq meyiti heç yerdə tapılmamışdı.

Dronqo Yuli Qorçilinin sağ qalmış digər döyüş dostları haqqında məlumatları yoxlamağı da qərara aldı. Fransada rus səfirliyində işləyən diplomatların arasında həqiqətən də Leonid Subbotin adlı altmış altıncı il təvəllüdlü müşavir-nümayəndə var idi. O, son on ildə Fransada işləmişdi. Hərbi xidmətini başa vurduqdan sonra Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna daxil olmuş, doxsan dördüncü ildə oranı bitirmişdi. Sonra bir müddət Afrikanın fransızdilli ölkələrinin birində işləyib Rusiyaya qayıtmış, üç il səfirliyin özündə işləmiş, oradan Kanadaya göndərilmişdi. Subbotin peşəkar diplomatdır, ailəlidir, on dörd yaşlı bir oğlu var.

O, İnternetdə demək olar, bütün məşhur gürcü şirkətlərinə baxsa da, Şalva Qriqoryeviç Çiladze haqqında heç bir məlumat tapmadı, şirkət sahibləri arasında belə inisiallı adam yox idi. Lakin o anladı ki, Çiladze əgər hər hansı bir şirkətin idarə paketinə yiyələnibsə və adının hansısa şirkətin sahiblərinin adları arasında açıq-aşkar hallanmasını istəmirsə, təbii ki, belə saytlarda görünməyəcək.

Dronqo işini səhərə yaxın bitirib beşin yarısında yatağa girəndə artıq dan sökülməkdəydi. Moskvanın yay gecələri qısa olur, cəmisi bir neçə saat çəkir. Onu yuxudan telefon zəngi oyatdı. Saat səhər doqquza qaldığını göstərirdi. Dronqo oyananda zəng edənə məlumat qoymağı təklif edən avtocavabın işə düşdüyünü eşitcək üz-gözünü turşutdu. Üçüncü zəngdən sonra məlumat gəldi və o, Yuli Qorçilinin səsini eşitdi. Qorçilin çox mühüm bir məsələ üçün zəng vurduğunu dedi.

Dronqo əlini uzadıb dəstəyi götürdü.

– Nə baş verib? – soruşdu.

– Şalva zəng vurmuşdu, – Qorçilin tez məlumat verdi, – ona elə gəlir ki, dünən kimsə onu güdürmüş. Sürücüsü belə məlumat verib. Necə bilirsiniz, bu, kim ola bilər? Bəlkə tapasınız?

– Mən falçı deyiləm, – Dronqo quru cavab verdi, – bu, kim istəsəniz ola bilər. Onun rəqibləri, şəxsi düşmənləri, biznesmen Çiladzenin problemləri olduğu hüquq-mühafizə, yaxud vergi orqanlarının işçiləri...

– Ancaq o, bunun başqaları olduğunu hesab edir, – Qorçilin israr elədi.

– Onda mən Tiflisə uçuram, – Dronqo qərarlaşdırdı. – Günü bu gün.

– Gürcüstanla aviaməlumat yoxdur, – Qorçilin nəfəs aldı, – siz hələ viza da almalısınız.

– Tiflisə Bakıdan getmək olar, Bakıdan ora gündə altı-yeddi reys olur, – Dronqo bildirdi. – Buna görə mənə viza lazım deyil. Mən ora artıq bu gün axşam çata bilərəm. Yaxşısı budur, siz öz dostunuzu mənim bu gün axşam onlarda olacağım barədə xəbərdar edəsiniz.

– Mütləq zəng edərəm, – Qorçilin razılaşdı. – Bəlkə elə mən də sizinlə uçum?

– Qətiyyən. Belə olsa, mən gərək öz təhqiqatımdan çox, sizin mühafizəniz haqda düşünəm. Daha yaxşı olardı ki, siz Moskvadan çıxıb bir şəhərkənarı evə gedə, orada bir neçə gün dincələsiniz. Lap yaxşı olardı ki, evdə bunu heç kəs, hətta mühafizəçiləriniz də bilməsin.

– Mühafizəsiz necə olsun axı? Onlar mənim bütün evlərimi tanıyırlar, – Qorçilin etiraz etdi.

– Onda özünüzlə ən sınanmış işçilərinizi götürün. Və təzə telefon alın. Oraya çatan kimi mənə zəng vurun. Bu sığınacaq haqqında heç kim bilməməlidir. Heç kim. Məni başa düşürsünüz?

– Çalışaram. Hərçənd mənim üçün çətin olacaq. Yaxşı, bir şey fikirləşərəm. Demək, siz bu gün uçursunuz?

– Təxirə salmağın mənası yoxdur. Sizə dediklərimi də unutmayın. Öz yeni mühafizəçinizə etibar etməyin, xüsusən də onu bu yaxınlarda götürmüsünüz. Onların arasından satqın çıxa bilər. Fransızlar demişkən, “adamı yalnız özününkülər satır”. Buna görə avtomobil götürüb bir neçə günlük ərzaq və su ehtiyatı alın və yoxa çıxmağa çalışın. Mənimçün bu cür təhqiqat aparmaq daha asan olacaq. O da yaxşıdır ki, ailəniz yoxdur.

– Yaxşı, mən hər şeyi eləyərəm, – Qorçilin razılaşdı, – amma siz də ehtiyatlı olun. Əgər bu Salambəydisə, Gürcüstana asanlıqla gedib çıxa bilər. Orada indi qonşu ölkəyə qaçmış yüzlərlə çeçen vətəndaşı var.

– Bundan xəbərim var. Mənə zəng etməyi unutmayın, – Dronqo dəstəyi asmazdan əvvəl bir də xatırlatdı. Sonra Veydemanisə zəng vurdu.

– Edqar, biz bu gün Tiflisdə olmalıyıq, – həmkarına bildirdi. – Bakıya ən birinci reysə bilet al ki, bu gün oradan Tiflisə gedə bilək. İnternetlə oteldə iki nömrə də sifariş elə.

– Hamısını eləyərəm. Yola çıxmağa nə vaxt hazır olacaqsan?

– Artıq hazıram. Bircə üzümü qırxıb duş qəbul eləmək qalır. Onu da nəzərə al ki, sən ora öz latış pasportunla uçmalısan. Yoxsa Rusiya pasportu ilə belə tez gürcü vizası ala bilməyəcəksən.

Dronqo cəld yerindən qalxıb vanna otağına tələsdi. İyirmi dəqiqədən sonra Veydemanis zəng vurdu, məlumat verdi ki, artıq

səhər reyslərinə çata bilməyəcəklər və saat on dörd qırxda səkkiz yüz əlli birinci reyslə uçmalı, sonra axşam Tiflisə uçan təyyarəyə minməli olacaqlar.

Domodedovo aeroportuna gec, az qala saat yarıma çatdılar. Günün sonuna yaxın artıq aeroportdaydılar. Sərhədi çox tez keçdilər. Biznes-klassın zalında Veydemanis özünə kofe götürdü, Dronqo adəti üzrə çay içməyi üstün tutdu. Onlar uçuş dəvətini gözləyirdilər.

– Bu işdən ağlın nə kəsir? – Edqar maraqlandı. – Yəqin İnternetdə əlləşmisən?

– Bir az, – Dronqo təsdiqlədi, – amma elə mühüm bir şey tapa bilmədim. Hərçənd Qorçilinlə qismən razıyam. Belorusiyada və Kabardin-Balkarıstanda dalbadal iki qətl adi təsadüflə ola bilməz.

– Səncə, bu – Salambəy Muzayevdir?

– Hələ bilmirəm. Motivlər mənə tam aydın deyil. İyirmi il sonra brilyantların ona çatmadığını yadına salıb qisas almaq fikrinə düşüb? Ya da onları kiminsə ondan oğurladığını düşünüb? Mən belə uzun çəkən “sözardına” inanmıram. Nəsə düz alınmır. Onlar o vaxt onun həyatını xilas ediblər, o isə onları öldürmək üçün ölkə-ölkə gəzir? Niyə? Nə səbəbə?

– Onlar hamısı varlı-hallı adamlardır, – Veydemanis xatırlatdı. – Qorçilin oliqarx olub, hərçənd iri oliqarx olmasa da, nüfuzludur. Mərhum Qorditski böyük belorus şəhərinin İcraiyyə Komitəsi sədrinin müaviniydi, Əhməd Elqarov milis polkovnikiydi, Subbotin indi

yüksək diplomatik vəzifə sahibidir, Şalva Çiladze də, Yuli Dmitriyeviçin sözlərinə görə, pis yaşamır, əgər öz brilyantlarını indiyədək satmayıbsa. Onda belə çıxır ki, bu komandada yeganə təmin olunmayan adam Salambəy Muzayevdir.

Dronqo Edqara axıradək qulaq asıb mobil telefonunu çıxararaq Leonid Krujkovun nömrəsini yığdı. Bu, onun daha bir köməkçisi, yaxud üçüncü həmkarı idi, bir çox təhqiqatlarda Edqarla birlikdə ona çox kömək etmişdi. Əgər Veydemanisin keçmiş DTK və indiki FTB ilə ənənəvi əlaqələri vardısa, Krujkovun da milis işçiləriylə elə sıx əlaqələri vardı.

– Leonid, günortan xeyir. Mənə Salambəy Muzayev haqqında bütün məlumatlar lazımdır. O, İkinci Çeçen müharibəsi zamanı itkin düşüb. Mümkünsə, onun həyatını yoxa çıxdığı vaxtadək öyrən. Telefon nömrəsini də yaz. Yuli Dmitriyeviç Qorçilin. Ona zəng elə, o sənə Muzayevin bütün əvvəlki telefonlarını və ünvanlarını verəcək. İndi xəbərdar etmək üçün ona zəng vururam.

– Baş üstə, – çalışqan Krujkov cavab verdi.

Dronqo Qorçilinə zəng vurdu.

– Siz dostunuza bizim gəlişimizi xəbər verdiniz?

– Əlbəttə, o sizi aeroportda qarşılamaq üçün reysinizin nömrəsini dəqiqləşdirməyi xahiş etdi.

– Bu vacib deyil, – Dronqo etiraz etdi, – özümüz çatarıq. Sizə mənim köməkçim Leonid Krujkov zəng edəcək. Yoxa çıxmış Salambəy haqqında bütün məlumatı ona verərsiniz.

– Bu haqda məlumatım azdır. Biz on ildən çoxdur ki, görüşmürük.

– Xatırlayıram. Ancaq siz onun əvvəlki ünvanları və telefon nömrələrini verərsiniz. O, ikinci müharibəyə qədər nəçi işləyib?

– Deyəsən, nazir Məshədovun müavini, yaxud da buna bənzər bir şey. Respublika idarəsində rəhbər müavini olub. Güman ki, onlar körpü, ya da yol çəkirdilər. Sonra onunla bütün əlaqələrim kəsildi. Elə bildim ki, onu öldürüblər. Çox pis oldum. Özü də təkcə mən yox. İndi isə məlum olur ki, o ən axmaq şəkildə qisas almaq qərarına gəlib. İntiqam alan çıxıb mənim üçün.

– Biz artıq bu barədə danışmışıq. Siz dediniz ki, Şalva sizin daşları indiyə kimi özündə saxlayır. Belə çıxmırmı ki, o, onları satmayıb?

– Əlbəttə, yox. Mən özüm beş il qabaq Tiflisə gələndə daşları onda görmüşəm. Hələ bu sərsəm Osetiya müharibəsindən sonra sərhədlər bağlanana qədər.

– Onun biznesi inkişaf edirdi?

– Demək olmaz ki, o, iri oliqarxdır, ancaq meyvə hazırlayan zavodu var. Hələ üç böyük üzüm bağı da var. Atası tanınmış adam olub, Gürcüstanın ticarət sistemində çalışıb. Onlar varlı-hallı adamlar

olublar. Siz bir onun necə gözəl ailəsi olduğunu görəydiniz! Həyat yoldaşı Ketevan, üç oğlu... Hələ qardaşlarını demirəm! Onlar deyəsən, dörd, ya beşdirlər, hamısı da bir alma kimi bir-birinə bənzəyir. Ya da bu mənə belə gəlir.

– Bəs əgər bu yolla qisas almaq istəyən Şalvadırsa?

– Niyə? Nə səbəbə, kimdən qisas alsın? Gəlin, belə zənn edək ki, rus milisinin polkovniki Əhməd Elqarov onda elə də çox müsbət emosiya doğura bilməz. Ancaq mənim bura nə dəxlim var? Həm də onun Vitebskdə yaşayan Feliks Qorditskini öldürməsi tamamilə anlaşılmazdır. Mən bu barədə nə qədər çox düşünürəmsə, çox təəssüf ki, bir o qədər də qatilin yalnız Salambəy olduğuna əmin oluram.

– Siz artıq şəhərkənarı evinizə getdiniz? – Dronqo axırda soruşdu.

– İndi gedirəm. Şəhərdə işim çox idi. Hər şeyi belə tez atıb getmək olmaz. Sadəcə, alınmır.

– Söhbət sizin təhlükəsizliyinizdən gedir, cənab Qorçilin, – Dronqo ciddiyyətlə xatırlatdı. – Bizim indi danışdığımız telefonu şəhərdə qoyun. Artıq başqa nömrə almısınız?

– Bəli, əlbəttə. Məndə başqa iki telefon nömrəsi də var, onları heç kim bilmir. Yaza bilərsiniz...

– Nömrələri deyin, – Dronqo xahiş etdi.

Qorçilin hər iki nömrəni diktə edib, ardınca tez dedi:

– Qonorar barədə narahat olmaya bilərsiniz. Mən artıq pulları sizin hesabınıza köçürmüşəm...

– Cənab Qorçilin, mən mərhumlardan pul almıram, – Dronqo lap özündən çıxdı. – Əgər tövsiyələrimə əməl etməsəniz, sizə kömək edə bilməyəcəm, deməli, bu pulları da sizdən ala bilmərəm. Yaxşısı budur ki, öz təhlükəsizliyiniz haqda düşünəsiniz. Və nəhayət ki, şəhərdən getməyə vaxt tapasınız.

– Bəli, bəli, əlbəttə. Bağışlayın, xətrinizə dəymək istəmirdim, – Qorçilin pərt halda dedi.

Dronqo sağollaşmadan telefonu söndürdü. Minik başlamışdı. “Boinq-757” cənuba istiqamət aldı. Normal uçurdular, amma təyyarə Volqoqradın üzərində silkələnəndə Dronqo qaşqabağını tökdü. O bilirdi ki, Moskva-Bakı hava yolunda həmişə silkələnmə olur, elə bil orada hər hansı bir anomaliya vardı, hərçənd yelin vurduğu heç bir dağ yamacı-zad yox idi.

Bakıya yeddinin yarısında çatdılar. Növbəti reysə iki saatdan bir az çox qalmışdı. Dronqo Krujkova zəng etdi.

– Bir şey aşkar elədin?

– O, ixtisasca inşaatçı olub, Birinci Çeçen müharibəsi başlayanda Moskva İnstitutunda təhsil alırmış, – Krujkov məlumat verdi. – Beşinci kursu bitirmədən institutdan çıxıb. Cövhər Dudayevin tərəfində vuruşub. Görünür, pis vuruşmurmuş. Batalyon komandiri olub, yaralanıb. Xasavürt müqaviləsindən sonra respublika Yol Təmiri

və Tikinti İdarəsinin rəhbər müavini təyin edilib. İnstitutu qiyabi bitirib. Bir neçə dəfə Moskvaya gəlib. İkinci müharibə başlayanda əvvəlcə ona qarşı çıxıb, lakin yenə də batalyon komandiri təyin olunub. Öz baxışlarına görə xeyli mülayim separatçı olub, ancaq igidliklə vuruşub. Yenə də yaralanıb. Bütün amnistiya təkliflərindən imtina edib. Doxsan doqquzuncu ilin sonunda itkin düşüb. Bəzi şayiələrə görə, yenə də, artıq neçənci dəfə yaralanıb və dağlarda ölüb. O vaxtdan heç kəs onun barəsində heç nə eşitməyib. Doğma kəndində iki bacısı və onların ailələri qalıb, ancaq orada heç kimin ondan xəbəri yoxdur.

– Arvad-uşağı olubmu?

– Yox. O həlak olanda, yaxud itkin düşəndə yaşı otuzdan bir az çox olub. Qəbrini tapmayıblar. Bəzi məlumatlara əsasən, ola bilsin ki, onu xilas etmək üçün Gürcüstandan İordaniyaya çağırıblar. Ancaq bunlar yalnız şayiədir. Onun özünü artıq on ildən çoxdur ki, heç kəs görməyib.

– Aydındır. Əgər yenilik olsa, tez zəng elə, – Dronqo xahiş etdi.

Veydemanis sınayıcı tərzdə ona baxdı.

– On ildən çoxdur ki, itkin düşüb. – Yenə də alınmır: on il gözləyib, sonra isə meydana çıxıb və öldürmək fikrinə düşüb? Ən başlıcası, nə üçün? Bununla nəyi sübut etmək istəyib? Aydın deyil.

– Qorditski deyib ki, çoxillik sükutdan sonra meydana çıxan bir köhnə dostu ilə görüşməlidir, – Veydemanis yada saldı. – Onda bu,

doğrudan da, ancaq Muzayev ola bilərdi. Ancaq Qorditskini öldürmək onun nəyinə lazım idi ki? Bu qədər qəzəb və nifrətin səbəbi nədir?

– Qorçilini yenə silkələmək lazım gələcək, – Dronqo fikirli-fikirli dedi. – Bəlkə o, yenə nəyisə gizlədir? Və əlbəttə ki, biz bu bölmənin bütün sağ qalan əsgərləriylə söhbət etməliyik. Subbotin və Çiladze – bizə ilk növbədə lazım olanlar bunlardır; axı onlar bizə Muzayevin – əgər bu odursa – belə maniakal inadkarlıqla bütün dünyanı gəzə-gəzə öz dostlarını axtarmağının, onlara minnətdarlıq etmək əvəzinə öldürməyinin səbəbini öyrənməkdə kömək edə bilərlər.

İki saatdan sonra kiçik "ATR-72" təyyarəsi Bakıdan Tiflisə uçdu. Yeni aeroportda artıq hava qaralmışdı, onlar taksi tutub şəhərə getdilər. Saatlar yerli vaxtla onun yarısını göstərirdi. Dronqo telefonu çıxarıb Şalva Çiladzenin nömrəsini yığdı. Səciyyəvi gürcü ləhcəsində danışan səs eşitdi və nəzakətlə gürcücə salamlaşdı.

– Qamarcoba. Axşamınız xeyir, hörmətli Şalva Qriqoryeviç.

– Kimdir danışan? – Çiladze təəccübləndi.

– Mən Yuli Dmitriyeviç Qorçilinin dostuyam və onun xahişiylə gəlmişəm, – Dronqo izah elədi.

– Çox yaxşı, – Şalva sevindi, – sizə necə müraciət edim.

– Sadəcə "Dronqo" deyə bilərsiniz. Məni adətən belə çağırırlar.

– Çox xoşdur, cənab Dronqo. Siz haradasınız? Mən indi arxanızca maşın yollayaram.

– Bəs siz özünüz haradasınız?

– Evimdəyəm, – Çiladze güldü. – Yulik mənə dedi ki, evimdən çıxmayım. Əlbəttə, mən qorxmuram, ancaq bu gün taleyin üzünü döndərməmək üçün evdə qaldım. Həm də arvadım buraxmadı məni.

– Düz eləyib. Biz indi "İveriya" otelinə gedirik, qoy sizin maşınınız arxamca ora gəlsin.

– Onun indiki adı "Redisson Blyu İveriya"dır, – Şalva məlumat verdi. – Mən oraya sürücümü göndərərəm. O, sizi bizə gətirər. Narahat olmaya bilərsiniz, mənim evimdə heç kim bizə mane olmaz.

– Niyə belə əminsiniz? – Dronqo dəqiqləşdirdi.

– Mənim buradakı mühafizəm dünyada ən yaxşı mühafizədir. Onu heç bir super əsgər yara, heç bir qatil adlaya bilməz, – Çiladze qürurla bildirdi. – Artıq üç oğlum var, böyüyü on səkkiz, kiçiyi on dörd yaşındadır. Üçü də əla atəş açır. Hələ yanımızda dörd kiçik qardaşım öz oğulları ilə yaşayır. Əgər dalaşmaq lazım gəlsə, mən qohumlarımdan yarım tağım düzəldə bilərəm, onların hər biri – mən onlardan ötrü ölməyə hazır olduğum kimi – mənim uğrumda canlarından keçməyə hazırdır. Bu adamların arasında bir nəfər də olsun pula satılan tapa bilməzsiniz. Buna görə belə əminəm. Qoy kimin hünəri çatır, burnunu soxsun! Dünən sürücüm arxamızca bir maşının düşdüyünü görüb. Mən dərhal Moskvaya, Yuli Qorçilinə zəng vurdum. O, belə şeyin ola biləcəyindən məni xəbərdar eləmişdi. Biz indi bu maşını tapmağa çalışırıq. Heyif ki, nömrəsini görmədik...

– Necə bilirsiniz, bu, kim ola bilər?

– Bilmirəm, əzizim, heç təsəvvürüm də yoxdur. Yuli belə hesab edir ki, bu on il qabaq itkin düşən bədbəxt Salambəydir. Ancaq mən belə möcüzələrə inanmıram. O, bu illər ərzində haralarda olub? Niyə meydana çıxmayıb, niyə gizlənib? Yox, o həlak olub, Allah ona rəhmət eləsin...

– Onda sizin sabiq dostlarınızı – Feliks Qorditski ilə Əhməd Elqarovu kim öldürüb? Yoxsa bunun adi təsadüf olduğunu düşünürsünüz?

– Hansı təsadüf? Nə danışırsınz? Əlbəttə, bunlar planlaşdırılmış qətllər olub: Vitebskdəki də, Nalçikdəki də. Amma bu, Salambəy deyil. O zaman onlar dağı üçlükdə dövrə vurmuşdular. Elqarov onları özüylə götürmüşdü – Leonid Subbotini və bizim Salambəyi. Buna görə də əminəm ki, onlardan heç birinin bu qətllərlə əlaqəsi yoxdur.

– Mən sizi tam başa düşmədim. Bəs onda kimin əlaqəsi var?

– Yəqin bu əfqanların qohumlarından kimlərsə tapılıb. Mən axı bu qadını necə xilas etdiyimizi xatırlayıram! Biz yetişəndə o artıq ölüm ayağındaydı. Sürücü onu əriylə birlikdə mücahidlərə satmış, onlar da orada pusqu qurmuşdular. Onun əri satqını öldürmüş, dərhal da özü sinəsindən dörd güllə almışdı. Onlar brilyantları maşında axtarmışdılar, heç ağıllarına da gəlməmişdi ki, o, onları ikinci küncdə, öz çantasında saxlayır. Görünür, çantaya baxıb bir tərəfə atıbmışlar. Məncə, qatil onların qohum-əqrəbalarından biridir. İndi, iyirmi il sonra

ayılıb brilyantların dalınca düşüb. Ancaq yaxşısı budur, siz gələsiniz və biz ətraflı söhbət edək.

– Mütləq, – Dronqo dedi, – sizin maşınınızı "İveriya"da gözləyəcəyik.

O, telefonu söndürdü. Veydemanis heç nə demədi, yalnız dinməzcə köhnə həmkarını süzdü.

– Şalva belə hesab edir ki, qisas alan həlak olmuş ər-arvad əfqanın qohumlarındandır, – Dronqo izah elədi.

– Bu versiya həqiqətə daha uyğun görünür, – Edqar mühakimə ilə dedi, – hərçənd bir az ekzotik səslənir. Haradansa ortaya çıxan bir əfqan iyirmi il əvvəl Sovet əsgərləri qrupunun tərkibində olarkən qohumlarından brilyant oğurladığı üçün milis polkovnikini öldürür. Lap sayıqlamadır! Real faciədən çox, qəşəng bir şərq nağılına bənzəyir.

– Özün deyirsən ki, bu versiya həqiqətə daha uyğundur, – Dronqo narazı-narazı dedi.

– O, dirilən çeçen versiyası ilə müqayisədə daha yaxşı görünür, amma yenə də təmiz sayıqlamadır, – Veydemanis cavab verdi.

– Bir də öldürülmüş iki nəfər, – Dronqo xatırlatdı. – Vitebskdə Qorditskinin sürücüsünün öldürüldüyünü nəzərə alsaq, hətta üç nəfər. Bu artıq sayıqlama yox, əsl faciədir. Onu da nəzərə al ki, milis polkovnikinin qətli sadəcə naməlum şəxsin aldığı qisas deyil, həm də hüquq-mühafizə orqanlarına əsl meydan oxumaqdır. Bundan başqa,

qatil başa düşməliydi ki, indi onu ciddiyyətlə axtaracaqlar və belə bir cinayətdən sonra onu ümumiyyətlə sağ tutmaq istəməyəcəklər.

Veydemanis dinməzcə başını tərpətdi. Hər iki yoldaş ağıllarına belə gətirmirdi ki, sonrakı hadisələr necə faciəvi və dolaşıq surətdə inkişaf edəcək.

## Dördüncü fəsil

Şalva onların arxasınca "Nissan" markalı maşın göndərdi, məlum oldu ki, gənc sürücü onun bacısı oğludur. Sürücü onları ilk prezidentin atasının – gürcü ədəbiyyatının məşhur klassiki Konstantin Qamsaxurdiyanın şərəfinə adlandırılmış prospektlə apardı. Onlar yolda olarkən Qorçilin zəng vurdu, məlumat verdi ki, artıq şəhərətrafı evinə gəlib, oradadır. Dronqo ona öz yeni sığınacağı barədə heç kimə danışmamasını məsləhət gördü.

Avtomobil şəhərdən çıxıb Zemo-Avçalıda yerləşmiş şəhərətrafı qəsəbəyə tərəf getməyə başladı, Çiladzenin evi orada idi.

Evdə onları silahlı adamlar gözləyirdi. Şalva öz mühafizəsi haqda danışanda haqlıymış. Onun evi başqa qohumlarının, qardaş-bacılarının, qonşularının evlərinin əhatəsindəydi. Şalvanın evinə icazəsiz girmək üçün hücumçu desant batalyonu lazım idi və bu batalyonun öz qohum və qonşusunu canla-başla müdafiə etməyə hazır

olan bu qədər silahlı adamın öhdəsindən gələ biləcəyi də məlum deyildi.

Ev geniş, ikimərtəbəliydi. Şalva qonaqların qarşısına çıxdı. Cavan olmağına baxmayaraq, o artıq kökəlmişdi, təngnəfəslikdən əziyyət çəkən, ağırtərpənən bir kişiydi. Koppuş yanaqları, bir az dombalan iri gözləri, qalın qara bığları, ağarmağa başlayan saçları, yaddaqalan üz cizgiləri vardı. O, gələnlərin əlini hərarətlə sıxıb, onları evə dəvət etdi. Dronqo həmkarı Edqar Veydemanisi ev sahibinə təqdim etdi. Gec olmasına baxmayaraq, evdə heç kim yatmamışdı – qonaqları gözləyirdilər. Bişmiş ətin xoşagələn iyi burun deşiklərini qıdıqlayırdı. Şalva onları yay köşkünün altına apardı, oraya artıq yüngül yay yeməkləri, şərab, meyvə-tərəvəz düzülmüşdü.

– Hamı evə yığışıb, – ev sahibi bildirdi, – bir yerdə şam etmək üçün sizi gözləyir. Bura isə sizi xüsusi olaraq çağırmışam. Evdə danışmaq mümkün deyil – dostlar, qohumlar çoxdur. Onları qorxudub təlaşa salmayaq. – O, hələ Sovet İttifaqı dövründə yaşayan bir çox gürcülər kimi rus dilində tam savadlı, lakin güclü ləhcəylə danışırdı.

– Razıyam, – Dronqo stol arxasına keçib təsdiqlədi. Veydemanis onun yanında əyləşdi. Şalva diqqətlə qonaqlara baxa-baxa qabaq-qənşər oturdu.

– Mən şəhərdə arxamızca düşən maşına bənzəyən bütün maşınları yoxlamağı xahiş etdim, – o, səsini bir az aşağı salıb bildirdi. – Zənnimcə, bizim polis onu tapacaq. Bizdə indi ancaq sürücülərdən

pul almaqla məşğul olan Dövlət Avtomobil Müfəttişliyi yoxdur. İndi bizdə bütün ölkənin hörmət etdiyi, rüşvət almayan əla uşaqlar işləyir. Əvvəllər düşünürdüm ki, yol polisində rüşvət almayan zabitlər sadəcə işləyə bilməzlər. Amerikada, ya Almaniyada bəlkə də olar, ancaq bizdə yox... Onlar bizi təqib edən maşını mütləq tapacaqlar.

– Maşın necə idi?

– Boz "Hunday" idi. Sürücüm mənə belə dedi. O həm də mənim böyük bacımın oğludur, buna görə də ona etibar edirəm. O, qır-saqqız kimi yapışıb bizdən əl çəkməyən maşını uzun müddət izləyib. Maşını saxlayıb nömrəsinə baxmaq üçün düşəndə isə bu qorxaq maşını dala verib dərhal aradan çıxıb.

– Deməli, sizin sürücünün onu gördüyünü başa düşüb?

– Əlbəttə, başa düşüb. Yoxsa belə tez aradan əkilməzdi.

– Maşında neçə nəfər olub? Bir, ya iki?

– Bacım oğlu deyir ki, bir nəfər varmış. Bəlkə də ikiymiş. Dəqiq bilmir.

– İndi siz buna bənzəyən bütün maşınları axtarırsınız?

– Artıq tapmışıq. Yalnız şəhərdə qırx dörd maşın qeydə alınıb. Bu şirkət bizdə artıq çoxdandır ki, maşın satışı ilə məşğuldur. Bu rəngdə qırx dörd avtomobil var. İndi siyahıya baxmaq lazımdı, ancaq mən əminəm ki, orada Salambəy Muzayevin adı yoxdur, buna şübhə etməyə bilərsiniz.

– Bəs onda kimdir?

– Bilmirəm. Bayaq dedim. Bəlkə sağ qalan əfqan qohumlardan kimsə belə qeyri-adi şəkildə qisas almaq qərarına gəlib. Hərçənd biz nədən ötrü qisas alaq? Bizim uşaqlar qadını xilas etməyə çalışırdılar, hətta yarasını da sarımışdılar. Bu banditlər isə onu yalnız öldürmək yox, həm də qarət etmək istəyirdilər. Bəlkə kimsə indi bu şəkildə özünü tanıtdırmağı qərara alıb. Bəlkə bu heç də qətlə yetirilən zavallı cütlüyün qohumu-zadı deyil, o vaxt güllələdiyimiz banditlərdən birinin qohumudur. Yaxınlarının öldürüldüyünü, onların heç bir brilyant almadıqlarını öyrənib, bu şəkildə də qisas almaq fikrinə düşüb.

– Vitebsk və Nalçikdə baş çıxarmaq əfqan üçün çətin olardı, – Dronqo fikirli-fikirli dedi, – baxmayaraq ki, Yuli Dmitriyeviçin əlində bunun yenə də Muzayev olduğunu hesab etməyə əsasları var.

– Hansı əsaslar?

– Məgər o, sizə Qorditskinin öz ölümündən bir gün əvvəl Əhməd Elqarova etdiyi telefon zəngi barədə heç nə danışmayıb? Feliks Makaroviç bildirib ki, xəbərsiz itkin düşmüş hesab etdikləri bir adamla mühüm görüşü var. Köhnə dostu ilə. Ertəsi gün də onu öldürüblər.

– Bu hələ heç nəyi sübut eləmir, – Şalva qaşqabağını tökdü. – Bilirsinizmi, bizim hər birimizin neçə belə dostu var? Xüsusilə də Qafqazdakı bütün bu müharibələrdən sonra. Nə qədər itkin düşənlər, ölənlər, sadəcə unudulanlar, yaxud çıxıb gedənlər oldu... Saymaqla qurtarmaz. Biz gürcülər bu illərdə yaman əziyyətlər çəkdik. Qadınlarımızın istehkamçı belləri ilə öldürüldüyü səksən doqquzuncu

ilin apreli sonra doxsanıncı illər... Əvvəlcə Zviad Qamsaxurdiya prezident oldu, sonra isə osetinlər və abxazlarla münaqişələr başladı. Sonra Şevardnadze hakimiyyətə gəldi və gürcünün gürcüyə güllə atdığı Vətəndaş müharibəsi başladı. Sonra Abxaziyada daha böyük müharibə başladı, bu zaman rus muzdlularının köməyi ilə Abxaziya əhalisinin böyük əksəriyyətini təşkil edən gürcülər oradan qovuldu. Ardınca bir neçə yerli konflikt də baş verdi və hər şey Rusiya ilə müharibə və Osetiya ilə Abxaziyanın əlimizdən alınması ilə bitdi, – Şalva ah çəkdi. – Belə danışdığım üçün bağışlayın, ancaq başa düşürəm ki, siz yəqin ki, Rusiya vətəndaşları olmağınıza baxmayaraq, rus deyilsiniz. Ancaq mən heç nəyi dəyişmədən rusların da yanında belə danışıram. Dostum Yuli Qorçilinin də yanında belə danışıram.

– Məsələ sizin nədən danışdığınızda deyil. Məsələ ondadır ki, mənim həmişə diqqət yetirdiyim bəzi məqamlar var. Səksən doqquzuncu ilin aprelində Sovet əsgərləri istehkamçı bellərindən istifadə edib gürcü qızlarını öldürməyiblər...

– Necə yəni öldürməyiblər? – Şalva diksindi.

– Eləcə. Bu Sobçak komissiyasının sonralar bütün dünyaya yayılmış yalanı idi. Onda on səkkiz qız və qadın həlak olmuşdu. Ekspertiza dəqiq müəyyən etmişdi ki, onlar sıxışdırılıb öldürülüblər. Bu dəhşət, faciə idi. Əsgərlər silahsız camaatın üstünə yeriyəndə adamlar qaçmağa başlamış, qızlar da bu basırıqda ölmüşdülər. Ancaq bellə heç kəsi öldürməmişdilər. Hörmətli Şalva, siz ki gürcüsünüz;

necə təsəvvür edə bilərsiniz ki, rus əsgərləri gürcü qızlarını bellə döysünlər, gürcü kişiləri də sakitcə dayanıb baxsınlar? Niyə onda ölənlərin içində kişilər yox idi? Hamısı qorxub qaçmışdı? Gürcülər heç bir zaman qızlarının-bacılarının gözləri qarşısında bellə öldürülməsinə sadəcə yol verə bilməzdilər.

Şalva qaşqabaqla susurdu.

– Və yenə bəzi məqamlar, – Dronqo amansızlıqla davam elədi. – Qamsaxurdiyanın siyasətinin uğursuzluğa düçar olduğu aydın olanda, Şevardnadze hakimiyyəti asanlıqla ələ almamışdı. Ona şimal ölkəsinin bəzi "mütəxəssis"ləri də kömək etmişdilər, hamının da bundan xəbəri vardı. O zaman da, indi də. Osetiya və Abxaziyadakı münaqişələr isə Qamsaxurdiyanın özünün millətçi siyasətinin nəticəsində yaranmışdı.

– Siz bura antigürcü əhvali-ruhiyyəsi ilə gəlmisiniz? – Çiladze qaşqabaqla soruşdu.

– Mənim nənəm gürcüdür, meqreldir, – Dronqo bildirdi. – Xətrini çox istədiyim və məni böyüdən atamın anası sizin xalqınıza və mədəniyyətinizə sönməz sevgi bəsləyirdi. Buna görə də hesab edirəm ki, həqiqəti danışmağa haqqım çatır. Əgər həqiqəti yalanla əvəz edirlərsə, əvvəlki ideallar itirilir, mənəvi dəyərlər dəyişdirilir və xalq fitnə və yalana asanlıqla aldanır.

– Mənim anam meqreldir, – gözə çarpacaq qədər kefi açılan Şalva bildirdi. – Onsuz da hər nə desəniz, mənim üçün dinləmək çox ağırdır.

– Mənim məlumatlarım da son mərhələdə doğru deyil. İnsan özü ətrafında baş verən hər şeydən baş çıxarmalıdır. Xalq tarix boyu başına gələn bütün hadisələrə obyektiv qiymət verməlidir. Gürcülər həmişə çar Rusiyasında da, Sovet İttifaqında da xüsusi rol oynayıblar. Siz həmişə qalanlardan bir az fərqlənmisiniz: sevimli, amma bir az ərköyün uşaqlar kimi. Hətta sizi indi, Rusiya ilə müharibədən sonra da Rusiyada və qonşu ölkələrdə əvvəlki kimi sevir və dəyərləndirirlər. Bu hətta məntiqi cəhətdən izah edilməsi çətin olan təhtəlşüur bir sevgidir.

– Buna görəmi naməlum qatil Əhməd Elqarovu qətlə yetirəndən dərhal sonra məni öldürməyə gəlmişdi? – Çiladze kinayəsiz xəbər aldı.

– Qorxuram ki, buna görə olmasın. Lakin əgər biz o aşkar faktı etiraf eləsək ki, dalbadal baş verən iki qətl təsadüf ola bilməz, onda qatil öz növbəti cinayətini törətmək üçün bu dəfə doğrudan da burda peyda olacaq. Sizə heç indi evinizdə yaşayan dostlarınız və qohumlarınız da kömək edə bilməz. Axı amansız qatil istənilən qurbana hazırdır. O, Feliks Qorditskinin maşınını heç bir günahı olmayan sürücüsü ilə birlikdə partlatmışdı.

– Ancaq niyə, nə səbəbə? Biz kimə mane oluruq?

– Mən elə bunu aydınlaşdırmaq üçün gəlmişəm, – Dronqo xatırlatdı, – bununla bərabər, bəzi şeyləri də. Ola bilsin ki, orada, Əfqanıstan-Pakistan sərhədindəki dağlarda müəyyən məqamlar olub ki, Qorçilin onları sadəcə olaraq ya xatırlamayıb, ya da əhəmiyyət

verməyib. Bəlkə siz onun söhbətini tamamlaya, yaxud bəzi yeni təfərrüatları xatırlaya bildiniz.

– Bunu edə biləcəyimə inanmıram, – Şalva etiraf etdi. – Mən onda pulemyotdaydım, onlar bizi hər tərəfdən mühasirəyə alanda Qorçilin mənə sonuncu gülləyə qədər atəş açmağı əmr etdi. Mən qənaətlə, ancaq dəqiq atəş açmağa çalışırdım. Pulemyot yuxarıdaydı və belə görünüş sahəsində mənim mövqeyim demək olar ki, ideal idi. Gərək ki, mən həmin gün səkkiz-doqquz adam öldürmüşdüm. Qarşınızda bax, belə bir "adamyeyən" oturub. Dinc həyatda iki və daha artıq adamın qətlinə görə ən ağır cəza, müharibədə isə orden və medal verirlər. Bu döyüşə görə məni fəxr etdiyim medalla, "İgidliyə görə" medalı ilə təltif etdilər. Deməli, mən o müharibədə ən sonuncu əsgər deyildim... Orada nə baş verdiyini xatırlamıram. Hücum edən mücahidlər bütün güllələrini mənə yağdırırdılar, başa düşürdülər ki, məhz mənim pulemyotumu susdurmalıdırlar, yoxsa bizim uşaqların yanına qalxa bilməyəcəklər. Qorçilin sonra mənə danışdı ki, bir dəfəyə dörd avtomatdan atəş açıbmışlar. Xülasə, mən ağır yaralanıb huşumu itirdim. Bir müddət sonra şiddətli ağrıdan ayıldım. Məncə, o an üzümə daş dəyib dərisini, bax burdan, gözümün altından çapmışdı. Çapıq indiyə kimi qalıb. Özümə gəldim, hiss elədim ki, ölürəm. Feliks yanımda uzanıb mənim pulemyotumdan atəş açırdı. Ətrafa baxıb, hərbi çəkməli qopmuş ayaq gördüm. Feliksdən soruşdum ki, kimi öldürüblər. O da qışqırdı ki, Mişa ilə Samar öldürülüb. Yenə huşumu

itirdim. Ayılanda məni artıq vertolyota qaldırırdılar. Sonra isə öyrəndim ki, Yulik mükafat olaraq cibimə bir neçə qiymətli daş qoyub. Bunların qiymətli daş olduğunu dərhal başa düşdüm və onları həmişə sinəmdən asdığım kisəcikdə gizlədim. Brilyantları əlimdən almasınlar deyə, hiyləyə əl atdım: oraya bir az qum tökdüm, soruşanların hamısına deyirdim ki, bu anamın orduya getməzdən əvvəl mənə verdiyi doğma torpağımdır. Həkimlər və zabitlər razılıqla başlarını tərpədir və mənim kisəciyimə dəymirdilər. Mən onu bu yolla qorudum. İndiyədək də evimdə saxlayıram, – Şalva sözünü bitirdi.

– Deməli, siz həlak olanları görmüsünüz?

– Şevçenko qranatla özünü partlatmışdı, mən onun qalıqlarını gördüm; Yaqubov həlak olmuşdu, meyitini vertolyota qoymuşdular. Vertolyotçularımız Şevçenkonun qalıqlarını da götürmüşdülər. Onlar ikisi də həlak olmuşdu, buna şübhə yoxdur.

– Və siz altı nəfər qalmışdınız? – Dronqo dəqiqləşdirdi.

– Bəli. Amma ağır yaralanan bircə mən idim. Salambəy də yaralanmışdı. O, on ildən çoxdur ki, itkin düşüb, o vaxtdan ondan heç bir xəbər-ətər yoxdur. Məncə, o həlak olub. O, uzun müddət gizlənən, gözdən qaçan adam deyildi. Mütləq özünü bildirərdi...

– Qalır beş nəfər...

– Artıq üç nəfər, – Şalva qonağının sözünə düzəliş verdi. – Zənnimcə, siz bu ikisinin də həlak olmasına şübhə eləmirsiniz. Feliks Qorditskiylə Əhməd Elqarovun. Yulik hər iki yoldaşımızın dəfnində

iştirak elədi. Demək, üççə nəfər qalır: mən, Yulik və Leonid Subbotin. Siz bir təsəvvür edin ki, rus səfirliyinin məsləhətçisi, məşhur diplomat öz sabiq yoldaşlarını özünün batalyon komandirinə vicdanla təhvil verdiyi bir neçə brilyantdan ötrü öldürmək və partlatmaq üçün şəhərbəşəhər gəzir! Sərsəm və inanılmaz fikirdir. Onda yalnız iki nəfər qalır. Qorçilin hamıdan çox qorxur. Yəqin ki, qorxmaqda haqlıdır. Axı güman ki, ən çox brilyant ona çatıb. Həm də o bizim komandirimiz olub. Buna görə də o bizi hər şeydən çox, ilk növbədə öz təhlükəsizliyini təmin eləmək üçün tapıb. Onda bircə nəfər qalır. O zaman bizim hamımızı faktiki olaraq xilas edən, özü isə bir neçə brilyantdan savayı heç nə almayan qisasçı, çılğın qafqazlı. Belə çıxır ki, qatil olmağa ən real namizəd mənəm, – Çiladze kədərlə sözünü bitirdi, – siz isə buraya mümkün olan qatili tapmaq üçün yox, məni neytrallaşdırmaq üçün gəlmisiniz. Bəlkə mən bu maşın əhvalatını, guya kiminsə bizi güddüyünü öz bacım oğlu ilə qəsdən uydurmuşam ki, məndən heç kəs şübhələnməsin. Necə bilirsiniz, belə versiyanı qəbul etmək olarmı?

– Olar, – Dronqo təsdiqlədi, – ancaq bir düzəliş etməklə. Rusiyaya vizasız getmək sizin üçün çətin olardı, axı siz gürcü vətəndaşısınız. Deməli, hər şeyi asanlıqla yoxlamaq olar, pasportunuza baxmaq kifayət edir.

– Əgər mənim iki pasportum varsa? – Şalva təslim olmadı.

– Lap beş pasportunuz olsun. Sizə onsuz da Rusiya vizası lazımdır və elə məhz Əhməd Elqarovun öldüyü gün. Əgər sizin vizanız yoxdursa, onda sərhədi keçib polkovnik Elqarov qətlə yetirilən gün Nalçikdə ola bilməzdiniz.

– Haqlısınız, – Çiladze qısa sükutdan sonra razılaşdı, – bu mənim ağlıma dərhal gəlməyib. Onda bizdə bircə şübhəli şəxs qalır.

Dronqo ev sahibini sınayıcı nəzərlə süzdü. O, Şalva Çiladzenin kimin soyadını deyəcəyini başa düşmüşdü.

– Başqa şübhəli şəxs yoxdur, – ev sahibi ağır-ağır dilləndi, – yalnız bir nəfər qalır. – Şalva susdu. Sonra Dronqoya baxdı: – Siz artıq mənim nə demək istədiyimi başa düşdünüz? Dəqiq deyin, mən kimin adını çəkmək istəyirəm?

– Bunun üçün heç nə başa düşmək lazım deyil, – Dronqo cavab verdi, – amma onda deyin görüm, mən niyə sizinlə razılaşmalıyam?

– Çünki mən özüm özümlə razılaşmıram, – Şalva dedi. – Bəlkə bir çox illər sonra peyda olmuş dost haqqında söhbətlər sadəcə axmaq bir uydurmadır? Bəlkə Yulik onu qəsdən düzəldib? Axı aramızda öz bölməsinin bütün üzvləriylə əlaqə saxlayan bircə odur.

– Siz Qorçilindən şübhələnirsiniz?

– Əlbəttə, şübhələnmirəm. Ancaq bir o, bir də Leonid Subbotin qalır. Özüm haqqında dəqiq bilirəm ki, heç kimi öldürməmişəm və belə bir fikrim də yoxdur. Dağlarda öldürdüklərim mənə bütün ömrüm

boyu bəs edər. Ancaq o halda mənə yalnız ya Yulikdən, ya da bizim diplomatdan şübhələnmək qalır. Mən isə bunu eləmək istəmirəm.

Evdən kimsə uca səslə sahibi çağırdı. Görünür, toplaşanlar Şalvanın qonaqları, nəhayət, evə nə vaxt dəvət edəcəyini gözləməkdən bezmişdilər.

– Gedək, – Çiladze qalxdı, – onları çox gözlətməyək. Zənnimcə, bu gecəlik söhbətimizi bitirdik.

– Dayanın, – Dronqo onu saxladı. – Bəs birdən biz heç ağlımıza belə gəlməyən gözlənilməz bir faktorla üzləşmişiksə?

Çiladze dayandı.

– Onda mən İblisin mövcud olduğuna inanacağam, – dedi. – Gedək, şam edək, yoxsa mənim qohumlarım sizi qatilsiz də öldürəcəklər, – deyə zarafatla əlavə etdi.

## Beşinci fəsil

Qonaqlıq belə hallarda güman edildiyi kimi uzun çəkdi. Gec olmağına baxmayaraq, qonaqlar heç dağılmaq fikrində deyildilər. Bir-birinin ardınca sağlıqlar deyildi və əməlli-başlı keflənmiş həmkarlar, nəhayət, səhər saat dördə yaxın otelə qayıtmaq üçün avtomobilə əyləşdilər. Bütün etirazlara baxmayaraq, hər ikisinə qırmızı ev arağı

içirtmiş, hər növünün dadına baxmağa və hər sağlıqda içməyə məcbur etmiş, axıra yaxın isə yarım litrlik qədəhlər verib, dibinə qədər boşaltdırmışdılar.

– Özümü elə hiss edirəm ki, elə bil məni vurub gicəlləndiriblər, – Edqar şikayətləndi. – Deyəsən, ömrümdə bu qədər araq içməmişdim.

– Bolqarıstanda da başıma buna bənzər iş gəlib, – Dronqo etiraf etdi. – O zaman cəmisi iyirmi yeddi yaşım vardı və yəqin ki, yarım çəllək araq içmişdim, bundan sonra az qala iki gün fasiləsiz yatmışdım.

– Mən həmişə sənin bütün qafqazlılar kimi gizli içki düşkünü olduğundan şübhələnirdim, – Veydemanis mızıldandı.

– Tamamilə yox, – Dronqo gülümsündü. – Hərçənd on il qabaq yazıçılarla bir qatarda Avropaya səyahət edərkən başıma bir iş gəlmişdi. Mən onda Tallin – Sankt- Peterburq qatarında içki içməkdə təxminən mənimlə bir boyda və məndən iki dəfə enlikürək olan Zurab Axvledianinin özünü geridə qoymuşdum. O yüz iyirmi, mənsə vur-tut doxsan beş kiloydum. Biz onunla çoxlu tekila içdik. Dəqiq yadımda deyil, ancaq üç litr içdik. Sonra o, oteldəcə yıxılıb qaldı, mənsə hələ də ayaq üstəydim. Hərçənd ola bilsin, mən də bir az şişirdirəm və istədiyim kimi ideal formada deyildim.

Onlar “İveriya” otelinə qayıdanda artıq səhər saat beş idi. Nömrələrinə keçib səhər yeməyi vaxtı görüşməyi şərtləşdilər, ancaq ikisi də yuxuya getdi və Dronqo öz həmkarının nömrəsini yalnız

gündüz saat on ikidə yığdı. Yarım saatdan sonra onlar artıq restoranda oturub səhər yeməyi sifariş etdilər.

Mobil telefonu zəng çaldı. Bu, Şalva Çiladze idi.

– Mən artıq səhər saat ondan öz kabinetimdəyəm, – o, sevinclə məlumat verdi, – sizi narahat etmək istəmədim ki, bir az dincələsiniz. Necə yatdınız?

– Pis yatmadıq. İçkinin çoxluğunu nəzərə alsaq, dərin yuxuya gedib, demək olar ki, yaxşı yatmışıq, – Dronqo cavab verdi.

– Demək, hər şey qaydasındadır, – Şalva güldü. – Belə də olmalıydı.

– Sizin ofisiniz harada yerləşir?

– Sereteli prospektində, – Çiladze məlumat verdi. – İstəyirsiniz, arxanızca maşın göndərim.

– Yox. Bu gün lazım deyil. Biz çalışarıq, özümüz gəlib öyrəşək. Daha yaxşı olar ki, sizin maşınınızla gəlməyək.

– Hər şeyi başa düşürəm. Razıyam.

– Bir də xahiş edirəm ki, ofisinizdən bayıra çıxmayasınız. Ofisiniz heç olmasa mühafizə olunurmu?

– Aşağıda silahlı mühafizəçi var. İkisi də qəbul otağımda oturub. Hamısı silahlıdır, silah gəzdirmək icazələri var. Ofisimizdə də çox adam işləyir. Bura heç kim soxulmaz.

– Aydındır. Onda görüşənədək. Biz özümüz ofisə, yanınıza gələrik.

Dronqo telefonu cibinə qoyub Veydemanisə baxdı.

– Gedək baxaq, – deyə təklif etdi.

– Biz mühafizəçi deyilik, – Edqar xatırlatdı, – hücum obyekti kimi seçilmiş bir adamı qorumaq hər şeydən çətindir. Sən axı gözəl bilirsən ki, belə hallarda gərək mühafizə olunan şəxsin özünü qorumaq yox, qabaqlayıcı tədbirlər görəsən.

– Əgər biz bunun kim olduğunu bilmiriksə, necə qabaqlayıcı tədbirlər görəcəyik?

– Onda bunun Salambəy Muzayev olduğu barədə yeganə mümkün versiyanı qəbul etmək lazımdır, – Veydemanis ehtimal etdi. – Deyəsən, sənin Okkamdan gətirdiyin sevimli sitatın belədir: "Zərurət olmasa varlığı çoxaltma".

– Bizim sübutumuz yoxdur.

– Ondan başqa daha heç kim də yoxdur, – Edqar xatırlatdı. – Bir də sən dünən Şalva Çiladze ilə söhbət edəndə ağlıma belə bir fikir gəlib. Yadındadır, sən ona dedin ki, gürcülər hamının həmişə sevdiyi ərköyün uşaq kimidirlər. Çeçenlər isə o qədər də sevimli olmayıblar. Çar Rusiyasının dövründə də, bolşeviklərin, xüsusilə, Stalinin dövründə də.

– Nə demək istəyirsən?

– Otuz yaşına çatmış bu adam üç müharibədə iştirak edib: əfqan və iki çeçen müharibəsi, – Veydemanis xatırlatdı. – Bəlkə də

qəddarlaşıb, dəyişib. Özün həmişə deyirdin ki, müharibə insanları birdən dəyişir, özü də yaxşı tərəfə yox. Bu müharibələr də onu dəyişib.

– Sən dünən aeroportda da bu ehtimallarınla məni təngə gətirmək istəyirdin, – Dronqo dərin nəfəs aldı.

– Dünən biz hələ Çiladze ilə danışmamışdıq, – Edqar etiraz etdi.

– Nə dəyişdi?

– Mənim hisslərim. O, qatil ola bilməz. Bunu sən də gözəl başa düşürsən. Subbotin barədə hələ heç nə bilmirəm, amma o da yaramır. Qırx yaşına qədər belə gözəl karyera qurmuş uğurlu diplomat, Fransa səfirliyinin məsləhətçisi gözlənilmədən köhnə yoldaşlarını öldürməyə başlasın? Ən azı axmaqlıqdır, sərsəmlikdir. Deməli, Muzayev qalır. Fikir ver, o, dağlarda yaralanmışdı, onu xəstəxanaya qoymuşdular, o isə bu brilyantları sadəcə olaraq itirmişdi. Bəlkə o zaman itirdiklərini qaytarmaq istəyir? Elə bilir ki, ona hamısını verməyiblər. Bundan başqa, Muzayev müsəlmandır və ola bilsin ki, qalanların hamısından bu şəkildə qisas alır.

– Onda Elqarovu öldürmək nəyə lazımdır? O da müsəlmandır axı!

– O, milis polkovnikiydi. Həmin rus milisinin ki, onun əməkdaşları çeçenlərlə vuruşmuşdular. Salambəy Əhməd Elqarovu sadəcə satqın hesab edib, bu cür də qisas ala bilərdi.

– Hər şey düzgün qurulub, psixoloji cəhətdən bəraətlidir, ancaq Qorditskinin uzun illər boyu görüşmədiyi köhnə dostu haqda dediyi cümlədən başqa heç bir sübut yoxdur.

– Elə bu cümlədə də hər şeyi izah edir.

– Birindən başqa: niyə Salambəy Muzayev öz köhnə dostlarını öldürsün? Səbəb nədir?

– Əgər bunu bilsəydim, yəqin ki, biz artıq oteldə oturmamışdıq, onu axtarırdıq, – Veydemanis məntiqlə dedi.

Onlar yarım saatdan sonra artıq Şalva Çiladzenin ofisinin qabağındaydılar. Binanın yanındakı dayanacaqda çoxlu maşın düzülmüşdü. Avtomobillərin arasında onların dünən Çiladzeyə qonaq gəldikləri "Nissan" da vardı. Maşının yanında heç kim yox idi, görünür, sürücü ofisin binasında oturmuşdu. Dronqo öz həmkarına baxıb başını tərpətdi.

– Onun öz mühafizəsi var, – deyə mızıldandı. – Gicliyə bax! Maşını ən primitiv yolla parlatmaq olar.

– O hesab edir ki, mühafizə olunan dayanacaqda maşınına dəyməzlər, – Veydemanis narazılıqla dedi.

– Deyəsən, bu dayanacaqda onların şirkətinin başqa maşınları da durur, – Dronqo qeyd etdi.

Onlar yollarına davam etdilər. Binanın ətrafına da çoxlu maşın düzülmüşdü. Girişdə heç kəs yox idi. Binaya girdilər. Cavan bir oğlan tənbəl-tənbəl onlara baxırdı.

– Hara gedirsiniz? – deyə gürcücə soruşdu.

– Cənab Çiladzenin yanına, – Dronqo rusca cavab verdi.

– Gedin, – keşikçi heç onların adlarını soruşmadan və vəsiqələrinə belə baxmadan icazə verdi. – Dördüncü mərtəbə. Lift sağdadır.

– İdeal mühafizədir, – Dronqo liftə girib hirslə mızıldandı.

– Bəlkə onu bizim gəlişimizdən xəbərdar ediblər? – Veydemanis dostunu sakitləşdirməyə çalışdı.

– Bu mühafizə deyil, sayğısızlıqdır, – Dronqo dedi.

Onlar dördüncü mərtəbəyə qalxıb dəhlizdən keçdilər. Böyük qəbul otağında qırxyaşlı bir kişi və otuzyaşlı bir qadın əyləşmişdi – yəqin ki, şirkətin katibəsiydi. Kişi gələnləri görüb ayağa qalxdı. O, orta boylu idi. Dronqo ondan bir baş hündür idi.

“Bu da mühafizəçidir, – deyə düşündü. – Maraqlıdır, o əvvəl nəçi işləyib? Yəqin, milis işçisi olub. Hə, deyəsən, elədir”.

– Siz qabaq milisdə işləmisiniz? – deyə mühafizəçidən soruşdu.

– Polisdə, – mühafizəçi onun sözünə düzəliş verdi. – Müstəntiq işləmişəm.

– Aydındır, bəs həmkarınız hanı?

– Nahar eləməyə gedib.

– Lap yaxşı. Siz bizim kim olduğumuzu bilirsiniz?

– Şalva Qriqoryeviç bizi xəbərdar etmişdi ki, Moskvadan yanına iki ucaboy kişi gələcək, – mühafizəçi başıyla təsdiqlədi.

– O bizim adlarımızı deməyib?

– Xeyr.

– Aydındır. Şalva Qriqoryeviçi xəbərdar edin ki, biz gəlmişik, – Dronqo üzünü katibəyə tutub xahiş etdi. O, razılıqla başını tərpətdi.

Bundan sonra Dronqo yenidən mühafizəçiyə üz tutdu:

– Adınız nədir?

– Rezo. Rezo Qorqaneli.

– Çox xoşdur, – Dronqo ona əl uzatdı. – Silahınız var?

– Bəli, əlbəttə, – Rezo pencəyini açdı, tapança asılmış kəmərini göstərdi. Hətta silahı çıxarıb Dronqoya da göstərdi.

– O qoruyucudadır, – Dronqo kədərlə işarə etdi.

– Əlbəttə, – Rezo başını tərpətdi, – bizdə qayda belədir, silah qoruyucuda olmalıdır.

– İdeal variantda bir yarım-iki saniyə bəs edər, – Dronqo bildirdi, – əgər hətta siz atıcılıq və qoburdan silah çıxarmaq üzrə dünya çempionu olsanız da. Silahı çıxarmaq, qoruyucunu buraxmaq və atəş açmaq üçün sizə üç-dörd saniyə vaxt lazımdır. Bu müddətdə istənilən, hətta ən pis atıcı da bütün darağı sizə boşalda bilər.

– Siz belə hesab edirsiniz? – Qorqaneli açıq-aşkar pərt oldu. – Mən bu haqda heç vaxt fikirləşməmişəm. Özəl şirkətin işçiləri üçün xüsusi təlimat var; orada ciddiyyətlə göstərilir ki, silah qoruyucuda olmalıdır.

– Bizim vəziyyətdə yox, – Dronqo etiraz etdi. – İstisna həmişə olur, xüsusilə də real təhlükə zamanı. Sizin müdirinizlə baş verən halda isə təhlükə real olmaqdan da artıqdır.

Onlar karıxmış Rezonu qonaq otağında qoyub Şalva Çiladzenin geniş kabinetinə girdilər. Şirkət sahibi içəri girənləri görcək sevinclə əllərini qaldırdı. O, bu gün parlaq boz kostyum və gümüşü qalstukla mavi köynək geyinmişdi.

– Sizi görməyimə necə də şadam, əziz dostlarım! – sevinclə dedi. – Bu gün bizi elə gözəl bir restoranda gözləyirlər ki!..

– Dayanın, – Dronqo xahiş etdi, – restoranı gələn dəfəyə saxlayaq. Məlumat vermək istəyirəm ki, mühafizəniz biabırçıdır.

– Düzdür, mühafizə olunan dayanacaqda... – Çiladze xatırlatdı.

– Orada bir qoca gözətçi var, o da bütün günü yatır, – Dronqo etiraz etdi, – istənilən maşına çox asanlıqla yanaşmaq olar. İstənilən maşına. Nə istəsəniz, qoya bilərlər və siz öz sürücünüzlə avtomobilə əyləşib getmək istəyəndə sadəcə partlayar. Vitebskdə olduğu kimi. Orada da heç kəs şəhər İcraiyyə Komitəsi sədrinin xidməti avtomobilinin mühafizəsi haqda düşünməmişdi. Sakit Belorusiyada belə bir terror aktı heç kimin ağlına da gəlməmişdi. Ancaq o baş verdi. Necə bilirsiniz, sizin narahat Tiflisinizdə belə bir hadisə baş verə bilməzmi? Xüsusilə də osetin müharibəsi baş verən yerin sizin ofisinizdən o qədər də uzaq olmadığını nəzərə alsaq. Deyəsən, oraya iki saat ərzində getmək olar?

– Hətta bir saata da, – Çiladze əsəbiliklə cavab verdi.

– Bax, görürsünüzmü? Sizin mühafizə nəyə lazımdır – sizi ciddi təhlükədən qoruya bilməyən oyuncaq bir mühafizə? Aşağıdakı keşikçi heç bizim adımızı da dəqiqləşdirmədi, görünür, siz ona deməmisiniz. Yuxarıdakı keşikçi sadəcə yox idi, onu nahara buraxmışdılar. Sizin qəbul otağınızdakı keçmiş müstəntiq isə artıq o qədər də cavan deyil, zəruri halda heç tapançanı da çıxara bilməyəcək. Silahı da qoruyucudadır. Onu silahı çıxarmamış öldürərlər.

– Sizin fikrinizcə, o, bu qədərmi yararsızdır? Mənə isə onu məsləhət gördülər, dedilər ki, çox yaxşı müstəntiq olub...

– Müstəntiqlik tamam başqa peşədir. O, stol arxasında oturub düşünür, əməliyyatçı isə bilavasitə cinayətkarı axtarmaqla, ümumiyyətlə, operativ fəaliyyətlə məşğuldur. Yaxşısı budur, sabiq əməliyyatçılardan birini, nisbətən cavan olanını tapasınız.

– Edərik, – Şalva gülümsündü. – Ancaq bu gün axşam siz yenə də mənim qonağım olacaqsınız.

– Bu gün siz evə evdən çağıracağınız başqa maşınla gedəcəksiniz, – Dronqo xahiş etdi – və yaxşı olardı ki, maşın sizi həyətdə gözləsin. Öz bacınız oğlunu göndərməyin, heyifdir, lap cavandır. Öz mühafizəçilərinizə isə təsir göstərin. Onlar işdən asanlıqla nahara ayrıla, yaxud tualetə çıxa bilməsinlər. Əgər getsələr, mütləq sizə məlumat versinlər. Bir-birilə də əlaqə saxlasınlar.

– Mən hamısını eləyərəm, – Çiladze söz verdi. – Ancaq nəzərə alın ki, axşam birlikdə şam etməyə gedəcəyik. Axşam saat yeddi sizi təmin edir?

– Doğrudanmı sizi necə bir təhlükənin gözlədiyini anlamırsınız? – Dronqo qaşqabağını tökdü. – Bu zarafat deyil, cənab Çiladze! Biz qarşısıalınmaz, təcrübəli və peşəkar bir qatillə üzləşmişik.

– Yaxşı, yaxşı. Mən hamısını anladım. Maşını dayanacaqda qoyarıq və mən bacım oğlundan xahiş edərəm ki, qarajdan başqa maşın götürsün. Mühafizəçiləri xəbərdar edərəm ki, silahın qoruyucusunu açıb qızğın atışmaya hazır olsunlar, – Çiladze güldü. – Daha neyləməliyəm?

– Ehtiyatlı olmalı və bizim peşəkar qatillə üzləşdiyimizi başa düşməlisiniz, – Dronqo bir də təkrar etdi.

– Onda mənə deyin görüm, bu, kimdir? – Şalva hirslənməyə başladı. – Mən kimdən qorunmalı, kimdən ehtiyat etməliyəm? Köhnə yoldaşım Salambəydənmi? Yoxsa belə gic bir üsulla qisas almaq fikrinə düşmüş naməlum əfqanıstanlı sarsaqdanmı? Yoxsa daha başqa bir kəsdən? Mən indi düşündüm ki, bu bizim şöbənin yox, qonşu şöbənin uşaqlarından kimsə ola bilər. Yaxud ümumiyyətlə, bizim rotanın. Brilyantlardan xəbər tutub, belə sarsaq bir şəkildə bizim şöbədən qisas almaq qərarına gəliblər. Amma niyə iyirmi il sonra? Bəlkə bu, brilyantların onunku olduğunu beyninə yeridən sadəcə bir dəlidir? Məsələn, ər-arvadı satıb öz ağası tərəfindən öldürülən

sürücünün oğludur? Bilmirəm, daha fal açmaq da istəmirəm. Bir onu bilirəm ki, bu yaramaz mənim həyat tərzimi dəyişdirə bilməyəcək. Mən dostlarımla, qonşularımla bir stol arxasında oturacaq, qohumlarımla görüşəcəm, əvvəlki kimi işləyəcəm, həmişəki kimi yaşayacağam. Qoy o məndən qorxsun, mən ondan yox...

O, katibənin ahəngdar zəngi çalınanda sözünü bitirdi. Selektora yanaşıb düyməni basdı.

– Sənə nə lazımdır? – cib dəsmalı çıxarıb üzünü silərək gürcücə soruşdu.

– Sizə bağlama göndəriblər, – katibə məlumat verdi. – Deyirlər ki, Amsterdamdandı, çox təcilidir.

– Niyə Amsterdamdan? – Çiladze soruşdu. – Biz Antverpendən sənəd paketi gözləyirik. Onlar həmişəki kimi nəyisə qarışdırıblar.

– Deyirlər ki, siz məhz bu bağlamanı gözləyirsiniz. Onu açımmı? – katibə soruşdu.

– Hə, aç bax, gör nə sənədlərdir, – Şalva icazə verdi, – ancaq tez elə. Dərhal mənə də məlumat ver.

O, qəddini düzəldib qonaqlara baxdı.

– Bağışlayın, deyəsən, bir az əsəbiləşdim.

– Orada nə baş verib? – Dronqo soruşdu. – Siz gürcücə elə tez-tez danışdınız ki, mən yaxşı başa düşmədim.

– Antverpendən sənədlər gəlib, – Şalva izah etdi, – bizim Belçika ilə böyük müqaviləmiz var.

– Mən “Amsterdam” sözünü eşitdim, – Dronqo xatırlatdı.

– Yəqin poçtda səhv salıblar, – Çiladze sadəlövhlüklə izah etdi.

O, cümləsini bitirməyə macal tapmamış Dronqo qəbul otağına atıldı.

– Çiladzeni qoru! – deyə qaça-qaça Veydemanisə qışqırdı.

Edqar hər şeyi bir kəlmədən anladı. O, kabinet sahibinin üstünə cumub yuxarıdan üstünə düşərək yerə yıxdı. Dronqo qaçıb kabinetdən çıxdı və katibənin üstünə atıldı. O artıq ipi çıxarmışdı, xeyli iri paketi açmağa çalışırdı. Yanında əyləşmiş mühafizəçi onun hərəkətlərinə sakit-sakit göz qoyurdu.

– Döşəməyə, – Dronqo ona qışqırdı, – döşəməyə yıxılın! Tez olun!

O, qadına tərəf sıçradı, paketi nəzakətsizliklə onun əlindən qapıb var gücüylə döşəməyə itələdi. Qadın hətta hirslənmək üçün ağzını da açdı, stolla birlikdə zərblə döşəməyə aşdı. Rezo Qorqaneli donub qalmış vəziyyətdə oturmuşdu. Sanki stopor halına düşmüşdü. Dronqo paketi çıxarıb pəncərəyə tərəf atdı və döşəməyə, qadının yanına yıxıldı. Paket uçub pəncərəyə çatanda partlayış eşidildi. Partlayış dalğası şüşələri, çərçivələri qırıb tökdü, zərbəsi bayıra düşdü. Döşəmədə uzanan qadın ucadan qışqırdı. Rezo özünü itirmiş halda sınmış pəncərəyə baxdı. Şüşə qırığı üzünü kəsmişdi, amma o, yenə də stol arxasında hərəkətsiz oturub heç nə hiss eləmirdi.

Dronqo başını qadına tərəf çevirdi:

– Özünüzü necə hiss edirsiniz? – deyə soruşdu.

## Altıncı fəsil

Qadın susurdu. Elə bil keçirdiyi həyəcandan səsi batmışdı. Yalnız qorxa-qorxa qonağa baxır, bir söz deməyə cəhd də eləmirdi. Qonaq birinci qalxdı, qadına da qalxmağa kömək edib onu stulla bir yerdə qaldırdı. Rezo Qorqaneli üzünü kəsən şüşə qırıqlarına məhəl qoymadan hələ də oturduğu yerdən qalxmamışdı. Katibə stol arxasına keçdi, ağzını açıb nəsə demək istədisə də, bacarmadı. O, baş verənlərdən şoka düşmüşdü. Köməksiz vəziyyətdə bir söz deməyə çalışırdı. Dronqo qolaylanıb qəflətən onun yanağına şillə vurdu. O, ağrılı zərbədən diksinib qonağa baxdı. Və birdən ucadan hönkürməyə başladı. Sonra ayağa qalxıb qaça-qaça qəbul otağından çıxdı. Dronqo Rezo Qorqaneliyə tərəf çevrildi.

– Siz özünüzə gəldiniz? – deyə keçmiş müstəntiqdən soruşdu.

O, tərəddüdlə başını tərpətdi və cib dəsmalını çıxarıb üzünü silməyə çalışdı.

– Dayanın! – Dronqo qışqırdı. – Heç nəyə əl vurmaq olmaz. Sizin üstünüzə şüşə qırıqları düşüb, yaralana bilərsiniz.

O, Qorqaneliyə yanaşdı və öz cib dəsmalını çıxarıb lap xırda qırıntıları onun başından və paltarından çırpıb tökə-tökə iri qırıntıları ehtiyatla üzündən çıxarmağa başladı. Şalva Çiladze ilə Edqar

Veydemanis yavaş-yavaş kabinetdən çıxdılar. Buna qədər Edqar öz həmkarının göstərişiylə kabinet sahibinin üstünə cummuş, partlayış baş verən zaman üstünə tullanıb onu yerə yıxmışdı. Zərbə dalğası bayıra, qəbul otağına çıxmış, kabinetə düşməmişdi. Yıxılan zaman dizi yerə bərk dəyən Şalva narazı-narazı fısıldamış, qonağı özündən kənar etmiş və onunla birlikdə ayağa qalxmışdı. O, qəbul otağına girəndə sınmış çərçivəni, katibənin olmadığını və üzü qanlı mühafizəçini gördü.

– Deyəsən, siz mənim həyatımı xilas etdiniz, – Çiladze qəmgin-qəmgin dedi – və mən sizə borclu qaldım.

– Elə bir şey deyil, – Dronqo cavab verdi, – bu mənim işimdir.

Şalva öz mühafizəçisinə baxdı.

– Özünü necə hiss edirsən, Rezo?

– Normalam, – Qorqaneli başını tərpətdi, – əgər qonağımız olmasaydı, özümü xeyli pis hiss edərdim.

– Bəs Eteri hanı? – katibəsini görməyən Şalva maraqlandı.

– Tualetə qaçdı, – Rezo izah etdi, – onun işi qaydasındadır. Bizim qonaq birinci onu itələyib stulla birlikdə yıxdı, buna görə də ona heç nə olmayıb.

– Sağ olun, – təsirlənmiş Çiladze Dronqoya əl uzatdı, – siz bu gün bizim hamımızı xilas elədiniz.

– Sadəcə, mən söhbətin Antverpen əvəzinə Amsterdamdan getdiyini biləndə başa düşdüm ki, burada nəsə var, – Dronqo aydınlıq

gətirdi. – Belə situasiyalarda isə bu böyük riskdir. Bu səbəbdən də mən sığortalanmağı qərara aldım.

– Sizin fikrinizcə, bağlamanı qatil göndərib? – Çiladze qaşqabaqla maraqlandı.

– Əlbəttə, yox. Bu, mənim gəlişimi belə qeyri-adi üsulla qeyd etmək istəyən qohumlarınızın işidir, – Dronqo hirslə zarafat elədi. – Mən axı sizi xəbərdar etmişdim ki, biz əsl peşəkarla üzləşmişik və o məhz sizi məhv eləmək üçün istənilən hiyləyə əl atmağa hazırdır.

– Axı niyə? – Şalva əsəbiləşdi. – Mən kimin yolunu bağlamışam? O, məni niyə belə inadla təqib eləyir? Mən ona neyləmişəm? Əvvəl-axır bu kimdir axı?

– Hələ cavabı olmayan çox suallar var, – Dronqo etiraf elədi.

– Ancaq o mənə artıq bombanı göndərdi, – Çiladze sınmış pəncərəni göstərdi.

Aşağıdan qışqırtı səsləri, polis siqnalının uğultusu eşidilirdi. Artıq dəhlizlə adamlar qaçıb gəlirdilər. Dronqo Çiladzeni itələyib kabinetə saldı.

– Buradan çıxmayın. Nə olursa olsun, kabinetdən çıxmayın. Siz isə Qorqaneli, buraya heç kimi buraxmayın. Tapançanızı çıxarın və heç kəsi buraxmayın. Yalnız öz həmkarınızdan başqa. Sonra müdiriniz üçün "Təcili yardım" çağırın, ancaq təcili olsun. Edqar, onun yanında dayan və heç kimi buraxma. Nə olursa olsun, heç kim Çiladzenin başına məhz nə gəldiyini görməməlidir. Hər şeyi anladın?

– Biz heç kimi buraxmarıq, – Veydemanis təsdiq etdi.

Dronqo otağa girib qapını açarla bağladı. Kabinet sahibinə baxdı.

– Mənim əməkdaşlarım oradadır, – Çiladze xatırlatdı, – onlar narahat olacaqlar.

– Mən də elə bunu istəyirəm. İstəyirəm ki, hamı təlaşa düşsün, amma heç kəs sizi sağ-salamat görməsin.

– Niyə? – Şalva başa düşmədi.

– O, sizi öldürmək istəyirdi, qoy elə bilsin ki, az qala məqsədinə çatıb. Siz ağır yaralanmısınız və bura tezliklə “Təcili yardım” gəlib sizi xəstəxanaya aparacaq. O bilməlidir ki, siz ciddi “zərər çəkmisiniz”.

– Sizi başa düşmürəm. Mənim işçilərim oradadır, onlar həyəcanlanırlar, narahatdırlar. İndi arvad-uşaqlarına zəng vurub burada baş verənlər haqqında danışacaqlar. Arvadım zəng eləyəcək...

O, sözünü bitirməyə macal tapmamış mobil telefonu zəng çaldı. O, aparata baxıb işıqlanan nömrəni gördü.

– Şərikimdir, – Çiladze məlumat verdi, – ən iri kommersiya bankının prezidentidir. Onun zənginə cavab verməyə bilmərəm. Əgər o, elə bilsə ki, məni ağır yaralayıb, ya da öldürüblər, şirkətimiz çox ciddi problemlərlə üzləşəcək...

– Elədirsə, bircə ona məlumat verin ki, başınıza heç bir qorxulu iş gəlməyib. Ancaq o, gərək bunu heç kimə bildirməsin, – Dronqo xahiş etdi.

Artıq qəbul otağında bura başqa mərtəbə və kabinetlərdən qaçıb gələn şirkət əməkdaşlarının səsləri eşidilirdi. Şalva başını tərpədib mobil telefonun zənginə cavab verdi.

– Sizi eşidirəm, – deyə azacıq titrəyən səslə cavab verdi.

– Nə olub, Şalva? – Bank prezidenti Vissarion Kuxanidze öz kiçik ortağından iyirmi yaş böyük olduğu üçün ona “sən” deyə müraciət edirdi. – Mənə indicə zəng vurub sənin otağında baş verən partlayış barədə məlumat verdilər. Nə baş verir orada?

– Qorxulu heç nə yoxdur, Vissarion Vaxtanqoviç, – Çiladze cavab verdi, – məndə hər şey qaydasındadır. Sadəcə, kiçik bir anlaşılmazlıq olub. Bağlamanı başqa şirkətə göndəribmişlər, təsadüfən gəlib bizimkinə çıxıb. Axşam sizə zəng edib hər şeyi danışaram. Siz heç bir şayiəyə-zada inanmayın. Mən sağ-salamatam. Bizdə hər şey qaydasındadır.

O, gürcücə danışırdı. Dronqo əlilə işarə verdi ki, Çiladze bir az astadan danışsın. Qəbul otağında onu eşidə bilərdilər. Səslərdən məlum olurdu ki, orada artıq çox adam var. Ancaq kabinetə hələlik heç kimi buraxmırdılar: Görünür, Rezo Qorqaneli, onun özünü yetirmiş həmkarı və Edqar Veydemanis uğurla müdafiədə dayanmışdılar.

– Mən sənə başqalarından çox etibar edirəm, – Vissarion Vaxtanqoviç ciddiyyətlə dedi, – ancaq sənin kabinetində və ya ofisində bomba partlaması xoşuma gəlmir. Adamların diqqətini öz

şirkətinə cəlb eləmək lazım deyil, Şalva. Yoxsa ortaya həddən artıq lazımsız sual çıxar. Məni başa düşürsən?

– Hamısını başa düşürəm, – Çiladze nəfəs aldı. – Mən axşam sizə zəng edib hər şeyi danışaram.

– Yaxşısı budur, gəl danışaq, – bankın prezidenti təklif etdi, – məncə, danışılası çox şey var. Xudahafiz, Şalva, ehtiyatlı ol.

Çiladze telefonu söndürüb Dronqoya baxdı.

– Bircə o çatmırdı ki, əsas şərikimlə aramız dəysin! Daha doğrusu, firmamızın sahibiylə – səhmlərin əlli bir faizi ona məxsusdur. Mənə isə yalnız iyirmi beş faizi çatır...

– Ona hər şeyi sonra danışarsınız. Başa salmağa çalışarsınız, – Dronqo təklif etdi.

– Olmaz. O tələb edir ki, yanına bu gün gedim.

– Qətiyyən. Siz yalnız mənim tapşırığımla hərəkət edəcəksiniz...

– Bu – müzakirəsizdir. Mən axı sizə izah elədim ki, o, bizim şirkətin faktiki sahibidir.

– Mənim məsləhətlərimdə bu müzakirə olunmur, – Dronqo ciddiyyətlə dedi, – hal-hazırda söhbət sizin pullarınızdan, yaxud şirkətin maraqlarından yox, həyatınızdan gedir.

– Mənim həyatımın bura nə dəxli var? – Çiladze əlini yellədi. – O, özünü təhqir olunmuş sayar. Mənim həyatımdan da vacib şeylər var...

– Doğrudur, – Dronqo gözlənilmədən dedi, – sizin üç oğlunuzun həyatı dünyanın bütün qızıllarından da vacibdir. Siz onları yetim qoymaq istəyirsiniz? Siz oğullarınızı atalarından məhrum etməyə hazırlaşaraq öz həyatınızı hansı ekvivalentdə dəyərləndirirsiniz? Özü də atanın onlara hər şeydən çox lazım olduğu yaşlarında.

Çilazde duruxdu. Qaşqabağını tökdü. Başını buladı:

– Haqlısınız. Heç özünüz də bilmirsiniz ki, necə haqlısınız. Babam öləndə atamın on dörd yaşı vardı. Müharibədə əsl kişi kimi həlak olmuşdu. Ancaq bu atamın vəziyyətini yüngülləşdirmədi. Bütün ömrü boyu əzab çəkirdi ki, böyüyəndə atası ilə söhbətləşə, məsləhətləşə, ona heç nə söyləyə bilməyib. Atasını yalnız uşaqkən gördüyünə baxmayaraq, mənə həmişə onun haqqında danışardı...

Bu zaman mobil telefon yenə zəng çaldı. Çiladze zəng edənin nömrəsinə baxıb heç Dronqodan da icazə istəmədən cavab verdi.

– Hə, Ketevan, mənəm. Məndə hər şey qaydasındadır. Yox, sadəcə, qaz partlayıb. Qaz balonu partlayıb, heç kimə heç nə olmayıb. Axı özün bilirsən ki, hərdən belə xoşagəlməz hallar olur. Yox, yox, heç kim zərər çəkməyib. Narahat olma. Sənə deyirəm ki, narahat olma. Qoy uşaqlar da heç yerə getməsinlər. Sənə də desələr ki, bizdə ölən olub, inanma. Qorxulu heç nə baş verməyib. Sənə sonra özüm zəng edərəm. Oğlanları da heç yerə buraxma. – O, söhbətini bitirib Dronqoya baxdı. – Zəng edən arvadım Ketevandı.

– Başa düşdüm, – Dronqo cavab verdi. – İndi isə mənə diqqətlə qulaq asın. İndi "Təcili yardım" gəlib sizi aparacaq. Nədən istəsəniz, şikayət edə bilərsiniz. Xəstəxanada sizin heç bir probleminiz olmadığını tez aşkar edəcəklər. Həmkarım dalınızca gələcək. Bacınız oğluna zəng edin, qoy istənilən yad bir maşın tutub xəstəxanaya gəlsin. Deyin ki, heç kimə heç nə deməsin. Mənim həmkarım da orada olacaq. Maşına oturub tez sərhədə tərəf yollanın. Oradan Gürcüstan-Azərbaycan sərhədinə lap az qalır. Pasportunuz özünüzdədir?

– Yox, evdədir.

– Bacınız oğluna tapşırın ki, gətirsin. Sərhəddə sizi başqa maşın gözləyəcək. İndi zəng edib deyəcəm ki, sizi qarşılasınlar. Gürcüstan vətəndaşlarının Azərbaycana vizasız getmək hüququ var. Maşın sizi Bakıya aparacaq, orada sizin qalmağınız üçün mənzil tutulacaq. Evdən heç bir şəxsi əşya götürməyin. Sizə lazım olanı yoldan alarsınız. Bakıdan isə baş səhmdarınıza və arvadınıza zəng vurub nə istəsəniz, deyə bilərsiniz. Bir vacib şərtlə: onlar bu barədə heç kimə heç nə deməməlidirlər. Yerinizi də dəqiq deməyin. Başa düşdünüz?

– Mən qaçmalıyam? – Çiladze qaşqabaqla xəbər aldı.

– Bəli, özü də mümkün qədər tez. Bu, sağ qalmaq və gözəl oğlanlarınızı yetim qoymamaq üçün ən yaxşı üsuldur. Yoxsa düşünürsünüz ki, sizsiz onların vəziyyəti yaxşı olacaq?

– Belə demək lazım deyil, – Şalva xahiş etdi, – hamısını başa düşürəm. Hər şeyi də siz deyən kimi edəcəyəm. Bəs şirkət necə olacaq?

– Sizin yəqin ki, müavininiz, yaxud vitse-prezidentiniz var. Qoy siz müalicədə olan müddətdə işləri bir neçə gün o aparsın. Hamı elə bilməlidir ki, siz bomba partlayışından zərər çəkmisiniz və indi müalicədəsiniz. Qoy qatil olduğunuz yeri axtarsın. Ora köhnə müstəntiqinizi göndərərsiniz; yəqin ki, o, bu tapşırığın öhdəsindən mühafizə işindən daha yaxşı gələr. Bizim rəqib tərəfindən bütün gözlənilməz hadisələrə hazır olmaq lazımdır. Hər şeydən əvvəl o, çox dərrakəli adamdır və sizi tapmaq üçün əlindən gələni edəcək. Deməli, gec-tez Bakıya gedib çıxa bilər. Mənim vəzifəm təkcə sizin həyatınızı xilas etmək deyil, həm də bu yaramazı ifşa etməkdir.

– Sizi anlayıram, – Çiladze ağır-ağır nəfəs aldı, – əlbəttə, haqlısınız. Mənə dediklərinizin hamısını yerinə yetirəcəm. Bu gün hamımızı xilas etdiyiniz üçün sizə minnətdarlığımı bildirirəm.

– Siz artıq mənə təşəkkür etmisiniz, – Dronqo cavab verdi, – indi isə divana uzanıb "Təcili yardım" briqadasının gəlişini gözləyin. Ürəyinizdən, ya mədənizdən şikayət edə bilərsiniz. Ya da baş ağrısından. Nədən istəsəniz. Bircə onlar sizi buradan xərəkdə aparsınlar ki, hamı bunu görsün. Müavininizə zəng edin ki, sizin işlərinizi öz üzərinə götürsün.

– Baş üstə, – Şalva razılaşıb yenə telefonu çıxartdı.

Dronqo Veydemanisə zəng etməyi qərara aldı.

– Mən "Təcili yardım"ın həkimləri gələnəcən qapını içəridən bağlamışam, – deyə bildirdi. – Orada işləriniz necədir?

– Burada əlli nəfər adam var, çoxusu da qadınlardı, – Edqar şikayətləndi, – onları zorla saxlayırıq. Hamısı eyni zamanda çığırır, danışır, kabinetə doluşmaq istəyirlər. Yaxşı ki, onun katibəsi qayıtdı. O, bizə yaxşı kömək edir.

– Aydındır. Sən onun dalınca xəstəxanaya getməli olacaqsan. Ora onun bacısı oğlu gələcək. Dərhal Azərbaycan sərhədini keçərsiniz. Mən danışıb elə edəcəyəm ki, orada sizi maşın gözləsin. Onu Bakıya apararsan. Ünvanı bilirsən. Biz bu "məktubu" ona göndərənin kim olduğunu bilənəcən qoy orda qalsın.

– Hər şeydən əvvəl yaman inadkar oğlandır, – Edqar dedi.

– Hə, mən də fikir verdim. Özü də çox dərrakəlidir. Hər kəs üçün o dünyaya təkraredilməz, eksklüziv göndəriş üsulları hazırlayır. Bu artıq psixopatik bir şeydir. Və onu ələ verə biləcək bir səhvdir...

– Biz onsuz da hələ bunun Salambəy olduğunu dəqiq bilmirik. Bağışla, yenə soxulurlar...

– Möhkəm dayan və heç kəsi buraxma, – Dronqo məsləhət verdi, – bircə "Təcili yardım"ın həkimləri gələndə buraxarsan.

O, üzünü divanda oturmuş Şalva Çiladzeyə tərəf tutdu. Çiladze müaviniylə qızğın söhbət edirdi.

– Uzanıb danışın, – Dronqo tələb etdi, – onda siz belə tez-tez danışa bilməyəcəksiniz və o sizin vəziyyətinizi hiss edəcək.

Şalva narazı-narazı Dronqoya baxdı, ancaq itaətlə divana uzanıb danışmağına davam etdi. Onun cavabsız qalan şəhər telefonları zəng çalmağa başlamışdı.

– Müavininizin adı nədir? – kabinet sahibi söhbətini bitirəndə Dronqo soruşdu.

– Şamanadze Elizbar Konsantinoviç, – Çiladze bildirdi, – çox bacarıqlı mütəxəssisdir. Mənim atamla da işləyib. O, məndən iyirmi beş yaş böyükdür və sözsüz ki, ona etibar edirəm.

Demək olar ki, bu anda katibə zəng vurub, axır ki, “Təcili yardım” həkimlərinin gəldiyini xəbər verdi.

– Qapıları açın, ancaq elə edin ki, kənar şəxslərin heç biri otağıma girməsin, – Şalva Qriqoryeviç xahiş etdi.

Bir dəqiqədən sonra həkimlər qaçaraq kabinetə girdilər. Çiladze divanda uzanmışdı. Katibənin və mühafizəçinin bütün səylərinə baxmayaraq, bir neçə adam yenə də özünü kabinetə sala bildi. Çiladze tez ürəyindən şikayətlənməyə başladı və həkimlər dərhal onu xəstəxanaya köçürmək qərarını verdilər. Nəbzini yoxlayıb xərəyə qoydular və bir neçə könüllünün köməyilə aşağı apardılar.

Şalva Çiladze xəstəxanaya aparılandan sonra Dronqo binadan çıxdı və ofisə prokurorluq və polis əməkdaşlarından ibarət üç maşının yaxınlaşdığını gördü. Onlar yuxarıya tələsirdilər. Ekspert gülümsündü.

Veydemanis çoxdan orada yox idi, köhnə müstəntiq Rezo Qorqaneli məlumatlı şahid roluna çox gözəl yarayırdı. Dronqo çevrilib şəhərin mərkəzinə tərəf addımlamağa başladı.

Həmin gün axşam Şalva Çiladze Bakıya yola düşdü.

## Yeddinci fəsil

Səhər Dronqonun otel nömrəsində telefon zəng çaldı. Xəfiyyə saata baxdı. Çiladze hələ beş saat əvvəl Bakıya çatmışdı və Edqar məlumat vermişdi ki, işləri yaxşı gedir. Doğrudanmı orada da problemlər meydana çıxmışdı? Hərçənd bu qeyri-mümkün idi, yoxsa Veydemanis mobil telefona zəng edərdi. Dronqo dəstəyi götürdü və gürcü ləhcəsi aşkar hiss olunan naməlum səs eşitdi.

– Sabahınız xeyir. Bağışlayın ki, sizi narahat edirəm.

– Qorxulu heç nə yoxdur. Sizi eşidirəm. Danışan kimdir?

– Şamanadzedir, mən şirkətin vitse-prezidentiyəm.

– Elizbar Konstantinoviç? – Dronqo dəqiqləşdirdi. – Şalva Qriqoryeviç haqqınızda mənə danışıb.

– Siz indi onun harada olduğunu bilmirsiniz? – Şamanadze xəbər aldı.

– Yəqin, ya evdədir, ya da xəstəxanada.

– Yox, evdə yoxdur. Mən artıq onun arvadıyla danışmışam. O, səhər zəng vurub və bildirib ki, hər şey qaydasındadır.

– Onda niyə narahatsınız?

– Bu gün səhər kimsə xəstəxanaya gəlib Çiladzenin məhz harada olduğunu aydınlaşdırmağa çalışırmış, – Elizbar Konstantinoviç məlumat verdi.

– Haradan bilirsiniz?

– Rezo Qorqaneli zəng eləmişdi. O, Şalva Qriqoryeviçin adına yazılmış palatada növbətçilik edir. Çiladze özü oradan axşam çıxıb, Rezo isə onun əvəzinə oraya gedib. Biz elə eləmişdik ki, onun palatasına polis əməkdaşları buraxılmasın, guya Şalva özünü pis hiss edir. Dünən mən bu partlayışa görə düz iki saat onlarla izahat aparmışam.

– Ona nə dediniz?

– Həqiqəti. Amsterdamdan bizə bağlama göndərmişdilər. O, Qorqaneliyə şübhəli görünüb və onu pəncərədən atıb, bağlama elə bu zaman partlayıb. Onlar Rezo ilə söhbətləşiblər, o da təsdiqləyib ki, hər şey belə olub. Biz dedik ki, bağlamanı bizə səhvən göndəriblərmiş.

– Bəs xəstəxanaya gələn kimiymiş?

– Hələ ki, bilmirik. Ancaq Qorqaneli xahiş etdi ki, təcili sizə zəng edim. Dedi ki, özünüz hər şeyi başa düşəcəksiniz. Səhər xəstəxanaya naməlum bir şəxs gəlib, Şalva Çiladzenin səhhətiylə maraqlanırmış.

Dronqo saatına baxdı. Ona iyirmi dəqiqə qalmışdı.

– Bu nə vaxt olub? – deyə dəqiqləşdirdi.

– Təxminən yarım saat əvvəl, – Şamanadze bildirdi.

– Mən xəstəxanada olmalıyam. Siz mənə təcili bir maşın göndərə bilərsinizmi?

– İndi göndərərəm, – Şamanadze dərhal cavab verdi. – Yenə nəsə lazımdımı?

– Hələ yox, sağ olun. Mən gözləyirəm. Mobil telefonumun nömrəsini də yazın. – Dronqo öz telefonunun nömrəsini diktə elədi və ayağa qalxıb vanna otağına tələsdi ki, üzünü qırxıb duş qəbul edə bilsin.

Bir saat sonra o artıq xəstəxanada onu gözləyən Rezo Qorqaneli ilə söhbət edirdi. Çiladze lüks palatanın pulunu birhəftəlik ödəmişdi və silahlanmış Qorqaneli gecə buraya gəlmişdi. Gecə sakit keçmiş, səhər isə kimsə xəstəxanaya gəlib orada yatan Şalva Çiladze ilə maraqlanmışdı. Xəstəxana keşikçisi əvvəlcədən razılaşdıqları kimi dərhal hər şey barədə Qorqaneliyə məlumat vermiş, lakin o aşağı düşəndə naməlum adam aradan çıxa bilmişdi.

– Bu keşikçi haradadır? – Dronqo Qorqanelinin sözünü kəsdi. – O xəstəxanadadırmı?

– Aşağıda keşik çəkir, – Rezo başını tərpətdi, – onu tanıyıram. Əvvəllər bizim müəssisədənkənar qarovulda işləyib. Altmış səkkiz yaşı var.

– Aşağı gedək, – Dronqo təklif etdi.

Onlar tez aşağı, yaşlı kişinin növbə çəkdiyi vestibülə düşdülər. O, ortayaşlı, enlikürək, cüssəli, ağarmış qalın, gur saçlı və qırmızımtıl üzlü bir adamıydı. Keçmiş idmançılar kimi əl sıxırdı. Baqrat Boqdasaryan otuz ildən çox milisdə işləmişdi və təqaüdə çıxıb artıq çoxdandı ki, bu xəstəxanada işləyirdi. Bu gün səhər naməlum adamın buraya gəlib xəstəxanada yatan Şalva Çiladze haqqında məlumat almaq istəməsini də Qorqaneliyə o çatdırmışdı.

– Bu bizim dostumuzdur, – Rezo Qorqaneli Dronqonu təqdim etdi, – ona hər şeyi danışa bilərsən.

– Siz saat doqquzdan növbədəsiniz? – Dronqo dəqiqləşdirdi.

– Yox. Mən növbə çəkməyə səhər saat səkkizdən başlayıram. Məni xəbərdar etmişdilər ki, cənab Çiladze ilə maraqlananların hamısı barədə məlumat verim. Səhər Rezo Qorqaneli mənə bir də zəng etdi. Buna görə də bu naməlum cənab gəlib çıxanda dərhal onu bir az sakitləşdirməyə çalışdım. Ancaq burada tək otururam, yuxarıya da zəng edə bilmədim. O isə o dəqiqə getdi, onda mən yuxarı, palataya zəng vurdum.

– Onun görkəmi necə idi? – Dronqo soruşdu.

– Normal idi. Cavan oğlandı. Otuz yaşı olardı. Yox, hələ bir qədər də az.

– Siz əminsiniz ki, yaşı otuzdan aşağıydı?

– Əlbəttə, əminəm. Lap cavan idi.

– Onu təsvir edə bilərsiniz?

– Açıq saçları, boz gözləri var, – Baqrat xatırladı, – boyca məndən bir az hündürdü. Burnu qırıq idi, görünür, əvvəllər boksla məşğul olmuşdu. Bığı yox idi. Deyəsən, iki-üç gün idi ki, üzünü qırxmırdı. Qara şalvar, ağ köynək və tünd-yaşıl rəngli yüngül gödəkcə geyinmişdi. Hələ üstündə xarici yazı da vardı.

– Nə yazısı?

– Bilmirəm. İngiliscə oxuya bilmirəm.

– Siz hansı dildə danışırdınız?

– Əlbəttə ki, gürcü dilində, – Baqrat təəccübləndi.

– Naməlum adam rus dilini bilirdi? – Dronqo yenə soruşdu.

– Yaxşı bilirdi, – Baqrat cavab verdi, – oğlan gürcüydü, buna şübhəm yoxdur. Nə erməniydi, nə azərbaycanlı, məhz gürcüydü. Bəlkə də meqrel idi. Ancaq dəqiq gürcüydü. Özü də yerlilərdən.

“Qəribədir, – Dronqo düşündü, – yaş nöqteyi-nəzərindən bu adam Şalva Çiladzenin xidmət etdiyi vzvodun tərkibində ola bilməzdi. İyirmi iki il əvvəl bu oğlan balaca uşaq idi. Həm də gürcüdür. Onun Nalçik və Vitebskdə baş verən cinayətlərlə nə əlaqəsi var?”

– Bəlkə o, sadəcə, gürcü dilində yaxşı danışırmış? – Dronqo əl çəkmədi.

– Yox, yox. O, dəqiq gürcü idi. Mən belə səhv edə bilmərəm, – Baqrat əminliklə dedi.

– Həm də onun otuz yaşı yox idi?

– Doğrudur.

– O hara getdi?

– Bax ora. Tinə döndü, – Baqrat göstərdi, – yəqin onu orda maşın gözləyirdi. O hiss elədi ki, mən onu azca ləngitmək istəyirəm, buna görə də o dəqiqə getməyə tələsdi.

– O nə dedi? Yaxşı olardı ki, sözbəsöz təkrar edəsiniz.

– Yaxınlaşıb soruşdu ki, bizdə xəstələr qeydiyyata alınırmı. Nəzakətlə soruşdu. Əvvəlcə salamlaşdı. Sonra da soruşdu. Mən də cavab verdim ki, əlbəttə, bizdə qeydiyyat var. Elə onda soruşdu ki, dünən gətirilmiş Şalva Çiladze özünü necə hiss edir.

– Sonra nə oldu?

– Dedim ki, indi baxaram. Çiladzenin soyadını eşidən kimi dərhal bu qərara gəldim ki, zəng etmək lazımdır.

– Ancaq zəng etmədiniz?

– O dəqiqə yox. O hər şeyi başa düşə bilərdi. Mən dedim ki, Çiladze dünən yerləşdirilib, jurnalda qeyd olunub. Ancaq dünən axşam mən növbədə olmamışam və təzə xəstənin özünü necə hiss elədiyindən xəbərim yoxdur. Onda o məndən Çiladzenin hansı palatada yatdığını soruşdu. Dedim ki, indi jurnala baxaram. Öz köşkümə gəlib jurnalı açdım və özümü elə apardım ki, guya baxmağa başlayıram. Sonra başımı bulayıb ona dedim ki, heç bir qeyd yoxdur; zəng vurub dəqiqləşdirmək lazımdır. Və Qorqaneliyə zəng etdim. Ancaq görünür, oğlan nəsə başa düşdü. Mən ona məlumat verəndə çevrilib çıxışa tərəf

qaçdı. Mən çıxanda artıq yox idi. O yalnız tinə dönə bilərdi. Yəqin, ona tapşırmışdılar ki, ləngiməsin.

– Deməli, başa düşüb ki, siz kiməsə xəbərdarlıq etmək üçün zəng vurursunuz, – Dronqo dedi. – Görünür, bilirmiş ki, hər şeyi öyrənmək istəməsi kiməsə şübhəli görünə bilər.

– Yəqin bilirmiş, – Baqrat təsdiqlədi, – buna görə də o dəqiqə aradan çıxıb.

– Onu görsəniz, tanıya bilərsiniz?

– Həmin dəqiqə, – Baqrat dərhal cavab verdi. – Mənim güclü yaddaşım var: adamı bir dəfə gördümmü, bütün ömrüm boyu yadda saxlayıram. Sizə deyirəm ki, bu oğlan gürcüydü, özü də yerli gürcüydü. Dəqiq.

– Aydındır, aydındır... – Dronqo razılıqla başını tərpətdi, xudahafizləşib xəstəxananın binasından çıxdı. Rezo da ardınca getdi.

– Siz heç olmasa mənə izah edə bilərsinizmi, nə baş verir? – deyə maraqlandı. – Dünən siz məni danlayırdınız ki, silahı cəld çıxara bilməyəcəm. Görünür, əvvəlcədən bilirmişsiniz ki, Çiladzeyə sui-qəsd edilə bilər və mənə ətraflı məlumat verməyibsiniz. Sonra da az qala hamımızın axırına çıxacaq bu naməlum bağlama. Etiraf edirəm ki, dünən bizim hamımızı siz xilas etdiniz. Bu günsə yenə hansısa naməlum şəxs sizin dünən axşam harasa göndərdiyiniz Şalva Qriqoryeviçin yerini öyrənməyə çalışır. Nə baş verir, cənab ekspert? Sizin haqqınızda bir az eşitmişəm, cənab Dronqo. Bizim ölkədə sizi

pis tanımırlar. Ola bilsin ki, mən sizin kimi istedadlı deyiləm. Ancaq indi başa düşürəm ki, nəsə anlaşılmazlıq baş verir. Dünən dediniz ki, bizim rəisi reallıqdan da artıq təhlükə gözləyir.

– Belə ucadan danışmayın, – Dronqo xəstəxananın binasına göz gəzdirib xahiş etdi. – Haqlısınız. Məsələ ondadır ki, sizin müdirinizi doğrudan da təhlükə gözləyir. Mən buna bənzər bir şeyin baş verəcəyinə əmindim. Hələliksə, Çiladzenin həyatını xilas etmək üçün onu həqiqətən də gizlətmişəm. Onun üç qəşəng oğlu var, əgər onlar atasız qalsalar, mən özümü günahkar hiss edəcəm...

Qorqaneli təəccüblə və karıxmış halda öz həmsöhbətinə baxıb başını buladı:

– Siz həm də sentimentalsınız.

– Yox. Sadəcə rasionalam. Əgər oğlanlar Şalva Çiladze kimi bir atanın yanında böyüsələr, cəmiyyətin layiqli üzvləri, əsl kişi olmaq şansı qazanacaqlar. Əgər ataları öldürülsə, belə gənc yaşlarında yetim kimi böyüyəcəklər, bu da onların gələcək həyatlarına mütləq təsir edəcək. Dünyada şər çoxalır, cənab Qorqaneli, mənsə bu dünyada xeyirin şərə nisbətinə görə özümü məsuliyyətli hiss edirəm.

– Oğlanlar barədə haqlısınız, – Rezo köksünü ötürdü, – işə heç zaman bu cür mövqedən yanaşmamışam. İndi sizin dahi ekspert olmağınızın səbəbini anlayıram. Sizin təkcə ağlınız yox, həm də ürəyiniz işləyir. Bizim işimizdə belə uyğunluğa demək olar ki, heç zaman təsadüf olunmur.

– Bütün keçmiş əlaqələrinizi işə salın və rəisinizin avtomobilinin arxasınca düşən maşını tapmağa çalışın, – Dronqo təklif etdi. – O, mənə məlumat verdi ki, şəhərimizdə otuz-qırx belə maşın var. Tapmaq çətin olacaq. Ancaq indi bu oğlanın şəxsində konkret iziniz var. Siz Baqratın sözünə fikir verdiniz? Oğlanın burnu sınmışdı. Ola bilsin, o keçmiş boksçu, ya da güləşçidir, hərçənd güləşçilərin daha çox qulağı sınmış olur. Bu əlamətlərinə görə onu axtarmağınız xeyli yüngülləşəcək. Bütün tanışlarınızı axtarışa qatın. Məncə, bu maşını və sürücüsünü tapmaq sizin üçün asan olacaq.

– Bilirəm ki, Şalva Qriqoryeviç artıq daxili işlər nazirinin müavininə zəng edib, onlar avtomobili axtarırlar, – Rezo bildirdi. – Amma mən bu oğlanı da tapmağa çalışacam. Mənim nə qədər vaxtım var?

– İki gün, – Dronqo köks ötürdü. – Əgər qatil mənim bu cinayətlərə qarışdığımı bilsə, Çiladzeni harada gizlədiyimi asanlıqla tapa bilər. Və onda biz qatili artıq başqa yerdə axtarmalı olacağıq.

– Güman edirsiniz ki, bizim hiyləgər rəqibimiz elə bu cavan oğlandır? – Qorqaneli heyrətləndi.

– Yox. Mən onun kim olduğunu bilmirəm, amma biz onun köməyilə qatili tapa bilərik. Yəqin o, qatilin cinayət yoldaşı, yaxud şərikidir. Ya da köməkçisidir, hərçənd mən hələ də onun haradan çıxdığını anlaya bilmirəm. İstənilən halda onu tapmaq faydalı olacaq.

– Mənə daha burada qalmaq lazımdırmı?

– Yerinizə başqa mühafizəçi göndərin, – Dronqo təklif etdi, – məncə sizin palatada mütləq kimsə növbə çəkməlidir. Hər ehtimala qarşı.

Rezo razılaşıb mobil telefonunu çıxardı. Dronqo çevrilib başqa tərəfə addımladı. Oteldə öz telefonundan Edqar Veydemanisə zəng etdi.

– Əgər bu gün qeyri-adi bir şey baş verməsə, sabah mənzili dəyişərsiniz, – deyə həmkarına məsləhət verdi. – Mən Bakıya öz qardaşıma zəng vuraram və o, sizə başqa sığınacaq tapar. Ancaq bu barədə yalnız üçünüz bilməlisiniz: o və siz. Sənə silah veriblər?

– Bəli. Ancaq onu da nəzərə al ki, mənim Azərbaycanda üstümdə silah gəzdirmək hüququm yoxdur. Mən Rusiya vətəndaşıyam. Mənim əvvəlki peşəm də əlavə olunsa, bu cür predmet çox təhlükəli ola bilər. Hələ məni casusluqda ittiham edərlər...

– O məsələ ilə işin yoxdur, – Dronqo məsləhət verdi, – o məsələyə toxunma. Onu sizin yeni mənzilinizə mənim qardaşım gətirəcək və şkafın içinə qoyacaq. Hamıya deyə bilərsən ki, bu silahdan heç xəbərin də olmayıb və onun sənə heç dəxli yoxdur. Daha yaxşı olar ki, o, sənin tapançanı alıb, oraya altıgülləli karabin qoysun. Qəşəng şeydir, qabanı və ya ayını bir gülləylə öldürür.

– Karabinə razıyam, – Veydemanis güldü, – bircə top-raket olmasın, yoxsa onları haradan aldığımı izah edə bilməyəcəm.

– Bir də ehtiyatlı olun, – Dronqo yenə xatırlatdı, – bu gün səhər xəstəxanada kimsə Çiladzenin səhhətilə maraqlanırmış.

– Sizin artıq bu adamın görünüşü haqda məlumatınız var? – Edqar dərhal soruşdu. – Onu görən olubmu?

– Hələ söhbət də ediblər, – Dronqo məlumat verdi. – O, xəstəxanaya gəlib şəxsən Çiladzenin səhhəti barədə məlumat almaq istəyirmiş.

– Bu kimiymiş? Salambəy? Yoxsa başqa birisi? Niyə zəng eləməyib, özü gəlib?

– Bu, Salambəy olmayıb, – Dronqo izah etdi, – onda hər şey çox sadə olardı. Gələn cavan bir oğlanıymış. Yaşı otuzdan çox deyilmiş, gürcücə danışırmış, yerlilərdəniymiş.

– Qatilin belə bir köməkçisi peyda olub? – Veydemanis inanmadı. – Ancaq bu mümkün deyil.

– Mən də belə hesab edirəm. Amma xəstəxananın qarovulu ilə özüm söhbət eləmişəm. O, əvvəl milisdə işləyib və bu oğlanı yaxşı təsvir etdi. Görünür, qatil hər şeyi xırdalıqlarına qədər nəzərə alıb. O, bir yolla şübhəni üzərindən atmaq istəyib və şüurlu surətdə bu cavan oğlandan istifadə edib ki, bizi çaşdırsın. O, adi cinayətkar deyil, virtuoz-qatildir.

– Haqlısan, – Edqar razılaşdı. – O, əleyhinə məhz kimin oynadığını başa düşə bilər. Bəlkə sənə kömək eləmək üçün Tiflisə Krujkovu çağırasan?

– Qətiyyən. Mən izdiham içində asanlıqla aza bilərəm, çoxu da məni gürcü zənn edir. Krujkov burda dərhal seçiləcək. Onu da nəzərə al ki, gürcü vizasının alınması ona iki həftəyə başa gələcək. Axı sən mənimlə ona görə uçub gəldin ki, sənin latış pasportun vardı. Krujkovun isə belə pasportu yoxdur, o, viza almalıdır. İki həftə çox böyük müddətdir, hələ mən onun tipik rus görkəmiylə Gürcüstan xüsusi xidmətlərinin diqqətini cəlb edib mənə yalnız mane olacağını demirəm.

– İnandırdın, – Edqar razılaşdı. – Onda ikiqat ehtiyatlı ol. Bizsə səhər gəlirik. Bizə görə narahat olma. Məncə, bizi hələ heç bir təhlükə gözləmir.

– Ümidvaram, – Dronqo vidalaşanda dərin nəfəs aldı.

Və qapının ehtiyatla döyüldüyünü eşitdi. Ayağa qalxdı. Bircə bu çatmırdı. Silahı-zadı yoxdur. Ancaq qatil bu oteldə peyda olmaqla sadəcə bu cür risk edə bilməz. Yoxsa belə xoşagəlməz rəqibdən canını qurtarmaq üçün risk etmək qərarına gəlib? Dronqo gözləriylə iri bir əşya axtarmağa başladı. Araq butulkasından savayı heç nə yoxdur. Əlacsız qalanda silah kimi istifadə edə bilər. Dronqo qapıya doğru addımladı.

– Kimdir?

– Açın, cənab Dronqo.

Qadın səsi son dərəcə tanış gəldi. O hətta bu səsin nə qədər tanış olduğundan qorxdu da. Butulkanı stolun üstünə qoyub daha heç nə fikirləşmədən qapıya tərəf addımladı.

## Səkkizinci fəsil

Kandarda bir qadın dayanmışdı. O sanki ona yaxşı-yaxşı baxmaq üçün geri çəkildi. Qadın qara kostyum-şalvar, açıq-mavi kofta geyinmişdi. Saçları qısa vurulmuşdu, üzünün almacıq sümükləri irəli çıxmışdı. Neçə il keçmişdi görən? Onlar ilk dəfə doxsanıncı illərin ortalarında, Batumidə görüşmüşdülər. Yeddi ildən sonra o Tiflisə, general Qurqenidzenin müəmmalı qətlini araşdırmaq üçün gəlmişdi. Onda onlar ikinci dəfə görüşmüşdülər. Qadın onu yola salanda zarafatla demişdi ki, bir də on ildən sonra görüşəcəklər. Amma səkkiz il keçmişdi. Yoxsa yenə də yeddi ilmi? Dronqo Tamaraya baxdı. Onun qocaldığı hiss olunurdu. Deyəsən, o vaxt onun yaşı otuzdan bir az çox idi. İndi neçədir? Qırxı keçər. Qırx beş, yoxsa qırx altı? Kədərli dəyişiklikləri sezməmək mümkün deyildi. Lakin Dronqo özü də bir daha cavan olmayacaqdı.

Dronqo ən böyük sarsıntını bir neçə il qabaq sinif yoldaşının ürək tutmasından vəfat etməsi xəbərini alanda keçirmişdi. Dronqo onlarla bir ailə kimi yaşamışdı. Onun yaşı qırxdan bir az çox idi. Bu düzgün, ədalətli deyildi, belə olmamalıydı. Dronqo o zaman ilk dəfə

olaraq illər keçdiyini aydın hiss etmiş, əslində, neçə yaşı olduğunu xatırlamışdı. Yoxsa ona elə gəlirdi ki, həmişə cavanmı qalacaq? İndi qarşısında dayanmış qadına baxarkən ilk görüşlərindən neçə il keçdiyini anladı. O vaxtlar çətin vaxtlar idi, elə bil onlar hamısı yüz ilin tənhalığına məhkum olunmuşdular. “Məgər indi daha yaxşımı olub?”, – deyə düşündü. Xüsusilə də, Osetiya müharibəsindən sonra. O vaxtdan artıq iki il keçib.

– Salam, – qadın dedi, – üzündə elə ifadə var ki, elə bil mənim gəlişimə sevinmirsən.

– Mən, sadəcə, qorxdum, – Dronqo onun üzündən öpüb mızıldandı, – heç təsəvvürümə gətirmirdim ki, məni belə tez tapacaqsan.

Qadın otağa daxil olub bir siqaret çıxararaq alışqanı yandırdı.

“O saçlarını rəngləyir, – Dronqo düşündü, – mənim də gözlərimin altında şiş əmələ gəlib”.

– Bəlkə niyə qorxduğunu mənə başa salasan, – Tamara maraqlandı.

– Mən xatırlayanı, sən hələ keçən dəfə mühüm bir vəzifədəydin və general Qurqenidzenin qətlinin təhqiqatında mənə kömək etmişdin. İndi yəqin ki, generalsan?

– Hələ yox. Polkovnikəm. Yadımdadır, sən sonuncu dəfə məni çox könülsüz, hətta deyərdim ki, kobudluqla qarşılamış, məni az qala yanından getməyə məcbur eləmişdin. Sən onda da qorxmuşdun. Bəlkə

bəsdir qorxduğun? – O, siqareti yandırdı, sonra əliylə tüstünü qovdu. – Bağışla, sənin tütün tüstüsünü götürmədiyini unutdum.

– Mənim sözümdə nöqsan tutmaq lazım deyil, – yazı stolunun yanındakı stula oturaraq mızıldandı. – Sən yəqin ki, burada artıq nə baş verdiyindən xəbərdarsan.

– Sənsə elə zənn edirdin ki, bizim şəhərə gəlib Çiladzenin ofisində partlayış törədəcəksən, yerinə mühafizəçisini qoyub özünü qonşu respublikaya aparacaqsan, heç kim də heç nə bilməyəcək? Sənin gürcü xüsusi xidməti haqqında yanlış təsəvvürün var. Bu artıq dikbaşlıqdır, mənim əziz ekspertim.

– Əşi, nə dikbaşlıqdır, – o mızıldandı, – əslində əksinədir. Öz gücünə şübhə eləməkdir. Mən təcili Çiladzeni xilas etməliydim, buna görə də onu Bakıya göndərməyi qərara aldım.

– Yəni onu belə təhlükə gözləyir? Bizim məlumatlara əsasən, onun heç bir mafioz qrupu ilə əlaqəsi yoxdur, vergiləri müntəzəm ödəyir və ümumiyyətlə, ona bizim ən iri kommersiya bankının rəhbəri himayədarlıq edir, ona da heç bir problem lazım deyil. Sən niyə Çiladzeni xilas etməyə gəlmisən və onu öldürmək istəyən kimdir?

– Gəl belə eləyək. Nahar etmək üçün aşağı düşək, mən də sənə hər şeyi danışaram, – Dronqo təklif etdi. – Mənə hətta sənin köməyin lazım olacaq, albəttə, əgər kömək etmək istəsən.

– Baxır kimə işləməyinə, – Tamara etiraf elədi. – Onu da nəzərə al ki, əgər rus kəşfiyyatına işləyirsənsə, heç bir kömək gözləmə. Əksinə, səni burdan tez deportasiya edərlər.

– Bəs sən utanmırsan? Elə bilirsən ki, mən bura sizin ölkənizin əleyhinə işləmək üçün gələ bilərəm? Yəni doğrudanmı belə şey fikirləşə bilərsən?

– Fikirləşə bilmərəm, – o gülümsündü, – sən casusluq üçün çox məşhur adamsan. Amma yeri gəlmişkən, elə işlərlə məşğul olursan ki, bundan heç kimin heç zaman xəbəri olmur.

– Düzdür, – o təsdiqlədi, – elə buna görə də sənə hər şeyi danışmaq istəyirəm ki, Çiladzeni xilas edib cinayətkarı tapmaqda mənə kömək edəsən.

– Onda gedək, nahar eləyək.

O, siqareti külqabıda söndürdü və çantasını açıb siqaret qutusunu və alışqanı içinə qoydu. Onlar nömrədən birlikdə çıxdılar, o, ədəblə qadına yol verdi. Aşağı, restorana düşdülər. Nəzakətli ofisiant dərhal onlara tərəf gəldi və Tamara çərəz və balıq yeməkləri seçib sifarişi özü verdi. Sonra ağ şərab gətirməsini xahiş etdi...

– Görüşümüzün sağlığına, – deyə başladı. – İndi mənə danışmaq istədiklərinin hamısını danış.

O, heç nəyi gizlətmədən hər şeyi ətraflı danışdı. Yuli Qorçilinlə görüşdüyünü, onun qeyri-adi təklifini, Əfqanıstan dağlarında baş verən əhvalatı, iki naməlum qətli: polkovnik Əhməd Elqarovun, şəhər

İcraiyyə Komitəsinin sədr müavini Feliks Qorditskinin öldürülməsini, Şalva Çiladzeyə sui-qəsd cəhdini, Çiladze barədə məlumat almaq üçün xəstəxanaya gəlmiş naməlum gənc oğlanı... Öz monoloqunu qurtaran Dronqo Tamaraya sınayıcı nəzərlə baxdı.

– Vəssalam, – dedi. – Çiladzenin özünü isə mən doğrudan da Bakıya yollamışam. Bu doğrudur. Mən onu xilas etməliyəm, hələ də indiyədək bilmirəm ki, onu öldürmək istəyən kimdir.

– Biz Salambəy Muzayevi sorğu-sual edərik, – Tamara təklif etdi. – Əgər o sərhədi keçibsə, bizim sərhəd xidməti bundan xəbər tutmalıdır.

– Bəs əgər o sərhədi başqa pasportla keçibsə? – Dronqo soruşdu.

– Onda biz heç nə bilməyəcəyik. – O, şərab dolu qədəhi qaldırdı. – Sənin gəlişinin sağlığına.

– Sağ ol. Bizim görüşümüzün sağlığına.

Onlar qədəh-qədəhə vurub şərabdan azca içdilər.

– Əgər bütün dediklərin doğrudursa, bu Salambəy çox dərrakəli adamdır, – Tamara fikirli-fikirli dedi. – Bircə bu aydın deyil ki, o, köhnə yoldaşlarını niyə təqib edir? Əgər o yalnız Rusiya vətəndaşlarını öldürsəydi, mən heç olmasa onun motivasiyasını başa düşərdim. Çeçenistanda gedən iki amansız müharibə kimi desən, qəzəbləndirə bilərdi. Amma bəs belorus məmurunun bura nə dəxli var? Belarusiyanın ümumiyyətlə bu müharibələrə dəxli yoxdur. Ya gürcü biznesmeninin? Əksinə, biz gürcülər çeçen xalqının mübarizəsinə

rəğbətlə yanaşmışıq. Onda o, niyə Qorditskini öldürüb, Çiladzeni də məhv etmək istəyir?

– Bu sualları mən lap əvvəldən özümə verir və ağlabatan cavab tapmıram, – Dronqo etiraf etdi, – buna görə də göstərə biləcəyiniz hər bir kömək mənim üçün çox gərəklidir. Əsas Çiladzeni izləyən maşını, bir də səbəbi məlum olmadan şəxsən xəstəxanaya gələn oğlanı tapmaqda mənə kömək etməyinizdir. Mən bu suallara cavab tapmaq üçün Rezo Qorqanelidən bütün keçmiş əlaqələrini işə salmağı xahiş etmişəm.

– Biz bunu köhnə müstəntiqdən də yaxşı edə bilərik... – Tamara gülümsündü. – Sən heç nə yemirsən. Yoxsa diyet saxlayırsan?

– Bunun nə olduğundan heç xəbərim də yoxdur. Xoşuma gələn hər şeyi yeyirəm. Sənsə, deyəsən, yeməyini məhdudlaşdırmısan.

– Özü də necə! – Tamara gülümsədi. – Mənim yaşımda artıq üzün dartılmasına dair plastik əməliyyat və fiqura bənzər bir şeyin saxlanılması üçün xüsusi diyet haqqında ciddi düşünmək lazımdır.

– Kompliment dedizdirməyə başlama. Sən gözəl görünürsən.

– Lazım deyil. Özüm də bilirəm ki, o qədər də gözəl görünmürəm və son on ildə çox dəyişmişəm. Neçə ildir görüşmürük?

– Səkkiz...

– Mən dəyişmişəm. Yaxşı tərəfə yox. Kökəlmiş, qocalmış, axmaqlaşmışam, – o, gözlənilmədən dedi.

– Sən artıq naz eləyirsən. Polkovnik çinlərini hər yoldan keçənə vermirlər. Hətta sizin ölkəniz kimi kiçik ölkədə də.

– Onları uzun müddət xidmətə görə verirlər, – Tamara gülümsədi, – sənsə qarşında menopauza intizarıyla yaşayan qadın görürsən. Belə bir termin var.

– Xasiyyətin heç dəyişməyib, – gülümsədi, – elə həmişəki kimi cəsursan. Özün və başqaları haqqında düşündüklərinin hamısını açıq deyə bilərsən.

– Məgər bu pisdir?

– Çətindir, – Dronqo cavab verdi. – Deməli, indi sən bu qəribə işin içini bilirsən. Mən bu adamları kimin öldürdüyünü və Çiladzenin dalınca niyə düşdüyünün səbəbini bilməliyəm.

– Belə başa düşdüm ki, sən hələ də Salambəy Muzayevdən şübhələnirsən?

– Mən onun cinayəti törətmə səbəblərini anlamağa çalışıram. Özün dedin ki, onlar anlaşılmaz olaraq qalır.

– Gəl elə zənn edək ki, sən məni inandırdın. İndi sənə kömək etməyə çalışacam. Çalışarıq, bu yoxa çıxmış çeçeni və xəstəxanadakı qonağı axtarıb tapaq.

– Bu halda sən Çiladzeni qorumaqda sadəcə mənə kömək edə və üç oğul atasını qurtara bilərsən, – Dronqo cavab verdi. O, yenə qədəhlərə şərab süzdü. – Qapının ağzında cavan bir oğlan oturub, elə hey biz tərəfə baxır, özü də marağını gizlətmir. Bu sənin işçin deyil?

– Hə, – Tamara geri çevrilmədən başını tərpətdi, – o, tək deyil. Küçədə, maşında bizi daha iki əməkdaşımız gözləyir.

– Məni həbs eləməyə gəliblər, yoxsa mənə kömək eləməyə? – Dronqo rişxəndlə gülümsündü.

– Bu məhz sənin mənə nə deyəcəyindən asılıdır, – Tamara qədəhini qaldırıb vicdanla cavab verdi. – Sənin sağlığına, əziz qonaq.

Qədəhlər bir də, demək olar, səssizcə toqquşdu.

– Bilirdim ki, bir dəfə bütün bunlara son qoyulacaq. Sən məni ya həbs edəcək, ya da güllələyəcəksən, – Dronqo kədərlə dedi. – Xoşuma gələn gözəl bir ifadə var: “Heç zaman əvvəllər xoşbəxt olduğunuz yerə qayıtmayın”.

– Bura Batumidir, yoxsa Tiflis? – Tamara dəqiqləşdirdi.

– Əlbəttə, Batumidir. O zaman biz necə cavan idik... Sən mafiya ilə əlbir olan adam rolunu elə bacarıqla oynadın ki, sənin kimə işlədiyin dərhal aydın oldu. Amma o vaxtdan neçə illər keçib.

– Mən saya bilirəm, – o ah çəkdi. – Yeri gəlmişkən, sənə mənimlə getməyi təklif edirəm. İndi belə eləyərik: naharı qurtarıb bizə gedərik. Əgər sən bizə lazım olan adam olmasaydın, biz səni izolyatora aparardıq. Madam ki, bura ekspert kimi gəlmisən, biz də səninlə məşhur ekspert kimi rəftar edəcəyik. Gürcüstanda sənin haqqında əfsanələr dolaşır. Həm də sənin meqrel nənən hamını mütəəssir edib. Hələ belə bir əfsanə də gəzir ki, o Lavrenti Beriyanın qohumu olub.

– Bu əfsanə deyil, – Dronqo etiraz etdi, – o, doğrudan da, Beriyanın qohumu olub. Deyəsən, əminəvəsi, ya əminəticəsi olub. Nəsə buna bənzər bir şey.

– Ay-ay, – Tamara bic-bic gülümsədi, – sizin nə pis əsil-nəsəbiniz var, cənab ekspert! Uzaq qohumlarının içində belə qatil və cəlladın olması... Sadəcə, dəhşətdir.

– Bəs o biri qohumlar sayılmır? – Dronqo maraqlandı. – Niyə gürcülər belə millətçidirlər? Bir damcı gürcü qanı mənim tərcümeyi-halımda ən mühüm şeydir. Qalan faizlər isə hesaba alınmır; yalnız ona görə ki, onlar başqa qandandılar?

– Biz kiçik xalqıq və bizim üçün hər bir insan hesaba alınır, – Tamara etiraz etdi. – Dünyada nə qədər azərbaycanlı yaşayır. Təkcə qonşu dövlətdə səkkiz milyondur.

– Artıq doqquzdur...

– Bax görürsən, hələ bir neçə milyon da Rusiyada və MDB-nin başqa ölkələrindədir. Təkcə bizdə yarım milyondur. Otuz milyon da İrandadır. Razılaş ki, bu təəssürat oyadır. Ermənilərin dünyada, Ermənistanın özündən də böyük sayılan diasporları var. Bu qədər az olan zavallı gürcülərə nə qalır – damarında bir damcı da olsa, gürcü qanı axan hər kəsi yalnız sevmək və qorumaq, – Tamara təbəssümünü güclə saxlayaraq izah etdi.

– Onda əlbəttə, gedək sizə, – Dronqo gülərək razılaşdı. – Bircə nəzərə al ki, biz çox sürətlə iş görməliyik. Əgər qatil bu qədər

təcrübəli adamdırsa, yəqin başa düşməlidir ki, Gürcüstanda çox qalması təhlükəli ola bilər.

Onlar on dəqiqədən sonra naharı bitirib çıxdılar. Gəldikləri idarədə Tamara qonağı fəxrlə bütün əməkdaşlarına və həmkarlarına təqdim etdi, hətta onu idarə rəisinin yanına aparıb general Qurqenidzenin işinin təhqiqində ekspertin köməyindən uzun-uzadı və qızğınlıqla danışdı. Sonra lazım olan maşının axtarışları başladı. Ona bənzəyən bütün avtomobillər qeydə alındı və müəmmalı "Hunday"a oxşayan hər bir maşının sahibi yoxlanıldı. Nəhayət, axtarışlar başa çatdı. Avtomobil sahiblərinin heç biri xəstəxanaya gələn gəncə oxşamırdı.

Dronqo ilə Tamara operativ informasiya alınan otaqda oturmuşdular. Sonuncu maşın sahibinin məlumatları axşam saat səkkizdə daxil oldu. O, məlumatı oxudu, bələdiyyə idarəsinin əməkdaşı və beş nəvənin babası olan maşın sahibinə baxdı, fotoşəkil vurulmuş blankı qonağına uzatdı.

– Bu sonuncudur, – deyə xatırlatdı, – biz bütün maşınları yoxladıq. Heç bir oxşar sahib tapmadıq. Ola bilsin ki, avtomobil başqaymış, Çiladzenin qohumu onu səhv salıb.

– Düşünmürəm, – Dronqo fikirli-fikirli cavab verdi, – oğlan avtomobil həvəskarıdır, markanı, yaxud rəngi dəyişik sala bilməzdi. Deməli, avtomobillə xəstəxanaya gələn oğlanın bir-birilə heç bir əlaqəsi yoxdur. Şübhəli də olsa, bu da mümkündür.

– Niyə? – Tamara başa düşmədi.

– Çox böyük riskdir, – Dronqo izah etdi. – Onda belə çıxır ki, bizə məlum olmayan qatil əvvəlcə bir sürücülü maşın tutub, sonra yəqin ki, qabaqlar tanımadığı gənci ona kömək etməyə razı salıb. Gözlənilməz təsadüf lap çoxdur. Peşəkarlar belə iş görmürlər. Və bu xəstəxana səfəri mənim heç xoşuma gəlmir. Elə bil qatil bizə işarə vurur ki, bizdən çox da ehtiyat eləmir; elə bil deyir ki, məni nə qədər istəsəniz, axtara bilərsiniz, amma mən xəstəxanaya qəsdən adam göndərirəm ki, onu axtarasınız. Bilmək istəyirəm ki, o, bunu niyə eləyib?

– Çalışarıq fotorobot düzəldək, – Tamara təklif etdi. – Sabah səhər xəstəxananın qarovulu Baqrat Boqdasaryanın dalınca adam göndərərik ki, gənc oğlanın portretini tərtib etməkdə bizim mütəxəssislərə kömək etsin. Onu tapmağa çalışarıq.

– Bu çox vaxt aparacaq.

– Sənə başqa heç nə təklif edə bilmərik, – Tamara məntiqlə cavab verdi.

Dronqo telefonunu çıxarıb Veydemanisin nömrəsini yığdı. Salam vermək əvəzinə soruşdu:

– İşləriniz necədir?

– Başqa mənzilə köçdük, – Edqar məlumat verdi, – bizə görə narahat olma. Mənimçün karabin saxlayıblar. Divarda ən görünən yerdən asılıb. Artıq doldurulmuş vəziyyətdədir.

Dronqo telefonu söndürdü.

– Muzayevin işini yoxlamısınız? – deyə maraqlandı. – Bəlkə sizin dövlət sərhədini bu əlamətləri olan bir adam keçib?

– Bizim sərhəd xidmətinin məlumatlarına əsasən, son iki həftə ərzində bizim belə soyadlı qonağımız olmayıb, – o cavab verdi, – biz artıq dəqiq məlumat almışıq.

Dronqo yenə telefon çıxarıb Qorçilinin nömrəsini yığdı.

– Axşamınız xeyir, Yuli Dmitriyeviç, – biznesmenin səsini eşitcək dedi. – Sizə iki xəbərim var: biri pisdir, biri yaxşı.

– Pisdən başlayın, – Qorçilin cəsarətlə təklif etdi. – Çiladzeyə nə olub? Cani ona xətər yetirib? Ona neyləyiblər?

– Pis xəbər odur ki, onu öldürmək istəyiblər, – Dronqo məlumat verdi, – bu isə o deməkdir ki, sizin naməlum qatil həqiqətən mövcuddur və bizim problemlərimiz var. Böyük problemlərimiz var.

– O həlak olub? – Qorçilin tez soruşdu. – Doğrudanmı məhv olub?

– Yox, sağ qalıb. Ancaq qatil ona içinə "hədiyyə" qoyulmuş bağlama göndərib. Orada bomba olub. Buna görə də sizdən dönə-dönə xahiş edirəm: şəhərətrafı evinizdə heç kəsi qəbul etməyin və sizə göndərilən bütün bağlamaları geri yollayın. Hərçənd əminəm ki, qatil bu üsuldan təkrar istifadə etməyəcək, yeni üsul fikirləşəcək...

– Nə üsul? – Qorçilin qorxdu.

– Sizin qətlinizi, – Dronqo mehribanlıqla izah etdi.

– Bəli, bəli, aydındır, – Qorçilin çeçədi. – Bəs Şalva necə olsun? O indi haradadır?

– Etibarlı yerdədir, – Dronqo cavab verib xudahafizləşərək telefonu qarşısındakı stola qoydu.

– Sən cənab Subbotini də xəbərdar etməlisən, – Tamara onun yadına saldı. – Əgər hər şey belə ciddidirsə...

Bu zaman mobil telefon zəng çaldı. Dronqo displeyə baxdı. Nömrə tanış deyildi. Maraqlıdır, kim ola bilərdi? Gürcü nömrəsiydi. O cavab verdi.

– Eşidirəm sizi.

– Tapmışıq, – Rezo Qorqanelinin qalibanə səsi eşidildi, – biz onu tapmışıq.

## Doqquzuncu fəsil

Dronqo aparatı əlində bərk-bərk sıxaraq Tamaraya baxdı.

– Danışın, – deyə xahiş etdi.

– Bu Tariyel Xubutiyadır! – Rezo qışqırdı. – Biz əvvəlcə bütün kartotekanı yoxladıq, sonra mən Dövlət Avtomobil Müfəttişliyinin keçmiş əməkdaşlarından soruşdum ki, siyahıya baxsınlar və bu maşınları cavan uşaqlardan kimin idarə edə biləcəyini xatırlasınlar. Bizimkilərdən biri yadına saldı ki, Anzor Xubutiyanın bir bacısı oğlu var, etibarnamə ilə onun maşınını sürür və bizim axtardığımız adama

bənzəyir. Özüm hər şeyi yoxlayıb qurtarıncaya qədər zəng edib sizi narahat etmək istəmədim. Bu, bizim axtardığımız həmin cavan oğlandır. Mən onun şəklini tapıb Baqdasaryana göstərdim. O, dərhal oğlanı tanıdı.

– Onlar maşını və xəstəxanaya gələn gənci tapıblar, – Dronqo Tamaraya məlumat verdi və bir andaca yerindən qalxdı.

– Siz indi haradasınız? – Dronqo maraqlandı.

– Çavçavadze prospektində, onun evinin yanında, – Qorqaneli cavab verdi. – Əgər lazımdısa, öz dostlarımı çağırım, onu özümüz götürək.

– Qətiyyən, – Dronqo kəskin etiraz etdi. – Ümumiyyətlə, oradan çıxın gedin ki, sizi heç kəs görməsin. Biz indi gəlirik. Evdən imkan qədər uzaq olmağa çalışın.

O, telefonu söndürüb Tamaraya baxdı.

– Onlar onu necə tapıblar axı? – qadın heyrətləndi. – Biz axı hər bir avtomobili, bizdə qeydiyyata alınmış hər bir “Hunday” maşınını yoxlamışdıq!

– Hər şey çox sadədir, – Dronqo izah etdi. – Rezo Qorqaneli Şəhər Milis İdarəsinin keçmiş müstəntiqidir. Sözsüz ki, köhnə həmkarları və iş yoldaşları arasında əlaqələri var. Şəhər dövlət müfəttişliyinin köhnə əməkdaşları arasında şəhərdə hər bir avtomobili tanıyan mütəxəssislər az deyil. Bir dəfə maşına baxan kimi o dəqiqə kimə məxsus olduğunu, kimlərin onda gəzdiyini deyirlər. Mənim

Dövlət Avtomobil Müfəttişliyində rəis tanışım vardı, istənilən, hətta başqa şəhərdən gəlmiş maşına baxıb dərhal sürücüsünün kim olduğunu, onun məhz nə apara biləcəyini yanılmadan deyirdi. Peşəkarlıq buna deyərlər. Görünür, bu həm də onların sürücüdən pul qopararkən səhv etməmələrilə əlaqədar idi. Belə hallarda avtomobil müfəttişləri özlərini əsl psixoloq kimi aparırlar: onlar kimdən pul götürməyi, kimdən zorla qoparmağı, kimdən isə qəti surətdə almamağı bilirlər.

– Ölkəmizin o vaxtları keçmişdə qaldı, – Tamara cavab verdi, – bizim Dövlət Avtomobil Müfəttişliyini sadəcə transformasiyaya lazım olmayan struktur kimi ləğv elədilər, bütün əməkdaşlarını da işdən çıxartdılar. Onların əvəzinə isə peşə nüfuzunu dərk edən və çox yaxşı sosial güzəştləri, o cümlədən də normal maaşı olan cavan oğlanları təyin etdilər.

– Afərin, – Dronqo bəyəndi. – Amma hərdən belə hallarda kömək etmək üçün köhnə rüşvətxorlar da lazım olur.

– Gedək, – Tamara qərar verdi, – mən bizim əməliyyatçıları götürəcəyəm. Necə bilirsən, beş-altı adam bəs edər? Bircə demə ki, biz ikilikdə gedəcəyik. Mən onsuz da sənin belə axmaqlıqla risk eləməyinə imkan verməyəcəm.

– Mən də elə sənə bunu təklif etmək istəyirdim, – o etiraf elədi, – özünlə əməliyyatçı götürmək lazım deyil. Mən demək olar, əminəm ki,

biz müəmmalı təşkilatçımızı orada tapmayacağıq. Buna görə də lazımsız hay-küy yaratmağa dəyməz...

– Biz iki əməliyyatçı maşını götürərik, – Tamara qətiyyətlə dedi, – bu müzakirəsizdir. Əvvəl-axır sən bizim ölkənin ərazisindəsən və söhbət artıq silsilə qətllər törətmiş və şəhərimizdə qətl planlaşdıran adamdan gedir. Sən daha bizə heç nəyi qadağan edə bilməzsən.

– Sağ ol. İndi sən mənə hər şeyi gözəl izah elədin, – Dronqo əllərini yellədi. – Amma gəl, belə eləyək: qoy onlar heç olmasa gözləsinlər, bu müddətdə mən bu oğlanla danışmağa çalışaram. Yarım saatdan sonra qoy sənin əməliyyatçıların onun mənzilinə hücum çəksinlər.

– Yarımca saat! – o razılaşdı. – Danışıqlar üçün yarım saat bəsdir, sonra bizim əməkdaşlar onu götürərlər.

Onlar hətta üç maşında getdilər: iki yüngül maşın və içinə bir anda təhlükəsizlik xidmətinin kamuflyaj forması geyinən altı-yeddi əməkdaşı dolmuş bir mikroavtobus. Dronqo narazı-narazı başını buladı. Çavçavadze prospektinə tez çatdılar. Rezo Qorqaneli artıq evin yaxınlığında onları gözləyirdi. Onlar lazım olan evin əlli metrliyində, qonşu həyətdə dayandılar. Xüsusi təyinatlıların və təhlükəsizlik xidməti əməkdaşlarının gəldiyini görən Qorqaneli qorxub Dronqoya yanaşdı.

– Mənim köməyim sizin nəyinizə lazım idi? – Rezo heyrətlə soruşdu. – Sizə belə bir struktur işləyir. Salam, kalbatono Tamara.

– Siz tanışsınız? – Dronqo soruşdu.

– Cənab Qorqaneli müstəntiq işləyəndə hərdənbir yollarımız kəsişirdi, – Tamara diplomatcasına cavab verdi.

– Sən demə, onun atasının öz maşını varmış, – Rezo bildirdi, – çox köhnə, ancaq yaxşı qalmış beşinci model BMV-dir. Ancaq Tariyel nə üçünsə dayısının “Hunday”ında gəzməyi üstün tutur. Bu, çox anlaşılmaz təvazökarlıqdır, xüsusən də oğlanın atasının indi Avropada olduğu bir vaxtda.

– Bəlkə o özü təvazökar adamdı, – Dronqo mızıldandı.

– Əgər istəsəniz, mən də sizinlə qalxardım, – Qorqaneli təklif etdi.

– Əsla, – Dronqo saatına baxdı, – artıq gecdir, gəlin tələsək.

– Siz hər şeyi mənsiz də öyrənə bilərdiniz, – Rezo yenə də kədərləndi.

– Yox, – Dronqo cavab verdi, – sizin avtomobil müfəttişliyinin köhnə və təcrübəli əməkdaşları olmasaydı, biz heç nə öyrənə bilməzdik. Axı adına bir avtomobil də qeyd olunmayan Tariyel Xubutiyanı tapmaqda onlar bizə kömək etdilər. Haradan bilmək olardı ki, avtomobil onun dayısına məxsusdur və o, maşını etibarnamə ilə idarə edir?

Onlar evə yanaşdılar. Qorqaneli binanı göstərib başa saldı ki, Tariyel üçüncü mərtəbədə yaşayır.

– Bəlkə əvvəlcə sizin əməkdaşlarınız gəlsinlər? – O, həyəcanla Tamaradan soruşdu.

– Mən də elə hesab edirəm, – Tamara təsdiqlədi.

– Yox, – Dronqo qəti etiraz etdi, – mən tək gedirəm. Mənə heç bir müşayiətçi-zad lazım deyil. Deyəsən, biz şərtləşmişik ki, mənim otuz dəqiqəm var.

– Mən doğrudan da söz vermişəm ki, bizim əməkdaşlarımız otuz dəqiqə gözləyəcəklər, – Tamara dedi, – ancaq mən söz verməmişəm ki, sənə belə ağılsızlıqla risk etməyə icazə verəcəm. Yəqin ki, sənin heç silahın da yoxdu. Mən səninlə birlikdə qalxacam. Mübahisə də eləmə. Heç kim qadında heç bir şübhəli şey tapa bilməz. Mən səninlə gedirəm, onu da nəzərə al ki, silahlıyam, çantamda silahım var.

– Etiraz etməyəcəm, – Dronqo razılaşdı, – mən belə mühafizədə özümü təhlükəsizlikdə hiss edirəm. Birlikdə gedək. Siz isə, Qorqaneli, bizi aşağıda gözləyin. Görək, bu cavan oğlan bizə nə deyəcək.

Onlar Tamara ilə birlikdə üçüncü mərtəbəyə qalxmağa başladılar. İkinci mərtəbənin meydançasına çatanda qadın dayandı.

– Olar, biz ora çatana kimi sənə bir sual verim? – deyə soruşdu.

– Əlbəttə.

– Nəyinə lazımdır bütün bunlar, – Tamara birdən soruşdu. – Sən axı varlı adamsan, İtaliyada ailən var. Onların yanına qayıt, sakit yaşa. Niyə belə riskə gedirsən, özünü banditlərin, qatillərin, hər cür

manyakların bıçağı, gülləsi qabağına atırsan? Nə üçün? Yoxsa adrenalinsiz yaşaya bilmirsən?

– Məsələ adrenalində deyil, – Dronqo etiraz etdi. – Əgər bu yaşımda daha heç bir iş görməmək və həyatdan ləzzət almaq üçün İtaliyaya getsəydim, özümü dəyərsiz adam hesab edərdim. Məsələ pulda deyil – mən doğrudan da qalan bütün həyatım boyu işləməyə və acından ölməyə bilərəm. İş mənim özümdədir. Mən hiss edirəm... hətta belə deyil – bilirəm, əminəm ki, təcrübəm, biliyim, gücüm, ağlım Xeyir və Şərin əbədi mübarizəsində adamlara gərək ola bilər. Əgər bilmək istəyirsənsə, mən bu mübarizəni bir missiya kimi dərk edirəm. İşlədiyim zaman bir neçə təhlükəli cinayətkarı tutmuş, bir neçə dolaşıq cinayəti açmış, bir neçə bədbəxt qurbanı xilas etmişəm. Əgər bir adamı da xilas etsəydim, öz həyatımı uğurlu sayardım. Mənə elə gəlir ki, Allah (əgər o mövcuddursa), yaxud Qismət, Tale mənə insanlara konkret fayda vermək imkanı nəsib edib. Və bu səfeh patetika deyil, dünyəvi Şərlə mübarizədə kömək etmək tələbatıdır. Deyəsən, sənə bu dünyanın bütün gözəlliklərinə cavabdeh olduğunu deyən bir ingilis kralı haqqında danışmışam. Sualına cavab verdimmi?

– Bəli, – o başını tərpətdi, – səndən başqa cavab da gözləmirdim. Sən dəyişməzsən.

– Bu da komplimentdir, – o, yoluna davam edə-edə etiraz etdi. – Mən keçəlləşmiş, kökəlmiş, qocalmışam. Hələlik gözləmədiyim yeganə şeylər yaxınlaşan menopauzalardı. Hərçənd kim bilir...

Tamara üzünü ona tərəfə tutub astadan güldü.

Üçüncü mərtəbənin mənzillərinin qarşısındakı meydançaya ikilikdə qalxdılar. Dronqo Tamaranı bir kənara çəkib qapının zəngini basdı. Kiminsə addım səsləri eşidildi. Tamara çantasını açdı. Dronqo ona tərəf çevrilib məzəmmətləyici tərzdə başını buladı. Qapı arxasından yaşlı bir qadın səsi eşidildi.

– Kimdir? – deyə qadın gürcücə soruşdu.

– Salam, – Tamara cavab verdi, – sizi narahat etdiyimiz üçün üzr istəyirik. Bizə cənab Xubutiya lazımdır.

Qapı açıldı. Kandarda açıq-aydın yetmiş yaşı olduğu bilinən, xallı paltar geyinmiş ağ saçlı bir qadın dayanmışdı. “Gör neçə il keçib, dəb isə dəyişmir”, – Dronqo düşündü. Deyəsən, onun nənəsinin də belə paltarı vardı.

– Sizə kim lazımdır? – qadın dəqiqləşdirdi.

– Biz Tariyeli axtarırıq, – Tamara izah etdi.

– O mənim nəvəmdir, – qadın təsdiqlədi, – indi evdədir... Tariyel, qonaqların gəlib, – çevrilib dedi.

Qonşu otaqdan cavan bir oğlan çıxdı. O, boz şalvar və ala-bəzək köynək geyinmişdi. Dronqo onu görcək Baqrat Boqdasaryanın cavan oğlanı necə dəqiqliklə təsvir etdiyinə mat qaldı.

– Salam, – bir az karıxmış Tariyel dedi, – siz mənim yanıma gəlmisiniz?

– Bəli, – Tamara cavab verdi, – bizə məhz siz lazımsınız, cənab Xubutiya.

– Hansı məsələylə bağlı? – O, açıq-aşkar təəccüblənmiş və qətiyyən qorxmamışdı.

Tamara Dronqoya tərəf çevrildi.

– Bu cənab sizə bir neçə sual vermək istəyir, – deyə rusca əlavə etdi. – Siz rusca danışa bilirsiniz?

– Əlbəttə, bilir, – nənəsi söhbətə qarışdı. – O, rus dilini yaxşı başa düşür. Bəs siz haradan gəlmisiniz, hörmətli xanım?

– Biz turizm şirkətindənik, – Tamara gülümsədi – və nəvənizlə söhbət etməliyik.

– Qonaq otağına keçin, – nənə təklif etdi, – mən indi sizə qəhvə hazırlayaram. Sənsə Tariyel, öz qonaqlarını dəvət elə. Yəqin sənin otağın yenə də səliqəsizdir.

Tariel tərəddüdlə qonaq otağını göstərdi. Geniş otaqda yəqin ki, on doqquzuncu əsrin ortalarından qalmış köhnə mebel – ağır stullar, hündür kamod, servant qoyulmuşdu. Divarlardan qızıl çərçivəli şəkillər asılmışdı. Qonaqlar şəkillərdən birinə yanaşdılar.

– Babam məşhur heykəltəraş olub, – Tariyel şəkilləri göstərib izah etdi. – Bu, yerli rəssamların hədiyyələridir. Siz doğrudan da turizm şirkətindənsiniz?

– Əlbəttə yox, – Tamara cavab verdi. – Necə bilirsən, biz haradanıq?

– Polisdən, – Tariyelin rəngi tutuldu, – ya da vergilər idarəsindən...

– Deməк olar ki, tapdın, – o, stula oturub təsdiqlədi. – Bəs niyə belə hesab edirsən ki, səninlə məhz iki təşkilat maraqlanacaq?

– Bunu siz yaxşı bilərsiniz, – o, gürcücə cavab verdi.

– Mənim dostum səninlə söhbət etmək istəyir, – Tamara Dronqonu göstərib yada saldı. – Ancaq gəl, əvvəlcədən şərt kəsək. Əgər sənin cavabların onu qane eləsə, biz sakitcə nənənin hazırladığı kofeni içib burdan ikilikdə gedəcəyik. Əgər yalan danışmağa başlasan, bizi azdırmağa çalışsan, buradan üçlükdə gedəcəyik. İstəməzdik nənəni narahat edək.

– Narahat etmək lazım deyil, – Tariyel razılaşdı, – mən sizin bütün suallarınıza cavab verməyə hazıram.

O, yenə Dronqoya baxıb sözü ona verdi.

– Sən bu gün səhər xəstəxanaya getmisən? – Dronqo dərhal soruşdu.

– Hansı xəstəxanaya? – Tariyel başa düşmədi.

– O xəstəxanaya ki, sən oraya dünən partlayışdan sonra yerləşdirilmiş cənab Çiladze ilə maraqlanmısan, – Dronqo səbirlə izah elədi.

– Hansı partlayışdan sonra? – Tariyel təəccübləndi. – Heç nə anlamıram. Siz məndən nəyi soruşursunuz? – O, rusca kifayət qədər yaxşı danışırdı.

Tamara qaşqabağını tökdü.

– Biz axı səninlə şərt kəsdik, – deyə ciddiyyətlə xatırlatdı.

– Mən bilmirəm siz nədən danışırsınız, – Tariyel təəccüblə cavab verdi. – Mən bu gün həqiqətən də xəstəxanada olmuşam və cənab Çiladzenin səhhətiylə maraqlanmışam. Ancaq heç bir partlayışdan xəbərim yoxdur.

– Bəs sən ora niyə getmişdin? – Dronqo dəqiqləşdirdi.

– Məndən xahiş etdilər, – Tariyel izah etdi, – dedilər ki, xəstəxanaya düşən cənab Çiladze ilə maraqlanım. Mən də gedib xəbər tutdum. Orada qarovul dedi ki, indi hər şeyi dəqiqləşdirəcək. Ancaq dostum məni xəbərdar etmişdi ki, tez çıxıb gedim. Buna görə də mən dərhal getdim.

– Dostun kimdir? Adı nədir?

– Bu mənim şəxsi işimdir, – Tariyel azca qızarıb cavab verdi.

– Sənin şəxsi işlərin artıq qurtarıb, – Tamara xatırlatdı. – Mən hər şeyi sənə başa saldım; əgər başa düşmək istəmirsənsə, bizimlə gedəcəksən, orada səni başqa cür başa salacaqlar.

Qonaq otağına əlində məcməyi tutmuş nənə daxil oldu, məcməyidəki kiçik çini fincanlardan qəhvə buğlanırdı. O, hər şeyi stolun üstünə düzdü, fincanları və qənddanı yerbəyer elədi.

– Südü qarışdırmadım, ayrıca gətirdim ki, hər kəs zövqüncə əlavə eləsin, – o məlumat verdi.

– Bəs Tariyelin valideynləri hanı? – Tamara soruşdu, – yoxsa ikilikdə yaşayırsınız?

– Yox, – ev sahibəsi cavab verdi, – indi oğlumla gəlinim Almaniyadadırlar. Onlar rəssamdırlar. Nəvəm isə universitetdə təhsil alır.

Tariyel pərt olmuş kimi üzünü çevirdi. Görünür, universitetdə təhsil məsələsini o nənəsi üçün uydurmuşdu.

– Bizi bağışlayın, – nənənin danışmaq üçün otaqda məmnuniyyətlə qalacağını hiss edən Tamara dedi, – bizim nəvənizlə vacib işimiz var.

– Hə, hə, sizə mane olmayım, – qarı otaqdan çıxmağa tələsdi.

– İndi dost məsələsinə qayıdaq, – Dronqo səbirlə xatırlatdı. – Deməli, xəstəxanaya gəlib Çiladzenin səhhətini soruşmağı o səndən xahiş edib? Düzdürmü?

– Bəli, – Tariyel təsdiqlədi, – mən burda qanunazidd heç nə görmürəm. Mən, sadəcə, onun səhhətindən xəbər tutmaq üçün getmişdim.

– Ancaq qarovul öz otağına girən kimi aradan çıxmısan, – Dronqo onun yadına saldı. – Bu adam səni bu barədə xəbərdar etmişdimi?

Tariyel susdu. Dronqo səbirlə gözləyirdi.

– Mən artıq dedim, – nəhayət, Tariyel cavab verdi, – o, doğrudan da məni xəbərdar etmişdi.

– İki gün əvvəl isə sən öz maşınınla Çiladzenin ardınca bütün şəhəri gəzib onun hara getdiyini yoxlayırmışsan, – Dronqo gözlənilmədən dedi.

Tariyel bu gözlənilməzlikdən diksindi.

– Haradan bilirsiniz? – deyə soruşdu.

– Mən haqlıyam, ya yox? – Dronqo cavab əvəzinə sual verdi.

– Haqlısınız, – Tariyel təsdiq etdi, – mən doğrudan da şəhərdə onun dalınca gəzirdim. Ancaq məndən dostum xahiş etmişdi...

– Tariyel, bəsdir özünü gicliyə vurdun, – Tamara yenə özünü saxlaya bilmədi. – Nəhayət, izah elə görək, sənin bu naməlum dostun kimdir və sən niyə onun göstərişiylə xəstəxanada yaralılara baş çəkirsən, adamları güdürsən. Bircə yalan danışma! Düzünü danış.

Gənc köksünü ötürdü.

– Sən axı əvvəllər idmanla məşğul omusan? – Dronqo əlavə etdi. – Yəqin boksla?

– Bəli, – Tariyel cavab verdi, – ancaq məndən boksçu çıxmadı. Respublika yarışlarında elə birinci döyüşdəcə uduzdum. Üstəlik, burnumu da sındırdılar.

– Bu idmanı atmaq üçün əsas deyil, – Dronqo cavab verdi. – Mənim də burnumu çox tez sındırdılar. Düzünü desəm, mən də boksu atdım. Ancaq sonra yenidən idmana qayıtdım. Aykidoyla, karateylə məşğul oldum, atıcılıq üzrə idman ustası dərəcəsi aldım. Hətta şəhər çempionu da oldum. Ən başlıcası özünə inamı itirməməkdir.

– Mən idmanı atdım, – Tariyel köksünü ötürdü.

– Sonra da təhsil aldığın universiteti, – Dronqo dedi.

– Haradan bilirsiniz? – gənc yenə təəccübləndi.

– Tapdım. Bəs dostunuzla necə tanış oldunuz?

Tariyel ağır-ağır nəfəs aldı.

– Siz doğrudanmı vergidən deyilsiniz? – o bir daha dəqiqləşdirdi.

– Yox, – Tamara cavab verdi, – onlar adətən iş vaxtı gəlirlər. Biz isə axşam gəlmişik. Deməli, biz tamam başqa idarədənik və bizi tamam başqa suallar maraqlandırır.

– Biz onunla bir neçə gün əvvəl aeroportda tanış olmuşuq, – Tariyel etiraf etdi.

– Sən nəylə məşğul olurdun? – Tamara maraqlandı.

– Mən bilirəm nəylə, – Dronqo söhbətə qarışdı, – o, vergi yoxlamasından buna görə belə qorxur. Aeroportda dayısının maşınında növbə çəkib müştəri axtarır. Düzmü deyirəm? Yəqin gözə dəyməmək üçün atanın maşınına əl dəymirsən?

– Bəli, – Tariyel başını aşağı salıb sakitcə cavab verdi. O, utandığından qızarmışdı. – Nənəm elə bilir ki, mən təqaüd alıram, – deyə lap sakitcə davam etdi, – mən onu məyus etmək istəmirəm.

– Onda onu məyus etməyək, – Dronqo qərar verdi. – Deməli, “təzə dostun” sən beynəlxalq aeroportda növbə çəkəndə peyda oldu...

– Bəli, hər şey düzdür.

– Necə tanış oldunuz?

– O, meydançaya çıxmışdı. Özüylə kiçik bir çamadan da gətirmişdi. Ancaq dərhal hiss olunurdu ki, bu əcnəbi təcrübəli adamdır. O, əvvəlcə o yan-bu yana baxdı, sonra maşınlara yanaşdı. Qiymətləri öyrəndi, başqa uşaqlarla danışdı və məni seçdi.

– O nə dedi?

– Məndən soruşdu ki, mərkəzə getmək neçəyə başa gələr. Dedim, yüz dollara, baxmayaraq ki, onun başqalarıyla danışdığını görmüşdüm. Orada taksi sürücüləri işləyir, biz müştəri aparanda xoşlarına gəlmir. Amma o, o dəqiqə razılaşdı və biz yola düşdük. Yolda mənim təhsilimlə maraqlandı, sınmış burnuma diqqət yetirdi. Sonra isə dərhal min dollar təklif etdi.

– Hansı şərtlərlə?

– Bu şərtlə ki, mən şəhərdə onun bir tanışının arxasınca düşüm. Dedi ki, onlar şərikdirlər, ancaq onun əliəyriliyindən şübhələnir. Bir günə min dollar verir. Mən razılaşdım.

– Bilirdin, məhz kimi izləyəcəksən?

– Yox. Amma o, adını dedi. Şalva Qriqoryeviç Çiladze. Mən demək olar, bütün gün boyu onun arxasınca düşdüm. Tez-tez də dostuma zəng edirdim.

– Hansı nömrəyə?

– O, yerli telefon şirkətindən nömrə almışdı. Bu nömrə məndə var.

– Sonra nə oldu?

– Ertəsi gün o dedi ki, daha izləmək lazım deyil, axşam isə zəng edib məndən xəstəxanaya gedib Çiladzenin səhhətini öyrənməyi xahiş etdi. Dedi ki, onu xəstəxanaya aparıblar. Ancaq partlayış barədə heç nə demədi. Mən hər şeyi onun dediyi kimi elədim, sonra da ona zəng vurdum.

– Telefonun nömrəsi yadındadır?

– Əlbəttə, onu öz telefonuma yazmışam.

– Bu adamın görkəmi necə idi?

– Yaşı altmışa yaxın olar. Yaşlıdır. Demək olar ki, keçəldir: saçları azdır, ancaq qısa vurulub. Gicgahlarının ağardığı hiss olunur. Qaşları da ağdır. Gözləri qara, qulaqları böyükdür. Qolunda tatuaj var. Dəqiq seçə bilmədim, ancaq gördüm ki, var. Orta boydan hündürdür.

– Sənin boyun neçədir? – Dronqo soruşdu.

– Bir metr yetmiş doqquz santimetr. Ancaq o, məndən hündür idi. Bəlkə sizin boyda, ya da bir az balaca olardı. Amma məndən uzun olduğu dəqiqdir.

– O yerlilərdəndir? Gürcüdür? Onunla hansı dildə danışırdınız?

– O, yerli deyil, dəqiq, – Tariyel cavab verdi, – gürcü dilini də bilmir. Mən hələ əvvəlcə düşündüm ki, o iranlı, ya da türkdür. Ancaq rus dilində çox yaxşı, ləhcəsiz danışırdı, elə bil Rusiyadan gəlmişdi. Bəlkə də azərbaycanlı, ya tatar idi.

– Yaxud çeçen, – Dronqo əlavə etdi.

– Bəlkə də çeçen idi, – Tariyel razılaşdı, – onlar həmişə rusca yaxşı danışırlar.

– Adını demədi?

– Dedi ki, Taufik Səbridir. Özünü mənə belə təqdim elədi. Dedi ki, Livandan gəlib. Ancaq mən onsuz da ona inanmadım. Ərəblər rus dilində belə təmiz danışmağı öyrənə bilməzlər. O, açıq-aşkar Rusiyada, ya da Sovet İttifaqında yaşamışdı.

– O, harada dayandı?

– Mən onu “Şeraton Metexi Palas”a apardım, – Tariyel bildirdi.

– İndi də oradadır?

– Mən haradan bilim? Yəqin oradadır. Biz sabah onunla görüşməliyik. Mən sabah ora getməliyəm.

Tamara telefonunu çıxarıb tez nömrə yığdı.

– Təcili öyrənin görün, “Şeraton”da Livandan gələn qonaq, cənab Taufik Səbri yerləşməyib ki?! – deyə xahiş etdi.

– Təzə dostunun nömrəsini mənə de, – Dronqo xahiş etdi.

– Onu telefonuma yazmışam, indi gətirərəm, – Tariyel qalxıb başqa otağa keçdi.

Dronqo Tamaraya baxdı.

– Bu barədə nə fikirləşirsən?

– Deyəsən, oğlan düzünü deyir. Əgər aydın olsa ki, belə adam həqiqətən də mövcuddur və rusca yaxşı danışır... Ancaq bu, şübhəsiz,

Salambəy Muzayev deyil. Onun yaşı indi qırxdan bir az çox olmalıdır. Bunun isə yaşı altmışa yaxındır.

– Müharibə adamları tez qocaldır, – Dronqo etiraz etdi, – həm də o qrimdən istifadə edə bilər.

Tariyel öz telefonunu gətirib “dostunun” nömrəsini dedi. Dronqo nömrəni öz telefonuna yazıb Tamaraya göstərdi. Bu zaman onun telefonu zəng çaldı.

– Cənab Taufik Səbri üç gün əvvəl İstanbuldan gəlib və “Şeraton Metexi Palas”da yerləşib, – növbətçi zabit məlumat verdi. – O, livanlı biznesmendir. Bu gün axşam qeydiyyatdan çıxaraq oteldən gedib.

– Artıq çıxıb, – Tamara kişilərin ikisinə də məlumat verdi və növbətçi zabitə göstəriş verdi: – Sərhəd xidmətiylə əlaqə saxlayın və biznesmen Taufik Səbrinin sərhədi nə vaxt keçdiyini yoxlayın. Çox təcilidir.

– Sənin dostun artıq oteldən çıxıb, – o, Tariyelə bildirdi.

– Axı biz sabah səhərə görüş təyin eləmişdik, – o, təəccüblə etiraz etdi.

– Sən ona xəstəxana haqqında bir şey dedin? – Tamara dəqiqləşdirdi.

– Əlbəttə, oradan çıxan kimi zəng elədim və biz sabaha görüş təyin elədik.

– Qorxuram ki, sən onunla daha heç zaman görüşməyəsən. Onun sənə verdiyi pullar hanı?

– Mən artıq onları vermişəm, – Tariyel köksünü ötürdü.

– Hara vermisən? – Tamara qaşqabağını tökdü. – Kimə vermisən?

– Borclarım vardı, – Tariyel səsini aşağı salıb başqa otaqlara açılan qapılara boylana-boylana cavab verdi, – pulları qaytarmaq lazımıydı. Buna görə də onları verdim.

– Barmaq izləri, – Tamara təəssüfləndi. – Əgər pullar səndə qalsaydı, biz heç olmasa sənin təzə dostunun kim olduğunu öyrənərdik.

Yenə telefon zəng çaldı:

– Biznesmen Taufik Səbri iki saat qabaq Tiflisdən uçub, – növbətçi zabit məlumat verdi.

– Yaxşı, sağ olun. – O artıq söhbəti qurtarmağa hazırlaşırdı.

– Məndən xahiş etdilər ki, sizə məlumat verim, – zabit əlavə etdi, – o, Bakıya uçub.

– Nə? – Tamara heyrətləndi. – Bu, ola bilməz, sadəcə ola bilməz. – O, Dronqoya baxdı. – Təcili Bakıdakı həmkarına zəng elə! Bizim tanış məhz oraya uçub. Ancaq o hər şeyi necə belə tez öyrənə bilib?

Dronqo ona axıracan qulaq asmadan telefonunu çıxarıb cəld Edqar Veydemanisin nömrəsini yığdı.

## Onuncu fəsil

O, həyəcanla cavab gözləyirdi. Heç kim cavab vermirdi. Belə şey sadəcə qeyri-mümkün idi. Bu artıq mistikaya bənzəyirdi.

– Biz onun fotoşəklini əldə etməyə çalışarıq, – Tamara onu sakitləşdirmək istədi, – əgər o Livan sakinidirsə və gürcü vizası alıbsa, yəqin ki, fotoşəklinin surəti ona bu vizanı verən konsulluğun idarəsində olmalıdır.

– Zəif təsəllidir, – Dronqo mızıldandı. – Lənət şeytana, o, niyə cavab vermir? Ona nə ola bilər?

O, telefonu aşağı salıb Tariyelə baxdı. Sonra Gürcüstana yalnız Şalva Çiladzenin qətlini təşkil etmək üçün gəlmiş naməlum livanlı qatilin nömrəsini yığmağı qərara alıb təzədən telefonu götürdü. Yenə əlini aşağı salıb Tamaraya baxdı.

– Yox, – dedi, – mənim telefonumdan yox. O, açıq-aşkar bunu nəzərdə tutub. Gəlin, Tariyelin nömrəsindən zəng edək; qoy elə bilsin ki, oğlan onu axtarır.

Heç nə başa düşməyən Tariyel öz telefonunu uzatdı. Dronqo nömrəni yığdı. Bir səs ingilis və gürcü dillərində bildirdi ki, telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir. Ekspert telefonu Tariyelə qaytardı.

– Bu mümkün deyil axı, – Tamara dedi, – o, Bakı barədə necə xəbər tuta bilərdi?

– Hər şeyi öyrənərik. Ancaq əvvəlcə, nə qədər ki, gec deyil, Veydemanisi tapmaq lazımdır, – Dronqo yenə Edqarın nömrəsini yığa-yığa mızıldandı. Bu dəfə o tez cavab verdi:

– Bəli, eşidirəm.

– Hardaydın? – Dronqo həyəcanla soruşdu. – Zəng eləyirəm, cavab vermirsən!

– Vanna otağındaydım, – Edqar bildirdi. – İndicə çıxmışam, Şalva Qriqoryeviç dedi ki, telefonum zəng çalıb.

– Sizdə hər şey qaydasındadır?

– Əlbəttə. Sən nəyəsə şübhə edirsən?

– Bizim tanış iki saat qabaq Bakıya uçub.

– Ola bilməz, – Veydemanis təəccübləndi. – O, haradan biləbilərdi? Səndən başqa heç kim bu barədə heç nə bilməməliydi.

– Görünür, biliblər. Çiladzedən soruş, gör, bu gün kimə zəng edib? Arvadına, oğlanlarına, şərikinə, iş yerinə... Məhz kimə? Ancaq qoy dəqiq desin, onun həyatı bundan asılıdır.

– O, heç kimə zəng etməyib, – Edqar təəccübləndi. – İndi ondan bir də soruşaram.

Dronqo səbirlə gözlədi və Veydemanisin səsini eşitdi:

– Haqlıymışsan. Sən demə, o, müavini Elizbar Konstantinoviçə zəng vurubmuş. Ona məlumat verib ki, işləri qaydasındadır, özü də Bakıdadır. Təsəvvür edirsən, o, bir mənzildən o birinə köçən zaman,

mən onu maşında tək qoyarkən zəng edib. Deyir ki, şirkəti sarıdan narahatdır.

– Ona de ki, o... – Dronqo yanında duran Tamarayla Tariyelə baxdı, – o haqlı deyildi. Gəl, belə eləyək. Siz elə indi, heç kimə bir söz demədən əşyalarınızı yığışdırın. Taksi çağır və sürücüyə de ki, sizi Gəncəyə aparsın. Oradan Moskvaya uçarsınız. Mən qohumlarımın heç birinə zəng edə bilmərəm, yoxsa qatil onları tapar. Əgər o, Bakıya getməyi qərara alıbsa, deməli, artıq çox şey bilir. Təcili maşın tapıb Gəncəyə gedin, oradan Moskvaya uçun!

– Biz Moskvaya uça bilmərik, – Veydemanis etiraz etdi, – cənab Çiladzedə gürcü pasportudur, Rusiya vizası da yoxdur. Gürcünü isə vizasız Moskvaya buraxmayacaqlar.

– Düzdür, – Dronqo razılaşdı, – onda Gəncədən Naxçıvana, oradan da Türkiyəyə gedin. Oraya getmək üçün sizə viza lazım deyil. İstanbulda bir nömrə tutub telefonuma zəng edin. Cənab Çiladzeyə də başa sal ki, heç öz anasına, arvadına da zəng vurmasın – hələ zəng vurub olduğu yeri demək bir yana. Bakı aeroportuna qətiyyən getməyin. Əgər rəqibimiz ağıllı adamdısa – o, doğrudan da ağıllıdır, – sizi elə orada gözləyə bilər.

– Bunu artıq başa düşdüm. Hər şeyi lazım olduğu kimi edərik, narahat olmaya bilərsən, – Edqar cavab verdi.

Dronqo Şamanadzeyə zəng etdi. Bu zaman Tamara aşağıda gözləyən zabitlərdən birinin telefon nömrəsini yığdı.

– Çəkilin, – deyə göstəriş verdi, – biz indi çıxırıq, hər şey qaydasındadır.

– Anladım sizi, – zabit cavab verdi və ətrafına üz tutdu, – müdaxilə olmayacaq, azadsız!

Dronqo şirkət müdirinin müavininin səsini eşitdi.

– Axşamınız xeyir, Elizbar Konstantinoviç, – tez dedi, – bu gün kimsə sizə zəng edib cənab Çiladzeylə maraqlanmayıb? Bəlkə polisdən, yaxud qohumlardan kimsə zəng vurub?

– Şalva Qriqoryeviçin həyat yoldaşı zəng vurmuşdu, mən də dedim ki, hər şey qaydasındadır, – Şamanadze cavab verdi. – Daha heç kəslə danışmamışam.

– Siz ona Çiladzenin yerini dediniz?

– Əlbəttə yox. Qadını niyə həyəcanlandırım ki! Dedim ki, hər şey qaydasındadır.

– Onda kimə məlumat vermisiniz ki, müdiriniz Bakıdadır? Yadınıza salın, bu çox vacibdir.

– Heç kəsə, – Elizbar Konstantinoviç cavab verdi, – mən axı uşaq deyiləm ki, hər şeyi ətraflı danışım.

– Şübhə etmirəm ki, siz bu barədə heç bir kənar şəxsə heç nə deməmisiniz, – Dronqo səbirlə davam etdi, – amma rəisinizin yerini məhz kiminlə müzakirə etmisiniz? Bəlkə Çiladzenin şərikiylə, yaxud əməkdaşlardan biriylə?

– Heç kimlə, – Şamanadze əminliklə dedi, – yalnız sizin köməkçinizlə.

– Hansı köməkçimlə? – Dronqo başa düşmədi.

– Sizin yoldaşınızla. Siz axı bizim şirkətə yoldaşınızla gəlmişdiniz, – Şamanadze izah elədi.

– Doğrudur. Biz ikilikdə gəlmişdik. O, sizə zəng edib? – Dronqo dəqiqləşdirdi.

– Bu gün günorta. Zəng edib məlumat verdi ki, onlar xəstəxanaya gələn cavan oğlanın axtarışlarını davam etdirirlər. Bir də soruşdu ki, təzə nə xəbər var? Mən də dedim ki, hər şey qaydasındadı. Şalva Qriqoryeviç Bakıdan zəng vurmuşdu, onun da işləri qaydasındadı. Daha heç nə demədim.

– O özünü necə təqdim etdi?

– Heç cür təqdim etmədi, – Şamanadze azca susandan sonra dedi, – sadəcə, zəng edib bildirdi ki, siz xəstəxanaya gələn gənci axtarırsınız, buna görə bir az özümü itirdim. Axı bu gün səhər mən Rezo Qorqanelinin dediklərinə əsasən sizə bu haqda məlumat vermişəm, hələ maşın da göndərmişəm...

– Hər şey aydındır. Məlumatınız üçün sağ olun, Elizbar Konstantinoviç. Sizə demək istəyirəm ki, daha mənim köməkçilərimdən heç biri, heç zaman sizə zəng etməyəcək. Yalnız özüm zəng vuracam. Xahiş edirəm, gələcəkdə bunu nəzərə alasınız.

Dronqo telefonu cibinə qoydu.

– Bir şey başa düşdün? – Tamara soruşdu.

– Sonra danışaram, – Dronqo başını tərpətdi. – Sən isə, Tariyel, ehtiyatlı ol. Özün də aeroportu “bombalamaqdan” əl çək. Beləcə banditlərə ilişərsən, avtomobilinə yiyələnmək üçün səni maşından bayıra atarlar. Ya universitetə qayıt, ya da işə gir. Belə daha təhlükəsiz olar.

– Biz sabah yenə görüşəcəyik, – Tamara xudahafizləşəndə dedi. – Evdən heç yerə çıxma. Sənə özüm zəng edəcəm. Sənin bu “dostunu” tanımaq lazım olacaq. Xudahafiz.

Onlar qapıya tərəf getdilər. Qabaqlarına Tariyelin nənəsi çıxdı.

– Artıq gedirsiniz? – deyə əllərini bir-birinə vurdu. – Mən elə gözəl satsivi hazırlamışam ki... Qalıb dadına baxardınız.

– Sağ olun, – Tamara gülümsədi, – gələn dəfə.

Dronqo yaxınlıqda dayanan Rezo Qorqanelini görcək ona yaxınlaşıb əl uzatdı.

– Bizə çox kömək etdiniz, – keçmiş müstəntiqə dedi, – sizə minnətdarlıq etmək istəyirəm. Dünənki hərəkətimə görə də üzr istəyirəm. Deyəsən, sizin silahınıza nəzər yetirəndə bilmədən xətrinizə dəymişəm.

– Xətrimə dəyməmisiniz, – Rezo etiraz etdi, – düşündüm ki, siz haqlınız. Məndən mühafizəçi çıxmaz. Sağ olun ki, dünən bizim hamımızı xilas etdiniz. Yenə gəlin, biz şad olarıq.

Dronqo onun əlini sıxdı və maşına yanaşdı. Tamara yanında əyləşdi.

– Mən yenə də düz-əməlli başa düşmədim, – deyə soruşdu, – bu livanlı necə hesablaya bilib ki, Çiladzeni məhz Bakıya aparıblar? Bu axı praktik cəhətdən qeyri-mümkündür.

– Hər şey dahiyanə surətdə sadədir, – Dronqo cavab verdi. – Bu gün mən qatilin niyə belə mühüm məqamı qaçırdığı haqda düşünürdüm. Artıq iki qətl törədən, üçüncü qurbanın aradan götürülməsini məharətlə təşkil edən bir adam həm də təsadüfi tanışını xəstəxanaya göndərməklə özünü axmaqcasına ələ verib. Doğrudanmı o, bu qədər axmaqdır və başa düşməyib ki, Çiladzenin ofisindəki partlayışdan sonra onun yatdığı palataya nəzarət olunacaq və Çiladzenin səhhətiylə maraqlanmağa gələn hər kəs sərt nəzarət altına alınacaq? Özü də bu cür axmaqcasına ifşa olunmaq... Sən demə, o, axmaq-zad deyil, Tariyelin bu səfəri də qatilə öz planını həyata keçirmək üçün lazımdır. O, görünür, xəstəxanaya göz qoyurmuş. Bizim reaksiyamızı hesaba almaq mümkün idi. Təəssüf ki, o, çox gözlənilən olub. Tariyel xəstəxanaya gələn kimi Baqrat dərhal palataya zəng edib, Rezo Qorqaneli aşağı düşüb. Ola bilsin ki, qatil onlara göz qoyurmuş, yaxud başqa baş çəkən qismində xəstəxanadaymış.

Qorqaneli aşağı düşür, bu da qatilə işarə verir ki, Çiladze sağ qalıb, özü də xəstəxanada yoxdur. Bundan əlavə, qatil dərhal anlayır ki, biz onu axtarırıq. Görünür, o artıq Çiladzenin sağ qaldığını bilirmiş.

Sonra qatil mənim gəlişimi gözləyib başa düşür ki, axtarış davam edir. Məncə, o, şirkətin əməkdaşlarından biriylə danışıb, dünən iki qonağın Çiladzenin həyatını xilas etdiyini öyrənib. Bu, sirr deyildi və bu hekayət artıq əfsanəyə çevrilib. Bircə Şamanadzeyə zəng etmək və mənim heç adını da bilmədiyi yoldaşımın qismində Çiladzenin özünü necə hiss elədiyini dəqiqləşdirmək lazım idi. Sadəlövh Elizbar Konstantinoviçin heç ağlına da gəlməyib ki, onu aldadırlar və zəng edənin mənim yoldaşıma heç bir dəxli yoxdur. O, söhbət zamanı Bakını yada salır, qatil də başa düşür ki, təcili uçmaq lazımdır. O, Tariyeli Tiflisdə qoyub elə edir. Məncə, sabah heç bir görüş-zad olmayacaq, Tariyel ona zəng etməyə bilər.

– Tariyel ona bizim idarədən zəng vurar, – Tamara bildirdi, – əgər görüş baş tutsa, bizim nəzarətimiz altında keçəcək. Qatili bu qədər ağıllı hesab etmək olmaz. Böyük ehtimal ki, sən yanılırsan.

– Qorxuram ki, yox. Əgər bu adamın xırda bir qulluğa görə min dollar ödədiyini nəzərə alsaq, o, Çiladzeni, Qorçilini və Subbotini öldürmək üçün hər şeyə hazırdır.

– Sən neyləyəcəksən? Bakıya uçacaqsan?

– Əlbəttə yox. Orada onu axtarmaq hər şeydən çətin olacaq. Çiladze indi artıq şəhəri tərk etməkdədir. Qorçilin Moskvadan gedib. Deməli, Subbotin qalır. Ona qatildən qabaq çatmaq lazımdı. Mən elə bu gün Parisə uçuram.

– Sabah səhər, – Tamara dedi, – bu gün axşam heç bir reys olmayacaq.

– Deməli, sabah səhər, – Dronqo razılaşdı.

– Hər şeydən əvvəl biz müəyyən tapşırığı olan əsl killerlə qarşılaşmışıq.

– Ya da köhnə yoldaşlarını tapıb cəzalandırmalı olan psixi tarazlığı pozulmuş bir adamla, – Dronqo qaşqabaqla qeyd etdi. – Əgər bu həqiqətdən də Salambəydirsə. Ancaq təsvirlərə görə, o, Salambəyə oxşamır. Xarici görünüşü dəyişmək olar, ancaq Salambəyin boyu bir metr yetmiş altı santimetrdir, Tariyel isə dedi ki, naməlum adam ondan hündür idi.

– Əgər bu adam psixopatdırsa, onda bu heyvani qəddarlıq, insan psixologiyasını belə bilmək bacarığı haradandır? – Tamara etiraz etdi. – Bəlkə o, sadəcə qətl üçün tutulmuş peşəkar qatildir?

– Bənzəmir. O, Tariyeli göndərməklə belə risk eləməzdi. Yox, o – məhz bu adamlarla şəxsən özü hesablaşmaq istəyən adamdır. Bircə səbəbi məlum deyil.

Onlar "İveriya" otelinə çatdılar. Dronqo Tamaraya tərəf çevrildi:

– Mənimlə çıxacaqsan?

O, astadan sürücüdən maşından çıxmağı xahiş etdi. Sürücü qapını ehmalca örtüb dinməzcə çıxdı. Dronqo səbirlə gözləyirdi.

– Yox, – Tamara onun gözlərinin içinə baxaraq dedi. – Daha yaş o yaş deyil. Həm də unutma ki, ikimiz də menopauza intizarıyla yaşayırıq.

Hərdən qadın məntiqi kişininkindən güclü olur. O, tez-tez özünə sual verirdi ki, nə üçün eyni bir qadın müəyyən impuls və əhvallarına tabe ola-ola analoji situasiyalarda eyni bir kişiylə tamamilə başqa cür davranır? Bəlkə qadın emosionallığı kişinin başa düşmədiyi başqa bir səviyyədədir?

Dronqo kədərlə gülümsündü.

– Yadımdadır, – o, əlini uzadıb astadan dedi, – mən sabah səhər gedirəm. Sən məni ötürməyə gələcəksən.

– Yox, – o cavab verdi, – mənim əməkdaşlarım olacaqlar. Qorxuram ki, səni ötürməyə gəlsəm, sən yenə yeddi-səkkiz ildən sonra qayıdasan. Bəlkə də on ildən sonra. O vaxt mən Tariyelin nənəsinə oxşayacam və sən heç mənimlə danışmaq belə istəməyəcəksən.

Dronqo onun əlindən tutub öpdü.

– Biz zamana hakim deyilik, – əminliklə dedi. – Sən mənimçün həmişəlik "İnturist" adlı Batumi mehmanxanasında ilk dəfə gördüyüm Tamarasan. Bilirsən, məni nə kədərləndirir? Bakıda və Batumidə eynilə bir-birinə bənzəyən iki mehmanxana tikilmişdi. Bakı mehmanxanası sadəcə şəhərin əfsanəsiydi. Dəniz kənarında hökumət eviylə yanaşı "Yeni İnturist" tikiləndən sonra ona "Köhnə İnturist" deməyə başladılar. Keçən əsrin ortalarında Bakıya gələn görkəmli

adamların demək olar ki, hamısı "Köhnə İnturist"də qalırdı. Şəhərin bütün məşhur adamları nahar etmək üçün oraya gedir, şəxsi və işgüzar görüşlər oraya təyin olunur, ən yaxşı caz orkestri orada çalırdı. Yeni dövr gələndə isə oteli sadəcə götürdülər, yerində adi beton qutu tikdilər. İndi bu mehmanxana haqqında ən yaxşı xatirələr bizim "Köhnə İnturist"ə iki damla su kimi bənzəyən analoji binanın saxlanıldığı Batumidə qalıb.

– Kədərli əhvalatdır, – Tamara razılaşdı. – Qəribədir, sən məni bir dəfə də olsun nə Bakıya, nə Moskvaya, nə də Romaya dəvət etmisən. Tutaq ki, məlum səbəbdən Romaya olmaz. Amma sən məni dəvət edə bilərdin.

– Elə hesab elə ki, artıq dəvət eləmişəm.

– Mən deyəndən sonramı?

– Yox, sən mənə yenə kömək eləyəndən sonra.

– Onda hələ on ildən sonra, – o gülümsündü. Deyəsən, gözləri yaşarmışdı. – Hərdən sən həyatımda gəncliyimi mənə xatırlatmaq üçün peyda olursan. Bunlar xoş xatirələr idi, cənab ekspert. Və mən onlara görə sənə minnətdaram. – O, Dronqonun başından öpdü. – İndi isə get, yoxsa ağlayacağam, bu isə lap yersiz olacaq. Hər halda mən vəzifə başındayam.

– Xudahafiz, – o, salondan çıxıb dedi.

– Görüşənədək, – Tamara vidalaşdı.

O öz otelinə getdi. Və arxasında onun səsini eşitdi. Geri çevrildi. O, avtomobildən çıxıb onun ardınca tələsirdi.

– Düşündüm ki, mənim menopauzaya çatmağıma hələ çox var, – o, nəfəsi kəsilə-kəsilə dedi, – sən də pis formada deyilsən. Bəlkə doğrudan da, on ildən sonra mən qoca qarıya, sən də saçı tökülmüş qocaya dönəndə gələcəksən.

– Mənim elə indidən saçım tökülüb, – Dronqo mızıldandı.

– Mən də elə buna görə qalmaq qərarına gəldim, – pıçıldadı. – Bircə heç nə soruşma. Əgər etiraz eləmirsənsə, başını tərpət.

– İndi mən başımı çin müqəvvası kimi tərpətməyə başlayacağam, – o söz verdi. – Bir də bilirsən, sən heç də ilk baxışdan göründüyü kimi yaşlı deyilsən.

– Ədəbsiz, – o, sevinclə dedi. – Cənab ekspert, sizə kimsə deməyib ki, siz əsl kobudsunuz?

## On birinci fəsil

Səhər Dronqo Parisə Frankfurtdan uçdu. Günorta o artıq Parisin Şarl de Qoll adına aeroportunda idi. Rekonstruksiyadan sonra aeroport xeyli böyümüşdü, orada indi altı terminal vardı, qəribədir ki, əvvəlki qarmaqarışıqlıq və nizamsızlıq qalmışdı, elə bil, köhnə aeroportdan bura köçmüşdü.

Dronqo hələ Frankfurtdan rus səfirliyi müşavirinin telefon nömrəsini öyrənmək üçün Qorçilinə zəng vurmuşdu, indi isə Qorçilinin ona dediyi nömrəyə zəng edirdi. Ancaq telefon zəngi uğursuz oldu. Ona heç kəs cavab vermədi. Ekspert Parisə çatıb yenə bu nömrəyə zəng vurdu. Yenə də heç kəs cavab vermədi. Bu, Subbotinin ev nömrəsiydi. Bu gün şənbə olduğu üçün səfirlik işləmirdi; deməli, müşavir səhər-səhər evdə olmalıydı. Lakin ev telefonu inadla susurdu. Dronqo Subbotinin mobil telefonunun nömrəsini yığdı və onun söndürüldüyünü eşitdi.

O, taksi tutub Parisə gələrkən tez-tez qaldığı "Lotti" otelinə getdi. Otel son dərəcə rahat yerdə, Tyuilri bağıyla üzbəüz, Luvr sarayından piyada bir neçə dəqiqəlik məsafədə, Kastilyon küçəsində yerləşirdi. Qarşı tərəfdə çar əsilzadələri və məşhur mesenatlar da daxil olmaqla, on doqquzuncu əsrin rus elitasının sevə-sevə qaldığı məşhur "Meris" yerləşirdi. "Lotti"dən Vandom meydanına az qala bir dəqiqəyə çatmaq olurdu; burada ondan az məşhur olmayan, əvvəlcə Koko Şaneli, sonra Heminqueyi, əsrin axırında isə Eyfel qülləsi yaxınlığında faciəvi surətdə həlak olmuş Şahzadə Dianani və onun coşqun sevgilisini ölümsüzləşdirən "Rits" yerləşirdi.

Nömrədə yerləşən Dronqo yenə Subbotinlə əlaqə yaratmağa çalışdı, ancaq hər şey nəticəsiz qaldı. Ev nömrəsi cavab vermirdi, mobil telefon isə söndürülmüşdü. Tamara Tiflisdən zəng edəndə saat üçə qalmışdı. Onlar Gürcüstana gəlmiş Taufik Səbrinin fotoşəklini

əldə edə bilmişdilər, Tariyel Xubutiya onu dərhal tanımışdı. Məlum olmuşdu ki, livanlı biznesmen vizanı Ankarada Gürcüstan səfirliyindən alıbmış. Sonra Baqrat Baqdasaryan da Taufik Səbrinin iki gün qabaq avtomobil qəzasına düşmüş bir qıza baş çəkmək üçün xəstəxanaya gələn şəxs olduğunu tanımışdı. Bütün müəmma onda idi ki, bu qız barəsində bütün gürcü qəzetlərində yazılmış, televizorda süjet verilmişdi. Bu zaman Tariyel bu hadisəni yeni tanışına danışdığını xatırlamışdı. O da guya qızın səhhətiylə maraqlanmaq məqsədiylə xəstəxanaya baş çəkmişdi. Görünür, Dronqo qatilin hərəkət məntiqini doğru hesablamışdı və o, həqiqətən də Çiladzeni xilas etməyə çalışanların cavab hərəkətlərini izləmək üçün qəsdən heç bir şeydən şübhələnməyən Tariyeli xəstəxanaya yollamışdı.

Fotoşəkilləri “Lotti”yə göndərdilər. Orada gözləri dərin çuxura düşmüş, kəlləsi demək olar ki, tərtəmiz qırxılmış və iri sifət cizgiləri olan yaşlı bir adam əks olunmuşdu. Onun fotoşəklini Salambəy Muzayevin fotoşəkliylə tutuşdurmağa ehtiyac belə yox idi. Bu kişi açıq-aşkar daha cüssəliydi və itkin düşmüş çeçenə oxşamırdı. Dronqo Qorçilinlə danışmağı və ona naməlum livanlı biznesmenin fotoşəklini göstərməyi qərara aldı. Ancaq o da bu yaşlı adamı heç bir tanışına bənzətmədi.

İstanbuldan Edqar Veydemanis zəng vurdu. Onlar şəhərdən çıxmış və İstanbulun mərkəzindən uzaqda yerləşən sakit üçulduzlu bir

oteldə iki nömrə tutmuşdular. Onların ünvanını Dronqodan başqa heç kim bilmədi.

Tariyel gürcü xüsusi xidmətinin nəzarəti altında livanlı biznesmenlə əlaqə yaratmağa çalışmış, ancaq nəticəsiz qalmışdı. Sonuncunun telefonu söndürülmüşdü. Əgər qatil Bakıdadırsa, onda yoxa çıxmış Çiladzenin izini tapmağa çalışır. Əgər başa düşsə ki, onun oyununu hesablayıblar, ya Parisə, ya da Moskvaya, bir sözlə, bu faciəvi əhvalatın sonuncu iştirakçılarının yanına getmək qərarına gələcək. Dronqo yenə Qorçilinə zəng vurdu.

– Bəlkə siz sadəcə unutmusunuz? – deyə xəbər aldı. – Ola bilsin, brilyantlar livanlı biznesmenə məxsus olub. Əgər onun yaşı indi altmışa yaxındırsa, o vaxt otuza yaxın olardı. Yaxud o, qiymətli daşların sahibinin oğludur.

– Yox, – Qorçilin etiraz etdi, – heç bir livanlıdan söhbət getmirdi. Brilyantlar bizim xilas etmək istədiyimiz həmin əfqan ailəsinə məxsus idi. Öz sürücülərinin satdığı qadınla kişiyə. Yox, yox, başqa heç bir sahib haqda söhbət ola bilməz. Mən buna əminəm.

– Onda bu livanlı haradan çıxdı? – Dronqo hirslə soruşdu. – Yoxsa yenə mənə nəyisə deməyi unutmusunuz?

– Yox, heç nəyi unutmamışam. Özüm də baş aça bilmirəm ki, nə baş verir. Bəlkə Salambəy bizim hamımızdan qisas almaq üçün bu livanlını tutub?

– O, niyə çeçen müharibəsiylə heç bir əlaqəsi olmayan gürcü Çiladzeni və belorus Qorditskini öldürtsün axı?

– Bəs mənim əlaqəm var? – Qorçilin artıq özünü saxlaya bilməyib qışqırdı. – Bizim hamımızın bura nə dəxli var? Əgər o, dəli olubsa, niyə onu dəlixanaya aparmırlar? Cənab ekspert, sizə demək istəyirəm ki, mən indi Tiflisdə baş verənlərdən sonra dəqiq bilirəm ki, bu sağ qalmış Salambəydir. Sizə də bildirmək istəyirəm ki, onu nəinki tapsanız, üstəlik öldürsəniz, qonorarınızı ikiqat artıracam. Alo, eşidirsiz məni?

– Mən qatil deyiləm, – Dronqo soyuq cavab verdi. – Mənə belə şeylər təklif etmək lazım deyil. Bu qanunaziddir və düzgün deyil. Əgər bir də belə şeylərə eyham vursanız, o dəqiqə müqaviləmizi pozacağam. Mən sizə qatili tapmaqda kömək etməyi, sizi və dostlarınızı qorumağı öhdəmə götürmüşəm, ağlını itirmiş zavallı bir adamı öldürməyi yox. Və bilməli olduğunuz daha mühüm bir məqam, Qorçilin: əgər siz məni qabaqlayıb başqa bir killer tutsanız, bizim müqaviləmiz yenə də pozulmuş sayılacaq. Bu zaman mən sizin killeri hüquq-mühafizə orqanlarına verəcəm, onlar da qətlin sifarişçisini asanlıqla müəyyən edəcəklər. On beş il həbsxanada yatmaq istəyirsiniz?

– İstəmirəm, – Qorçilin hirslə cavab verdi. – Siz yaxşı adam deyilsiniz. Mən sizə pul ödəyirəm, sizsə mənimlə belə kobud danışırsınız.

– Demək, siz doğrudan da heç nə anlamadınız, – Dronqo köksünü ötürdü. – Mən belə tapşırıqları sizin qonorarınızdan ötrü vermirəm. Mən onlarsız da rahat keçinər, ümumiyyətlə, heç bir sifariş götürməyə bilərəm. Ancaq məni narahat edən qatilin cəzasız qalmasıdır. Məni narahat edən odur ki, Çiladzenin üç oğlu atasız böyüyəcək, mənə məlum olmayan qatil artıq milis polkovniki Əhməd Elqarovu öldürüb, Feliks Qorditskinin maşınını partladıb, özünü də sürücüylə bərabər həlak edib. Nəhayət, mən istəmirəm ki, hər iki arvadınızla boşanmağınıza baxmayaraq, sizin də iki uşağınız yetim qalsın.

– Sağ olun, – Qorçilin mızıldandı, – mən də o dünyaya getməyə çox tələsmirəm. Təkcə uşaqlar üçün yox, elə özüm üçün də.

– Uşaqlarınıza vəsiyyətnamə vermisiniz?

– Əlbəttə yox. O nəyə lazımdır? Mənim onsuz da yaxın qohumlarımdan heç kimim yoxdur. Niyə soruşursunuz ki?

– Siz ölsəniz, pullarınızın hamısını uşaqlarınız almalıdılarmı? Əgər onlar yetkinlik yaşına çatmayıblarsa, sizin mirasınızın böyük hissəsi onlara düşür.

– Bu yalnız mənim ölümümdən sonra olacaq, – Qorçilin razılaşdı. – Amma mən hələ çox yaşamağa ümid edirəm.

– Deməli, vəsiyyətnamə verməmisiniz?

– Əlbəttə yox. Nəyim varsa, özümdədir. Heç bir axmaq vəsiyyətnamə-zad ola bilməz. Bəlkə üçüncü dəfə evlənəcəm, bütün var-dövlətim də üçüncü nikahdan doğulacaq uşaqlarıma çatacaq?!

– Ola bilər, – Dronqo razılaşdı, – ancaq belə bir imkan əvvəlki arvadlarınız tərəfindən neqativ reaksiya doğura bilər. Əgər onlardan biri qərara gəlsə ki, sizin qarşınızı almaq lazımdır? Əgər siz mənimlə söhbətdə belə zarafat etdinizsə, deməli, onların da yanında buna bənzər söz deyə bilərsiniz.

– Mən bu haqda həmişə danışıram, – Qorçilin cavab verdi, – qoy bilsinlər ki, zəhmətsiz bar yeməzlər. Hər iki arvadım mövqe cəhətdən nə mənə, nə də pullarıma layiq olmadı. Buna görə ikisini də boşadım.

– Mövqeyinizin bu qədər cəlbedici və nüfuzlu olduğunu güman edirsiniz?

– Şübhəsiz. Qadınlara daha nə lazımdır ki! Mən onların bütün hesablarını ödədim, bütün oyuncaqlarını aldım, uşaqlarını təmin elədim, onları birincidərəcəli kurortlara və ən bahalı otellərə göndərdim. Əvəzində isə quru minnətdarlıq da eşitmədim.

– Bəlkə onlara sevgi, sədaqət, qayğı vermək lazım idi?

– Bunlar şit romanların və parıldayan jurnalların sərsəmləməsidir, – Qorçilin güldü. – Bizim dövrümüzdə bu sərsəmləmələrə kim inanar? Qonaqlıqlarda peyda olan kimi bütün varlı kişi ovuna çıxan qadınların mənə necə baxdıqlarını bir görəydiniz! Onlar axı kimin subay olduğunu, kimi kəməndə salmağın

mümkün olduğunu, kimin torlarına düşəcəyini dəqiq bilirlər. Hətta kişi evli olsa belə, qarşılarında heç kim dayana bilməz. Onlar öz şəxsi həyatlarını qurmaq üçün hər şeyə hazır olan təzə ifritə növü yetişdiriblər. Bir qayda olaraq birinci ərlərindən, yaxud məşuqlarından uşaqları olur; on altı-on doqquz yaşlarında uşaq doğur, sonra kimlə gəldi gəzir, axırda da özlərini varlı dayıların ixtiyarına verirlər. Otuz yaşlarına çatanda başa düşürlər ki, ailə qurmaq lazımdır. Varlı ata belə rola qətiyyən yaramır. Deməli, nisbətən cavan, təminatlı, sağlam, perspektivli birisini axtarmaq lazımdır ki, hələ bir on beş-iyirmi il də yaşaya bilsin. Əgər o lap kifir də deyilsə, onda hər şey sadəcə əladır. Qızlar belə nümunədən ötrü ölürlər. Onlara məhəbbət haqqında danışın, elə üzünüzəcə güləcəklər. Pulsuz nə məhəbbət? Dilənçi kimi yaşamaq, dünyaya dilənçi gətirmək? Yox, Allah xatirinə. Heç kim buna getməz. İndi hamı ağıllı və rasional olub.

– Buna görə də gec-tez dövrənizdə killer peyda olur və siz özünüzü cangüdənlər və mühafizəçilərlə əhatə edirsiniz, – Dronqo dedi. – Hər şey doğrudur, hər şey belə də olmalıdır. Əgər icazə versəniz, mən yenə sizin arvadlarınızla danışmağa çalışaram.

– Nə üçün? – Qorçilin maraqlandı.

– Hərdən elə olur ki, – Dronqo izah etdi, – konkret biznesmenin qətlindən diqqəti yayındırmağa çalışırlar – əgər bu cinayətdə onun yaxınlarından birini ittiham edə bilirlərsə. Məsələn, arvad keçmiş ərinə qarşı cinayət hazırlayır və başa düşür ki, onu ifşa edə bilərlər. Konkret

icraçı tapmaq, əvvəlcə ərinin təsadüfən deyil, gizli bir siyahı üzrə seçilmiş bir neçə köhnə dostunu aradan götürmək, sonra isə bu siyahının sonunda gələcək sizi – qurbanı güllələmək hər şeydən asandır. Hər şey məntiqi görünür, hamısını sizin köhnə dostunuzun, bir çox illər bundan əvvəl yoxa çıxmış Salambəy Muzayevin adına yazmaq olar.

– Bunu indi özünüzdən uydurdunuz, yoxsa doğrudan da belə hadisələrlə rastlaşmısınız? – Qorçilin dəyişən səslə soruşdu.

– Məndə belə hallar olub, – Dronqo etiraf etdi.

– Bax, elə buna görə də mən vəsiyyətnamə verməmişəm. Yox, indi mütləq verəcəyəm. Hər şeyi kiçik qardaşıma verəcəyəm. Miras əvəzinə qulaqlarının dibini görərlər...

– Alınmayacaq. Yetkinlik yaşına çatmamış uşaqlar istənilən halda mirasınızın bir hissəsini alacaqlar.

– Mənə daha heç nə demək lazım deyil. Söz verirəm ki, sözləriniz haqda ciddi fikirləşəcəyəm. Siz isə Salambəy nə qədər ki, məni və Subbotini öldürməyib, onu tez zərərsizləşdirmək haqqında düşünün.

– Yeri gəlmişkən, səhərdən dostunuza zəng edirəm, telefonları cavab vermir. Daha doğrusu, ev nömrəsi cavab vermir, mobil telefonu isə söndürülüb.

– Qəribədir, – Qorçilin mızıldandı, – o, mobil telefonunu heç zaman söndürmür. Bəlkə səfirliyə zəng edib onun yerini öyrənəsiniz?

Onlar – bir neçə səfirliyin nümayəndəsi keçən il harasa getmişdilər. Deyəsən, Fransız Polineziyasına, dəqiq bilmirəm.

– Elə də eləyərik, – Dronqo razılaşdı, – siz isə mənə söz verin ki, bütün həftəsonu şəhərətrafı evinizdə olacaq və heç yerə çıxmayacaqsınız.

– Əlbəttə, çıxmayacağam, – Qorçilin güldü, – xüsusilə də sizin “bədheybət”lərinizdən sonra. Mən ümumiyyətlə, evdə oturub heç pəncərələrə də yaxın getmirəm.

– Düz eləyirsiniz. Əgər yeni bir şey öyrənsəm, mütləq sizə zəng vuraram. Xudahafiz.

Dronqo dəstəyi yerinə qoydu. Deməli belə. Subbotin cavab vermir, cib telefonu söndürülüb. Ola bilsin ki, o, sadəcə harasa gedib, yaxud dincəlir. Ancaq onu istənilən halda tapmaq lazımdır, yoxsa sonra gec olacaq.

Dronqo rus səfirliyindəki növbətçinin telefon nömrəsini öyrənməyə çalışdı. Bir neçə zəngdən sonra telefon nömrəsini öyrənə bildi, ona avtocavab yox, səfirliyin işçisi cavab verdi.

– Sabahınız xeyir, – deyə sözə başladı, – şənbə günü sizi narahat etdiyim üçün üzr istəyirəm, amma mənim Leonid İqoreviç Subbotinə çox mühüm bir tapşırığım var.

– Bu gün səfirlikdə istirahət günüdür, o yoxdur, – növbətçi laqeydliklə cavab verdi, – bazar ertəsi zəng vurun.

– Bazar ertəsi zəng edə bilmərəm, – Dronqo etiraz elədi, – mən yalnız bu gün gəlmişəm, sabah səhər də qayıdıram. Leonid İqoreviç üçün çox mühüm tapşırığım var. Məktubu şəxsən onun özünə vermək istəyirəm.

– Onu səfirlikdə qoya bilərsiniz. Biz verərik, – növbətçi təklif etdi.

– Yox, olmaz. Mənim sadəcə haqqım yoxdur. Siz məni başa düşməlisiniz. Məndə səlahiyyətli orqanlardan çox mühüm bir məktub var. Sadəcə səfiri vaxtında xəbərdar edə bilməyiblər. Subbotinsə məktubu mütləq qəbul etməlidir.

– Bilmirəm sizə necə kömək edim, – növbətçi bir az özünü itirdi, – amma indi onu tapmağa çalışaram. Əgər alınsa...

– Mənim vaxtım azdır, – Dronqo yenə təzyiq göstərməkdə davam etdi. – Mənə inanmırsınızsa, öz səlahiyyətlərimi elə telefondaca təsdiq edə bilərəm.

– Nə cür? – növbətçi dəqiqləşdirdi.

– Mənə onun ev və mobil telefonlarının nömrələrini veriblər. Gəlin onları sizə diktə edim, siz isə öz siyahınızla yoxlayın. Əgər cənab Subbotinlə heç bir əlaqəm yoxdursa, onları haradan bilə bilərəm?

– Onda elə onun mobil telefonuna zəng vurun, – lap çaşbaş düşmüş növbətçi təklif etdi.

– Məsələ ondadır ki, onun ev telefonu cavab vermir, mobil telefonu da söndürülüb, – Dronqo bildirdi, – buna görə də məcbur olub sizə müraciət elədim ki, mənə kömək edəsiniz.

– Soyadınız nədir? – növbətçi soruşdu. Dronqo ağlına gələn ilk familiyanı dedi. Səfirlikdən ona zəng etmələri üçün öz mobil telefonunun nömrəsini də verdi. İndi gözləmək olardı. Səfirliyin əməkdaşları gözlənilməz zənglərdən xəbər tutmaq üçün nömrələrini həmişə növbətçilərə verirlər. Amma niyə bu halda Subbotinin iki nömrəsi də cavab vermir? Axı o evlidir, oğlu var. Yoxsa üçü də harasa gediblər? Onda niyə mobil telefon söndürülüb?

Ekspert bir az fikirləşib Bakıda tanış bir nömrəni yığdı. Bu, hüquq fakültəsində onunla bir oxuyan Xarici İşlər Nazirinin müaviniydi.

– Sabahın xeyir, – Dronqo tanış səs eşitcək dedi.

– Artıq axşamın xeyir, – general güldü, – indi bizdə səkkizin yarısıdır. Sən yəqin Avropadasan?

– Hə, Fransadayam. Burda hələ beşin yarısıdır. İşlərin necədir?

– İşləyirik də. Sənsə hey ölkələri gəzir, bir yerdə dayana bilmirsən. Bakıda qalsaydın, indi çoxdan general olmuşdun.

– Hamı sənin kimi ağıllı deyil, – Dronqo güldü. – Qulaq as, səndən böyük bir xahişim var. Sərhəd xidməti vasitəsilə livanlı biznesmen Taufik Səbrinin Bakıya nə zaman uçduğunu və harada dayandığını yoxlamaq lazımdır.

– Nə vaxt gəlib? Heç olmasa təxminən bilirsənmi?

– Dünən Tiflisdən gəlib.

– Onda heç bir problem yoxdur. Elə bu dəqiqə öyrənərəm. Sənə necə zəng edim?

– Artıq mobil telefonumun nömrəsini unutmusan?

– İndi zəng edərəm.

General fəaliyyət adamıydı. O, artıq beş dəqiqədən sonra zəng etdi.

– Hər şey qaydasındadır. Sənin biznesmenin Tiflisdən dünən günorta gəlib. Qeydiyyat vərəqəsində "Park Həyat"da yerləşəcəyini göstərib. Mən oteli yoxladım, o orada üç yüz dördüncü nömrədə qalır. Sənə lazımdırsa, otelin telefon nömrəsini yaz. Vəssalam, yoxsa yenə tapşırıqların var?

– Heç bir tapşırığım yoxdur, – Dronqo cavab verdi, – çox sağ ol. Mənə çox kömək elədin.

– Dəyməz. Yeri gəlmişkən, sənin mənə iyirmi il qabaq necə kömək etdiyin yadımdadır. Buna görə də sənə borcluyam. Bu elə xırda şeydir ki, heç deməyə də dəyməz.

– Xırda şey deyil, – Dronqo etiraz etdi, – qətiyyən xırda şey deyil. Əgər mən haqlıyamsa, bu adam son dərəcə təhlükəlidir. Bəlkə sən bir yolla oraya əməliyyatçı göndərib onu tutasan?

– Yox, bacarmaram. Əcnəbilər mənim işim deyil. Özün yaxşı bilirsən ki, belə işlərə qarışmaq bizə qadağan edilib. Bakı açıq

şəhərdir. Burada çoxlu xaricilər və xarici şirkətlər var, hamısıyla da bizim Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları məşğul olur. Bu onların işidir. Bağışla, burada sənə kömək edə bilməyəcəm. Əcnəbini tutmaq üçün prokurorun sanksiyası və DİN-in əməkdaşının iştirakı lazımdır. Qayda belədir.

– Başa düşürəm, – Dronqo məyus-məyus razılaşdı. – Yenə də çox sağ ol.

O, xudahafizləşib söhbəti bitirdi. Sonra generalın ona diktə etdiyi telefon nömrəsinə baxıb onu yığdı. Artıq zəngi təsdiq edən düyməni basmaq istəyirdi ki, telefon zəngi eşidildi. Rusiya səfirliyindən idi.

– Leonid İqoreviçlə bağlı siz zəng vurmusunuz? – ciddi bir kişi səsi soruşdu; görünür, bu, artıq növbə çəkən növbətçi yox, yüksək rütbəli əməkdaş, güman ki, konsul, ya da müşavir idi.

– Bəli, mənim cənab Subbotinə təcili məktubum var, – Dronqo təsdiqlədi.

– Siz onu bizə verə bilərsiniz, – zəng edən adam bildirdi.

– Mən artıq sizin növbətçinizi başa saldım ki, mənə Leonid İqoryeviçin özü lazımdır.

– Məsələ ondadır ki, biz indi onu tapa bilmirik, – zəng vuran izah etdi, – o, adətən, telefonu söndürmür, amma telefon indi nəyə görəsə söndürülüb. Dünən axşam işdəydi, adi vaxtdan gec getdi. Ev telefonu da cavab vermir. Biz artıq onun evinə adam göndərmişik, ola bilsin, sadəcə, ev telefonu işləmir.

– Bəs onda neyləyim? İzah elədim axı, məndə şəxsən onun özünə çatdırılacaq çox mühüm bir məktub var.

– Bu diplomatik poçtdursa, yəni instruksiyadırsa, onu necə vermək və göndərmək olar... – diplomat başladı.

– Axmaqlamayın, – Dronqo ciddiyyətlə onun sözünü kəsdi, – bu diplomatik poçt deyil, siz də bunu gözəl bilirsiniz. Bu daha mühüm bir poçtdur, çünki başqa idarəyə məxsusdur.

O, yaxşı bilirdi ki, hər bir səfirlikdə yalnız Xarici İşlər Nazirliyinin özüylə yox, həm də işlədikləri başqa idarələrlə əlaqədar olan bir neçə adam olur. Əlbəttə, bu bütün əməkdaşlara aid deyil və onlar bu adamların kimlər olduğunu həmişə bilə bilməzlər. O, elə bu ümumi qorxudan da istifadə etmişdi. Səfirliyin hər bir işçisi başa düşürdü ki, hər hansı başqa diplomat ağla belə gəlməyən başqa bir idarənin də adamı ola bilər. Belə idarələr də az deyildi.

– Siz səfirliyə gəlib bizim təhlükəsizlik zabitimizlə əlaqə saxlaya bilərsiniz, – diplomat təklif etdi, – ya da bilavasitə bizim binamızda gözləyə bilərsiniz. Amma biz doğrudan da Leonid İqoreviçi tapa bilmirik.

– İstəyirsiniz, bunu mən edim? – Dronqo yenə də hədə-qorxu gəldi. – Siz bilirsinizmi ki, biz agentura şəbəkəmizə təsir etməyə başlasaq, Parisdə nə olacaq? Yoxsa ümumiyyətlə, heç nə başa düşmək istəmirsiniz?

– Biz hər şeyi başa düşürük. Onda siz bir az gözləməlisiniz.

Hər halda xəfiyyəyə zəng vuran müşavir deyildi, heç konsul da deyildi. Görünür, bu, sadəcə, növbətçidən rütbəcə bir az böyük olan diplomat idi.

– Mən axşamadək gözləyəcəm. Ancaq siz onu tapmalısınız. Lazım olsa, səfirlə əlaqə saxlayın, – Dronqo hədə-qorxu gəlməyində davam edirdi, – ona zəng etməliydilər...

– Haradan? – diplomat dəqiqləşdirdi.

– Prezident Administrasiyasından, – Dronqo ciddiyyətlə məlumat verdi.

Çırtıltı eşidildi. “Doğrudanmı o huşunu itirdi”, – Dronqo düşündü.

– Alo, – yenə soruşdu, – alo, məni eşidirsiniz?

– Bəli, bəli, əlbəttə, – diplomat qorxa-qorxa cavab verdi, – zəhmət olmasa bağışlayın, bizim aparatımız yerə düşdü. Biz bu dəqiqə səfirlə əlaqə saxlayıb, cənab Subbotini təcili tapmaq üçün kuryer göndərərik.

– Bu sizin işinizdir, – Dronqo sağollaşanda dedi.

İndi şübhə etmək olmazdı ki, səfirliyin əməkdaşları Subbotini tapmaq üçün dəridən-qabıqdan çıxacaqlar – əlbəttə, əgər onu tapmaq mümkün olsa. Yəqin ki, bu söhbət barədə səfirə məlumat verəcəklər. Əlbəttə, səfirə heç kim zəng eləməyib, ancaq səfirliyin bütün əməkdaşlarını əsəbiləşdirmək üçün təkcə Prezident Administrasiyasını yada salınması kifayət idi. Həm də zəng edən şəxs səfirliyin

müşavirinin mobil və ev telefonlarını bilirdi, bu da dolayı yolla onun səlahiyyətlərini təsdiqləyirdi.

Dronqo yenidən "Park Həyat" Bakı otelinin telefon nömrəsi yazılmış kağız vərəqinə baxdı. Telefonu qaldırıb növbətçinin səsini eşitdi və onu üç yüz dördüncü nömrəylə calaşdırmağı xahiş etdi. Bir dəqiqədən sonra ingilis dilində tanış olmayan boğuq səs eşitdi:

– Hello...

– Axşamınız xeyir, – Dronqo ingiliscə dedi, – sizi narahat etdiyim üçün üzr istəyirəm. Cənab Taufik Səbrini telefona çağırmaq olar?

– Sizi eşidirəm. – O, ingilis dilində güclü ərəb ləhcəsiylə danışırdı. Bəlkə bu ərəb dili də deyildi? Puştunlar daha çox bu cür danışırlar. Bəlkə bu yenə də dağlarda həlak olmuş həmin bədbəxt əfqan ailəsinin qohumlarından biriydi.

– Siz Bakıya bu gün gəlmisiniz?..

– Bəli, – livanlı biznesmen təsdiqlədi, – Bəs mən kiminlə danışıram?

– Məsələ burasındadır ki, mən sizin dünən Tiflis xəstəxanasında gördüyünüz adamam, – Dronqo məlumat verdi. – Bəlkə bir-birimizi daha yaxşı başa düşmək üçün rus dilinə keçək?

O, hər cür reaksiya gözləyirdi. Onunla danışan adam dəstəyi yerinə qoya, rus dilində danışmaqdan imtina edə, sadəcə söyüş söyə

bilərdi. Ancaq bunun əvəzinə o gözlənilmədən yaxşı danışdığı rus dilində soruşdu:

– Sən kimsən?

– Sənə mane olmaq istəyən adam, – Dronqo cavab verdi.

– Səni Qorçilin tutub? Özünü və dostlarını xilas etmək istəyir?

– Sən ki başa düşürsən, mən bu suala cavab verməyəcəm.

– Artıq Çiladzeni Bakıdan çıxarmısan, – qatil başa düşdü.

– Əlbəttə.

– Və məni belə tez tapa bilmisən.

– Sənin kimi. Sənin xəstəxana kələyin maraqlıydı, ancaq asanlıqla başa düşüldü. Normal adam öz köməkçisini xəstəxanaya göndərməz. Telefonla zəng etmək lazım idi.

– Onda səni görməzdim. İndi səni üzdən tanıyacam.

– Əgər rastlaşsaq, mən də səni tanıyacam, – Dronqo söz verdi. – Soruşa bilərəm sən kimsən?

– Soruşa bilərsən. Ancaq sənə cavab verməyəcəm.

Ən heyrətlisi o idi ki, o, hər an tutula biləcəyindən ehtiyat etməyərək mehmanxana telefonuyla danışırdı.

– Deməli, gec-tez səninlə görüşəcəyik, – Dronqo dedi.

– Bəli, – qatil razılaşdı, – ancaq sən mənə mane olmasan, daha yaxşı olar. Onsuz da heç nə alınmayacaq.

– Buna hələ baxarıq. Sən daha Çiladzeni ələ keçirə bilməyəcəksən.

– Keçirəcəyəm, – qatil əminliklə dedi, – mənim öz üsullarım var. İstəyirsən, deyim sən indi haradasan?

– Buyur. Maraqlı olar.

– Parisdəsən, – qatil bildirdi.

Dronqo diksindi, heç ətrafına da baxmadı. Doğrudanmı bu qatilin belə intuisiyası var? Yoxsa o, bütün variantları belə dahiyanə surətdə hesablamağı bacarır?

– Ola bilər, – ekspert razılaşdı. – Sənsə yəqin ki, indi oteldən yoxa çıxacaqsan. Ancaq tələsmə, onsuz da səni orada heç kəs axtarmayacaq.

– Bunu artıq başa düşmüşəm. Mən burda heç nə eləyə bilməmişəm. Məni həbs etmək üçün əsas yoxdur.

– Bəs əvvəlki qətllərin?

– Heç nə sübut olunmayıb. Sən Parisə əbəs yerə getmisən. Onsuz da gecikmisən.

Dronqo qaşqabağını tökdü. Verdiyi sual özü üçün də gözlənilməz oldu:

– Onda de görüm, Əhməd Elqarovu və Feliks Qorditskini sürücüsüylə birlikdə niyə öldürmüsən? Onlar sənə neynəmişdilər?

– Bu ən mühüm sualdır, – qatil cavab verdi. – Cavabını tapsan, hər şeyi biləcəksən.

– Mənsə bilirəm, – Dronqo cavab verdi, – hələ sakitləşə bilmirsən. Gecə yuxuda ya brilyantları, ya da həmin o uğursuz döyüşü görürsən...

O, sözünü qurtara bilmədi. Qatil dəstəyi asdı. Deyəsən, bu xatırlatma onu özündən çıxarmışdı. Doğrudanmı bu Salambəydir? O, rus dilində çox təmiz danışırdı. Çox təmiz. Bu adam açıq-aşkar ərəb, yaxud puştun deyil. Əlbəttə ki, ərəb biznesmeni də deyil. O ya çeçen, ya da rusdur. Hətta çeçenlər də bir az səciyyəvi ləhcəylə danışırlar, bu adamın danışığı isə Rusiyanın orta rayonlarının sakinlərinin rus dilini xatırladırdı. Elqarovla Qorditskinin ölümündən sonra yoxa çıxmış Salambəy Muzayevi də nəzərə almaqla dördcə nəfər qalmışdı – Qorçilin, Subbotin, Çiladze. Çiladze güclü gürcü ləhcəsiylə danışır, Qorçilinin səsini isə o artıq heç kəslə qarışdırmaz. Qalır Subbotin. Əgər məlum olsa ki, onların axtardığı qatil rus diplomatı və səfarət müşaviri Leonid Subbotindir, son dərəcə maraqlı olar. Yəqin, pis detektivlərdə belə də olur. Amma bircə həyatda yox. Bunun üçün Subbotin xarici görünüşünü tanınmaz dərəcədə dəyişməli və son bir neçə gün işdə olmamalıydı ki, bu da özlüyündə cəfəng fikirdir. Onda bu, başqa adamdır. Ancaq daha heç bir “başqa adam” qalmayıb. Deməli, onlar nəyisə nəzərdən qaçırıblar.

Ancaq qatil Dronqonun yerini necə də dəqiqliklə müəyyən etmişdi! Bu nədir? İntuisiyadır? Yoxsa sağ qalmaq uğrunda heyvani qabiliyyətdir? Bir şey aydındır: qatil bu gün artıq Bakını tərk edəcək.

Ya Moskvaya, ya da... hara yola düşəcək? Axı o dedi ki, Dronqo Parisə nahaq gəlib, onsuz da gecikib. Axı bu ola bilməz. Son bir neçə gündə qatil Tiflisdəydi və Parisdə ola bilməzdi, Subbotin isə dünən işdə olub. Onda niyə gecikib? Yoxsa onun Parisdə də köməkçiləri var?

Dronqo öz telefonuna baxdı. Təcili tədbir görmək lazım idi.

## On ikinci fəsil

Artıq axşam saat yeddiyə az qalmışdı. Ekspert səbirlə səfirlikdən ona vurulacaq zəngi gözləyirdi. Nəhayət, telefon zəngi eşidildi.

– Sizinlə Rusiya səfirliyindən danışırlar, – zəng vuran şəxs bildirdi. Bu artıq onun bu gün danışdığı üçüncü diplomat idi. – Cənab səfir sizinlə şəxsən danışmaq istəyir.

– Əlbəttə, – Dronqo razılaşdı. Ya axıradək hədə-qorxu gəlməli, ya da nəhayət, Subbotini tapmaq fikrindən daşınmalıydı.

Dərhal səfirin gur səsi eşidildi:

– Mənə sizin gəlişiniz haqda təzəcə məlumat verdilər. Hətta Subbotin də mənə xəbər verməyib. İş belə gətirdiyi üçün bağışlayın. Siz Prezident Administrasiyasından gəlmisiniz? İndi haradasınız? Arxanızca maşın göndərə bilərəm.

– Yox, – Dronqo cavab verdi, – heç nə lazım deyil. Sizə düzgün məlumat verməyiblər. Mən tamam başqa idarədənəm və mənim Rusiya səfirliyinə gəlişim çox arzuedilməz olar. Mən sizin səfarət

müşavirinə təcili məlumat vermək üçün onunla mümkün qədər tez görüşməliyəm. Sizi Prezident Administrasiyasından xəbərdar etməliydilər.

– Mənə heç kəs zəng etməyib, – səfir təlaşla dedi.

– Onlar yenə də aləmi bir-birinə qatıblar, – Dronqo təəssüflə dedi. – Bizə lazım olan yeganə şəxs cənab Subbotindir. Doğrudanmı onu tapmaq belə çətindir?

– Biz artıq bir neçə saatdır ki, onu axtarırıq, – səfir məlumat verdi, – evinə adam göndərmişik, şəhərkənarı evinə getmişik, mobil telefonla özü və arvadıyla əlaqə yaratmağa çalışırıq. Ancaq telefonların ikisi də söndürülüb, evdə və şəhərətrafında heç kim yoxdur. Bu gün şənbədir və mənim rəsmi olaraq onlardan işdə olmağı tələb etməyə haqqım yoxdur. Ancaq o, Parisi tərk etsə və ya başqa bir yerə getsə, bizim təlimatlara əsasən mənə məlumat verməlidir. O, intizamlı adamdır, hətta getməzdən əvvəl mənə xəbər verə bilməsə də, heç olmasa yerini bildirmək üçün mütləq axşam zəng edəcək.

– Ümidvaram ki, zəng edər, – Dronqo nəzakətlə razılaşdı, – ancaq nəzərə alın ki, mənim vaxtım azdır. Mən sabah səhər uçuram, cənab Subbotin isə mənə məhz bu gün lazımdır.

– Biz mütləq onu taparıq, – səfir səmimiyyətlə inandırdı. – İndi bizim əməkdaşlarımız onun Moskvadakı qohumlarıyla əlaqə yaratmağa çalışırlar, oğlanlarının nömrəsini nənəsiylə babası bilir. Biz

çox tezliklə bu nömrəni də öyrənəcəyik. Ola bilməz ki, üç telefon eyni zamanda işləməsin. Belə şey olmur.

– Olmur, – Dronqo razılaşdı, – onda mən gözləyəcəm.

– Mütləq, – səfir onu inandırdı, – sizə özüm zəng edəcəm.

Dronqo düşündü ki, indi o, Subbotini tapmaq üçün əlindən gələni əsirgəməyəcək və yenə Qorçilinə zəng vurdu.

– Mən sizin qatili Bakıda tapdım, hətta onunla söhbət də elədim, – deyə biznesmenə məlumat verdi.

– Necə yəni danışdınız? – Qorçilin mat qaldı. – O da sizinlə danışdı?

– Həm də çox yaxşı bildiyi rus dilində. Buna görə də sizə bir neçə sualım var. Salambəy rusca yaxşımı danışırdı?

– Çox yaxşı. Ancaq ləhcəsi aydın bilinirdi. Elə bil sözləri bir az yeyirdi. Çeçen ləhcəsi belə olur.

– Bu adam sözləri yemirdi, elə bil Oryolda, yaxud Smolenskdə anadan olmuşdu.

– Bizdə yalnız Feliks Qorditski Vitebskdəniydi. Ancaq o, sürücüsüylə həlak oldu.

– Bəli, bunu başa düşürəm. Subbotin necə danışır? O xarici dilləri bilir, eləmi?

– Əlbəttə, bilir, o ki diplomatdı! Ancaq rusca normal danışır. Bizim hamımız kimi. Baxmayaraq ki, diplomat olduğu dərhal hiss

olunur. Sözlərin düzgün seçimi, lazım olan sonluqlar, düzgün deyilmiş vurğular. Çox yaxşı danışır.

– Və Kurskda anadan olub. Siz mənə belə demişdiniz.

– Hər şey doğrudur.

– Bu gün isə Rusiya səfiri mənə dedi ki, onun valideynləri Moskvada yaşayırlar.

– Onun yox, arvadının, – Qorçilin izah etdi. – O, moskvalıyla evlənib, onun valideynləri də həqiqətən Moskvada yaşayırlar.

– O, harasa yoxa çıxıb, tapa bilmirlər. İksinin də – arvadının və özünün mobil telefonları söndürülüb, ev telefonu isə cavab vermir. Səfir onların şəhərkənarı evlərinə adam göndərib, orada da heç kim yoxdur. Bilmirsiniz, Subbotin hara yoxa çıxa bilər?

– Yox, bilmirəm, – Qorçilin cavab verdi. – Necə yəni yoxa çıxıb? O ki diplomatdır, mütləq öz yerini bildirməlidir.

– Təsəvvür edin ki, bildirməyib. İndi onu bütün Parisdə axtarırlar. Əvvəllər başına belə bir iş gəlməyib ki?

– Yox, heç zaman. Yoxsa o, belə bir karyera qura bilməzdi.

– Bunu mən də başa düşürəm. Amma hələ ki onu tapa bilmirlər. Həm də qatil mənə dedi ki, onsuz da gecikmişəm.

– Nə mənada?

– Bunu sizinlə aydınlaşdırmaq istəyirdim.

– Heç nə anlamıram. Qatil sizinlə nə üçün danışıb ki? Və niyə siz düşünürsünüz ki, bu Salambəy deyil?

– Mən çeçenlərin rus dilində necə danışdıqlarını bilirəm və onları danışıqlarından demək olar, səhvsiz tanıyıram. Ancaq bu, açıq-aşkar çeçen deyildi. Daha çox cənubdan – məsələn, Kurskdan, yaxud Kursk vilayətindən olan rusa oxşayırdı.

– Düşünürsünüz ki, bunun hamısını Subbotin təşkil edib? – Qorçilin heyrətləndi. – Heç sizin ağlınız yerindədir?

– Mən bunu israr eləmirəm. Ancaq Kurskda onun doğmaları, yaxınları, dostları qala bilərdi. Onlardan kimsə öz yerlisinə, yaxud qohumuna qarşı kin saxlaya bilərdi.

– Onun böyük bacısı vardı. O, indi Uzaq Şərqdə, haradasa yaşayır, əri meteoroloq işləyir. Onlar iki uşaqla Uzaq Şərqə gediblər. Kurskda onun bacısıyla anası qalıb. Amma onlar artıq yaşlanıblar. Mən dəqiq bilirəm, çünki onlarda qonaq olmuşam. Orada daha heç kim yoxdur.

– Onda hər şey aydındır. Yaxşı, gözləyərik. Heç yana da çıxmayın. Nə olursa olsun. Bu iş mən ehtimal etdiyimdən də dolaşığıymış. Hər ehtimala qarşı qatilin hələlik livanlı biznesmen Taufik Səbrinin adıyla fəaliyyət göstərdiyini qeyd edin. Bu adı eşitsəniz, tez mənə zəng edin. Başa düşdünüz?

– Əlbəttə. Narahat olmaya bilərsiniz. Mən bu adda adamı heç top gülləsi qədər də yaxına buraxmaram. Bəlkə o, hər halda əfqanıstanlı puştundur?

– Puştun heç zaman rus dilində belə danışmağı öyrənməz, – Dronqo etiraz etdi. – Bir də adi puştunda pul və ingilis dilini bilmək haradandır? Baxmayaraq ki, o hiss olunan ləhcəylə danışır.

– Başa düşə bilmirəm ki, bu adam haradan çıxıb.

– Biz onsuz da onu ifşa edəcəyik. O, əlbəttə, çox ağıllı və fəndgirdir, həm də əla intuisiyası var. Ancaq özünə güvənməyi onu ələ verə bilər. Baxaq görək, bütün bunların axırı necə olacaq.

– Mən sizə tamamilə inanıram, – Qorçilin dedi.

Dronqo istədi desin ki, o da Qorçilinə etibar edir, bunun əvəzinə sağollaşıb telefonu stolun üstünə qoydu. Maraqlıdır, burdan Vitebskə necə getmək olar? Yəqin ki, əvvəlcə Minskə uçmaq, oradan isə qatarla Vitebskə getmək və mütləq baş verən qətlin bütün detallarını dəqiqləşdirmək lazımdır. Əlbəttə, əgər o gedənə kimi Subbotini tapıb onu gözləyən təhlükədən xəbərdar edə bilsə.

"Deməli, Salambəyi saymasaq, üç sağ adam qalır. Hər üçü də ova çevrilib. Belə. Qayıdaq lap əvvələ. Onlar səkkiz nəfər olublar. Yaqubovla Şevçenkonu yerlərindəcə öldürüblər. Yaqubovun bədənini apara biliblər, Şevçenko özünü qranatla partladıb, hücum edən düşmənləri də tikə-tikə eləyib. Qorçilin zavallı oğlanın qopmuş ayağını öz gözləriylə görüb. Bu ikisi aradan çıxır. Qalır altısı. İkisini artıq bizim dövrümüzdə öldürdülər. Elqarovla Qorditskini də çıxırıq. Kim qalır? Çeçenlə birgə saysaq, yenə də dörd nəfər. Onsuz – üç nəfər. Onların da heç biri qatil ola bilməz. Bu istisnadır. Onda

Salambəydimi? Bu da oxşamır. O, Əfqanıstandan sonra artıq iki dəfə müharibədə olub. Bunun necə dəhşətli olduğunu anlayır: qan, çirk, qətl, zorakılıq... Nə üçün? Qatil aydın cavab verdi: bu sualın cavabını tapsan, livanlı biznesmen maskası altında kimin gizləndiyini biləcəksən. Artıq iyirmi il keçib, yaralardan hələ də qan axır.

Telefon zəng çaldı. Dronqo displeyə baxdı. Tamara idi.

– Sənə bir şad xəbər vermək istəyirəm, – o tez dedi. – Məsələ ondadır ki, biz onun qaldığı otelə girib təhvil verdiyi nömrəni tapmışıq, oranı hələ yığışdırmayıblar. Bir sözlə, bəxtimiz gətirib: onun şap-şaplarını, balışda bir neçə tükünü, hətta barmaq izlərini də tapmışıq. İndi hər şeyi eyniləşdirməyə çalışırıq. Əgər bu Salambəy Muzayevdirsə, dərhal aydınlaşdıracağıq. Ancaq bizdə bu çeçenin barmaq izləri yoxdur. Rusiyaya sorğu göndərmək lazım gələcək, bizimkilər isə bunu edə bilməzlər, – Moskvayla münasibətlərimizin indi necə olduğunu özün bilirsən. Buna görə ekspertlərimiz belə bir təklif irəli sürürlər. Biz sabah hər şeyi tədqiq edib bütün şifrələri açsaq, onun mümkün barmaq izlərini də, DNT kodunun şifrəsini də sənə göndərərik. İndi biz çox yaxşı texnika əldə etmişik, zənnimcə, hər şey qaydasında olacaq. Sənsə sonra bu məlumatları öz kanallarınla Moskvaya göndərərsən, orada hamısını tutuşdurarlar.

– Düzdür, – Dronqo razılaşdı, – sabah sənə zəng edib sənədlərinizi harada gözləyəcəyimi deyəcəm. Onları mənə ya faksla, ya da elektron poçtla göndərərsiniz. Mənimçün fərqi yoxdur.

– Eləyərik, – Tamara söz verdi. – Xahiş edirəm, özün də ehtiyatlı olasan. Bu sənin üçün adi mafiya banditi yox, qana susayan əsl yırtıcıdır. Sənin Çiladzeni hara göndərə biləcəyini elə məharətlə tapmışdı ki, mən hətta səndən ötrü qorxdum da. Ehtiyatlı ol.

– Çalışaram, – o söz verdi, – ancaq nə qədər ki, onun kim olduğunu və haradan çıxdığını anlamıram, heç nə söz verə bilmərəm. Bir xahişim də var – Çiladzenin ailəsini xüsusi nəzarət altına alın. Eviylə yanaşı qardaşları və qardaşı uşaqları yaşayır, qoy onun ailəsini qorusunlar. Bu qatildən nə desən çıxar. O yəqin, atanın öz oğullarını necə sevdiyini bilir və Şalva Qriqoryeviçin oğullarına olan sevgisindən istifadə etməyə çalışa bilər.

– Bunu mənə deməyə də bilərdin, – Tamara incik-incik dedi, – bizim bir neçə əməkdaşımız dünəndən onların evinin yanında növbə çəkir. Çiladzeyə de ki, narahat olmasın, heç kim onun oğlanlarına yaxın belə gedə bilməz.

O, sözünü qurtarmağa macal tapmamışdı ki, mobil telefonunun ikinci xəttində zəng eşidildi. Rusiya səfirliyindən idi. Dronqo Tamarayla vidalaşıb güclə o biri xəttə qoşula bildi.

– Biz onu tapdıq, – səfir təntənəylə məlumat verdi, oğlunun telefon aparatıyla – “bləkberiylə” – bu aparatlar, deyəsən, belə adlanır. Əvvəlcə oğluyla əlaqə saxladıq, sonra atasını tapdıq. Təsəvvür edə bilərsiniz ki, onlar öz avtomobillərində Nanta gediblərmiş; heç səfərləri barədə mənə də xəbər verməyiblər! O, əlbəttə, mənim bütün

töhmətlərimə axıradək qulaq asdı. Deyəsən, o tamamilə qeyri-peşəkar hərəkət etdiyini və bizim vəzifə təlimatlarımızı pozduğunu başa düşüb. Amma mən bu barədə Moskvaya məlumat verməməyi və onu ciddi cəzalandırmamağı qərara aldım.

– Bu, müdrik qərardır, – Dronqo o saat razılaşdı. – Bəs onlar niyə məhz Nanta gediblərmiş?

– Dəqiq bilmirəm. Deyəsən, onu oraya dostları dəvət ediblər. Ancaq o yalnız bazar ertəsi qayıdanda mənə tam məlumat verəcək. Mən ona sizin təcili məktubunuz barədə danışdım. O indi sizin nömrənizə zəng vuracaq. Mən sizinlə şəxsən danışmaq üçün beş dəqiqəlik icazə istəmişəm.

– Siz səfirliyin əsl sahibisiniz, – Dronqo həssaslıqla dedi, – köməyinizə görə çox sağ olun. Mən cənab Subbotinin axtarılmasında sizin fədakar iştirakınız barədə Administrasiyanın rəhbəri cənab Narışkinə şəxsən məlumat verəcəyəm. Əminəm ki, heç kəs buna laqeyd qalmayacaq.

– Çox sağ olun. Amma biz yalnız və yalnız hökumət qarşısında borcunu həmişə yerinə yetirməyə hazır olan təvazökar xidmətçilərik. Bəlkə elə buna görə bizdən yaxşı məmurlar çıxır, – səfir də duyğulandı.

Dronqo gülümsündü. O, səfirin məhz nədən danışdığını bilirdi. Onun sələfini oradan mədəniyyət naziri vəzifəsinə göndərmişdilər. Güman ki, bu səfir də özünü hazır hökumət üzvü hiss edərək bütün

nazirliklərə getməyə hazır idi. Dronqo səfirə bir daha təşəkkür edib telefonu qabağına qoyaraq Subbotinin zəngini gözləməyə başladı. O doğrudan da, düz beş dəqiqədən sonra zəng vurdu.

– Axşamınız xeyir, – Subbotin rus dilində nəinki sözləri dəqiq seçə-seçə, həm də vurğuları düz qoya-qoya danışırdı, – siz bizim səfirliyə zəng vurub mənim üçün məktub gətirdiyinizi bildirmisiniz. Təəssüf ki, mən öz ailəmlə Nanta getmişdim, Parisdə yalnız bazar ertəsi səhər olacağam. Əgər istəsəniz, məktubu bizim qapıçının evində qoya bilərsiniz. O, bizə verər.

– Yox, məsələ bu məktubda deyil. Mən Moskvadan sizinlə təcili görüşmək üçün gəlmişəm, – Dronqo bildirdi. – Söhbət sizin həyatınızdan və ola bilsin ki, yaxınlarınızın həyatından gedir.

– Nə danışırsınız? – Subbotin qorxa-qorxa soruşdu. – Nə baş verib?

– Məgər Qorçilin dostlarınızın başına gələn faciələri sizə danışmayıb?

– Hə, o məsələni deyirsiniz. Ancaq bu adi təsadüfdür. Yazıq Feliksi sürücüsüylə birlikdə partladıblar. Yəqin, Belorusiyaya qədər gedib çıxan hansısa axmaq münaqişələrdir. O, tikinti işinə baxırdı, belə məsələlər isə bizim Rusiyada da həmişə ən pullu məsələlər hesab olunur. Amma Əhməd Elqarovu düz döyüş postundaca öldürüblər. Əlbəttə, heyif ondan, ancaq bura Şimali Qafqazdır. Orada həmişə kimisə öldürürlər. Siz yəqin ki, bunu məndən yaxşı bilirsiniz.

– Bəli, – Dronqo razılaşdı. – Ancaq sizin mühakimələrinizdə kiçik bir çatışmazlıq var. Məsələ ondadır ki, iki gün əvvəl sizin komandanın daha bir üzvünü – Şalva Çiladzeni öldürmək istəyirdilər. Ona, düz Tiflisə bağlama göndərmişdilər. Katibə onu açanda mən onu pəncərədən ata bildim. O, partlayıb pəncərəni sındırdı. Bu, iki gün əvvəl olub. Yoxsa siz elə zənn edirsiniz ki, bu da təsadüfdür?

– Yox, – Subbotin bir az susub cavab verdi. – Mən tam başa düşmürəm. Deməli, siz mənə Moskvadan heç bir məlumat gətirməmisiniz?

– Mən sizə sizin və bəlkə də ailə üzvlərinizin həyatını xilas etməli olan əsas məlumatı gətirmişəm. Siz niyə Nanta getmiş və mobil telefonunuzu söndürmüşdünüz?

– Siz ki özünüz dünən telefonla danışanda bunu məndən xahiş etmişdiniz, – Subbotin təəccübləndi. – Daha doğrusu, bu sizin köməkçiniz idi, onun səsi bir az başqa cür idi.

– Hansı köməkçi? – Dronqo partladı. – Siz nə danışırsınız?

– Dünən axşam naməlum bir cənab mənə zəng edib özünü dostum Qorçilinin tutduğu ekspert kimi təqdim elədi. Yulik mənə zəng edib demişdi ki, bu qəribə qətllərin təhqiqatı üçün iki məşhur ekspert tutmaq istəyir, mənsə sözün düzü, bunu qeyri-ciddi bir iş sayıb onu fikrindən daşındırdım. Sonra o zəng edib artıq danışdığını dedi. Ekspert zəng vuranda mən onun Qorçilin tərəfindən tutulduğunu və hər iki qətlin təhqiqatıyla məşğul olduğunu anladım. Həmin şəxs mənə

arvadımı və oğlumu da götürüb təcili surətdə Nanta getməyimi təklif etdi. "Holidey İnn" otelini nişan verib dedi ki, mən orada qalıb onun gəlişini gözləməliyəm. Dedi ki, nömrələrin də pulu verilib. Xahiş elədi ki, telefonlarımızı söndürək və səfərimiz haqda heç kəsə məlumat verməyək. Guya söhbət Yulikin həyatından gedir. Biz risk etməməyi qərara aldıq və Nanta çatanda telefonlarımızı söndürdük. Məgər düz iş görməmişik? Buralar gözəl yerlərdir, biz heç vaxt Nantda olmamışdıq... – Sözü ağzında qaldı.

– Bu dəqiqə qaçın oradan, – Dronqo həmin andaca göstəriş verdi, – elə indi. Bütün əşyalarınızı, özünüzlə gətirdiyiniz hər şeyi atın. Maşına oturub tez Nantdan çıxın. Sizinlə danışan qatil olub. Sadəcə bəxtiniz gətirib ki, mən oğlunuzun telefonuyla ailənizlə əlaqə yarada bilmişəm, yoxsa səhər oteldə üç meyit tapardılar. O heç kimə: nə sizə, nə də ailənizə rəhm eləməyəcək.

– Nə danışırsınız, – Subbotin dəhşətə gəldi, – Doğrudanmı bu qatiliymiş? Danışan adam məndə elə xoş təəssürat yaratdı ki...

– Qaçın! – Dronqo hövsələdən çıxıb qışqırdı. – Tez maşına minin! Ailənizi xilas edin! Mobil telefonlarınızı da söndürün. Şəhərdən çıxanda mənə zəng vurun. Cəld tərpənin, vaxtınız çox azdır!

O, nəfəsini dərdi. İndi qatilin Dronqonun əbəs yerə Parisə gəldiyini dedikdə nəyi nəzərdə tutduğu aydın idi. Onun planı necə məharətlə yerinə yetirilmişdi! Ekspertlərin adıyla öz qurbanını telefonunu söndürməyi təklif etməklə aldadıb başqa şəhərə gətirmək.

Adamın ağlına bundan yaxşı heç nə gəlməz. Hər şey sadə və qorxuludur. Diplomat Subbotin insanlara etibar etməyə adət edib. O, itaətlə telefonu söndürüb, arvadını və oğlunu da götürüb Nanta, oteldə onlar üçün sifariş olunan nömrəyə gəlib. Az qalıb ki, qatilin məharətlə qurduğu tələyə düşsün. Əgər oğullarının telefonu olmasaydı, əgər Dronqo az inad göstərərək yalandan Subbotin üçün təcili məlumat gətirdiyini deyib rus diplomatlarını inandırmasaydı, əgər səfirin özü işə qarışmasaydı... Bu gün Subbotinlə ailəsini yalnız möcüzə və oğullarının telefonu xilas etdi. Əslində, onlar bu günü ikinci doğum günləri kimi qeyd etməliydilər.

Lakin bu qatil necə də zirək və bacarıqla iş görür! Neçənci dəfədir ki, özünə bu sualı verməyə məcbur olursan: bu adam kimdir və niyə Qorçilinin bölməsinə daxil olanların hamısını belə təqib edir? Dronqo Veydemanisə zəng edib bugünkü hadisələri ətraflı surətdə dostuna danışdı.

– Bəlkə o İblisin elçisidir! – Edqar qışqırdı. – Sənin söhbətindən belə nəticəyə gəlmək olur ki, o, fövqəl imkanlara və qeyri-adi intuisiyaya malikdir və o zaman Qorçilinin dəstəsində olanların hamısına heyvani nifrət bəsləyir. Doğrudanmı bu Salambəydir?

– Mən bu adamla danışdım, – Dronqo xatırlatdı, – o, qətiyyən çeçen deyildi. Bundan başqa, onun pasportda altmışa yaxın yaşı var, Salambəyinki isə qırxdan bir az çoxdur. Çox böyük fərqdir.

– O, əvvəlcə bu xəstəxana oyununu necə də ağıllı fikirləşib, sonra da Subbotinin ailəsini ölümə göndərib! Biz onları Fransada hələ bir neçə gün də axtaracaqdıq.

– Mən onlara qəti surətdə oradan getməyi tapşırdım. Çiladze özünü necə hiss edir?

– Ürəyi sıxılır. Elə hey evə zəng vurmağa can atır, ailəsindən ötrü narahatdır, oğlanları sarıdan qorxu keçirir. Əgər qatil onun Bakıdakı yerini belə tez tapa bilibsə, onda oğlanlarından birini oğurlaya və atanı oğula dəyişmək üçün Çiladzeni Tiflisə qayıtmağa məcbur edə bilər.

– Məcbur edə bilməz, – Dronqo cavab verdi. – Ona de ki, mənim də intuisiyam pis deyil. Həm də mən peşəkar ekspertəm və artıq neçə illərdir ki, müxtəlif cür yaramazlarla və qatillərlə mübarizə aparıram. Çiladzenin evi və yaxınları dünəndən etibarən Gürcüstan təhlükəsizlik xidmətinin mühafizəsindədir. Bundan əlavə, orada onun doğmaları və yaxınları da daim keşik çəkirlər. Məncə, qatil Şalvanın oğlanlarından birini oğurlamağın onun üçün necə bitəcəyini anlayır. Ona görə Şalvaya de ki, həyəcanlanmasın. Uşaqlar etibarlı əllərdədir, özü də onlara qətiyyən zəng vurmasın.

– Deyərəm, – Veydemanis söz verdi.

Dronqo, Allah bilir, neçənci dəfə telefonu qabağındakı stolun üstünə atıb nifrətlə aparata baxdı. Deyəsən, bu uzun söhbətlərdən

tezliklə başını itirəcək. Ancaq şəhər nömrəsiylə zəng edib yerini bildirmək ən azı axmaqlıqdır.

O, Subbotin zəng çalana qədər gözlədi.

– Biz artıq şəhərdən çıxmışıq, – Leonid İqoreviç bildirdi. – İndi çox gec olmağına baxmayaraq, biz yenə Parisə doğru gedirik. Siz mənim yaxınlarımı elə qorxutdunuz ki, onlar hey məni tələsdirirlər. Hara gedək?

– Versala, – Dronqo təklif etdi. – Oraya gedin, oteldə nömrə tutun. Səhər isə mənə zəng vurub yerinizi bildirin ki, yanınıza gələ bilim. Maşını qətiyyən otelin qabağında saxlamayın. Yeraltı dayanacaq yoxdursa, başqa otel axtarın. Məni başa düşdünüz?

– Bəli, – Subbotin cavab verdi, – ancaq biz ora yalnız səhərə yaxın çatacağıq. Hələ nə qədər yolumuz qalıb... Bəlkə yolda bir yerdə dayanaq?

– Onda əsas yoldan çıxıb kənd ərazisində sakit bir otel tapın, – Dronqo təklif etdi. – Maşını elə saxlayın ki, küçədən baxanda görünməsin.

– Bu variant bizi daha çox təmin edir. Biz çox yorulmuşuq, – Subbotin etiraf etdi. – Olarmı sizdən soruşum: Şalva özünü necə hiss edir? İşləri qaydasındadırmı?

– Bəli, – Dronqo özünü saxlayaraq cavab verdi, – hələlik qaydasındadır.

Əgər diplomat Çiladzenin və özünün həyatının qorunmasının hansı səylərlə başa gəldiyini bilsəydi! Bircə necə qəddar bir rəqiblə üzləşdiklərini bilsəydi...

Dronqo telefonu yerinə qoyub hamama getdi. Suyu yenicə açmışdı ki, telefon yenə zəng çaldı. Hamamdan qaçıb telefonu götürmək lazım gəldi.

– Mən sizə demişdimmi bu Salambəydir, – o, Qorçilinin qışqırığını eşitdi, – mən sizə demişdim axı o ölməyib!

– Nə baş verib? – Dronqo soruşdu.

– Prokurorluğun işçiləri Əhməd Elqarovun öldürüldüyü evin blokunda Salambəy Muzayevin barmaq izlərini tapıblar. Əhmədin kiçik qardaşı zəng eləmişdi, indi heç bir şübhə yoxdur. Həmin qatil elə Salambəyimiş. Siz isə mənə yaşlı livanlı haqqında nağıl danışırdınız! – Qorçilin sözünün doğru çıxmasından və nifrətindən boğula-boğula qışqırdı.

## On üçüncü fəsil

Dronqo gecəni pis yatdı. Elə hey Bakıdakı bir adamla danışırdı. Üzü gah Qorçilinin, gah Şalva Çiladzenin, gah da heç zaman görmədiyi Leonid Subbotinin üzünə çevrilir, Edqar Veydemanis olur, Dronqonu sadəcə qorxu basırdı. Neçə illər tanıdığı ən yaxın dostundan, həmkarından, onun həyatını bir neçə dəfə xilas etmiş

insandan şübhələnmək... Dronqo da öz növbəsində onu ən çətin əməliyyata göndərərək həyatını xilas etmiş, Edqarın etirazlarına baxmayaraq, borcunu qaytarmışdı. “Bu iblis üçün çox böyük hədiyyə olardı”, hətta yuxuda da belə düşünürdü. Ancaq qatil yenə cildini dəyişib Tamaraya döndü və Dronqonu yenə xof basdı.

Səhər onu yuxudan növbəti telefon zəngi oyatdı. Saat yeddiyə az qalmışdı. O, əlini uzadıb mobil telefonunu götürdü. Zəng edən Leonid Subbotin idi.

– Səfir mənə səhər saat yeddidən zəng vurub izahat tələb edir, – deyə izah etdi, – soruşur ki, mənə gətirdiyiniz zərf nədir.

– Ona başa salın ki, bu Prezident Administrasiyasının tapşırığıdır və siz bu səbəbdən də gözdən pərdə asmaq üçün ailənizi götürüb Nanta getmişdiniz, – Dronqo cavab verdi. – Düzünü deyə bilərsiniz ki, Nantda bir-iki saatdan artıq olmamısınız, sonra isə Parisə qayıtmısınız. O, şəxsən hər şeyi yoxlaya bilər. Tapşırığın özü isə o qədər məxfidir ki, sizin onu nəinki səfirlə, heç rus kəşfiyyatının rezidentiylə də müzakirə etmək hüququnuz yoxdur.

– Mobil telefonda belə şeylər haqda danışmaq olmaz, – Subbotin qorxdu.

– Bunu onun özünə deyərsiniz, – Dronqo məsləhət verdi. – Versala gələndə mənə zəng vurun. Ancaq tələsməyin, imkan verin, bir az yatım.

O, telefonu təkrar stolun üstünə qoyub çevrilərək yatmağa çalışdı. Amma Qorçilinin dünənki məlumatı rahatlığını pozmuşdu. Yox, Dronqo səhv edə bilməz. Onunla danışan kişi çeçen deyildi. O həm də ona görə Salambəy ola bilməzdi ki, ucaboylu deyildi, Tariyel isə inandırırdı ki, livanlı ucaboylu idi. Və nəhayət, ən mühüm şey – gürcü təhlükəsizlik xidmətinin əməkdaşlarının "Şeraton"da tapdığı barmaq izləri. Əgər bu izlər keçmiş çeçen səhra komandirinin barmaq izlərilə uyğun gəlsə, onda şübhəsiz, faktları etiraf etmək lazım gələcək. Salambəy xarici görünüşünü tanınmaz dərəcədə dəyişmiş, iyirmi yaş qocalmış və hətta hansısa bir yolla uzanmışdı da. Hərçənd, Dronqonun praktikasında cinayətkarın ümumi rəyə əsasən məhz bu fiziki göstəricinin dəyişməz formada qalacağını başa düşərək şüurlu surətdə əməliyyata girdiyi hal olmuşdu.

Ancaq Qorçilin dediyində israr edirdi. Düzdür, birinci yoxlamadan sonra barmaq izləri tapılmamışdı. Qətldən dərhal sonra orada yerli DİO-nun əməkdaşları işləmişdilər. Lakin iki gündən sonra Moskvadan mütəxəssislər gəlmiş, cinayət yerində daha səylə təhqiqat aparmış, məhəccərin iç tərəfində təzə barmaq izləri tapmış və onları daktiloskopik məlumatların Daxili İşlər Nazirliyinin arxivində saxlandığı çeçen səhra komandiri Salambəy Muzayevin barmaq izlərilə tutuşdura bilmişdilər. İndi heç bir şübhə qalmırdı ki, rus milisinin polkovniki olmuş sabiq dostunu güllələyib bu cinayəti törədən artıq on ildən çoxdur ki, federal axtarışda olan məhz çeçen

komandiri və separatçısıdır. Motivlər aydın idi. Salambəy hesab etmişdi ki, müsəlman Əhməd Elqarovun çeçen müharibəsi dövründə öz dindaşlarını satıb Rusiyanın tərəfindən çıxış etməyə haqqı yoxdur. Belə bir adamın da qisası yalnız güllə olmalı idi.

Ancaq bu motivlər Dronqonun özünə də tam aydın deyildi. O, çarpayıda az qala bir saat da eşələnəndən sonra, nəhayət, hiss elədi ki, yata bilməyəcək. Buna görə ayağa qalxıb isti duş qəbul elədi, üzünü qırxdı və səhər yeməyi yemək üçün aşağı düşdü. Bu gün bazar günüydü və fransız otellərində həmişə olduğu kimi bu günlərdə mehmanxanalar adamla dolu olurdu. İstirahət günləri otellərdə endirimlər olur, buna görə də burada hətta bazar günü də həmişəkindən çox adam olur. Pəncərənin yanındakı kiçik stolun arxasında oturub bir fincan çay istədi. Əgər Salambəy Elqarovun qətlində iştirak edibsə, onda tamamilə mümkündür ki, Qorditskinin maşınına bomba qoyan da elə o olub. Xüsusən də o, Qorçilinə çoxdan yoxa çıxmış saydıqları bir adamla görüşəcəyini demişdi. Bu isə yalnız Salambəy ola bilərdi. Onda bəs hər şeyi bu qədər məharətlə hesaba alan rasional və dəqiq hərəkət edən bu livanlı kimdir? Salambəyin yoldaşıdırmı? Köməkçisidirmi? Bəlkə əksinə, hansısa ərəb muzdlusudur? Yox, yox. O, əlbəttə, ərəb deyil. Heç bir ərəb ömründə rusca bu cür yaxşı danışa bilməz. Gərək, rus mühitində anadan olsun, uşaqlıqdan rusca danışsın. Onda o çeçendir, axı əgər yaşı altmışa yaxındırsa, deməli, hələ o zaman Stalinin dövründən bütün çeçen

xalqının göndərildiyi Qazaxıstan çöllərində anadan olub. Orada doğulan çeçenlərin hamısı rus dilində tam sərbəst danışırdı. Ancaq Şimali Qafqaz xalqları üçün səciyyəvi olan sözlərin udulmasını və boğaz səsini saxtalaşdırmaq və dəyişmək mümkün deyil. Yox, Dronqo bu adamın çeçen olmadığına əmin idi. Onunla söhbət edən qatil lap uşaqlıqdan rusca danışmağa başlamışdı. Buna heç bir şübhə yox idi.

Onda belə çıxır ki, qatil tək işləmir. Bu halda hər şey uyğun gəlir. Bir yandan qatil Çiladzeylə hesablaşmaq üçün Tiflisə gəlir, sonra isə Bakıya uçur. Onun yoldaşı Fransada ikinci cinayəti hazırlayır, diplomatın ailəsinin işini bitirmək üçün onu Nantda gözləyir. Bəlkə onlar başqa yerlərdə də oxşar sxemlər üzrə hərəkət ediblər? Vitebskdə biri öldürüb, Nalçikdə o biri... Yox, heç həqiqətəuyğun deyil. Salambəy özünə belə "mütəxəssisi" haradan tapıb? Əgər o incik düşdüklərini özü öldürmürsə, onda qisasın ləzzəti nədədir? Lakin onda kimdir bu livanlı biznesmen?

Dronqo səhər yeməyi üçün bir fincan çay və kruassanla kifayətləndi. Küçəyə çıxıb parka tərəf getdi. Luvr sarayının qarşısındakı parka çıxmaq üçün küçəni keçmək lazım idi. Oradan Zəfər Tağına, ardınca da Defans Tağına gözəl bir mənzərə açılırdı. O, parkın xiyabanlarıyla dalğın-dalğın gəzişirdi. Bu bazar səhərində burada demək olar ki, adam yox idi və o fikrini cəmləyib sonrakı planları barədə düşündü. Aydındır ki, Subbotinlə ailəsini bir bəhanə ilə

Fransadan uzaqlaşdırıb xilas etmək lazımdır. Yoxsa qatil onları yenə aldada bilər. Və onda Dronqo onların yanında olmayacaq.

Günün birinci yarısında Subbotin zəng edib məlumat verdi ki, onlar artıq Versala çatıb, Versal sarayının yaxınlığında kiçik bir oteldə yerləşiblər. Otel "La Versal" adlanır və Müqəddəs Anna küçəsində yerləşirdi. Dronqo oteldən sifariş verməmək üçün taksi tutub, onu Versala aparmasını xahiş elədi. Yolda yadına düşdü ki, Versala sonuncu dəfə lap cavan ikən, Sovet İttifaqından olan qrupun tərkibində gəlmişdi. Bu çoxdan, keçən əsrdə olmuşdu. Qəribədir ki, o vaxtdan Parisə və Fransaya dəfələrlə gəlsə də, bir daha Versala gedib Fransanın böyük kralı XIV Lüdovikin şərəfinə tikilmiş rəsm qalereyası və bağı olan bu əsrarəngiz sarayı görməyə vaxt tapmamışdı.

O, o zaman turistlərin suallarına cavab verən bələdçinin bir sözündən pərt olduğunu xatırladı. Turistlər bu gözəl sarayda tualetlərin olmadığına fikir verib "günəş-kralın" vaxtında bu məsələnin necə həll olunduğuyla maraqlanmışdılar.

– Heç cür, – otuz beş yaşlı həyasız, cavan bələdçi gülümsəmişdi. – Kişilər sadəcə pəncərəyə tərəf gedib oradan işəyirdilər. Qadınlar bağa qaçır, yaxud küpələri oraya boşaldırdılar. İy dözülməz olmuşdu, amma bu bağ üçün yəqin ki, yaxşı gübrələmə rolunu oynayırdı. Buna görə burada hər yerdə başqa iy buraxan ətirli çiçəklər əkirdilər, qadınlar və kişilərsə özlərinə flakonlarla ətir vurur, bununla da aylarla yuyunmurdular. Dəbdəbəli varvarlıq dövrü bax beləymiş.

Belə faktlardan sonra hətta Versal sarayı da çox cəlbedici görünə bilməzdi, Dronqo bu haqda fikirləşə-fikirləşə qərara gəldi. Roma silahıyla yaradılmış ümumdünyəvi imperiya dövründə Ərəfatın sahillərindən Atlantik okeanına qədər uzanan, hamının bir dildə danışdığı, eyni qanunlara tabe olduğu, eyni pul vahidindən istifadə etdiyi və ümumi allahlara sitayiş etdiyi vahid dövlət var idi. Sonra varvarların təcavüzü, orta əsrlərin büründüyü minillik zülmət, inkvizisiya tonqalları və artıq başqa, daha yaradıcı səviyyədə İntibah dövrü baş verdi. Sonra maarifçilik dövrü, insanın və vətəndaşın ayrılmaz hüquqlarını ilk dəfə meydana çıxaran iki böyük inqilab – Amerika və Fransa inqilabları oldu. Tezliklə isə get-gedə sürətlənən texniki yeniləşdirmə, yeni-yeni maşınlar, ideyalar ortaya çıxdı. İki dünya müharibəsi bəşəriyyəti lərzəyə gətirdi və nəhayət, əvvəlki Roma imperiyasının birləşməsi ideyası kimi ümumi qanunları, sərhəd və pulları olan birləşmiş Avropa yarandı.

Yəqin ki, belə təsəvvürəgəlməz ağır bir yol keçən bəşəriyyət dəyişməli, müdrikləşməli, öz gücünü hiss etməli və zəkasına inanmalı idi. Ancaq hər şey əvvəlki kimi qaldı. Paxıllıq, nifrət, qəzəb, təkəbbür, tamahkarlıq, acgözlük – insanın bütün bu pis cəhətləri sivilizasiyanın inkişafıyla ölməyib, sanki insanı işığın zülmət, Allahın şeytan üzərində qəti qələbəsinə inanmağa qoymayaraq, onun xislətinin bir hissəsi olaraq qaldı. Və insanın bütün qüsurları bəzən bu və ya başqa şəkildə,

lakin min, iki min, hətta üç min illər əvvəl olduğu kimi eybəcər və eyibli olaraq yaşamağında davam etdi.

Dronqo Subbotinin onu gözlədiyi “Le Versal” otelini çox tez tapdı. Otel sarayın lap yanında deyildi. Oradan otelə təxminən bir yarım-iki dəqiqəyə getmək olardı. Diplomat eynəkli, gicgahları ağarmış, onu ağacdələnə oxşadan uzunsov burunlu, yaraşıqlı bir kişiydi. Rus diplomatından çox, ingilisə oxşayırdı. Qəhvəyi tvin pencək və boz şalvar geyinmişdi. Subbotin qonağı elə oteldə yerləşən kiçik restorana apardı.

– Arvadımla oğlum nömrədə dincəlirlər, – o izah etdi. – Etiraf etməliyəm ki, dünən bizi yaman qorxutdunuz. İndi başa düşürəm ki, bunu bizi oradan mümkün qədər tez çıxmağa məcbur etmək üçün eləmisiniz. Mənsə elə yorğun və həyəcanlıydım ki, əməlli-başlı bir şey dərk eləyə bilmirdim. Ancaq bu gün bilmişəm ki, bizim səfirliyə zəng vurub uydurma bir məktubla aləmi qatmısınız. Xahiş edirəm, məni bağışlayın, amma bu o qədər də ağıllı hərəkət deyildi. Axı mən onsuz da bazar ertəsi bütün bu əhvalatı bizim səfirə yazılı şəkildə təqdim etməli olacağam.

– Deməliyəm ki, sizi görməyimə şadam, – Dronqo cavab verdi, – dünənki günü cəsarətlə yeni doğum gününüz adlandıra bilərsiniz. Özü də təkcə sizin yox. Siz doğrudan da hələ heç nə başa düşməmisiniz. Təhlükə yalnız real deyildi – ölüm sizi haqlamaq üzrəydi, buraya sağ-salamat gəlib çıxmaq şansınız yüzdən birə bərabər idi. Yaxşı ki, axırda

belə oldu. Arvadınızla mobil telefonlarınızı söndürəndən sonra sağ qalmaq şansınız sadəcə yox idi.

Subbotin eynəyini çıxarıb şüşəsini silərək ağır-ağır nəfəs aldı. Yenə eynəyini taxdı.

– Doğrudanmı? – deyə sakitcə soruşdu. – Mən hal-hazırda bütün yoldaşlarımı və məni ailəmlə birlikdə öldürə biləcək bir manyakın meydana çıxdığına inanmalıyam?

– O, Vitebskdə dostunuz Feliks Qorditskini sürücüsüylə birgə öldürüb, Tiflisdə isə o biri dostunuz Şalva Çiladzenin ofisini katibəsi və köməkçiləriylə bir yerdə partlatmağa hazır idi. Bu qatil heç nəyin qarşısında dayanmır. Sizi axırınıza çıxmaq üçün aldadıb Nanta aparan da o olub.

– Dəhşətə bax, – Subbotin təsirlənmiş halda dedi. – Mən bizim səfirə bir şey anlatmağa çalışdım, ancaq qorxuram ki, heç nə başa düşməsin.

– Heç başa da düşməyəcək, – Dronqo cavab verdi. – Siz gərək ərizə yazıb heç olmasa ikihəftəliyə təcili məzuniyyətə çıxasınız. Ailənizi də əvvəlcədən Avropa ölkələrindən birinə göndərəsiniz. Qohumlarınızın olduğu Moskvaya, yaxud Kurska yox, məhz Avropaya. Sakit bir yerə. Şotlandiya dağlarına, ya da Portuqaliyanın cənubuna ki, onları tapmaq çətin olsun. Sonra da özünüz gedin. Məncə, səfir sizi buraxar. Ona izah edin ki, bu, məndən aldığınız məktubla əlaqədardır.

– O tələb edəcək ki, onu göstərim. Yaxud heç olmasa, məzmununu danışım.

– Mən artıq sizə dedim ki, cavab verən məhz siz olmalısınız. Yanaqlarınızı şişirdin və susun. Bu, həmişə təəssürat oyadır. İnanın ki, dünənki mərəkədən sonra bütün səfirlik sizi ya yeni məxfi xidmət orqanının rezidenti, ya da Fransa Prezident Administrasiyasının şəxsi nümayəndəsi hesab edəcək. Xoşunuza gələn variantı seçin.

– Bu fırıldaqçılıqdır, – Subbotin qaşqabağını tökdü, – belə olmaz...

– Mən qatili tapandan sonra istəsəniz, hər şeyi səfirə danışa bilərsiniz. Bütün həqiqəti. Ancaq əvvəlcə mənə sizin və yaxınlarınızın hələlik mənə məlum olmayan səbəblərdən belə qəzəblə ovuna çıxmış bu qatildən xilas etməyə imkan verin.

– Siz hələ onun kim olduğunu bilmirsiniz?

– Əgər bilsəydim, deyərdim. Ancaq mən sizə dünənki inanılmaz xəbərləri çatdıra bilərəm. Mənə bunu Qorçilin zəng edib danışdı. Onda sizin telefonlarınız söndürülmüşdü. Deməк belə: Nalçikdəki təhqiqat zamanı Moskva ekspertləri polkovnik Edqarovun öldürüldüyü evin blokunda, məhəccərin iç tərəfində barmaq izləri tapıb. Barmaq izləri Salambəy Muzayevə məxsusdur. Bu, çox dəqiqliklə müəyyən olunub, Daxili İşlər Nazirliyində qeydə alınmış daktiloskopik məlumatlar arasında onun barmaq izləri var.

– Ola bilməz, – Subbotin ikrah və heyrətlə mızıldandı, – bu, sadəcə, ola bilməz. Salambəy dostlarını öldürüb? Məni və ailəmi öldürmək istəyib? Buna ömrümdə heç zaman inanmaram! Eşidirsinizmi? Heç zaman! Bu, nəsə bir səhvdir.

– Onda daktiloskopik ekspertizanın düzgünlüyünü yoxlayın. Siz ki diplomatsınız, ali təhsiliniz var. Doğrudanmı iki adamın barmaq izlərinin heç cür uyğun gəlmədiyini bilmirsiniz?

– Bunu bilirəm, – Subbotin qaşqabağını tökdü, – amma bizim Salambəy elə adam deyil. Yəqin ki, Qorçilin Cəlalabad yaxınlığındakı dağlarda öz brilyantlarıyla Pakistana qaçmağa çalışan ailəni gördükləri zaman baş verən əhvalatı sizə danışıb. Onları öz sürücüləri satıbmış, onu da sahibi güllələmişdi.

– Bəli, o mənə bu haqda danışıb.

– Bizim qrup mücahidlərin arxasına keçən zaman onlar hücumu çətinliklə dəf edə-edə müdafiə olunurdular, – Subbotin xatırladı. – Biz üç nəfər idik: qrupun komandiri yefreytor Əhməd Elqarov və biz ikimiz – mən və Salambəy Muzayev. Elqarov yamacı bir qədər dolanmağı təklif etdi. Salambəyin dediyini eşitmək lazım idi. “Orada dostlarımız həlak olurlar, biz isə dağı dolanmağı fikirləşirik!” – deyə bizə qışqırdı. Elqarov düz, dolanmadan hərəkət etməyi əmr verdi. Siz bir Salambəyin necə döyüşdüyünü görəydiniz! Əslində, bizim hamımızı o xilas etdi. Sonra isə onu Elqarov xilas etdi. Siz də mənim

inanmağımı istəyirsiniz? Əgər Salambəylə Mişa Şevçenko olmasaydı, biz dağlardaca qalardıq.

– Şevçenko həlak oldu?

– Bəli. O və Samar Yaqubov həlak oldular. Yaqubovu apara bildilər, Mişa isə hücum edənlərlə birlikdə özünü partlatdı. Mən ora sürünüb onun parçalanmış qalıqlarını, qopmuş ayağını gördüm. O qədər qan axmışdı ki, adam baxmağa qorxurdu – elə bil daşlara rəng tökmüşdülər. Mən gözlənilməz hadisədən hətta ağladım da. Sonra vertolyotlar gəldi və bizim hamımızı xilas etdilər. Mişayla Samarın qalıqlarını vətənə, yaralıları hospitala yola saldılar, mənə isə Qorçilin hədiyyə olaraq daşlar vermişdi. Mən heç onların nə olduğunu başa düşmədim və onları batalyon komandirimizə verdim. Sonradan bunların əsl brilyantlar olduğunu öyrəndim. Təkcə mənim bu brilyantlarda gözüm yoxdur. Bizim batalyon komandiri artıq bir il sonra ordudan azad olundu. Deyirlər, kazinoda çoxlu puldan oynayırmış, qumarbaza çevrilib içməyə başlayıb, hər şeyi uduzub, axırda mənzil borclarını hesablamağa gələndə özünü asıb. Belə kədərli bir aqibət. Bu daşlar heç kimə xeyir gətirmədi. İndi də yəqin hansısa bir dəli onlardan ötrü məndən və yoldaşlarımdan qisas alır... Axmaqlığa bir baxın...

Mənsə institutu bitirdim, diplomat oldum və Fransaya təyinat aldım. Əgər siz daha bizim səfiri və diplomatları qorxutmasanız, çox

güman ki, vəzifəm böyüyər və mən Afrikanın fransızdilli ölkələrindən birində səfir ola bilərəm, – Subbotin təbəssümlə əlavə etdi.

– Buna şübhə etmirəm, – Dronqo başını tərpətdi, – hələliksə sizə məsləhət gördüyüm kimi hərəkət edin.

– Salambəy heç vaxt mənə və ailə üzvlərimə əl qaldırmaz. Bu, sadəcə, qeyri-mümkündür, – Subbotin əminliklə təkrar etdi, – və siz məni heç zaman inandıra bilməyəcəksiniz.

– Mən də elə hesab edirəm ki, o, belə iş tutmaz. Ancaq faktları heç nə dəyişə bilməz. Bizim qatil saydığımız adam Salambəydən on beş-iyirmi yaş böyük olsa da. Ancaq unutmayın ki, Muzayev sadəcə sizin keçmiş döyüş yoldaşınız deyil. O, iki çeçen müharibəsi zamanı iki dəfə rus hərbiçilərinə qarşı vuruşub.

– Mən heç unutmuram da. Başa düşürsünüz, o əsl döyüşçüdür. Bu onların qanındadır. Ancaq nə satqındır, nə qatildir, nə də oğru. Daşlarını da ya ümumiyyətlə itirib, ya da atıb. Həm də bizimlə yox, özününkülər uğrunda vuruşub. Bunlar başqa-başqa şeylərdir. O axı çeçendir, bütün qohumları və dostları müharibəyə gedərkən evdə necə otura bilər?

– Mənə elə gəlir ki, siz qafqazlısınız, mənsə rus diplomatıyam və siz məni çeçenlərin arasında necə cəsur və mərd adamların olduğuna inandırmaq istəyirsiniz.

– Diplomatın bura nə dəxli var? Mən Salambəylə vuruşmuş və necə döyüşdüyünün şahidi olmuşam. Orada heç yerdə gizlənmək,

yaxud hiylə işlətmək mümkün deyil. İnsanın əsl üzü orada meydana çıxır. Təkrar edirəm: o kişidir və döyüşçüdür, qatil deyil. Əgər yüz ekspertiza da təsdiq etsə ki, Əhməd Elqarovu Salambəy öldürüb, hətta siz bütün bunları öz gözləriylə görən şahid belə tapsanız, mən yenə inanmaram. Sadəcə bacarmaram.

– Somerset Moem belə hesab edirdi ki, əzablar insanın yaxşılaşmasına kömək eləmir: o qəzəblənir, qəddarlaşır, sonda isə pis tərəfə dəyişir.

– Ola bilər, – Subbotin bir az fikirləşib cavab verdi, – onda mən hansı əzablardan söhbət getdiyini tam da başa düşmürəm. O, həqiqətən iki dəfə vuruşub, ancaq müharibələr arasındakı fasilədə normal yaşayıb, nazir müavini işləyib, – təxminən belə bir rütbəsi olub, – və tamamilə normal adam olub. Mən onunla bir neçə dəfə söhbət eləmişəm. Burda bir səhv var.

– Mən hər şeyi şəxsən yoxlayacağam, – Dronqo söz verdi, – ancaq sizin əminliyiniz hörmətinizi artırır. İndi isə gəlin söhbətimizi bitirək. Bu gün ailənizi göndərin, sabah isə qısamüddətli məzuniyyətinizi rəsmiləşdirib bir yerə gedin. Başqa yerə də olar, vacib deyil ailənizlə bir yerdə gedəsiniz. Zənnimcə, artıq bir həftədən sonra bizim konkret nəticələrimiz olacaq.

– Yaxşı, – Subbotin bir az fikirləşib razılaşdı. – Mən bunu yalnız arvadımla oğlumdan ötrü edirəm. Hərçənd, yenə də bizim pinkertonlarımızın sayıqlamalarına inanmıram.

– Sağ olun, – Dronqo qalxdı. – Ehtiyatlı olun. Çalışın, bu gün Parisdə görünməyəsiniz. Belə daha yaxşı olar.

– Xudahafiz, – Subbotin də onun ardınca qalxdı, – onu da nəzərə alın ki, lazım gələrsə, hətta Salambəyin məhkəmə prosesində də iştirak etməyə, onu şahid qismində müdafiə etməyə və Əfqanıstanda necə şərəf və igidliklə vuruşduğunu söyləməyə hazıram.

Dronqo ona əl uzatdı.

– Hərdən öz-özümə düşünürəm ki, lazımsız və çirkli bir işlə məşğul oluram, – o etiraf etdi, – ancaq Leonid İqoryeviç, sizin kimi adamlarla görüşəndə isə məhz lazımlı və faydalı işlə məşğul olduğumu anlamağa başlayıram. Sizin prinsipial mövqeyinizi və dərhal xilas edilmiş üç həyatı da öz aktivimə yazıram. Bu, elə də az deyil, hətta Fransaya bir səfər üçün də.

## On dördüncü fəsil

Axşam Dronqo Frankfurta uçdu ki, orada düşüb Minskə yollansın, oradan da Vitebskə getmək mümkün idi. Minskdə bir gecə qalmalı oldu – qatar yalnız səhər gedirdi. O, küçəyə bir az gəzişmək üçün çıxanda gecəyarısına az qalmışdı. Minsk də, Belorusiya da onu həmişə heyran edirdi. Bu, sözün ən yaxşı mənasında salamat qalmış bir Sovet qoruğu idi. Nəzakətli, ziyalı adamlar, tərtəmiz şəhərlər, başqa respublikalar üçün səciyyəvi olan toqquşmalardan qaçan daxilən

sakit vətəndaşlar. Rusiya televiziyasının demək olar, bütün proqramlarında qonşu ölkənin Rusiyaya səmimi, dostcasına münasibət bəsləyən prezidentini daim ələ salırdılar. Dünyada Rusiyaya belə aşkar simpatiya bəsləyən ikinci bir ölkə tapmaq çətin idi.

Lakin məsələ heç belorus-rus münasibətlərində də deyildi. Məsələ adamların özündəydi. Bu torpaqda məskun olan insanlarda bir aydınlıq, bir saflıq hissi duyulurdu. Dronqo ömrü boyu bir dəfə də olsun ləyaqətsiz, yalançı, xain, zalım, qisasçı belorusa rast gəlməmişdi. Sadəcə, qarşısına beləları çıxmamışdı. İfşa etdiyi cinayətkarlar arasında ən qəribəsindən tutmuş ən yaxın qonşulara kimi, bütün xalq və millətlərin nümayəndələri olmuşdu, ancaq belorus olmamışdı. Sanki bu xalq qalan insanların yaşamalı olduğu kimi – vicdanla və Allaha inamla yaşamağı şərtləşmişdi. Yəqin ki, respublikanın özündə fırıldaqçılar da, oğrular da, hətta cinayətkarlar da var idi, ancaq o, heç vaxt onlarla üz-üzə gəlməmişdi. Dronqo həmişə doxsan birinci ilin yayında təsadüfən Minskə düşdüyü zaman başına gələn gülməli bir əhvalatı xatırlayırdı. Ümumi, böyük stolun arxasında hər birinin otuz-otuz beş yaşı olan iki gənc qadın oturmuşdu. Onlar bir-birindən hiss edilməyən bir şeylə fərqlənirdilər. O, zarafatla bu qadınlara pərəstişkarlıq etmiş, onları nömrəsinə dəvət edib uzun, yaltaq sağlıqlar demişdi. Sonra isə məlum olmuşdu ki, hər iki qadın milis zabitidir. Biri kapitan, o biri böyük leytenant imiş. O öz səhvini xatırlayanda

həmişə gülümsəyirdi. Bu ölkədə hətta milis zabitləri də vaxt keçirmək üçün maraqlı olan yaraşıqlı və gülərüz xanımlar idi.

Ancaq bu xeyirxah və mülayim xalq həmişə belə qonaqpərvər və xeyirxah olmurdu. Müharibə zamanı faşistlər respublikanı mühasirəyə alanda onlar bu mülayim adamların əsl xarakterini tanıdılar. İşğalçılarla mübarizəyə qalxan beloruslar elliklə partizan dəstələrinə qoşulur, körpüləri partladır, düşmənlərə amansızlıqla divan tuturdular. Respublikanı çox haqlı olaraq "partizan ölkəsi" adlandırırdılar. Və heç bir çıxış yolu olmayan yarışlar təzədən başlayırdı. Qonşu Baltikyanı respublikalarda faşistlərə kömək etmək üçün könüllü legionlar formalaşır, Ukraynada millətçilər öz ordularını yaradır, Qafqaz və Orta Asiya satqınları öz milli hissələrini büruzə verirdi, satqın Vlasovun ordusu isə ruslardan və Rusiyada yaşayan başqa millətlərin nümayəndələrindən ibarət idi. Belorusiyada buna bənzər bir dənə də birləşmə yaradılmamışdı. Burada, sadəcə olaraq bu qədər satqın və fərari tapılmamışdı.

Elə xalqlar var ki, bizim sivilizasiyanın mədəniyyətinə böyük töhfə vermişlər. İntibah dövrünü reallaşdıran italyanlar, flamand rəssamları, ərəb alimləri, fars şairləri, fransız impressionistləri, alman bəstəkarları, rus yazıçıları – bunlar hamısı bəşəriyyətin nailiyyətləridir. Elə xalqlar var ki, öz inkişafları zamanı o qədər bəla və əzablara düçar olublar ki, onların necə salamat qaldıqları tamamilə anlaşılmazdır. Dünya imperiyalarına rəhbərlik edən və işğalları sayəsində öz dillərini

ümumdünyəvi edən xalqlar – ingilislər, fransızlar, ispanlar, hətta portuqallar da var. Beloruslar kimi əsl böyüklük xarakterində olan bir xalq da mövcuddur. Və əgər yaradıcı xalqın mənəvi dəyərləri ola bilərsə, bu, başqalarına hücum etməyən xeyirxah qonşu, ümumi iş uğrunda həmişə vicdanla və sonadək vuruşan cəsur döyüşçü, etibar etmək və sülh şəraitində yanaşı yaşamaq mümkün olan ləyaqətli belorus xalqıdır.

Gec olmasına baxmayaraq, Dronqo bu isti bazar axşamı şəhərin küçələriylə gəzişən bir neçə adama rast gəldi. Əcnəbiylə demək olar ki, hamı salamlaşır, qonağa mehribanlıqla gülümsəyirdi. Ekspert otelə sakit halda qayıtdı. Səhərki gün o Vitebskə getdi. Elə qatardaykən bu uzun çəkən dramın bütün iştirakçılarına zəng vurdu. Əvvəlcə Çiladze ilə birlikdə İstanbulda olan Edqar Veydemanisə zəng etdi. Onların işlərinin qaydasında olduğuna əmin olandan sonra Subbotinlə əlaqə saxladı. O, məlumat verdi ki, artıq ailəsini yola salıb və bu gün öz məzuniyyətini rəsmiləşdirməyə hazırlaşır, amma o yeddi gündən çox çəkməyəcək. Gələn həftə Xarici İşlər Nazirinin Fransaya səfəri gözlənilirdi, buna görə səfir müşavirin belə bir tədbirdə iştirak etməməsinə sadəcə icazə verə bilməzdi.

“Deməli, qatili tapmaq üçün mənim bircə həftəm qalıb” – Dronqo başa düşdü.

Üçüncü dəfə Qorçilinlə danışdı. Dəstəkdə şütüyən maşınların səs-küyü eşidilirdi.

– Siz mənim sözümdən çıxıb şəhərkənarı evinizdə qalmamısınız, – Dronqo onu məzəmmət etdi.

– Haradan bilirsiniz? – Qorçilin təəccübləndi. – Siz görücüzadsınız?

– Zarafatı boşlayın. Mən axı sizdən xahiş etdim ki, heç yerə getməyəsiniz.

– Mən getməyə bilməzdim, – Qorçilin çəmkirdi, – mənim şirkətim var, iş adamıyam. Salambəydən ötrü bir yerdə oturub tir-tir əsə bilmərəm. Alınmır. Dünən oturmuşam, bu gün isə Moskvaya işlərimin dalınca getməliyəm. Haradan bildiniz ki, evdə deyiləm?

– Yoldan keçən maşınların siqnalını eşidirəm, – Dronqo soyuq-soyuq izah etdi. – Siz mənim işimi çətinləşdirirsiniz. Əgər özünüzü belə axmaqcasına aparsanız, sizi müdafiə etmək mənim üçün çətin olacaq.

– Mənim vacib işlərim var, – Qorçilin inadla təkrar elədi – və şəhərdən kənarda oturub qala bilmərəm. İndi biz Əhməd Elqarovu və güman ki, Feliks Qorditskini kimin öldürdüyünü dəqiq bilirik. Buna görə mən də əlimi əlimin üstünə qoyub oturmadım. Mənim silah gəzdirmək üçün rəsmi icazəm var. Cangüdənlərimin dördü də silahlıdır. Əgər Salambəy Moskvaya soxulmağa çalışsa, onu dərhal güllələyəcəyik. Keçmiş dostumun şəkillərini bütün cangüdənlərimə vermişəm. Belə hallarda deyirlər: xəbərdarsansa, deməli, silahlanmısan.

– Siz nə baş verdiyini yaxşı başa düşmürsünüz, – Dronqo etiraz etdi. – Qorxuram ki, əsas təhlükə Salambəydən yox, tamam başqa bir adamdan gəlsin. Yəqin ki, Muzayev bu muzdlunu tapıb ki, onun köhnə dostlarıyla hesablaşa bilsin.

– Deməli, biz bu qoca ərəb kaftarını da güllələyəcəyik, – Qorçilin sevinclə dedi. – Ancaq siz narahat olmayın, mən şüursuz gic deyiləm. Mən mühafizə olunan "Qazprom" ofisiylə danışıqlar aparacağam, sonra da evimə gedəcəyəm. Söz verirəm ki, küçəyə çıxmayacağam, naharı da kabinetimdə edəcəyəm.

– Yaxşı, – Dronqo könülsüz razılaşdı, – şəxsən sizin qərarınızla razılaşmasam da, hər halda, razılaşmalı olacağam. Öz rəqibinizi tamamilə dəli sanmayın. O, hamının yanında sizi öldürməyə cəhd etməyəcək, tamam başqa bir üsul tapacaq. Başqa hallarda olduğu kimi.

– Hələlik onda heç nə alınmayıb, – Qorçilin qalibanə tərzdə güldü. – Siz Tiflisdə də, Parisdə də onun qabağına doqquzluq çıxartmısınız.

– Siz Paris məsələsini haradan bilirsiniz? – Dronqo soruşdu.

– Dünən Lyonya Subbotinlə danışdım. Siz onu elə qorxutmuşdunuz ki, yüz dəfə soruşdu ki, görkəminiz necədir və sizə etibar etmək olarmı? Mən də onu inandırdım ki, olar. Deyəsən, bir az sakitləşdirdim.

– Yaxşı olardı ki, məni sakitləşdirəsiniz, – Dronqo narazı-narazı mızıldandı. – Siz Vitebskdə Feliks Qorditskinin dəfnində olmusunuz, yəqin ki, partlayış faktıyla bağlı istintaqı kimin apardığını bilirsiniz.

– Prokurorluq və onun təhlükəsizlik komitəsinin istintaq şöbəsi, – Qorçilin məlumat verdi. – Müstəntiq Oleq Savelyeviç Poplavskixdir. Dərhal ona müraciət edə bilərsiniz. Mən ona vizit kartımı vermişəm.

– Sizdə onun telefonu var?

– Var, amma gərək axtarım. Sizə beş dəqiqədən sonra zəng vura bilərəm? Nömrə katibəmdə olmalıdır.

– Gözləyəcəm, – Dronqo razılaşdı.

Qorçilin on dəqiqədən sonra zəng edib müstəntiqin nömrəsini dedi. Dronqo Poplavskixin nömrəsini yığdı.

– Sabahınız xeyir, Oleq Savelyeviç, – dedi, – sizi narahat etdiyim üçün bağışlayın, nömrənizi mənə Qorçilin verdi. O, mərhum Feliks Qorditskinin yaxın dostudur.

– Bəli, yadımdadır, – müstəntiq cavab verdi. – Siz kimsiniz? Eşidirəm sizi.

– Mən Qorçilinin maraqlarını təmsil edirəm, – Dronqo cavab verdi, – şəxsi ekspertəm. Əgər mümkünsə, sizinlə görüşmək istərdim.

– Yaxşı, – müstəntiq razılaşdı, – siz indi haradasınız?

– Sizin şəhərə yaxınlaşıram, – Dronqo bildirdi.

– Onda çatan kimi yanımıza gələ bilərsiniz, – müstəntiq icazə verdi, – mən sizin buraxılmanız üçün göstəriş verərəm. Soyadınızı deyib, pasportunuzu göstərərsiniz.

Qatar yarım saatdan sonra Vitebskə çatdı. Dronqo vağzalyanı meydana çıxdı. Buradan ta Qərbi Dvinaya qədər uzanan Kirov küçəsi başlayırdı. O, prokurorluğa piyada getməyi qərara aldı. Küçələrin adları xoş təbəssüm yaradırdı. Burada Lev Tolstoyun, Yanki Kupalanın, Suvorovun, Çkalovun, Qorkinin adlarına küçələr vardı; hətta Lenin prospekti də qalmışdı. Daha iyirmi dəqiqədən sonra Dronqo Poplavskixin kabinetinə girdi. Müstəntiq stolun arxasından qalxdı. Bu, balacaboy, arıq, səliqəli bir kişiydi. Möhkəm əl sıxırdı – Poplavskix gəncliyində cüdo ilə məşğul olmuş, hətta əyalət çempionu da olmuşdu.

– Əyləşin, – müstəntiq təklif etdi. – Sizi məhz nə maraqlandırır? Siz yəqin istintaq sirrinin mövcud olduğunu anlayırsınız və mötəbər moskvalı dostunuz Feliks Makaroviçin ölümünə görə necə xiffət çəkirsə çəksin, biz sizi öz "mətbəximizlə" tanış edə bilmərik.

– Şübhəsiz, – Dronqo razılaşdı, – mən yalnız bəzi məqamları dəqiqləşdirmək istərdim. Bu, necə baş vermişdi?

– Maşın İcraiyyə Komitəsinin binasının yaxınlığında saxlanılıbmış, – Poplavskix qaşqabaqla məlumat verdi. – Onlar binadan ikilikdə çıxıblar: Feliks Makaroviç və sürücüsü. Avtomobilə oturub iyirmi metr uzaqlaşa biliblər. Elə o zaman da partlayış baş

verib. Ekspertiza müəyyən edib ki, bu, benzin bakına atılmış partlayış qarışığıymış. Təəssüf ki, ekspertizanın nəticəsini sizə verə bilmərəm.

– O mənə lazım da deyil. Sizin artıq şübhələndiyiniz şəxslər var?

– Biz işləyirik, – müstəntiq sualdan yayındı.

– Deməli, sizdə konkret şübhəli şəxs yoxdur, – Dronqo başa düşdü.

– Mən sizə belə şey demədim.

– İcraiyyə komitəsinin yanında qoyulmuş kameralar heç nə göstərmədi?

– Bu xidməti məlumatdır, – Poplavskix cavab verdi.

– Mənə qulaq asın, Oleq Savelyeviç, məsələ yalnız sizin rayon İcraiyyə Komitəsi sədrinin müavininin qətlə yetirilməsi deyil. Bir neçə gün sonra Nalçikdə milis polkovniki Əhməd Elqarovu öldürdülər. Bir müddət sonra isə Tiflisdə Şalva Çiladzeni partlatmaq istəyiblər və Fransada rus diplomatı Leonid Subbotinin qətlinə hazırlaşıblar.

Müstəntiq qaşqabaqla Dronqoya baxdı.

– Bu cinayətlər arasında əlaqə görmürəm. Bu adamları bir-birinə nə bağlayırdı?

– Onlar bir orduda, bir vzvodda, bir bölmədə xidmət ediblər, – Dronqo izah etdi. – Neçə yaşınız var? Qırx, ya qırx beş?

– Qırx üç.

– Siz artıq ədliyyə müşavirisiniz. Deməli, prokurorluq orqanlarında çoxdan işləyirsiniz. On beş il, ya çox?

– On səkkiz, – Poplavskix cavab verdi. – Bunun bizim istintaqla bir əlaqəsi olduğunu görmürəm.

– Birbaşa əlaqəsi var. Deməк, siz anlamalısınız ki, belə təsadüf olmur. Siz axı xüsusi mühüm işlər üzrə müstəntiqsiniz və belə elementar şeyləri də başa düşməlisiniz. İnciməyin, ancaq inanın ki, hal-hazırda söhbət təkcə Vitebskdə baş verən cinayətdən yox, başqa adamların ölüm-dirim işindən gedir. Və bu sizin iri məmurunuza qarşı aparılan adi terror aktı deyil, onu keçmişdən haqlayan bir qətldir.

– Mən yenə də burdakı əlaqəni başa düşə bilmirəm, – Poplavskix etiraf etdi.

– Onlar birlikdə reydlərdən birində öz brilyantlarını sərhəddən keçirməyə çalışan əfqan ailəsini tapmışdılar, – Dronqo izah etdi. – Bu uşaqlar möcüzə sayəsində xilas olublar. Orada mücahidlər pusqu qurublarmış. Ancaq onlar hücumu dəf edib salamat qalmışdılar, indi isə o hadisədən iyirmi il keçəndən sonra kimsə onlardan belə dəhşətli üsulla qisas almağa çalışır. Buna görə də siz nə qədər axtarsanız da, qatili Vitebskdə tapa bilməyəcəksiniz. O artıq çoxdandır ki, burda yoxdur. Lakin əgər siz mənim şəxsimdə xoşagəlməz macəra axtarışçısı və rus oliqarxının tapşırıqçısını yox, sizə kömək etmək istəyən həmkarınızı görsəniz, onda bəlkə də mənim bura yeganə bir məqsədlə – qatili tapmaq məqsədilə gəldiyimi başa düşərsiniz.

– Bu halda siz onu necə axtaracaqsınız?

– Mənə sizin köməyiniz lazımdır, – Dronqo dedi.

– Sizə nə lazımdır?

– Sizdə yəqin ki, avtomobilin İcraiyyə Komitəsinin binasının yanında yerləşmə sxemi var. Və bu gizli istintaq ola bilməz, ən azından ona görə ki, İcraiyyə Komitəsinin yerləşdiyi və maşının partladığı yer bilinir. Amma mənim küçələrə qaçıb şahidləri sorğu-sual etməyə vaxtım yoxdur. Mənə sxemi göstərin. Siz onsuz da heç nə itirmirsiniz.

Poplavskix qaşqabağını tökdü. Hiss olunurdu ki, tərəddüd edir. Sonra müstəntiq yerindən qalxdı, kabinetindəki seyfə yanaşdı, qapını açıb qovluğu çıxartdı. Gətirib stolun üstünə qoydu, özü də Dronqonun yanında əyləşdi. Qovluğu açıb sxemi göstərdi.

– Maşın bax, burda dayanmışdı. Bu İcraiyyə Komitəsinin binasıdır. Maşın prospektə çıxmış, bura gəlmiş, işıqforda sürətini azaldıb partlamışdı. İki maşın da zərər çəkmişdi, ancaq içindəkilərin hamısı sağ qalmışdı. Xoşbəxtlikdən işıqforun yaşıl işığı yanırmış. Əgər qırmızı işıq yansaydı, bütün maşınlar dayanacaqdı, onda daha çox qurban olacaqdı, – Oleq Savleyeviç izah etdi.

Dronqo sxemi diqqətlə öyrəndi. Maşın partlayışdan əvvəl adətən İcraiyyə Komitəsi rəhbərlərinin maşınlarının dayandığı dayanacaqda yanakı dayanıbmış.

– Dayanacaq qorunmur? – deyə başını qaldırdı.

– Əlbəttə yox, – müstəntiq cavab verdi. – İcraiyyə komitəsinin “Volqa”sını oğurlamaq kimin ağlına gələr? Sürücülər qapıları heç açarla da bağlamırlar. Bizdə heç zaman belə terror hadisəsi olmamışdı.

– Deməli, qatil dayanacağın qorunmadığını bilirmiş, – Dronqo fikirli-fikirli dedi. – Ümumiyyətlə, hər şey düz gəlir. Mən elə də bilirdim. Demək, o ən azı bir gün şəhərinizdə qalmalıymış. Təcili surətdə şəhərin bütün mehmanxanalarında Livan vətəndaşı Taufik Səbrinin qalıb-qalmadığını yoxlamaq lazımdır.

– Necə dediniz?

– Taufik Səbri, – Dronqo təkrar etdi. – Partlayış nə vaxt baş vermişdi?

– Gündüz saat ikidə.

– Ayın onundan, ya on birindən şəhərin bütün mehmanxanalarını yoxlayın. Bunu çox tez eləmək olar. Sadəcə, göstəriş verin.

Poplavskix qalxıb telefona tərəf getdi. Həyəcanlandığı hiss olunurdu. Sonra bir qərara gəlib dəstəyi götürdü və xahiş etdi ki, keçən ayın onunda, ya on birində şəhərdə Livan vətəndaşı Taufik Səbrinin qeydiyyatdan keçib-keçmədiyini yoxlasınlar.

– İndi məlumat verəcəklər, – dəstəyi qoyub yerində əyləşərək dedi. – Siz axı kimsiniz? Yüz faiz nə vəkilsiniz, nə hüquq məsləhətçisi. Sizdə müstəntiq təcrübəsi var.

– Mən cinayətkarlıq məsələləri üzrə beynəlxalq ekspertəm. Məni adətən Dronqo çağırırlar, – o etiraf etdi.

– Ola bilməz, – müstəntiq heyrətləndi. – Siz haqqında əfsanələr gəzən həmin o Dronqosunuz?

– Bunlar cəfəng nağıllardır, inanmaq lazım deyil, – Dronqo laqeydliklə dedi.

– Niyə dərhal demədiniz?

– Siz onsuz da inanmayacaqdınız. Bir də mən heç ağlıma da gətirmirdim ki, Belorusiyada məni tanıyarlar.

– Özü də necə tanıyarlar, – Poplavskix “hm” dedi. – Gərək dərhal özünüzü təqdim edəydiniz. Mənsə tərəddüd edir, əsəbiləşir, bilmirdim ki, özümü necə aparım və ümumiyyətlə, sənədlərimizi sizə göstərimmi, yoxsa yox.

– İstənilən halda siz heç bir istintaq sirri açmadınız, – Dronqo qımışdı.

Bu zaman telefon zəng çaldı. Müstəntiq dəstəyi qaldırıb dinməzcə məlumatı dinlədi.

– Dayanın, – deyə xahiş etdi və qonağa tərəf çevrilib dedi: – Livanlı vətəndaş Taufik Səbri şəhərimizə ayın onunda gəlib. O, bizdə ayın on ikisinədək qalıb. “Dvina” otelində qeydiyyatdan keçib. Bu, Kirov körpüsünün yanında yerləşən oteldir.

– Bu, o imiş, – Dronqo kədərlə bildirdi, – sizin axtardığınız həmin o qatil. Livanlı biznesmen Taufik Səbri. Mən sizin sədr müavininizin avtomobilinə bombanı məhz onun qoyduğuna demək olar ki, əminəm. Siz bu livanlını beynəlxalq axtarışa da verə bilərsiniz.

– Hansı əsaslarla? Bizdə heç bir sübut-dəlil yoxdur. Bircə ona görə ki, partlayış baş verən zaman bizim şəhərdə olub? Siz axı başa düşürsünüz ki, bizim prokuror belə bir sənədi imzalamaz. Mən də sizin nüfuzlu rəyinizə əsaslana bilmərəm. Məni sadəcə ələ salarlar.

– Bəli, – Dronqo razılaşdı, – ancaq mən bu adamın sizin şəhərdə olub-olmadığını bilməliydim. İndi dəqiq bilirəm. Hətta onun beynəlxalq axtarışı elan edilməsə belə, yenə onu tapacağam. Mən sizin bu işi bağlamağınıza kömək etmək istəyirəm. Köməyinizə görə sağ olun.

Poplavskix Dronqo ilə bir qalxdı. Ona əl uzatdı.

– Sizə uğurlar, – vidalaşanda dedi, – gələn dəfə şəhərimizə daha uzun müddətə gələrsiniz. Özü də belə kədərli səbəbdən yox. Xudahafiz.

– Sağ olun. Mütləq gələrəm, – ekspert söz verdi. – Yenə kömək lazım olsa, sizə zəng etmək olar?

– Əlbəttə, olar, – Poplavskix gülümsündü. – Çalışaram bacardığım qədər kömək edim.

Dronqo prokurorluqdan çıxıb Qorçilinin nömrəsini yığdı.

– Haradasınız? – deyə soruşdu.

– Mən artıq öz danışıqlarımı bitirdim və öz ofisimə gedirəm.

– Dediniz ki, sizə Elqarovun kiçik qardaşı zəng vurub, – Dronqo xatırlatdı, – o sizə Salambəyin polkovnikin öldürüldüyü pilləkənin

məhəccərində tapılmış barmaq izləri barədə məlumat verib. Onun qardaşı nəylə məşğuldur?

– O da milisdə işləyir. Niyə soruşursunuz ki?

– Onun telefon nömrəsini mənə verin, – Dronqo xahiş etdi, – bir də Nalçikin kodunu verin ki, zəng edə bilim. Onun adı nədir?

– Kazbek, – Qorçilin bildirdi.

Bir neçə dəqiqə sonra Dronqo mərhum Əhməd Elqarovun kiçik qardaşının nömrəsini yığdı. Səciyyəvi kabardin tələffüzünü eşidib nəzakətlə özünü təqdim etdi:

– Günortanız xeyir. Məni adətən Dronqo çağırırlar. Mən cinayətkarlıq məsələləri üzrə ekspertəm və hal-hazırda böyük qardaşınızın qatilini tapmaqda Qorçilinə kömək edirəm.

– Biz artıq bunu kimin elədiyini bilirik, – Kazbek cavab verdi, – Qorçilin də bilir. Bu, dostluğu satmış və qatilə çevrilmiş, lənətə gəlmiş dönük Salambəy Muzayevdir. Biz onu özümüz tapacağıq. Ya bizim şəhərdə, ya da Çeçenistanda. Narahat olmaya bilərsiniz.

– Dayanın, Kazbek, hamısını bir dəfəyə deməyin. Siz axı milis işçisisiniz, elə deyilmi?

– Elə buna görə də onu öldürəcəm. Və bu qisas olmayacaq. Belə köpəklər bizimlə bir yaşamamalıdırlar. O axı milis polkovnikini öldürüb, belə cinayətlər isə heç yerdə bağışlanmır: nə Amerikada, nə Avropada, nə də bizim Qafqazda.

– Rütbəniz nədir?

– Milis kapitanı.

– Onda mənə diqqətlə qulaq asın, kapitan. Milis zabiti emosiyalarına yox, ağlına güvənməlidir. Qardaşınızın ölümündən sonra necə əzab çəkdiyinizi başa düşürəm. Ancaq vaxtımız çox azdır. Buna görə də mənə çox diqqətlə qulaq asın. Böyük qardaşınız ayın dördündə öldürülüb, düzdürmü?

– Bəli, ayın dördündə.

– Şəhərinizin bütün mehmanxanalarını yoxlayıb Nalçikə Livan vətəndaşı Taufik Səbrinin nə vaxt gəldiyini müəyyənləşdirin. O, ayın ikisində, ya da üçündə gəlməlidir. Əgər Nalçikdə qalmayıbsa, qonşu şəhərləri yoxlayın. Ancaq bunu çox tez edin. Bu birinci xahişimdir. İndi ikincisi...

– Gözləyin, mən onun adını yazım, – Kazbek xahiş etdi.

O, Dronqonun dediyi adı yazdı.

– İndi gəlin Salambəydən danışaq, – ekspert davam etdi. – Mən başa düşdüyüm qədər sizin istintaq qrupunuz qətldən dərhal sonra hadisə yerində işləyib, eləmi?

– Bəli, əlbəttə. Ayın dördündə.

– Heç bir barmaq izi də tapmayıb.

– Tapmayıb, – Kazbek razılaşdı, – ancaq üç gündən sonra Moskvadan mütəxəssislər gəldi, onlar Salambəyin barmaq izlərini tapdılar.

– Bu heç məntiqə sığmır, Kazbek. Axı siz başa düşməlisiniz ki, sizin yerli ekspertlər vəziyyətə paytaxtdan gələn qonaqlardan daha yaxşı bələd olmalıydılar. Məsələ peşəkarlıqda deyil, vəziyyətə bələd olmaqdadır.

– Bizimkilər fürsəti qaçırmışdıar, moskvalı ekspertlər isə məharətlə iş gördülər, – Kazbek hirslə etiraz etdi.

– Aydındır. Onda belə eləyək. Mənə ayın beşindən yeddisinə qədər Nalçikdə olmuş bütün əcnəbilərin siyahısı lazımdır. İstisnasız olaraq hamısının. Əlli-otuz yaş arası kişilərin. Bir də bütün qonşu şəhərlərin. Siyahı çox təcilidir. Bunların hamısını mənə nə vaxt göndərə bilərsiniz?

– Bilmirəm. Bir günə, iki günə...

– Siz yenə də məni başa düşmədiniz. Soruşuram ki, sizə neçə saat lazım olacaq. Bir-iki gün çoxdur. Ən çoxu bir-iki saatınız var.

– Çalışaram, – Kazbek başa düşdü. – Haraya zəng etməliyəm?

– Elə mənim telefonuma, – Dronqo təklif etdi. – Bircə nəzərə alın ki, mənə tam və müfəssəl məlumat lazımdır. Bu, çox vacibdir, Kazbek, çox vacibdir.

O, Moskvaya gedən növbəti qatara çatdı. Düz saat yarımdan sonra Kazbek zəng vurdu.

– Livanlı biznesmen Taufik Səbri bizə ayın ikisində gəlib, – deyə məlumat verdi. – Yerli oteldə qeydiyyatdan keçib. Ayın dördü axşam isə gedib.

– Hər şey doğrudur, – Dronqo nəfəs aldı. – Bəs ikinci siyahı?

– Biz hələ işləyirik. Bizdə turist mövsümüdür, əcnəbi çoxdur.

– Gözləyəcəm, – Dronqo xatırlatdı.

O, telefonu cibinə qoydu. İndi heç bir şübhə qalmırdı: Taufik Səbri qətl törədilən gün hər iki şəhərdə olmuşdu. Ancaq Dronqonun ağlına da gəlmirdi ki, elə bu gün Kazbek ona istədiyi siyahını göndərəndə necə heyrətamiz nəticələr alacaq.

## On beşinci fəsil

Qatar Moskvaya cədvəldə göstərildiyi vaxtda çatdı. Artıq Krujkov və sürücüsü vağzalda gözləyirdilər. Krujkov söylədi ki, son məlumatlara görə, Çeçenistanda və Dağıstanda Salambəy Muzayevin ölümünü təsdiq edən sübut tapılmayıb. Buna görə də o həlak olanların yox, itkin düşənlərin siyahısına salınıb. Dronqo köməkçisini kədərlə dinlədi. Onlar evə yaxınlaşanda ikisini də buraxıb öz mənzilinə qalxdı. Axşam saat yeddiyə az qalmışdı. Bu zaman, nəhayət, Kazbek Elqarov zəng vurdu. O bildirdi ki, bu günlərdə Nalçikə gəlmiş bütün əcnəbilərin siyahısını alıb, bununla bərabər Kabardin-Balkarıstanın bazalarında və istirahət evlərində dincələn xarici qonaqların siyahısını da əldə edib.

– Bizim hələ üç mikrorayonumuz da var, – Kazbek məlumat verdi. – Dubki, Qornaya və Strelka. Qonaqların qalması üçün oralarda

da yerlər var, ancaq aldığımız məlumatlara görə, bu günlərdə orada heç kəs qalmayıb. Biz sahə müvəkkillərinin vasitəsilə yoxladıq.

– Sağ olun. Mən indi faksımın nömrəsini sizə verərəm, siyahınızı göndərərsiniz.

O, faksının nömrəsini verdi, orada kağız olub-olmadığını yoxladı və dərhal Vitebskə, müstəntiq Poplavskixə zəng etdi. O yerindəydi.

– Nə yaxşı ki, getməmisiniz, – Dronqo sevindi. – İndi mənə Nalçikdən bizi maraqlandıran günlərdə şəhərə gəlmiş xarici qonaqların siyahısını göndərəcəklər. Siz onları Qorditski öldürülən günlərdə şəhərimizdə olmuş əcnəbilərlə müqayisə edə bilərsiniz. Bir qeydlə: yalnız qətl gününü yox, cinayətdən sonrakı bir neçə günü də yoxlamaq lazımdır. Ola bilsin ki, biri qatil rolunu, o biri isə özünəməxsus yoxlayan, yaxud "təmizləyici" rolunu oynayır.

– Siyahınızı göndərin, – Poplavskix razılaşdı, – çalışarıq yoxlayaq. Ancaq cavabı elə bu gün alacağınıza söz vermirəm. İş günü qurtarandan sonra hamı mənim kimi işləmir.

– Bunu artıq başa düşdüm, – Dronqo gülümsədi.

Kazbekin siyahısı dörd dəqiqədən sonra gəldi və xəfiyyə onu demək olar ki, dərhal Vitebskə, prokurorluğun faksına yolladı. İndi Poplavskixin zəngini gözləmək qalırdı. Dronqo Veydemanisə bir də zəng vurdu. Edqar məlumat verdi ki, onlar nahar ediblər, indi də şahmat oynayırlar. Dronqo Subbotinə zəng vurub aydınlaşdırdı ki, o artıq Parisi tərk edib...

– Haraya getdiyinizi mənə deməyin, – Dronqo diplomatın sözünü kəsib xahiş etdi, – bunu bilmək mənimçün vacib deyil. Ümumiyyətlə, heç kimə bir kəlmə də deməyin. İstirahətdə olarkən mobil telefonlarınızı söndürün. İstəyəndə sizi telefonla da tapmaq mümkündür. Buna görə onları hər dörd saatdan bir, günortadan başlayaraq axşam saat səkkizə kimi yandırın. Gündə üç dəfə. Əgər bir şey lazım olsa, sizə zəng edərəm.

– Danışdıq, – Subbotin razılaşdı. – Sizdə hələlik başqa xəbər yoxdur ki?

– Yox, – Dronqo cavab verdi.

– Bəs Şalvayla Yulik neyləyirlər?

– Hər şey qaydasındadır, – Dronqo cavab verdi, – hələ ki, hər şey qaydasındadır. Maşallah, göz dəyməsin.

Lap axırda Qorçilinə zəng vurdu.

– Haradasınız?

– Şəhərkənarı evimdəyəm, – Qorçilin həyasızcasına yalan danışdı. Telefonu əlilə örtdüyü eşidilirdi. Yanından qadın və qəhqəhə səsləri gəlirdi.

– Sizin çox yaxşı və bahalı aparatınız var, – Dronqo dedi, – buna görə də onu nahaq əlinizlə örtməyə çalışırsınız. Mən yad səsləri onsuz da eşidirəm. Düzünü deyin, haradasınız?

– Dostlarımın axşam qonaqlığındayam, – Qorçilin boynuna aldı. – Yoxsa istəyirsiniz, bu çeçendən ötrü şəxsi həyatımdan yerli-dibli imtina eləyim?

– Sizinlə əlaqə yaratmağıma təəssüflənməyə başlayıram, – Dronqo hirslənmədən dedi, – siz düzəlməz adamsınız, Qorçilin.

– Mən sizinlə əlaqə yaratmışam, – biznesmen açıq-aşkar sərxoş idi. – Unutmayın ki, sizi mən tutmuşam, pulunuzu da mən verirəm...

– Siz həm də axmaqsınız, – Dronqo laqeydliklə dilləndi, – lovğa və axmaq. Bu çox təhlükəli uyğunluqdur. Həyatınızın əvvəlində tale sizə şans verib, siz də ondan yararlanmısınız. İndi isə bu şansı özünüzün son sağ qalma imkanına çevirmək üçün hər şey edirsiniz. Mən daha sizin təhlükəsizliyinizlə məşğul olmayacam. İstəyirsiniz gəzin, ağlınızı itirin, hara gəldi gedin. Mən sizin təhlükəsizliyinizə dair daşıdığım məsuliyyəti öz üzərimdən götürürəm...

– Di yaxşı, – Qorçilin saymazyanalıqla dedi, – sizsiz də birtəhər keçinərik. Taparıq bu Salambəyi.

– Heç nə tapıb-eləməyəcəksiniz. Mənim ehtimallarıma görə o, tək işləməyib. Ancaq bunun daha sizə dəxli yoxdur. Öz təhqiqatıma gəlincə isə, mən onu mütləq davam etdirəcəyəm. Özü də sizin mənə heç lazım olmayan qonorarınız üçün yox. Mənim sadəcə sizinlə birlikdə öldürülə biləcək namuslu və yaxşı adamlara heyfim gəlir. Və nəhayət, söhbət mənim peşəkarlıq şərəfimdən gedir, odur ki, mütləq bu qatilin kim olduğunu aydınlaşdırmalıyam.

– Aydınlaşdırın, – Qorçilin razılaşdı. – Gəlin, ümumiyyətlə, belə danışaq: siz məni sakit buraxır və lazım bildiyiniz hər şeyi edirsiniz, mənsə öz işlərimlə məşğul oluram. Danışdıq?

Dronqo burnunun altında lənət yağdırıb telefonu söndürdü. Hərdənbir belə təkəbbürlülərə təsadüf edirdi, onlar doğrudan da elə hesab edirdilər ki, ekspertə pul verməklə ona necə işləməyi və məhz nə etməyi göstəriş verməyə haqları çatır. Bu təkcə onun qarşılaşdığı hal deyildi. Həddini aşmış nuvorişlər öz evlərinin tikintisi üçün tutduqları dizaynerlərlə, memarlarla, heykəltəraşlarla – bir sözlə, bütün peşəkarlarla belə davranır, pul verdikləri üçün onları öz mövqelərindən xeyli aşağı sayırdılar. Peşəkarları pulla başqalarının nazını çəkən və pul almaq üçün öz müştərilərini istənilən halda razı salmalı olan fahişələrlə qarışdırırdılar.

Bunun da məntiqi izahı vardı, çünki varlı və çox varlı adamların əksəriyyəti öz milyonlarını və milyardlarını heç də nə alın təriylə, nə də ağılları, istedadları və təşkilatçılıq qabiliyyətləriylə qazanmamışdılar. Postsovet cəmiyyətlərində çoxlu pul tamam başqa üsulla qazanılırdı. Bir neçə il ərzində bütöv var-dövlət yığılırdı, bunun hamısını yalnız dövlətin gəlir mənbəyinə əl çatdırmaqla əldə etmək olardı; oradan hər şey bütün mümkün yollarla çapılıb-talanırdı.

Dronqo bu barədə uzun müddət fikirləşə bilərdi, ancaq mobil telefonu zəng çaldı.

“Lənətə gəlmiş aparat, – ekspert telefonuna baxıb nifrətlə düşündü. – Deyəsən, mən tezliklə bu mobil bədheybətindən güclü şüalanmaya məruz qalacam”.

Amma telefon zəng çalmaqda davam edirdi. Sərxoş Yuri Qorçilin hərəkətiylə onun qəlbinə dəydiyini və təhqir etdiyini heç özlüyündə də etiraf etmək istəmirdi. O telefonu götürdü.

– Eşidirəm, – astadan dedi. Əgər üzr istəmək üçün zəng edən Qorçilindirsə, o telefonu bir kənara tullayacaqdı. Lakin bu Qorçilin deyildi. Bu, Vitebskdən zəng vuran Poplavskix idi.

– Biz siyahıları tutuşdura bildik, – müstəntiq bildirdi – və demək olar ki, sadəcə bəxtimiz gətirdi. Qətldən iki gün sonra Nalçikdə olan bir türk vətəndaşı Feliks Makaroviçin ölümündən beş gün sonra bizim şəhərdə olub. Biz siyahını kompüterə saldıq, o da bizə belə bir nəticə verdi.

– Onun soyadı nədir? – Dronqo cəld soruşdu.

– Ənvər Xəlil, altmış beşinci il təvəllüdlüdür. Onun Türkiyə pasportu var. Siz axı bilirsiniz ki, Türkiyə ilə Rusiya və Belarusiya arasında xüsusi vizasız müqavilə var. O, bizə İcraiyyə Komitəsinin yanındakı partlayışdan düz beş gün, Nalçikə isə polkovnik Elqarovun qətlindən dörd gün sonra gəlib. Bilmirəm, bu kimdir? Ola bilsin, ya informasiya toplayan türk jurnalistidir, ya da türk xüsusi xidmət orqanlarının işçisidir, o da qatili axtarır. Amma mən sabah bizim ölkənin sərhəd xidmətində sorğu keçirəcəm. Güman ki, o, doğrudan da

qatilin ya yoldaşı, ya da köməkçisi işləyir, onun buraxdığı səhvləri təmizləyir. Yaxud da türk xüsusi xidmət orqanının əməkdaşıdır. Zənnimcə, mən prokurorluğu Türkiyədə sorğu aparmaq üçün inandıra bilərəm.

– Bu çox vaxt aparacaq, – kefi pozulmuş Dronqo nəzərə çarpdırdı.

– Başqa heç bir şey təklif edə bilmərəm. Biz onsuz da əlimizdən gələni eləmişik. Güman edirəm ki, sadəcə bəxtimiz gətirdi. Bu türk Taufik Səbrinin qaldığı oteldə dayanıb. Ehtimal ki, onlar bu oteldə qalmağı əvvəlcədən şərtləşiblər. Ancaq o artıq livanlı "mütəxəssis" gedəndən və Qorditskinin ölümündən beş gün sonra gəlib.

– Mən hər şeyi başa düşdüm, – Dronqo dedi, – çox sağ olun. Mənə çox kömək etdiniz. Türkiyədə sorğu aparmağa çalışın. Mən də müəyyən addımlar axtararam.

– Sabah prokurora məlumat verəcəm, – Poplavskix söz verdi, – amma yalnız bizim sərhəd xidmətindən məlumat alandan sonra.

– Əlbəttə, sizi başa düşürəm.

Dronqo mobil telefonunu qabağındakı stola qoyub boş vərəq və qələm götürdü. Deməli, yəqin ki, Əhməd Elqarovun qətli və Vitebskdəki partlayışla əlaqəsi olan livanlı biznesmen Taufik Səbri adlı qatil mövcuddur. Onun altmışa yaxın yaşı var, Tiflisdə olub və Şalva Çiladzenin ofisini partlatmaq istəyib, sonra isə onun arxasınca

Bakıya uçub. Bu adamın kimliyi və Qorçilinin keçmiş yoldaşlarını niyə belə inadkarlıqla axtardığı hələlik məlum deyil.

İkinci naməlum adam da var. Altmış beşinci il təvəllüdlü türk vətəndaşı Ənvər Xəlil. O, Feliks Qorditskinin ölümündən beş gün və Əhməd Elqarovun ölümündən iki gün sonra "təsadüfən" Nalçikdə olub. Təsadüf tamamilə istisnadır. Deməк, ikinci naməlum adam da var. Lakin o, niyə bu şəhərlərə yalnız cinayətlər baş verəndən bir neçə gün sonra gəlir? Bəlkə bu doğrudan da livanlı pasportu ilə fəaliyyət göstərən cinayətkarı axtaran bir türk müstəntiqi, yaxud əməliyyatçısıdır? Yoxsa bu qatilin fikirləşdiyi növbəti gedişdir? O, axı Tiflis xəstəxanasında onları yaxşıca aldatmışdı. Birdən bu türk qatilə işləyirsə? O, şəhərlərdə təkcə qətllərdən sonra peyda olmur, həm də ölənlərin dəfnlərində, yaxud ehsanlarında iştirak edir, bütün məlumatlara qulaq asır, mərhumun qalan dostlarını axtarıb tapmağa çalışır... Həqiqətə uyğundur. Ehtimal ki, Taufik Səbrinin özü Bakıda olarkən Nantda məhz bu qatil fəaliyyət göstərməliymiş.

Deməli, onun artıq iki rəqibi var və hər şeydən əvvəl bu türk livanlı qatildən xeyli cavandır. Artıq gecdir. Poplavskixdən Belorusiyanın sərhəd xidməti vasitəsilə türkün fotoşəklini almasını xahiş etmək lazım idi. Eybi yox, ona sabah zəng vurar. Onda belə çıxır ki, qatil artıq üçdür. Bütöv bir dəstə yaranır: barmaq izləri Nalçikdə tapılan Salambəy Muzayev, Türkiyə vətəndaşı Ənvər Xəlil və livanlı biznesmen Taufik Səbri. Salamat qalanlar üçün çox deyilmi? Subbotin

artıq banditlər üçün əlçatmazdır, Çiladzeni etibarlı yerdə gizlətmək mümkün olub. Deməli, yalnız özünü axmaqcasına və donuz kimi aparan Qorçilini öldürməyə cəhd edəcəklər. Əlbəttə, gedib onu xilas etməyə çalışmaq lazımdır, amma bu varlı axmaq taleyini özü seçib. Hər halda hər şey Qorçilinin ölümüylə bitsə, ona ağır gələcək. Lakin ona indi də zəng etmək olmaz. Başa düşməyəcək ki, eksperti narahat edən təhqiqat üçün verilən qonorar yox, onun həyatıdır. O elə vəziyyətdədir ki, indi onunla danışmamaq daha yaxşıdır.

Dronqo ayağa qalxdı və yuyunmaq üçün vanna otağına keçdi. Bir şey eləmək lazımdır, sonra gec olacaq. Bir də oturub fikirləşmək lazımdır ki, bu üç nəfər kimdir və niyə birləşiblər? Təzədən stol arxasına əyləşmişdi ki, telefon zəng çaldı. Bu dəfə zəng çalan şəhər telefonu idi. O, avtocavabın işə düşüb zəng vurana məlumat qoymağı təklif etdiyini eşitdi. Eşitdiyi səs onu diksindirdi. O, bu səsi tanımaya bilməzdi.

– Axşamınız xeyir. Əgər hələ evə çatmayıbsınızsa, onda çox heyif. Amma mən hər ehtimala qarşı məlumat qoyuram. – Bu livanlı biznesmen Taufik Səbrinin səsiydi. – Boynuma alım ki, siz məni Bakı otelində belə tez axtarıb tapmaqla təəccübləndirdiniz. Mən də qərara aldım ki, borcunuzu qaytarım və axtarıb sizin şəhər telefonunuzu tapım, cənab Dronqo. Sizin barənizdə məlumatlı olduğum üçün təəccüblənməyin. Siz çox məşhur ekspertsiniz, buna görə də məni yalnız siz belə tez tapa bilərdiniz. Leonid Subbotini Nantdan yalnız siz

qaytara və mənə məlum olmayan ünvana göndərə bilərdiniz. Ancaq siz əbəs yerə onun ailəsi üçün narahatlıq keçirirdiniz. Mən Qorditskinin sürücüsünü təsadüfən öldürmüşdüm. Adətən, fasilədə Qorditski sürücünü naharda qoyub rol arxasında evə özü gedirdi, – sürücü İcraiyyə Komitəsinin yaxınlığında yaşayırdı. Ancaq həmin uğursuz gündə rol arxasında oğlan özü oturmuşdu. Qalan şeylər barədə narahat olmaya bilərsiniz, bizim "qəhrəman"ların ailələrini heç bir təhlükə gözləmir. Məni yalnız bu ailələrin başçıları maraqlandırır. Onlar üççə nəfər qalıblar. İkisini siz artıq gizləmisiniz. Üçüncü Moskvadadır və gizlənmək fikri yoxdur. Bu, sadəcə, onun xasiyyətində deyil. Zənnimcə, siz artıq başa düşdünüz ki, mən onsuz da geri çəkilməyəcək, üçünü də axtarıb tapacağam. Sizə elə buna görə zəng vurdum. Siz əla peşəkar və normal adam kimi ad qazanmısınız. Mənə mane olmağa cəhd etmək lazım deyil. Sizdə onsuz da heç nə alınmayacaq, yalnız ad-sanınızı, tərslik eləsəniz, həyatınızı itirəcəksiniz. Buna görə də sizə zəng vurdum ki, mənim imkanlarımı başa düşəsiniz. Mən onsuz da bu adamları tapacağam və məni heç kim saxlaya bilməyəcək...

Dronqo dodağını dişləyib qulaq asırdı. Başa düşürdü ki, söz güləşdirməkdənsə, cavab verməmək daha yaxşıdır. Qatilə ürəyini boşaltmağa imkan vermək lazım idi.

– Bu məlumatı məni başa düşəcəyiniz ümidiylə qoyuram, – qatil sözünü bitirdi – və ümidvaram ki, bir də yollarımız kəsişməyəcək. Xudahafiz.

Çıqqıltı eşidildi. Dronqo yerində oturub qalmışdı. Bu ciddidən də ciddi məsələ idi. İndi öz təhlükəsizliyi haqda da düşünmək vaxtıdır. Dronqonun özünü tapmaq artıq çətin deyildi: Tiflisdə, Parisdə və Vitebskdə çox gözə dəymişdi. Deməli, ehtiyatlı olmaq və bu qanmaz Qorçilinə zəng etmək lazımdır ki, çıxıb evinə getsin. Yoxsa heç səhərə də salamat çıxmayacaq. Sadəcə, qürur hissini boğmaq lazımdır. Amma bunu etmək necə də çətindir! Sərxoş milyonçu onu zəng vurmağa vadar edən əsl motivləri anlamaq istəməyəcək. Dronqo söyüş söydü. Hərdən elə axmaq vəziyyətə düşürsən ki, qürur və ləyaqətin peşəkarlıq borcunla üz-üzə gəlir. Və seçim eləməli olursan. “Şəxsi ləyaqət hissi qəribə elementdir”. İllərlə qazanılır, bir dəqiqənin içindəsə itirilir. Deyəsən, buna bənzər hadisə Bulat Okucavanın da başına gəlmişdi.

Yox, sadəcə, o məcburən Qorçilinə zəng edə bilməz. Hətta bu onun peşəkarlıq etikasına zidd olsa belə. Onun şərəf və peşəkarlıq ləyaqəti haqqında öz təsəvvürü var. Həm də ki, əsaslı surətdə “yüklənmiş” Qorçilin heç nə başa düşmək istəməyəcək. Bir buna ümid etmək qalır ki, dörd cangüdəni də onun yanındadır və getdiyi qonaqlıq kənar şəxslərin buraxılmadığı qapalı qonaqlıqdır. Əlbəttə, o qudurmuş lovğadır, ancaq o qədər də axmaq deyil ki, onu hansı təhlükənin gözlədiyini anlamasın.

Dronqo tam mənasıyla özünü telefon qoyulmuş stoldan aralanmağa məcbur etdi. Qoy bu sonuncu səhv olsun, ancaq o, bu gün Qorçilinə zəng etməyəcək. Gecənin xeyrindən sabahın şəri yaxşıdır. O, sabah səhər bu tipə özünü necə axmaqcasına və səhlənkarlıqla apardığını başa salacaq. Ekspert duş qəbul etməyə getdi və yatmazdan qabaq Edqara bir də zəng vurdu. Həmin gecə özünü erkən oyanmağa məcbur elədi – son günlərin yolları və həyəcanları sözünü deyirdi. Dronqo gecə bir neçə dəfə oyandı, qulağına telefon zəngləri gəlirdi. Səhər saat yeddinin yarısında isə mobil telefonu doğrudan da zəng çaldı.

## On altıncı fəsil

"Əgər hər səhər məni bu telefon oyatsa, onu tullamalı olacağam, – Dronqo çarpayıdan qalxıb kabinetə keçərək hirslə düşündü. – Doğrudanmı kimisə öldürüblər?"

O, displeyə baxıb razılıqla başını tərpətdi. Bu Yuli Qorçilinin telefon nömrəsiydi. Madam ki, özü zəng edib, deməli, başına heç bir qorxulu hadisə gəlməyib. Ya da əksinə, artıq başına bir iş gəlib və indi axır günlərdə biznesmenə gələn bütün zəngləri yoxlamaq üçün onun telefonundan zəng vururlar.

Elə buna görə də Dronqo telefona baxıb ona əl dəymədi. O, duş qəbul etməyə getdi, telefon isə hey zəng çalırdı. Aparat qırx birinci

zəngdən sonra dərhal təzədən zəng etmək üçün susdu. Bu dəfə zənglərin sayı otuz səkkiz oldu. Otuz doqquzuncu zəngdə telefon yenə susdu.

“Yaramaz, – Dronqo məmnuniyyətlə düşündü, – ona belə də lazımdır. Qoy əzab çəksin. Bir az həyəcanlanmağın ona xeyri dəyər. Amma görəsən niyə səhər tezdən zəng edir? Artıq özünə gəlib? Yoxsa dünən axşam məhz nə baş verdiyini yadına salmağa çalışır? Bəlkə doğrudan da mühüm bir şey baş verib?”

O, kabinetinə qayıdıb mobil telefona baxa-baxa stolun arxasına keçdi. Bu zaman onun üçüncü zəngdən sonra avtocavabı işə salan şəhər telefonu zəng çaldı. Və o Qorçilinin həyəcanlı səsini eşitdi. Yox, heç həyəcanlı da deyildi. Bu sadəcə günahkar bir adamın pıçıltısıydı:

– Mən başa düşürəm ki, dünən həddimi aşıb artıq-əskik danışmışam. Əgər istəyirsinizsə, qarşınızda rəsmi surətdə üzrxahlıq edə və istənilən cəriməni ödəyə bilərəm. Sizə yalvarıram, bircə telefonu götürün. Məndə çox vacib məlumat var. Heç bilmirəm sizə necə bildirim. Dəstəyi götürün, yaxud mənə zəng edin ki, sizə danışım. Vaxtımız çox azdır. Mənə də sizin köməyiniz lazımdır. Xətrinizə dəymişəmsə, hamının qarşısında üzr istəməyə hazıram.

Dronqo bu qərara gəldi ki, daha bədbəxti incitməyə dəyməz. Dəstəyi götürdü.

– Eşidirəm sizi. Onu da nəzərə alın ki, məni oyatdınız.

– Mən üzr istəməyə hazıram. Dünən özümü axmaq kimi aparmış və haqsız olmuşam, – Qorçilin tez dedi.

– Siz lazımsız riskə getdiniz, – Dronqo ciddiyyətlə xatırlatdı – və mənimlə tamamilə yolverilməz tonda danışdınız, elə bil mən sizin maşınınızı yuyan, yaxud bir fincan qəhvə gətirən muzdlu işçinizəm.

– Bağışlayın. İstəyirsiniz, mən öz hərəkətimə görə cərimə ödəyim.

– Bədbəxt adamsınız, Qorçilin. Hər şeyi öz arşınınızla ölçürsünüz, hətta insan ləyaqətini də rublla, ya dollarla qiymətləndirməyə çalışırsınız. Deyin görüm, nə baş verib? Ancaq əvvəlcə yerinizi deyin.

– Dostlarımın evindəyəm, – Qorçilin bildirdi, – mən bura təxminən saat yarım qabaq gəlmişəm. Ya da bir az tez...

– Niyə dostlarınızın yanındasınız? Siz öz şəhərkənarı evinizə qayıtmalıydınız.

– Yox, yox, mən ora qayıda bilmərəm. Orada indi milis işçiləri işləyir.

– Nə baş verib? Əməlli-başlı danışın. Yoxsa hələ tamamilə özünüzə gəlməmisiniz?

– Bəli, bəli, əlbəttə. Mən artıq ora getmək istəyirdim, ancaq biz əvvəlcə evə zəng vurduq, bizə orada qalmış iki keşikçi cavab vermədi. Onda biz qonşudan yoxlamağı xahiş etdik, o, uzun müddət zəng vurdu, ancaq heç kim cavab vermədi. Mən ora iki keşikçi də göndərdim,

onlardan da səs çıxmadı. Onda biz ora milis çağırdıq. Məlum oldu ki, birinci iki keşikçi də, mənim maşınımda ora gedən ikinci keşikçilər də huşlarını itiriblər. Kimsə onları vurub gicəllətmiş və əllərini bağlamışdı. Dörd nəfərdən biri də bunu kimin elədiyini görə bilməyib. Təsəvvür edirsinizmi, necə gicdirlər? Mən onları artıq qovmuşam. İndi evdə milis əməkdaşları işləyir. Ancaq onlar da təmiz axmaqdırlar, elə hesab edirlər ki, mənim evimdə ciddi bir şey baş verməyib.

– Niyə belə düşündükləri aydındır, – Dronqo dedi. – Əgər keşikçilərinizdən kimsə həlak olub, yaxud evdən yoxa çıxıbsa, bu ya qarət, ya qətl, ya da oğurluq olardı. İndi isə belə çıxır ki, bu xırda xuliqanlıqdır – sadəcə keşikçilərinizi bağlayıb heç nə götürməmiş gediblər. Anlayırsınız, bu kim ola bilər? Keşikçilərinizi öldürüb qab-qacağınızı oğurlamayan kimdir?

– Əlbəttə, başa düşürəm, – Qorçilin hirslə cavab verdi. – Sizin dünənki zənginiz olmasaydı, güman ki, mən şəhərkənarı evimə zəng vurmayıb qonaqlıqdan sonra birbaşa ora gedəcəkdim. Təsəvvür edirsiniz başıma nələr gələrdi? Bircə baş açmıram ki, Salambəy mənim keşikçilərimi niyə öldürməyib, yalnız əllərini bağlayıb?

– Bu Salambəy olmayıb, – Dronqo adəti üzrə etiraz etdi. – Amma bu o qədər də vacib deyil. Qatil dünən axşam mənə zəng vurub izah elədi ki, onu başqa adamlar maraqlandırmır. Vitebskdə sürücünün ölümü də tam təsadüfən baş verib. Onu üççə nəfər maraqlandırır: Subbotin, Çiladze və şəxsən siz.

– Mən elə də bilirdim. Bu Salambəydir. Dəqiqdən də dəqiq bu Salambəydir.

– İnanmıram.

– Nalçikdə onun barmaq izlərini tapıblar! – Qorçilin qışqırdı. – Niyə siz həmişə mənimlə mübahisə edirsiniz?

– Siz mənimlə mübahisə edirsiniz, – Dronqo xatırlatdı. – Onu da nəzərə alın ki, mən peşəkar ekspertəm, sizsə biznesmensiniz. Mən ki sizə necə pul qazanmaq barədə məsləhət vermirəm. Siz də gərək mənə yol göstərməyəsiniz.

– Bəli, əlbəttə... Mən indi neyləyim?

– Dostunuzun evində oturun və heç yerə çıxmayın, – Dronqo məsləhət verdi. – İndi saat heç yeddi də deyil, yaxşı olar ki, bir az yatasınız. Gündüz isə mən sizə zəng edərəm. Ancaq bu dəfə mənə qulaq asın və yerinizdən tərpənməyin. Dostunuz harada olur?

– Rublevkada. O, Federal Agentliyin rəhbəridir.

– Aydındır. Daha başqa kimdən sizə dost olar ki! – Dronqo rişxəndlə dedi. – Rublevka pis mühafizə olunmur. Kimi bacarırsınız, ora çağırın, – yalnız bir ildən artıq müddətdə tutduqlarınızı. Oradan da heç yana getməyin. Yoxsa özünüzü ölmüş bilin.

– Bəlkə siz gələsiniz? – Qorçilin şikayətli səslə xahiş etdi. – Sizinlə yenə rahat olaram.

– Gəlməyəcəm, – Dronqo sərt şəkildə onun ağzından vurdu, – deyim, niyə gəlməyəcəm. Qorxuram ki, qatil artıq harada yaşadığımı

bilmiş olsun. Əgər sizi şəhərkənarı evinizdə qarşılaya bilməyibsə, çox güman ki, onun başqa planı var. Sizin fəaliyyətinizi asanlıqla hesablaya bilər. Siz mənə zəng edirsiniz, mən də bütün işlərimi atıb çarpayıdan qalxaraq yanınıza gəlirəm. O isə sakitcə məni izləyir və sizin yerinizi öyrənir. Bu, qatilə böyük hədiyyə olardı, mənsə ona belə hədiyyələr vermək fikrində deyiləm.

– Bəs sizin məhz harada olduğunuzu o necə öyrənə bilib? – Qorçilin pıçıltıyla soruşdu.

– O da sizdən fərqli olaraq peşəkardır, – Dronqo kinayə ilə cavab verdi.

– Bəli, sizi anlayıram. Mən neyləyim?

– Yatın, – Dronqo məsləhət verdi. – Bir də çalışın axmaq səhvlərə yol verməyəsiniz.

O, telefonu stolun üstünə qoyub çarpayıya uzandı. Bu həmişə sərsəm tək qalmaq adəti olmayaydı. Amma digər tərəfdən təsəvvür elə ki, sənə saat yeddidə belə-belə xəbərlər vermək üçün zəng edirlər, yaxud uşaqlar qatilin heç nədən çəkinmədən zəng etdiyini, belə bir məlumat qoyduğunu eşidirlər... Yox, yaxşı ki, o tək yaşayır. “Ümumiyyətlə götürsək, bu biabırçılıqdır”, Dronqo yorğun-yorğun düşündü. Hər səhər kimsə onu bu naməlum qatilin növbəti zibili haqqında məlumat vermək üçün yatağından qaldırır. Dünən isə məlum olub ki, bu bütöv bir dəstədir. O, əbəs yerə təzədən uzandı, onsuz da yata bilməyəcək. Yaxşısı budur ki, yenə kabinetinə qayıtsın.

Kabinetinə qayıtdı. Gözünə stolun üstünə qoyulmuş kağızlar sataşdı. Deməli, onlar üç nəfərdir. Livanlı biznesmen barədə hər şey aydındır: yaxşıca pul ödənilmiş peşəkar qatildir, bəlkə də muzdludur. Əlbəttə, o livanlı-zad deyil, keçmiş həmvətəndir. İndi keçək Salambəyə. Belə çıxır ki, o sağdır və hər halda Nalçikdəki qətldə iştirak edib. Ən axırda da hər iki cinayət törədiləndən sonra cinayət yerlərində peyda olan bu naməlum türk.

Məhz nə baş verdiyini anlamaq lazımdır. Dronqo bu kağızların üstündə bir saata yaxın oturdu. Demək olar, saat səkkiz tamam olanda qətiyyətlə telefonu özünə tərəf çəkdi. Tamaranın nömrəsini yığdı.

– Sabahın xeyir, – onun səsini eşitcək dedi, – səninlə çox vacib bir işim var. Məncə, sizdə artıq saat altıdır. Mənə təcili surətdə məndən dərhal sonra Gürcüstana Ənvər Xəlil adlı türk vətəndaşının gəlib-gəlmədiyini dəqiqləşdirmək lazımdır. Sən bunu yoxlaya bilərsən? Ancaq çox təcilidir.

– Əlbəttə, bilərəm. Mobil telefonuna zəng edimmi?

– Əgər mümkünsə.

– Sən daha nəsə bir şey aydınlaşdırmısan?

– Uzun söhbətdir. İndi mənə Ənvər Xəlil barədə məlumat lazımdır.

– Yaxşı. Mən yoxlayıb sənə zəng vuraram.

O, telefonu qapadı. Onsuz da zəng eləmək lazımdır. Onun o qədər də çox vaxtı qalmayıb, qatilsə artıq haradasa yaxında,

Moskvadadır. Dronqo Nalçikə Kazbek Elqarova zəng vurdu. O, deyəsən, təzəcə oyanmışdı və işə getməyə hazırlaşırdı.

– Sizi narahat etdiyimçün üzr istəyirəm, kapitan, – Dronqo dedi, – amma mənim qətiyyən vaxtım yoxdur. Qardaşınızın məhz necə öldürüldüyünü mənə danışa bilərsinizmi? Başa düşürəm ki, bu sizinçün ağır olacaq, ancaq bu zəruridir. Qorçilin mənə dedi ki, polkovnik Elqarov həmin gün öz mühafizəçisini buraxıbmış. Bu düzdürmü?

– Bəli, – Kazbek cavab verdi, – məhz nə baş verdiyini mən özüm də anlaya bilmirəm. O, çox cəsarətli adam idi, ancaq təcrübəliydi və başa düşürdü ki, mühafizə ona lazımdır. Ancaq həmin gün kimsə ona zəng vurur və o, evinə yanaşıb onu adətən mənzilinədək müşayiət edən işçilərinin ikisini də buraxır və içəri girir. Yarım saatdan sonra onu ölü tapırlar.

– O dəqiqə də istintaq briqadasının işçiləri gəlirlər? – Dronqo dəqiqləşdirdi.

– Mənim böyük qardaşım Nalçikdə çox məşhur adam olub. Hamı gəlmişdi: respublika prokuroru da, bizim ən yaxşı ekspertlərimiz də, Xarici İşlər Nazirimiz də.

– Mən də elə bunu öyrənmək istəyirdim. Deyirsiniz ki, ən yaxşı ekspertlər gəlmişdi. Bəs onlar niyə Salambəy Muzayevin barmaq izlərini aşkar edə bilməyiblər? Axı onlar yəqin ki, hər şeyi müfəssəl yoxlamışdılar?

– Mən özüm də baş aça bilmirəm, heç kim baş açmır. Ancaq onlar orada yad adamın barmaq izlərini tapmamışdılar. Bir neçə gün sonra isə Moskvadan başqa briqada gələndə orada Muzayevin barmaq izlərini tapmışdı.

– Neçə gün keçmişdi?

– Üç-dörd gün.

– Evdə lift var?

– Bu standart tipik beşmərtəbəli binadır.

– Bəs qardaşınızı müsəlman adətiylə həmin günmü basdırdılar?

– Bəli. Ertəsi gün günəş batana kimi. O axı işdən qayıdanda öldürülmüşdü. Artıq geciydi. Ona görə də molla onu səhərki gün basdırmağa icazə verdi. Əvvəlcə meyiti yumaq üçün məscidə aparmaq lazım idi.

Dronqo üz-gözünü turşutdu. O, bu ağır ayinə yaxşı bələd idi, lap yaxşı bələd idi. Bu yaxınlarda atası rəhmətə getmişdi, o da bu ağır mərasimi atasının böyük oğlu kimi yerinə yetirməyə borcluydu. Kişi öləndə Dronqo Bakıda deyildi. Atası doxsan yaşında ölmüşdü və bütün doğmalar və yaxınlar böyük oğlun qayıtmasını gözləyirdi. O, səhərə yaxın gəlmiş və onu tək buraxmalarını xahiş etmişdi. Otaqda atasının mələfəyə bükülmüş cəsədi uzanmışdı. O, mələfəni ehtiyatla qaldırmış, sanki yuxuya getmiş adamın sakit üzünü görmüşdü. O doğma insanın ki, onu uşaqlıqda dəfələrlə atıb tutaraq başı üzərinə qaldırmışdı.

Sonra atanı məscidə aparmaq lazım gəlmişdi. Bu, bütün qohum-əqrəbanın tələb etdiyi mərasim idi. Demək olmazdı ki, ata səmimi-qəlbdən mömin adam olmuşdu. O da Dronqo kimi aqnostik idi, hesab edirdi ki, dünya dərkolunmazdır, lakin qurulmuş ənənəni heç olmasa qohumlara bəslənən hörmətə görə pozmaq olmaz. Atanın cəsədini məsciddə bu işin peşəkarları olan xüsusi adamlar yumuşdular. O, belə düşünürdü ki, bu müqəddəs yerə girməməlidir. Yaxın qohumlarının altısı onun yanında dayanmışdı, kiçik qardaşı bu otağa girmiş və bir müddət sonra onu çağırmışdı. Atanın üstünə sonuncu parç suyu böyük oğul tökməliydi.

Ertəsi gün dəfn quruldu. Burada da özünəməxsus mərasim mövcud idi. Atanın cəsədi ağ kəfənə bükülmüşdü, onu məhz belə basdırmalıydılar. Ancaq bundan əvvəl ən yaxın qohum-əqrəba düşüb mərhumun üzünü açmalı, onunla son dəfə vidalaşmalı və torpağa tapşırmaq əlaməti olaraq yanağına bir az qum atmalıydı. Bunu da böyük oğul etməliydi. Dronqo atasıyla son dəfə görüşmək, bu sevimli insanın üzünə son dəfə baxmaq və onunla həmişəlik vidalaşmaq üçün ayaqqabısını soyunub dar və soyuq məzara girdi. Məəttəl idi ki, niyə ağlamır. Gözlərindən yaş gəlmirdi. Yalnız şiddətli ağrı hiss edirdi. Sonra isə gecə yuxusunda dəfələrlə atasını gördü, onunla danışdı, mübahisə etdi, deyib-güldü, hərdənbir xahiş elədi ki, qalsın və bu doğma və isti bədəni bərk-bərk öz ağuşuna basdı...

– Onu mən özüm basdırdım, – Kazbek sözünə davam elədi, – mən və bütün qardaşlarım onun qəbrinə and içdik ki, qatili tapıb qisas alacağıq. Onda biz onu kimin öldürdüyünü bilmirdik, indi isə dəqiq bilirik.

– Sizə qəribə gəlmirmi ki, sizin ekspertlər Salambəyin barmaq izlərini tapa bilməyiblər, onları yalnız bir neçə gündən sonra görüblər? – Dronqo maraqlandı.

– Deyəsən... – Kazbek razılaşdı, – bəlkə Moskvalı mütəxəssislərin başqa texnikaları olub.

– Texnika indi hər yerdə eynidir. Böyük qardaşınız hansı evdə yaşayırdı?

– Dedim axı, adi beşmərtəbəli binanın ikinci mərtəbəsində. O, ciddi adam idi.

– Onun yaşadığı blokda neçə mənzil var?

– Hər mərtəbədə üç mənzil var.

– Və bu bir neçə gün ərzində Salambəyin barmaq izləri oradan silinməyib? – Dronqo inanmadı. – Belə bir şey sadəcə mümkün deyil.

– Siz düşünürsünüz ki, moskvalı ekspertlər səhv ediblər?

– Mən düşünürəm ki, Salambəy qətldən sonra orada ola bilərdi. Buna görə də sizin ekspertlər heç nə tapmayıblar.

– Düşünürsünüz ki, o, qardaşımın qətlindən sonra cəsarət edib bu evə gələ bilərdi? Bizim qonşularımız onu parça-parça eləyərdilər.

– Əgər tanısaydılar, – Dronqo etiraz etdi. – Ola bilsin, sadəcə, onu tanımayıblar.

– Nə demək istəyirsiniz? – Kazbek həyəcanlandı.

– Heç nə. İndi daha heç nə. Səhər tezdən sizi narahat etdiyimçün bağışlayın. Ümid edirəm ki, işə gecikməyəcəksiniz.

– İşim qonşu həyətdədir, – Kazbek güldü. – Əlbəttə, gecikmərəm.

Deməli, belə bir nəticə çıxaraq ki, ekspertlər sadəcə yanıla bilməzdilər. Onda belə çıxır ki, qatil iz qoymayıb və bu Tariyeli xəstəxanaya göndərib Dronqonun nəzərinə çarpdırmaqla məharətlə iş görən yaramazın üslubuna bənzəyir.

Lakin onda ingilis filosofu Okkamanın "Zərurət olmasa, varlığı çoxaltma" prinsipinə əməl edərək ciddi məntiqlə düşünmək lazımdır. Əgər bu nəticəyə gəlsək ki, yerli ekspertlər yanıla bilməzdilər, onda... Onda belə çıxır ki, Salambəy hadisə yerinə artıq qətl törədiləndən sonra gəlibmiş.

Dronqo saatına baxdı. Doqquza az qalmışdı. Vitebsk prokurorluğuna zəng etmək olar. O, nömrəni yığdı, ancaq telefon cavab vermədi. Görünür, çox tezdir. Fikri tamamlamaq lazımdır. Belə çıxır ki, Salambəy cinayət yerinə qayıtmağa risk edib, artıq ikinci dəfə öz barmaq izlərini orada qoyub. Onda o qatil yox, əsl axmaqdır. Belə axmaqlıqla risk etmək və hələ öz barmaq izlərini də orada qoymaq?

Üç müharibə görmüş bir adam? Yox, o belə diletant ola bilməz. Yaxşı, bəs onda nə nəticə çıxır?

O, telefona baxıb Vitebsk prokurorluğunun nömrəsini bir də yığdı. Müstəntiq Poplavskixin səsini eşitdi.

– Sabahınız xeyir, Oleq Savelyeviç, – Dronqo salamlaşdı, – mənim sizə bu partlayış barədə bircə sualım var. Yeni bir xəbər öyrənə bildim. Feliks Makaroviç fasilələr zamanı adətən xidməti maşını özü sürüb evə gedirmiş, sürücünü isə nahar eləməyə buraxırmış. Bu doğrudur?

– Bəli, – müstəntiq bir az susandan sonra dedi, – ancaq bunu şəhərimizdə hamı bilirdi. Məgər siz bunu bilmirdiniz?

– Yox, – Dronqo cavab verdi, – bilmirdim. Məlumatınıza görə sağ olun.

Dəstəyi yerinə qoyan kimi mobil telefonu zəng çaldı. O, aparata baxıb gördü ki, zəng edən yenə Qorçilindir.

“O niyə yatmır?” – Dronqo hirslə düşündü.

Aparatı yenicə işə salmışdı ki, Qorçilinin qışqırtısını eşitdi:

– O, mənə zəng vurmuşdu! O, indicə mənə zəng vurmuşdu!

– Kim? Sizə kim zəng vurub? Niyə qışqırırsınız?

– Bu, Salambəy idi, – Qorçilin hisslərini saxlaya bilməyib qışqırmaqda davam edirdi, – mən onun səsini dərhal tanıdım! Bu məhz o idi! Mən bir dəqiqə qabaq onunla danışdım. Alo, siz məni eşidirsiniz? O özü mənə zəng vurmuşdu...

## On yeddinci fəsil

Xəbər inanılmaz və sarsıdıcı idi. İndi heç bir şübhə qalmamalıydı. İndiyədək federal axtarışda olan və izsiz-soraqsız yoxa çıxdığı güman edilən həmin Salambəy iyirmi il sonra meydana çıxmışdı. İndi bir nəticə çıxarılmalıydı ki, o, Taufik Səbrinin və Ənvər Xəlilin dostudur, ola bilsin ki, son zamanlar törədilən bütün cinayətlərin əsas sifarişçisidir.

– O, sizin telefon nömrənizi necə öyrənib? – Dronqo maraqlandı.

– Bilmirəm. Ancaq bu mənim on il bundan əvvəl istifadə etdiyim köhnə telefonumun nömrəsidir. O zaman mən onu itirmişdim, bu yaxınlarda tapdım, qərara gəldim ki, yenə istifadə edim. Həm də o heç kəsin yadında deyildi. O isə gözlənilmədən məhz bu nömrəyə zəng vurdu.

– Mən axı sizə dedim ki, təzə nömrə götürün, – Dronqo xatırlatdı.

– Amma mənim heç ağlıma gəlməzdi ki, o risk edib zəng vurar. Bir də ümumiyyətlə mənim nömrəmi yadda saxlayar.

– Gəlin, daha konkret danışaq. O sizə nə dedi?

– Görüşməyi təklif etdi. Təsəvvür edirsinizmi, necə yaramazdır? Hətta mənə belə bir təklif etməkdən də çəkinmir. İstədim dərhal

milisə, ya da FTX-yə zəng edib onu tutdurum. Sonra fikirləşdim ki, bu düzgün olmaz və qərara aldım ki, sizə zəng edim.

– Belə dolaşıq danışmaq lazım deyil, – Dronqo xahiş etdi, – yaxşı olar ki, ardıcıllıqla danışasınız. Deməli, o sizə zəng vurdu...

– Mən telefonu götürdüm, o da dedi ki, danışan Salambəydir. Mən bu gözlənilməzlikdən sadəcə donub qaldım. Nə deyəcəyimi bilmədim. O isə tez-tez danışırdı: “Elə bilmə ki, yoldaşlarımızın bu iki qətlində günahkar mənəm. Mən onları öldürməmişəm”. Bu zaman mən özümə gəldim və qışqırdım ki, o yalan danışır, mən dəqiq bilirəm ki, qatil odur. Ancaq Salambəy hər şeyi dandı. “Sən onsuz da mənə inanmayacaqsan, – dedi, – amma biz təcili görüşüb söhbət etməliyik. Çalışaram sənə hər şeyi başa salım”.

– Ona nə cavab verdiniz? – Dronqo soruşdu.

– Dedim ki, o məni onsuz da aldada bilməyəcək, ancaq söz verdim ki, fikirləşərəm. O axı bu yolla yoldaşlarımızın ikisini öldürüb, – Qorçilin yada saldı.

– Nə demək istəyirsiniz?

– Feliks mənə demişdi ki, ona köhnə bir yoldaşımız zəng vurub, Elqarov isə bu əbləhə inanaraq hətta öz mühafizəçisini də buraxmışdı. Bircə məni belə bəsit bir üsulla tora sala bilməyəcək. Mən öz mühafizəçilərimi ora göndərib tapşıracam ki, o çıxan kimi atəş açsınlar.

– Onunla mütləq görüşüb danışmaq lazımdır, – Dronqo etiraz etdi.

– Siz məni təhlükə altına atmaq istəyirsiniz? – Qorçilin bağırdı. – Mən ora gedib çıxan kimi o məni güllələyəcək! Axmaq adam tapmısınız... Mən onunla görüşə getməyəcəm!

– Qorxuram ki, hər şey siz düşündüyünüz kimi sadə olmasın, – Dronqo dedi. – O harada görüşməyi təklif etdi?

– Köhnə VDNX-də, – Qorçilin cavab verdi, – keçmiş "Kosmos" pavilyonunun yanında. Təsəvvür edə bilərsiniz, orada milyonlarla adam var! Heç bir mühafizəçi məni xilas edə bilməz. O harada olsa, gizlənib məni öldürə bilər. Əlbəttə, mən ora getməyəcəm!

– Onun nömrəsi telefonunuza düşüb?

– O elə də axmaq deyil. Məndə onun nömrəsi olmayıb və ümumiyyətlə, düşünürəm ki...

– Görüş saat neçədə olmalıdır? – Dronqo onun sözünü kəsdi. Həmsöhbətinin nə düşündüyü onu az maraqlandırırdı.

– Düz on ikidə, – Qorçilin cavab verdi. – Mən onsuz da getməyəcəm, üz vurmayın. O, məni öldürə bilməz, onda heç nə alınmayacaq.

– Başqa cür eləyək, – Dronqo təklif etdi – görüşə mən gedərəm. Sizsə indi olduğunuz yerdə qalarsınız. Daha heç bir təşəbbüs göstərməyin. Məni başa düşürsünüz? Heç bir kəskin bədən hərəkəti etməyin. Yoxsa hər şeyi korlayarsınız, mən də əsl qatili tuta bilmərəm.

– Siz tək gedirsiniz? – Qorçilin inanmadı. – Qorxmursunuz ki, o tez bir zamanda işinizi bitirsin?

– Yox, qorxmuram, siz isə evdə qalın və heç bir təşəbbüs göstərməyin, – Dronqo israrla təkrar etdi. – Hər şeyi anladınız?

– Əlbəttə, anladım. Amma o qatildir.

– Yenə təkrar edirsiniz. Bunu artıq mənə dediniz. Çalışın, evdən bayıra çıxmayasınız, – Dronqo Allah bilir neçənci dəfəydi ki, xahiş edirdi.

Bu söhbətdən dərhal sonra o, Krujkova zəng vurdu:

– Silahını götür, mən qaldığım evə gəl, səninlə vacib işim var.

Krujkov adətən mənasız suallar verməzdi. O, iyirmi beş dəqiqədən sonra gəldi. Silah gəzdirmək hüququ bütün qaydalar üzrə qanuniləşdirilmişdi. Dronqo daha bir neçə dəqiqədən sonra Veydemanisə zəng vurub öz planını ona bildirdi.

– Ehtiyatlı ol, – Edqar xahiş etdi, – bu məhz sənin əleyhinə şüurlu şəkildə düzəldilmiş tələ ola bilər.

– Mən elə hey artıq iki dəfə cinayət yerində peyda olan türk haqqında düşünürəm, – Dronqo xatırlatdı. – O, orada neyləyir? Hətta türk xüsusi xidmətinin əməkdaşıdırsa, başa düşməlidir ki, əvvəl-axır onu tapacaqlar. Onda otellərdən qeydiyyatdan keçə-keçə özünü belə axmaqcasına təhlükəyə atmağa dəyməz. Birdən bu tamam başqa adamdırsa? Hələ bu barmaq izlərini demirəm...

İnana bilmirəm ki, qatilin beşmərtəbəli evin məhəccərinin iç tərəfindəki barmaq izləri yerli ekspertlərin gözünə dəyməsin. Təsəvvür edə bilərsən, bir neçə gün ərzində pilləkənlə nə qədər adam düşüb-çıxıb? Əgər orada barmaq izləri olsaydı da, onları çoxdan silmişdilər. Hələ gör oradan nə qədər avara keçib? Beşmərtəbəli evlərə heç vaxt lift şaxtaları qoyulmur və lift işləmir. Bu keçmiş Sovet İttifaqının standartlarıdır. Mən xüsusilə dəqiqləşdirdim, bu evdə də lift olmayıb.

– Çox ehtiyatlı ol, – Edqar yenə xahiş etdi. – Bəlkə mən Moskvaya qayıdım?

– Günortaya çatmazsan, – Dronqo güldü. – Əgər mənim mühakimələrim düz çıxsa, məni heç bir təhlükə gözləmir...

– Əgər düz çıxmasa, səni öldürəcəklər, – Edqar hirslə dedi. – Təyyarə İstanbuldan Moskvaya üç saat yarıma, yaxud bir az tez çatır. Bəlkə görüşü gündüz saat üçə salasan?

– Bu mümkün deyil, – Dronqo etiraz etdi, – ancaq söz verirəm ki, çox ehtiyatla davranacam.

– Krujkovu çağır, – Veydemanis vidalaşanda dedi.

– O artıq yanımda oturub, – Dronqo cavab verdi.

Saat on birin yarısında Tiflisdən Tamara zəng vurdu. Gürcü hakimiyyət orqanlarının məlumatlarına görə, Türkiyə vətəndaşı Ənvər Xəlil dövlət sərhədini elə Şalva Çiladzeyə sui-qəsd olunan gün keçib və iki gündən sonra çıxıb gedibmiş. Ən heyrətamiz odur ki, bu adam oteldəki nömrəsindən bir neçə dəfə Şalva Çiladzenin söndürülmüş

mobil telefonunun nömrəsini yığıbmış. Hətta onun ofisinə də zəng etmək istəyib, cavab veriblər ki, şirkətin rəhbəri hal-hazırda xəstədir. Ənvər Xəlil İstanbuldakı partlayışdan üç gün sonra aralıq enişlə Türkiyənin paytaxtına uçub. Parisə qədər bileti qeydiyyata alınıb. Dronqo, nəhayət, həlledici sübut əldə etdiyini düşündü.

Qorçilin ona iki dəfə də zəng vurdu. O, elə həyəcanlıydı ki, Dronqo onu sakitləşdirməli oldu. Qorçilin əvvəlcə VDNX-ə getməyi qərara almış, lakin qərarından dönmüş, sonra təzədən köhnə dostunu orada qarşılamaq fikrinə düşmüşdü. Dronqo onu fikrindən güclə daşındırdı.

Gündüz saat on ikidə ekspert görüşə gəldi. Qoltuğuna tapança bərkidilmiş, əyninə gülləkeçirməz jilet geyinmiş, yanında isə onu sığortalamalı olan Krujkov əyləşmişdi.

Onlar on ikiyə on beş dəqiqə qalmış keçmiş VDNX-in ərazisinə girib əvvəllər yanında kosmik gəminin maketi olan köhnə "Kosmos" pavilyonuna tərəf getdilər. Bu məkan bir vaxtlar Sovet təsərrüfatının nailiyyət göstəricisi olmuş, ölkə dağılandan sonra böyük bazara çevrilmişdi. Burada adətən müəyyən tematik sərgilər, konfranslar, hətta kitab yarmarkaları keçirilirdi. Ancaq binalar xarab olur, eksponatlar oğurlanır, ərazi tənəzzülə gedir və burada tədricən iki mininci illərin Çerkiz bazarı və doxsanıncı illərin əvvəllərinin Lujnikləri arasında olan bir şey yaranırdı.

“Kosmos” pavilyonunun yanında adam az idi. Bu iş günündə ümumiyyətlə burada çox adam yox idi. Dronqo pavilyonun giriş qapısının yanında dayanıb “Qorçilin” yazılmış böyük lövhəni çıxartdı. Beləcə, pavilyonun yanında dayanıb kiminsə ona yaxınlaşacağını səbirlə gözləməyə başladı.

Saat on ikini göstərirdi. Heç nə baş verməmişdi. Ətrafda sakitlik idi. Birə bir, iki, üç dəqiqə işlədi. O, alnının tərlədiyini hiss etdi, burun dəsmalını çıxardaraq alnını sildi. Yenidən ətrafına göz gəzdirdi. Yan-yörəsindən adamlar keçib gedirdi, ancaq aralarında Salambəyə oxşayanı yox idi. O hiss elədi ki, get-gedə əsəbiləşir. Özünü hədəf kimi hiss edib, günəşin altında dayanmaq çətin idi. Bir yandan da yanından keçən hər kəs əlində tutduğu lövhəni oxumağa çalışırdı.

Saat birə on dəqiqə işlədiyini göstərirdi. Ehtimal ki, Salambəy naməlum adamı görüb sadəcə ona yaxınlaşmağa qorxmuşdu. Hərçənd digər tərəfdən o başa düşməliydi ki, Qorçilinin hal-hazırda meydana çıxması ağılsız və problem yarada biləcək bir hərəkət olardı.

Birə on beş dəqiqə işləmişdi. Daha gözləməmək olardı. Krujkov qatilin yerin altından çıxacağından ehtiyat edirmiş kimi daim məsafəni qısaldaraq onun ətrafında hərlənirdi. Ancaq Dronqoya əvvəlki kimi heç kim yaxınlaşmırdı.

Birə iyirmi dəqiqə işləmişdi. Lövhəciyi atıb getmək olardı. Gözləmək mənasızlaşırdı. Ancaq o, lövhəciyi əllərində tutub inadla dayanmağındaydı.

Birə iyirmi beş dəqiqə işləmişdi. O, Krujkova baxıb əlinin qəti hərəkətiylə lövhəciyi harasa kolluğa atdı. Əgər Salambəy yeni görüş təyin etmək istəsə, mütləq zəng edəcək. Əgər bunu istəmirsə, onu məcbur etmək sadəcə mümkün deyil. Dronqo getmək üçün çevrildi. Elə bu zaman arxasında kiminsə asta səsini eşitdi:

– Axşamınız xeyir. Siz kimsiniz? Niyə mənim dostumun soyadı yazılmış lövhəni tutmusunuz?

Dronqo cəld çevrildi. Qarşısında qırx-qırx beş yaşlı, yaşına nisbətən cavan bir kişi durmuşdu. Ekspert çox dəyişmiş, arıqlamış Salambəyi tanıdı. Seyrəlmiş saçlarına qəhvəyi boya vurulmuşdu. Onun həyəcanlandığı hiss olunurdu. Salambəy Dronqodan düz bir baş alçaq idi.

– Mən cinayətkarlıq məsələləri üzrə ekspertəm, – Dronqo izah etdi, – məni adətən Dronqo çağırırlar. Bura gəlməyi də məndən Qorçilin özü xahiş elədi.

– Mən elə də bilirdim. O qorxuya düşüb. Qorxur ki, onu öldürərəm, – Salambəy başını aşağı saldı. – Ancaq hər şey heç də onun düşündüyü kimi deyil.

– Düşünür ki, Feliks Qorditskini və Əhməd Elqarovu siz öldürmüsünüz.

– O, belə şeyi necə ağlına gətirə bilər? – Salambəy köksünü ötürdü. – Bütün bədbəxtliklər bizim hərbi birləşmələrimiz Dağıstana girən zaman başlayan müharibənin ucbatından oldu. Mən Basayevə

şəxsən özüm dedim ki, bu pis qurtaracaq, ancaq o, məni eşitmək istəmədi...

– Gəlin bir kənara çəkilək, – Dronqo təklif etdi, – biz lap ortalıqda dayanmışıq.

Onlar sıx bitmiş kolluğa tərəf döndülər.

– Siz yəqin ki, on il əvvəl mühacirət etmisiniz, – Dronqo təxmin elədi.

– Bəli, – Salambəy köksünü ötürdü. – Mən Məshədovun vaxtında respublika idarəsi rəhbərinin müavini, sonra batalyon komandiri olmuşam. Hərçənd mənim əllərim dinc sakinlərin, yaxud rus hərbiçilərinin qanına bulaşmamışdı. Biz yalnız rus ordusunun Çeçenistana hücumunun qarşısını almaq üçün ləyaqətlə vuruşurduq. Ancaq bunların nə ilə bitdiyini bilirsiniz. Biz uduzduq, darmadağın edildik. Məshədov öldürüldü, yerli rəhbərlərin çoxu isə federalların tərəfinə keçdi. Amma mən bunu özümə rəva bilməyib əvvəlcə Gürcüstana, sonra da Türkiyəyə mühacirət etdim... Bütün bu vaxtı da orada yaşadım, dostlarıma zərər toxundurmamaq üçün onların gözünə görünmədim.

– Bu, səhv idi, – Dronqo qeyd etdi.

– Bəlkə də haqlısınız. Ancaq Subbotin diplomat, Feliks Qorditski rayon İcraiyyə Komitəsinin sədr müavini, Əhməd Elqarov da milis polkovniki oldu. Mən, sadəcə, dostlarımı təhlükə altına atmaq istəmirdim.

– Tərifəlayiq arzudur, – Dronqo razılaşdı. – Nəticədə elə alındı ki, siz əsas şübhəli şəxs oldunuz. Hərçənd dostlarınızın şərəfi naminə deyə bilərəm ki, onlar belə bir ehtimala inanmırdılar.

– Niyə əsas şübhəli mənəm? – Salambəy təəccübləndi.

– Polkovnik Elqarovun öldürüldüyü evin məhəccərinin iç tərəfində sizin barmaq izlərinizi tapmışdılar.

– Mən orada qətldən bir neçə gün sonra olmuşam, – Salambəy tez cavab verdi. – Doğrudanmı onlar heç nə başa düşməyiblər?

– Yox, heç kimin ağlına da gəlməyib ki, türk vətəndaşı Ənvər Xəlil və separatçıların keçmiş batalyon komandiri Salambəy Muzayev eyni adamdır. Mən haqlıyam, yoxsa yox?

– Haqlısınız, – Salambəy ah çəkdi. – Mənim, sadəcə, başqa variantım yox idi. Nə vaxtsa Rusiyaya qayıtmağa cəhd etmək üçün Türkiyə vətəndaşlığını qəbul etmək lazım idi. Hətta əcnəbi olsam da.

– Və siz hazırlanan sui-qəsdlərdən xəbərdar idiniz?

– Mənə onlarda iştirak etməyi təklif elədilər, – Salambəy vicdanla boynuna aldı, – burada özünəməxsus məntiq vardı. Axı mən öz ölkəmdən qaçmışdım, qiyamçı hesab olunurdum, federal axtarışdaydım və məntiqə görə daha çox uğur qazanmış dostlarıma, xüsusən də polkovnik Elqarova və biznesmen Qorçilinə nifrət etməliydim. Amma hər şey əksinəydi. Əhməd Elqarov mənim qan qardaşım idi; Əfqanıstanda məni xilas etmişdi və mən ömrümdə ona əl

qaldırmağa cürət etməzdim. Bəs siz necə bildiniz ki, Ənvər Xəlil adıyla fəaliyyət göstərən mənəm?

– Siz Qorditskinin maşınındakı partlayışdan beş gün sonra Vitebskə gəlmişdiniz, – Dronqo məlumat verdi, – mən hər şeyi yenidən yoxlaya bildim. Sonra siz Elqarovun qətlindən üç gün sonra Nalçikə gəldiniz. Elə buna görə də artıq bir müddət keçəndən sonra orada sizin barmaq izlərinizi tapmışdılar. Siz sadəcə olaraq unutmuşdunuz ki, türk vətəndaşı yox, barmaq izləri Rusiya Xarici İşlər Nazirliyinin informasiya mərkəzində saxlanılan keçmiş çeçen səhra komandirisiniz. Sizin barmaq izləriniz orada tapılarkən DİN-də işləyən yoldaşlarınızın və əməkdaşlarınızın reaksiyasını təsəvvür edirsinizmi? Və nəhayət, siz lap bu yaxınlarda əsl qatilin Çiladzenin ofisinə bomba göndərdiyi gün Tiflisdə olmusunuz. Biz sui-qəsdin qarşısını alıb Şalva Qriqoryeviçi Bakıya apara bildik, oradan da başqa bir yerə aparmalı olduq.

– Mən Tiflisdə bundan xəbər tutdum və dərhal anladım ki, qalanları xilas etmək lazımdır. İstanbul yoluyla Parisə bilet aldım; ancaq axşam öyrəndim ki, Subbotin məzuniyyətə çıxır. Onda mən Moskvaya uçub Yulik Qorçilini xilas etməyə çalışdım. Bu gün səhər köhnə nömrəsinə zəng vurdum. Bəxtimdən nömrə hələ işləyirdi. Buna görə də sizinlə burada görüşdük. Siz məni onsuz da heyrətləndirdiniz. Mənim hərəkətlərimi bu günə qədər dəqiqliklə izləmisiniz...

– Mən artıq dedim ki, bu çətin deyildi. İndi isə gəlin, ən mühüm məsələyə keçək. Livanlı Taufik Səbri kimdir və niyə sizin keçmiş yoldaşlarınıza belə nifrət bəsləyir? Mən hətta düşündüm ki, onu muzdlu qatil kimi siz özünüz tutmusunuz.

– Yox, – Salambəy cavab verdi, – əlbəttə, yox. Bu faciəvi və tamamilə inanılmaz əhvalatdır... – O, sözünü tamamlaya bilmədi. Onlar kolluqla əhatələnmiş kiçik meydançadaykən hər tərəfdən qışqırtılar eşidildi:

– Yerinizdə dayanın! Əllərinizi qaldırın və tərpənməyin!

– Demək belə, – Salambəy nifrətini gizlətmədən dedi, – siz məni hakimiyyətə satmısınız.

– Yox, – Dronqo etiraz etdi, – bu, mən deyiləm.

– Əllər yuxarı! – onları mühasirəyə almış adamlardan biri yenə qışqırdı. Ətraflarındakı halqa daralırdı.

– Onlar gərək ehtiyatlı olsunlar, – Salambəy qışqırdı, – o özünü başqa adam kimi təqdim edir və mən istərdim...

Sözü yarımçıq qaldı. Bir neçə nəfər dərhal üstünə atıldı. Salambəy əyilib birini üzərindən atdı, ikincini itələdi, üçüncünü yerə yıxdı və qaçmağa başladı. Amma cəmisi bir neçə addım ata bildi. Hər tərəfdən atəş səsləri eşidildi. Dronqo güllələrin Salambəyin paltarını və bədənini deşik-deşik etdiyini gördü. O, dördüncü yaradan sonra üzüstə düşüb qaldı. İki güllə də Dronqoya dəyib kürək nahiyəsində ağrı yaratdı, ancaq güllələkeçirməz jileti deşib keçmədi.

Ekspert öldürülənə yanaşdı. O, üzüqoylu asfalta düşmüşdü və bədənin ətrafında qan göllənirdi. Hər yandan bura FTX əməkdaşları tökülüşürdü. Dronqo öldürülənə tərəf əyilib pasportunu çıxartdı. Ənvər Xəlilin adına türk pasportu idi. O, elə də bilmişdi. Zavallı Salambəy dostlarını xilas etmək üçün hər dəfə çox gecikirdi.

– Əllər yuxarı! – Dronqonun yanında peyda olan zabit ona qışqırdı. – Sən həbs olunursan.

– Siz onu nahaq güllələdiniz, – Dronqo kədərlə dedi.

– Bunu izolyatorda danışarsan, – zabit avtomatın qundağıyla onu möhkəm vurub söz verdi.

– Yox, – Dronqo yenə kədərlə cavab verdi, – siz məni həbs edə bilməyəcəksiniz. Mən beynəlxalq ekspertəm. Məndə BMT-nin göy pasportu və dövlətimin diplomatik pasportu var. Onları sizə elə indi göstərim?

– Bəli, – zabit hirslə dedi.

Dronqo sənədlərini çıxarıb zabitə uzatdı.

– Siz nahaq yerə bizə söhbətimizi bitirməyə imkan vermədiniz, – dedi. – Heç təsəvvür etmirsiniz ki, bizə necə mane oldunuz.

O, Krujkovun ona tərəf gəlməyə can atdığını gördü. Kürəyi bərk ağrıyırdı; görünür, lap yaxından atmışdılar. Dronqo Salambəyin meyitinə baxdı. Xəfiyyənin axır ki, bu cinayətlərin sirrini bilməsi üçün onlara bircə dəqiqə aman verməmişdilər.

## On səkkizinci fəsil

Əlbəttə, sənədlərinə baxandan sonra da onu dərhal buraxmadılar. Onlar bu ekspertin kimliyini və niyə az qala on il federal axtarışda olan adamla bir yerdə olduğunu aydınlaşdırana kimi xeyli gözləmək lazım gəldi. Salambəyin meyitini tanınmağa apardılar, tez daktiloskopiya etdilər. Barmaq izləri təsdiqlədi ki, Moskvaya türk vətəndaşı Ənvər Xəlil adıyla gələn axtarışda olan keçmiş çeçen səhra komandiri Salambəy Muzayev olub.

FTX-in əvvəlki təhqiqatlara əsasən eksperti şəxsən tanıyan rəhbərlərindən birinin gəlməsini gözləmək lazım gəldi. General Dronqonun şəxsiyyətini təsdiqlədi. O, evə yalnız axşam saat altıda, yorğun, düşkün və bugünkü hadisələrdən dilxor olmuş halda qayıtdı. Paltarını çətinliklə soyundu, jiletini açdı, vanna otağına keçib kürək nahiyəsində iki böyük qançır gördü. Görünür, sabiq çeçen komandirini sağ tutmamaq haqqında əmr onun bütün həmsöhbətlərinə aid idi. Dronqonun özünə çox yaxın məsafədən iki dəfə atəş açmışdılar. Hər iki dəfə də güllələr jaketi deşə bilməmiş, ilişib qalmışdı.

Dronqo duş qəbul edib özünə çay düzəltmək üçün vannadan çıxdı. O dəqiqə də ona Qorçilin zəng vurdu. Ona kimin zəng

vurduğunu görən Dronqo ağzının ucunda söyüş söydü, lakin cavab verməyi qərara aldı.

– Təbrik edirəm, – Qorçilin dərhal bildirdi, – mən artıq Moskvadakı ünvanıma qayıtmışam. Salambəy öldürülüb, artıq mənə bu barədə məlumat verilib. Çox sağ olun! Mən sizdən nə istəmişdimsə, hamısını yerinə yetirdiniz və qatili tapdınız. Hesab edirəm ki, işinizi əla görmüsünüz, cənab ekspert.

– Mən axı sizdən xahiş etdim ki, heç yerə zəng vurmayasınız, – Dronqo yorğun-yorğun yada saldı. – Niyə zəng vurmusunuz?

– Sadəcə, sizə görə qorxdum, – Qorçilin o dəqiqə yalan danışdı. – Siz dediniz ki, onunla görüşə gedirsiniz, mən də sizə görə qorxdum. Mən axı keçmiş yoldaşımın nəyə qadir olduğunu bilirdim. Bu adam idarəedilməz heyvana dönüb heç bir günahı olmayan adamları öldürürdü. Və mənə hirslənib sizi də öldürə bilərdi. Mənim əvəzimə sizin gəldiyinizi görcək, heç bir danışığa başlamayıb sizi elə yerinizdəcə öldürərdi.

– Axı mən sizdən xahiş etdim ki, gözləyəsiniz, – Dronqo təkrar etdi.

– İndi nə fərqi var, – Qorçilin dedi, – axı hər şey əla qurtardı! Qatil cəzasına çatıb güllələndi. Hamı sağ qaldı. Siz Tiflisdə Şalvanın həyatını xilas etdiniz, Leonid Subbotini ölümdən qurtardınız. Təkrar edirəm, siz bütün işinizi əla gördünüz və mənim sizdən heç bir

narazılığım yoxdur. Qonorarınızın ikinci hissəsini sizə sabah səhər göndərərəm.

– Siz günahsız adamı öldürdünüz, – Dronqo onun monoloqunu kəsdi. – O, bura sizi xilas etmək və əsl qatili tapmaq üçün gəlmişdi. O, sizinlə görüşmək istəyirdi ki, sizi gözlənilən təhlükədən xəbərdar etsin. Siz isə nəinki köhnə dostluğu satmaqla, həm də onu federal hakimiyyətə təhvil verməklə alçaq iş gördünüz.

– Siz dəli olmusunuz? – Qorçilin çığırdı. – Necə yəni xilas etmək? Qorditskiylə Elqarovu o öldürüb, orada onun barmaq izlərini tapıblar. Subbotini də o öldürmək istəyib, alınmayanda isə qərara alıb ki, mənim axırıma çıxsın. Ancaq mən daha “bərk qoz” oldum, məni sındıra bilmədi.

– O, sizi xilas etmək və təhlükədən xəbərdar etmək istəyirdi, – Dronqo təkrar etdi, – sizsə onu hakimiyyətə satdınız. Çox alçaq və axmaq bir iş tutdunuz. Ən azı ona görə ki, əsl qatil azadlıqda qalıb və indi yəqin ki, elə sizin özünüzü öldürmək istəyəcək. Axı qalan iki nəfərə hələ ki, əli çatmaz.

– Başqa heç bir qatil-zad yoxdur, – Qorçilin sevinclə dedi, – daha məni qorxutmaq lazım deyil. Mən axı normal mühakimə yürüdə bilirəm. Biz səkkiz nəfəriydik. İkisi orda həlak olmuşdu, ikisi də burada öldürüldü. İki adam qalmışdı: mən və Salambəy. Hamı da elə bilirdi ki, qatil bizim birimizdir. Mən qatil ola bilməzdim, çünki ən azı müdafiəmiz üçün sizi tapmışdım. Bir Salambəy qalırdı. Mən

dostlarımızın qətlini ona heç zaman bağışlamayacağam. Heç ölüsünə də. Mən artıq Kazbekə zəng vurub böyük qardaşının qatilinin ölümü münasibətilə onu təbrik etmişəm. Axı onlar da hər şeyi bilirdilər. Aydın idi ki, FTX-in işçiləri onu diri tutmamaq barədə konkret əmr almışdılar. Buna da əməl elədilər.

– Siz məni eşitmək istəmirsiniz, – Dronqo dedi. – O, az qala on il gizlənib, hətta başqa adla Türkiyə vətəndaşlığı da alıb. Hansı risklə üzləşdiyini başa düşə-düşə sizdən və yoldaşlarınızdan ötrü geri qayıtmağı qərara almışdı. O, sizə inandı, sizsə onu satdınız...

– Siz bu haqda nə qədər çox israr elədikcə, mən bir o qədər düz iş gördüyümü başa düşürəm. Gəlin, söhbətimizi bitirək. Onsuz da daha heç nəyi düzəltmək olmaz. Mən uzun illər axtarışda olan və izsiz-soraqsız yoxa çıxdığı güman edilən keçmiş çeçen səhra komandirinin Moskvada peyda olduğunu bizim hüquq-mühafizə orqanlarına məlumat verməyi özümə borc bildim. Əgər o, metroda partlayış, yaxud başqa bir iyrənc terror aktı törətsəydi, onda necə olardı?

– Onu vəhşi sanmayın. O, normal adam idi.

– Bu fikir siz qafqazlılarındır, – Qorçilin sevinclə dedi, – onu mələk sanmayın. O, heç vaxt mələk olmayıb. Üç müharibə görmüş, artıq özündən asılı olmadan vəhşiyə çevrilmiş bir adam. Doğrudanmı bunu anlamırsınız? Vəssalam. İş bağlıdır. Siz öz qonorarınızı alırsınız və biz bir-birimizdən razı halda ayrılırıq. Şalvayla Leonidə zəng vurub

deyə bilərsiniz ki, yerlərinə qayıtsınlar. Onu da deməyi unutmayın ki, bu qatili öldürtdürən mən olmuşam.

– Qatil azadlıqdadır, – Dronqo etiraz etdi. – Etiraf edim ki, siz məni yaman bezdirmisiniz. Mən indi telefonu bağlayıb sizinlə daha heç vaxt danışmayacağam. Ancaq əsl qatil artıq Moskvadadır. Sizin bir neçə saatlıq ömrünüz qalıb. Bəlkə də bir-iki gün, amma yenə ölümə məhkumsunuz. Siz niyə inadla məni dinləmək istəmirsiniz?

– Çünki sizin naməlum qatillər haqqındakı nağıllarınıza inanmıram! – Qorçilin əsəblərini cilovlaya bilməyib qışqırdı. – Siz məni buna inandıra bilməzsiniz!

– Mən özüm onunla danışdım, – Dronqo məlumat verdi, – axşam isə o mənə zəng edib bildirdi ki, sizin ailə üzvlərinizə toxunmayacaq. Ona yalnız üç nəfər – siz, Subbotin və Çiladze lazımdır. Və sizinlə problemlərini həll edəndən sonra öz qətllərinə son qoyacaq.

– Siz hədə-qorxu gəlirsiniz? – Qorçilin inanmadı.

– Yanıma gəlin, mən avtocavabda onun səsi olan yazını sizə göstərim.

– Allah bilir, bu nə zibildir, – biznesmen donquldandı, – mən buna inana bilmirəm! İnanmaq da istəmirəm. Salambəy öldürülüb – vəssalam. Orada daha heç kəs olmayıb. Heç kəs. Heç kim də sağ qalmayıb. Mən özüm dəfnlərdə olmuşam, həlak olanları görmüşəm. Məni qorxutmaq lazım deyil! Biz birgə işimizi bitirmişik. Xudahafiz.

Dronqo heç vidalaşmadan mobil telefonunu stola atdı. Dünəndən burada qalmış kağıza baxdı. Deməli, Salambəy Muzayevlə Ənvər Xəlilin eyni adam olduğu aydındır. Aydındır ki, Salambəy düzünü danışıb. O, bu iki qətldə iştirak edə bilməzdi – ən azı ona görə ki, bu zaman o yerlərdə olmamışdı. Deməli, iki personaj aradan çıxdı. Heç bir banda mövcud deyil. Türk qonaqla keçmiş çeçen komandiri eyni adamdır. Həmin o adam ki, hər dəfə köməyə gələndə bir az gecikirdi. Ancaq o Vitebskə və Nalçikə gəlməklə, cinayət yerlərində olmaqla lazımi nəticə çıxarıb və Tiflisə artıq mümkün sui-qəsd günü gəlib. Moskvada hətta qatili qabaqlamağa da çalışıb. Və FTX işçilərinin gülləsinə tuş gəlib. Rəsmən hər şey doğrudur, bu faktiki olaraq yoldaşlarını xilas etmək üçün öz azadlıq və həyatını təhlükəyə atan yaxşı bir insanın qətliydi. Leonid Subbotin haqlıydı: Salambəy qatil deyildi, o, sadəcə, faciəvi bir surətdə bu cinayətlərə qarışmışdı, çünki iki dəfə bu cinayətlərin baş verdiyi şəhərlərdə olmuş, hətta qətli törədilən Elqarovun evinin pilləkən meydançasında barmaq izlərini də qoymuşdu.

İndi növbəti hərəkət tərzini düşünmək lazımdır. Qorçilin adi heyvan yox, həm də döyüşkən, onu xilas etmək üçün əlindən gələni etmək istəyən dostunu başa düşməyib satmış heyvandır. Ancaq qatil həqiqətən də mövcuddur, onu zərərsizləşdirmək lazımdır. Salambəy ölümündən qabaq qışqırıb dedi ki, həmin adamın əsl adı Taufik Səbri deyil. Onda kimdir bu qatil? Onu necə axtarıb tapmalı? Hamısından

asan hər şeyi unudub qonorarın ikinci yarısını almaq və bu qətlləri də, sağ qalmış üç yoldaşı da yaddan çıxarmaqdır. Qorçilin öz nadanlığı və satqınlığıyla belə bir ölümə tamamilə layiqdir. Ancaq qalan iki nəfər normal adamlardır. Şalva Çiladzenin üç oğlu var, onlara kömək lazımdır. Subbotinin yeniyetmə oğlu, gənc arvadı var. Yox, hətta ondan heç kim xahiş etməsə belə, onun bu adamları köməksiz qoymağa haqqı yoxdur. O, mütləq qatili dayandırmalıdır.

Bu livanlı – onu şərti olaraq belə adlandıraq – çox təcrübəli adamdır. Başa düşür ki, yaxın günlərdə nə məzuniyyətə getmiş Subbotini, nə də Dronqonun özünün gizlədiyi Çiladzeni tapa biləcək. Deməli, artıq onu heç bir təhlükə gözləmədiyini düşünüb şəhərdəki mənzilinə qayıdan səhlənkar Qorçilinin ardınca gələcək.

Dronqo fikrə getdi. Əgər bu tip ağıllı adamdırsa, qətli bir başqa günə saxlamayacaq. Əgər hansısa bir yolla Salambəyin ölümündən xəbər tutsa, FTX və DİN qələbəni bayram etdikləri, Qorçilinin isə Salambəyin ölümündən sonra kefikök olduğu müddətdə, məhz bu gün zərbə vuracaq. Bəli, qatil Qorçilini məhz bu gün axşam, yaxud gecə aradan götürmək istəyəcək. O, öz qürurunu yenib, Qorçilinə zəng etməlidir. Sadəcə, başqa bir variant olmayacaq. Özünü peşəkar hesab edib, problemin həllindən yaxa qurtarmaq olmaz.

Dronqo Qorçilinə zəng vurdu və gördü ki, o, telefonunu söndürüb. İkinci dəfə zəng etdi, amma telefon yenə də söndürülmüşdü. O xatırladı ki, onda biznesmenin ev telefonunun nömrəsi var.

Nömrənin yazıldığı qeyd kitabçasını tapıb zəng etdi. Telefon uzun müddət cavab vermədi, nəhayət, Qorçilinin narazı səsi eşidildi:

– Alo, kimdir danışan?

– Yenə də mən, – Dronqo dedi.

– Biz artıq söhbətimizi bitirmişik, – Qorçilin tənbəl-tənbəl dilləndi, – niyə məni narahat edirsiniz? Axı sizə dedim ki, qonorarın qalan hissəsini sabah göndərəcəm.

– Hamının sizin kimi iyrənc düşüncə tərzinə malik olduğunu hesab etmək olmaz, – Dronqo özünü saxlaya bilmədi.

– Siz daha zəng etməyəcəyinizə söz verdiniz, – Qorçilin əməlli-başlı özündən çıxdı.

– Zəng etməyəcəkdim. Ancaq qorxuram ki, o, sizi aradan götürəndən sonra Subbotinlə Çiladzeni axtarmağa başlasın. Buna görə də güman edirəm ki, onu məhz burada və indi dayandırmaq lazımdır.

– Sizdə Vanqa, yaxud Kaşpirovski qabiliyyəti var? – Qorçilin hirslə soruşdu. – Bəlkə mənə başqa şeylərdən də fal açasınız?

– Siz bu gün axşam öləcəksiniz, – Dronqo dedi.

O, nə qədər qanmaz və kobud adam olsa da, bu sözlərə məhəl qoymaya bilməzdi.

– Sizə nə lazımdır? – Qorçilin acıqla soruşdu. – Daha nə istəyirsiniz?

– Sizə gəlmək və çox güman ki, bu gün sizi aradan götürməyə çalışacaq qatili saxlamaq, – Dronqo təklif etdi.

– Siz məni lap boğaza yığdınız, – Qorçilin hirslə dedi. – Yaxşı. Necə lazım bilirsiniz, elə də edin. Əgər istəsəniz, yanıma gələ bilərsiniz. Ancaq nəzərə alın ki, mən bu anlaşılmaz sərsəmliyə sabaha qədər dözməyə hazıram. Sonra isə biz sizinlə həmişəlik ayrılacağıq.

– Ümidvaram ki, belə də olacaq. Eviniz harada yerləşir?

– Preçistenkada, indi sizə başa salaram. Onu da nəzərə alın ki, bizim öz qapıçımız və mühafizəmiz var. Elə-belə keçə bilməyəcəksiniz. Bu, təzə evdir. Hətta mən qaldığım mərtəbədə də öz cangüdənim var.

– Bu münasibətlə sizi təbrik edirəm, – Dronqo mızıldandı. – İndi gəlirəm. Siz də onu nəzərə alın ki, qapını açmağınız üçün mən bu şəkildə zəng vuracağam: üç, bir, üç, bir.

– Mənim evimdə müşahidə kameraları quraşdırılıb, – Qorçilin güldü. – Sizə deyirəm ki, bu, köhnəlmiş nömrədir. Mənim evimə heç kim asanlıqla düşmür. Və ümumiyyətlə, heç bir livanlı qatil-zad yoxdur. Bunlar hamısı uydurma fantaziyadır. Amma əgər belə istəyirsinizsə, gəlin. Qələbəmizi birlikdə qeyd edək. Mənim qonaqlarım olacaq.

– Çoxmu? – Dronqo dəqiqləşdirdi.

– On nəfər. İndi əylənə bilərəm. Buna görə də gəlin.

Dronqo dəstəyi qoydu. “Yenə bu jileti əynimə geyinməli və silah götürməliyəm”, deyə düşündü. Bu dəfə Krujkovu çağırmaq lazım deyil. Onsuz da onun köməyi dəyməyəcək, o yalnız öz gücünə

güvənməlidir. Əgər o, hər şeyi düz hesablamışsa, naməlum qatil Salambəyin ölümündən xəbər tutmalı və arxayınlaşmış, hücum gözləməyən Yuli Qorçilinə zərbə vurmaq üçün ən yaxşı məqam çatdığını qərara almalıdır.

O, Qorçilinin evinə yalnız axşam səkkizə yaxın çatdı – buna axşam yaranan maşın tıxacları səbəb oldu. Həyətdə oturan keşikçi və qapıçı gələnin soyadını dəqiqləşdirib Qorçilinə zəng vuraraq onun içəri girməsi üçün icazə aldılar. Deyəsən, sistem nöqsansız işləyirdi, ancaq o, gözəl bilirdi ki, üzündə küt ifadə olan bu yekəsifət keşikçiylə qapıçı qadın Taufik Səbri kimi bir peşəkarı ömürləri boyu saxlaya bilməzlər.

Səkkizinci mərtəbədə ikiqatlı mənzilin qarşısında daha bir keşikçi oturmuşdu. O da sənədləri yoxlayıb başıyla tənbəl-tənbəl içəri keçməyə icazə verdi. Dronqo mənzil sahibinin venzeli yazılmış dəbdəbəli qapılara yanaşdı. O, üç və bir, sonra yenə üç və bir dəfə zəng çaldı.

– Nahaq belə zəng vurursunuz, – keşikçi gördü, – bizdə hər yerə kamera quraşdırılıb. – O, eyni vaxtda iki kameranın işlədiyi yuxarını göstərdi. – Sizi indi həm mənzil sahibi, həm də bizim qapıçı görür, – keşikçi gülümsəyib əlavə etdi.

Dronqo qapını açmalarını gözlədi və mənzilə daxil oldu. İndi yalnız son bir neçə gün görüşmək intizarında olduğu qatili gözləmək qalırdı.

Qorçilin əynində yaşıl əjdaha şəkilləri olan tünd-qırmızı xələt gəlib çıxdı.

– Axşamınız xeyir, – deyə sağ əlini uzatdı. – Düz eləyib gəlmisiniz. Bizdə qonaqlıq olacaq və mən sizi bütün dostlarımla tanış edəcəm. Qoy, onlar da sizin kimi gözəl eksperti tanısınlar. Gələcəkdə onların da problemləri çıxa bilər, siz də onları bacarıqla həll edərsiniz.

Dronqo susdu. O, özündən müştəbeh ev sahibinə demədi ki, evə üstündə silah girib, heç kim ondan heç nə soruşmayıb da. Başa düşürdü ki, bu uzun çəkən sözardının sonuncu aktı başlayacaq və Qorçilinin sərsəm atmacalarına əhəmiyyət verməməyi qərara almışdı.

## On doqquzuncu fəsil

Qonaqlıq axşam saat doqquzda başlamalıydı. Dronqo qərara gəldi ki, orada iştirak etməsin. O, ikinci mərtəbəyə qalxdı, televizor olan otağı tapıb oturdu ki, futbola baxsın. Qorçilin hələ qonaqlar yığılmağa başlamamış pilləkənlə qalxıb divanda, Dronqonun yanında əyləşdi.

– Siz nahaq yerə həmişə məndən inciyirsiniz, – o, barışdırıcı tərzdə dedi, – siz də mənim vəziyyətimi başa düşməlisiniz. Budur, artıq neçə gündür ki, mən bu gərginlik içindəyəm. Elə hey başa düşməyə çalışırdım ki, bu, kim ola bilər və niyə bizi görməyə gözü yoxdur? Lap əvvəldən anlamışdım ki, bu yalnız Salambəy ola bilər,

hətta keçmiş döyüş yoldaşıma yazığım da gəlmişdi. Ancaq o özü taleyini seçdi. İndi Çeçenistanda möhtəşəm tikinti işləri aparılır, o, tamamilə yaraya bilərdi. Lakin hər şey belə axmaq və bayağı alındı. Əlbəttə, o, İkinci Çeçen müharibəsində separatçıların tərəfində iştirak etmişdi. Onların ordusu darmadağın ediləndə yəqin xaricə, güman ki, Türkiyəyə, yaxud başqa bir yerə qaçmışdı. Sonra isə geri dönüb öz keçmiş yoldaşlarından qisas almaq istəmişdi, elə bil onun bu ağır taleyinin günahkarları biziydik.

– O, qatil deyil, – Dronqo inadla dilləndi, – baxmayaraq ki, siz mənə onsuz da inanmırsınız.

– İnanmıram, – Qorçilin sevinclə başını tərpətdi. – Bütün sahələrdəki peşəkarların əllaməlik kompleksi var. Onlara elə gəlir ki, belə şeylərdə heç kim onlardan yaxşı baş çıxara bilməz. İnciməyin, cənab ekspert, mən bu gün, sadəcə, sizinlə mübahisə etmək istəmirəm, buna görə də gəlməyinizə icazə verdim. Heç nə baş verməyəcək. Həm də bura heç kəs soxula bilməz.

– Onda mən çıxıb gedərəm. Üzrxahlıq edib gedərəm. Yeri gəlmişkən, yanınıza silahla gəldim, heç kim də məni yoxlamadı.

– Nə olar, mən keşikçini cəzalandıraram, – Qorçilin divandan qalxa-qalxa yumşaqlıqla dedi. – İstəsəniz, aşağı düşə bilərsiniz. Bizim qəşəng qızlarımız olacaq.

– Yox, mən futbola baxacam.

– Yaxşı, necə istəyirsiniz, – Qorçilin pilləkənə tərəf getdi. İndi açıq-aşkar heç nə vecinə deyildi.

Qonaqlar onun yarısında gəlməyə başladılar. Onların arasında tanınmış rəssam, Federal Agentliyin rəhbəri, iri bankir və bir məşhur televiziya proqramının aparıcısı da vardı. Rəssamla aparıcı öz qadınlarıyla gəlmişdilər: sonradan qonaqlara üç gənc qadın da qoşuldu. Dronqo aşağıda keşikçilərin hər gələn qonaq haqqında məlumat verdiklərini eşidirdi. Axşam saat ona yaxın məşhur bir Moskva restoranından yeməklər gətirilməyə başladı. Bu zaman xidmətçilər özləri yuxarı qalxmır, sifariş edilmiş yeməkləri aşağıda duran keşikçiyə verir, o da iş yoldaşını səkkizinci mərtəbədən çağırıb sifarişi ona ötürürdü.

Qonaqlıq axşam saat ikiyə qədər çəkdi. Kimsə müəyyən dairələrdə dəbdə olan “fransız pokeri” oyunu oynamağı təklif etdi. Qonaqların oyun qaydalarını izah etdiklərini eşidən Dronqo gülümsündü. O, bu oyunu və qaydalarını bilirdi. Onu bu oyunla keçən il Madeyrada, tufan olduğu üçün oteldə qalmağa məcbur olduğu vaxt tanış etmişdilər. Belə oyun bütün qadınların xoşuna gəlmirdi. Şərtləri sadəydi: kartlar paylanır və ən kiçik kartı olan paltarından birini çıxarırdı. Ən böyük kartı əldə edən şəxs iştirakçıların hər birindən paltarından daha bir şey də çıxartmağı tələb edə bilərdi. Ən heyrətamiz o idi ki, belə bir paylaşma zamanı hamı təxminən eyni vəziyyətdə, çimərlik geyimində, ya da alt paltarında qalırdı. Aşağı qatdan ucadan

gülüş və qışqırtı səsləri eşidilirdi, Dronqo qulaq asıb yalnız üz-gözünü turşutdu.

Oyun səhərə yaxın, saat dörddə qurtardı. Qonaqlar vidalaşmağa başladılar. Birinci olaraq Federal Agentliyin rəhbəri getdi, sabah saat onda iclasda olmalıydı. Sonra qalanlar da dağılışmağa başladı. Gənc qadınlardan biri Qorçilinə açıq-aydın eyham vurdu ki, sabah səhərədək onun mənzilində qala bilər, lakin o xanımın eyhamlarına məhəl qoymamağa çalışaraq özünü başa düşməməzliyə vurdu. Son günlərin gərginlik və yorğunluğu sözünü deyirdi. Gənc qadın hətta incidi də.

Sonuncu arvadıyla gedən rəssam oldu. Yadına saldı ki, Qorçilinə hədiyyə gətirdiyi şəkli öz avtomobilinin salonunda qoyub.

– İndi sürücüyə deyərəm, gətirər, – rəssam telefonunu çıxarıb sevinclə təklif etdi. Sürücüylə danışdı və xudahafizləşərkən ev sahibiylə qucaqlaşdı. Sonra səndələyə-səndələyə ona getməkdə kömək edən rəfiqəsiylə mənzildən çıxdı. Rəssamın bu gün bəxti gətirməmişdi. "Fransız pokeri" oynayan zaman onu lüt soyundurmuşdular və o məğlub hesab olunmuşdu.

Qorçilin onları yola saldı, üzünü yuxarı tutub ucadan qışqıraraq Dronqonu çağırdı.

– Nahaq yerə aşağı düşmədiniz. Yaxşıca əyləndik. Sizin qatil isə ortaya çıxmağa risk eləmədi. Səhərə yaxındır, saat dörddür. Evinizə gedə bilərsiniz, cənab ekspert, mən daha bura heç kimi buraxmayacam.

Keşikçi aşağıdan bildirdi ki, sürücü şəkli gətirib. Qorçilin xoşbəxt-xoşbəxt gülümsəyib sürücüyə yuxarı qalxmağa icazə verdi. Yenə Dronqoya qışqırdı ki, özünü sərbəst hiss edə bilər. Və rəssamın sürücüsünün qalxdığı pilləkən meydançasından keşikçinin zəng çaldığını eşitdi.

– Burax onu, – Qorçilin yorğun-yorğun mızıldanaraq gedib qapını açdı. Sürücü şəkli gətirdi və divara söykədi.

– Onu o biri üzünə çevir, – ev sahibi təklif etdi. Sürücü şəkli çevirib kağızını açmağa çalışdı.

– Lazım deyil, – Qorçilin dedi, – özüm hamısını çıxararam.

– Əlbəttə, çıxararsan, – sürücü giriş qapısını qıfıllayıb gözlənilmədən dedi. O, mənzil sahibinə doğru çevrildi. Əlində səsboğucusu olan tapança var idi.

– Nə istəyirsən? – Qorçilin hətta qorxudan hıçqırdı da.

– Sənin ölümünü, – sürücü tapançanın dəstəyilə zavallı ev sahibinin üzündən vurdu. O yıxıldı, burnu sınmış, qan üzünə yayılmışdı.

– Sən kimsən? – Qorçilin qışqırdı. – Sənə nə lazımdır?

– Mən sənin dalınca gəlmişəm, – qatil tapançasını yellədərək dedi.

– Sən sürücü deyilsən! – Qorçilin başa düşdü. – Bəs onun sürücüsü hanı?

– Yük yerində əl-qolu sarınmış vəziyyətdə uzanıb. Mən rəssam dostunun sənə hədiyyə gətirdiyi şəkil yadına düşənədək aşağıda dörd saatdan artıq gözlədim. Yalnız bu üsulla keşikçini aldadıb sənin mənzilinə düşmək olardı.

Qorçilin ehtiyatla ayağa qalxdı. Cib dəsmalını çıxarıb üzünü sildi. İkinci mərtəbədə silahlı ekspertin oturduğunu xatırlayıb bir az sakitləşdi. Hətta gülümsündü də.

– Sən kimsən? – deyə ucadan soruşdu. – Mənim evimdə sənə nə lazımdır?

– Məgər sən bilmirsən mən kiməm? Pasporta görə əlli yeddi yaşım var, amma əslində xeyli cavanam. Sənədlərə əsasən mən livanlı biznesmen Taufik Səbriyəm, başqa sənədlərə əsasən isə İordaniya vətəndaşı Musa Şövkətəm. İndi isə mənə diqqətlə bax və tanımağa çalış.

– Biz tanış deyilik, – Qorçilin mızıldandı, – mən səni tanımıram.

– Tanıyırsan, – qatil əminliklə dedi, – sən məni yaxşı tanıyırsan, Yuli Qorçilin. Artıq iyirmi iki il keçməsinə baxmayaraq, məni yenə tanımaq mümkündür.

– Mən niyə səni tanımalıyam? – Qorçilin hirslə soruşdu. – Məgər biz əvvəllər ta...

O, sözünü bitirə bilmədi. Naməlum adam əlində tapança ona tərəf gəlməyə başladı. Qorçilin geri çəkildi, kresloya ilişib döşəməyə yıxıldı, sonra tez sıçrayıb qalxdı.

– Biz tanış deyilik, mən heç səni tanımıram da, – deyə kəkələdi. – Mənim tanışlarımın arasında nə Musa Şövkət, nə də Taufik Səbri adlı adam olmayıb. Sən nəyisə qarışdırmısan.

– Mənə diqqətlə bax, – qatil dedi, – onda sənin dəyərsiz şüurun məni tanımaqda sənə kömək edər.

– Mən haradan... – Qorçilin ağzını açdı və birdən donub qaldı. – Bu sənsən? Amma belə şey sadəcə mümkün deyil. Sən ki həlak olmuşdun! Mən bunların hamısını öz gözümlə görmüşəm. Sənin qəbrinin üstə getmişəm, ananla danışmışam.

– Mən həlak olmamışam, – qatil cavab verdi, – siz bu qərara gəlmişdiniz ki, mən ölmüşəm və məni ölüm ayağında qoyub getmişdiniz. Ağlınızı bu bədbəxt qadının çantasından tapdığınız brilyantlar aparmışdı. O zaman sən öz əsgərlərin haqqında yox, bu brilyantları götürüb tez aradan çıxmaq barədə düşünürdün.

– Biz elə bilmişdik ki, sən ölmüsən! – Qorçilin açıq-aşkar yuxarıda oturmuş Dronqonun diqqətini cəlb edərək qışqırdı. – Heç kimin ağlına belə gəlməzdi ki, sən sağ qalmısan! Axı bu necə ola bilərdi, sən necə Musa Şövkət oldun?

– İndi məni tanıdın, – qatil dedi. – Bu, doğrudan da mənəm, sənin keçmiş yoldaşın Mixail Şevçenko. Orada dağlarda sən mənə qışqırdın ki, biz hücumu mütləq dəf etməliyik, o zaman evə varlı adamlar kimi qayıdacağıq. Mən sənin sözlərinə əhəmiyyət verdim. Ancaq mən serjantın əmrlərini yerinə yetirməyə adət eləmişdim.

Yadındadır, mən neylədim? Qranatları götürüb hücum edənlərin üstünə atdım. Onlar mənə yaxınlaşanda isə qayanın dalında gizləndim və sonuncu iki qranatı partlatdım. Ancaq bu zaman daşlar üstümə töküldü və mən huşumu itirdim.

– Biz sənin necə tikə-tikə olduğunu gördük, – sarsılmış Qorçilin dedi.

– Bu, hücum edənlərin biriydi. O, Sovet hərbi çəkməsi geyinmişdi, siz də onun qopmuş ayağına baxıb elə bilmişdiniz ki, partlayan mənəm. Mən isə bu zaman daş qalağının altında huşsuz vəziyyətdə qalmışdım. Ancaq siz mənim başıma məhz nə gəldiyini öyrənməyə tələsmədiniz. O məqamda hamınız yalnız brilyantları düşünürdünüz. Düşünürdünüz ki, tez vertolyota minib bu qiymətli daşları da özünüzlə aparasınız. Buna görə də sən heç mənə nə olduğunu yoxlamadın da.

– Mişa, mən əminiydim ki, sən ölmüsən, tikə-tikə olmusan. Biz həqiqətən də uçub getdik, bizdə həlak olmuş Samar Yaqubov və iki yaralı vardı. Sonra vertolyotçular gəlib sənin qalıqlarını da apardılar. Mən özüm Ternopolda, sənin qəbrinin üstə olmuşam.

– Mən də orada idim. On ildən sonra “qəbrimin” yanında hər şeydən xəbərsiz olan bədbəxt anamı da basdırdılar.

– Bəs sən onda niyə susurdun? Sənə nə olmuşdu?

– Başa düşmürsən? Mən özümə gələndə artıq mücahidlərin əsirliyindəydim. Bu brilyantların hamısını itirən adamların vəziyyətini

təsəvvür edə bilirsən? Məni gündə beş dəfə döyürdülər, hətta nə vaxt öləcəyimin üstündə mərc də gəlmişdilər. Məni qəddarcasına döyüb qaraciyərimi, böyrəyimi, ürəyimi zədələdilər... Ancaq bütün bunlara baxmayaraq, mən sağ qaldım. Məni atdıqları çalada yüz dəfə ölüb-dirilməyimə baxmayaraq, sağ qaldım.

Dronqo silahını çıxarıb pilləkənə yanaşdı. O, söhbəti başdan axıradək eşitmişdi.

– Sonra daha pis oldu, – qonaq davam etdi, – məni dağlarda yerləşən bir düşərgəyə apardılar. Üç il mənə narkotik vurub yenə döydülər. Sizin komandanlıq üçün mən itmiş əsgər idim və məni heç axtarmadılar da. Ona görə də başıma nə oyun istəsələr, açə bilərdilər. Belə də edirdilər. İndi mən dəqiq bilirəm ki, cəhənnəm yer üzündədir. Sonra isə məni müsəlman elədilər. Bilirsən, adamı narkozsuz sünnət edəndə necə ağrıdır? Mən bir neçə gün ağladım. İlahi, sizə necə nifrət edirdim! Məni atmağınız azmış kimi, komandanlığa da məlumat vermişdiniz ki, mən ölmüşəm, buna görə də praktik olaraq canımı qurtarmaq imkanım yox idi. Dağlarda on il keçirdim. Bu illər ərzində ərəb və puştun dillərini öyrəndim, Mixail Şevçenko əvəzinə Musa Şövkət oldum. Nifrət isə yalnız ürəyimdə böyüdü...

– Mən bilmirdim! Vallah, bilmirdim...

– Əlbəttə, bilmirdin. Brilyantlar sənə hər şeyi unutdurmuşdu.

– Düz deyil! O vaxt mən onların heç əsl qiymətini də bilmirdim.

– Amma demək olar, hamısını özünə götürdün, – Mixail xatırlatdı, – tezliklə də evə qayıtdın. On ildən sonra mənə şəhərə gəlməyə icazə verdilər. Daha bir neçə il sonra mən İordaniyaya köçdüm. Necə yaşadığımı, məni necə hazırladıqlarını sənə danışmayacam. Onlar mənə nifrət etməyi və öldürməyi öyrətdilər. İyirmi il ərzində əla təlim keçdilər. Sonra mən öyrəndim ki, Salambəy Muzayev rus hakimiyyətindən qaçıb Türkiyədə gizlənir. Mən ona zəng edib sizin xəyanət və satqınlığınıza görə birlikdə qisas almağımızı təklif etdim. Ancaq o imtina etdi. O, həmişə bir az idealist idi. Mən Vitebskə gəlib Feliksə zəng vurdum. O hətta mənim meydana çıxmağıma inanmadı da. Biz onunla bütün axşamı danışdıq. O, hörmətli adam olmuşdu, böyük vəzifə almışdı. Bu həyatda heç nə başa düşmək istəmirdi. Qətiyyən özünü müqəssir bilmirdi. Heç mənim cəhənnəmdə keçirdiyim iyirmi il üçün də üzrxahlıq etmədi. Onda mən onun maşınını partladıb Vitebskdən çıxdım. Düzdür, orada iş dolaşdı – avtomobilə onun sürücüsü minmişdi.

Sonra mən Nalçikə yola düşdüm. Hamımız Əhməd Elqarova necə də etibar edirdik... O, sənin müavinin idi. Salambəyi oradan çıxarmış, məni isə ölümcül vəziyyətdə daş qalağının altında qoymuşdu. Mən ona dedim ki, sağ qalmışam. O da tam inanmadı. Sonra öz işçilərini buraxıb dedi ki, məni evinə dəvət edir. Evinə getmək istəmədim, onu elə pilləkəndəcə öldürdüm. Və özümü

tamamilə haqlı hesab edirdim, çünki mənim əzablar çəkməyimdə siz müqəssiriydiniz.

Sonra Tiflisə uçdum. Orada sənin məni tapmaq üçün tutduğun ekspert mənə mane oldu. Şalvanı dərhal apardılar. Mən onun Bakıya aparıldığını öyrənib ardınca getdim. Lakin sənin ekspertin orada da məni qabaqladı. Hələ bundan qabaq Leonid Subbotini aldadıb Parisdən Nanta aparmaq kimi gözəl bir plan fikirləşmişdim. Amma sənin ekspertin yenə yolumu kəsdi. Bir yandan da başa düşdüm ki, Salambəy də mənə mane olmaq, hətta mənim qeyri-adi dirilməyimi sənə söyləmək fikrindədir. Bu mənim planlarıma daxil deyildi. Ancaq dünən Salambəy səninlə görüşüb mənim barəmdə danışmaq istəyəndə onu aradan götürtməklə sən özün mənə kömək etdin. Sən polisə və FTX-yə zəng etdin və onu sadəcə güllələdilər. Və onda anladım ki, sizi quduz köpəklər kimi öldürməkdə haqlıymışam. Siz təkcə dostluğumuzu satmadınız. İndi də tamahkarlığınız və mənsəbpərəstliyinizdən ötrü bir-birinizi satmağa, öldürməyə hazırsınız. Buna görə də mən axıradək getməyi qərar verdim. Bu gün sənin növbəndir, Yuli. Sonra iki nəfər qalacaq, onları da tapacam.

– Sən sadəcə ağlını itirmisən, – Qorçilin aram-aram dedi, – Salambəyin ölümü sənin təqsirin üzündən olub, mənim yox. Onu sənin ucbatından öldürdülər. Hamı elə bilmişdi ki, qatil odur, heç demə, səniymişsən.

– Öz alçaqlıqlarını mənim üstümə yıxma, – Musa Şövkət qəzəblə onun üstünə qışqırdı, – zəng edib öz döyüş yoldaşını satan, güllələtdirən sənsən! Özün də dəqiq bilirdin ki, onu heç vaxt diri tuta bilməyəcəklər. Ən azı ona görə ki, o təslim olmayacaq və qalan ömrünü həbsxanada keçirmək istəməyəcək. Və onda sən onu satmaq qərarına gəldin...

– Mən bilmirdim ki, qatil sənsən, – Qorçilin çətinliklə nəfəs ala-ala dedi, – bilmirdim ki, sən öz dostlarını öldürməyə hazır olan ağlını itirmiş axmaqsan...

– Siz haradan mənim dostum oldunuz? Belə deməyə cürət eləmə! Siz brilyantlara görə məni atdınız, indi isə deyirsən ki, biz dost olmuşuq. Yox, Yuli, biz heç vaxt dost olmamışıq. Biz xidmət yoldaşı olmuşuq. Sonra siz məni satdınız, indi mənim qisas almağa tam haqqım çatır. Öz məhkəməmdə, Yuli, amansız və sürətli məhkəməmdə.

Dronqo qaşqabağını tökdü. O, bu bədbəxtin necə əzablara düçar olduğunu anlayırdı.

Aşağıda dayanmış Qorçilin get-gedə əsəbiləşirdi. Bu ekspert niyə gəlib çıxmır, axı o silahlıdır. Dəqiq bir atəş – qatil saxlanacaq və cəzasını alacaq. O, nəyi gözləyir axı?

– Siz hər şeyimi əlimdən aldınız, – Musa Şövkət dedi. – Vətənimi, gəncliyimi... onda mənim heç iyirmi yaşım da yox idi, bu brilyantlardan mənə düşən payımı aldınız, həyatımı məhv etdiniz.

Mənim bütün bəşər və tanrı qanunlarına əsasən qisas almaq haqqım var. Əlvida, Yulik.

O, tapançanı qaldırdı.

– Lazım deyil! – Qorçilin axır ki, Dronqonun futboldan ayrılıb onun səsini eşidəcəyinə ümid edərək var səsiylə qışqırdı.

– Bağırma, – qatil üz-gözünü turşutdu, – kişi kimi öl. Səni onsuz da heç kəs eşitmir.

– Bu mübahisəli məsələdir, – o, öz arxasında sakit bir səs eşitdi. – Bircə kəskin hərəkətlər etmək, xüsusən də geri dönmək olmaz. Deyəsən, mən demişdim ki, biz hələ görüşə bilərik və mən əvvəl-axır səni tapacağam.

– Sən hər şeyi eşidirdin? – Musa Şövkət başını döndərmədən soruşdu. – Xahiş edirəm, mənə mane olma. Sən ki peşəkarsan, məni başa düşməlisən. Get burdan, qoy işimi başa çatdırım.

– Gedə bilmərəm, – Dronqo cavab verdi. – Razıyam ki, Qorçilin insan varlığının ən yaxşı nümunəsi deyil. Ancaq qalan iki nəfər heç də pis adam deyil. Şalva Çiladzenin üç oğlu, Subbotinin bir oğlu və gənc arvadı var. Və onlar doğrudan da belə ölüm fərmanına layiq deyillər. Subbotin mənə ordu çəkməsi qopmuş ayağı görəndə necə ağladığını danışdı. O elə bilmişdi ki, bu sənin ayağındır.

– Ağlamaq yox, dəqiq əmin olmaq lazım idi, – Musa Şövkət başını döndərmədən etiraz etdi.

– Orada döyüş gedirdi, – Qorçilin qışqırdı, – heç kimin ağlına da gəlməzdi ki, sən sağ qalmısan! Əgər biz bilsəydik, birimiz də oradan getməzdik, tüpürərdik bu brilyantlara. Ancaq hamı elə bilirdi ki, sən həlak olmusan!

– Atəş açma, – Dronqo yenə xahiş etdi. – Mən sənin dərdlərinə şərikəm, ancaq sənin başqa adamları öldürməyinə yol verə bilmərəm. Bu qisas və cəza deyil, sadəcə qətldir və sən o dünyada yeni inandığın Allahın, yaxud sadiq qaldığın İsanın qarşısında heç nə ilə özünə bəraət qazandıra bilməyəcəksən.

– Mən yalnız öz tapançama sadiqəm, – Musa Şövkət cavab verdi, – elə indi atəş açacağam. Sən növbəti atəşi arxadan aça bilərsən. Onda hər şey düz olacaq. Sən hər halda məni uddun. Mənim heç ağlıma da gəlməzdi ki, sən Qorçilinin mənzilində gizlənib məni gözləyəcəksən. Mən aşağıda dörd saat qarovul çəkmişəm, sənsə görünür, daha çox gözləmisən. Deməli, sən daha ağıllı və daha hiyləgərsən. Demək, Allah sənin tərəfindədir. O, həmişə güclülərin tərəfində olur.

Musa Şövkət tapançasını qaldırdı.

– Atma, – Qorçilin qışqırdı, – lazım deyil!

Qatil tətiyi çəkmək istədi, lakin tapançanın əlindən çıxdığını hiss etdi. Dronqo döşəməyə yıxılıb silaha atəş açaraq onu qatilin əlindən saldı. Şövkət hələ döşəmədən qalxmayan ekspertə baxıb qəzəblə geri çevrildi və ikinci tapançasından yapışdı. Atəş açmaq üçün bircə saniyə vaxtı qaldı, çünki Dronqo öz tapançasını artıq əlində tutmuşdu. Musa

düşünmədən Qorçilinin çiynindən vurdu. O, ağrıdan fəryad qoparıb döşəməyə yıxıldı. Bu zaman qatil başından güllə aldı. Dronqo yanılmamışdı. Musa Şövkət səndələdi, tapança əlindən düşdü və yerə sərildi.

Dronqo qalxıb Qorçilinə yanaşdı.

– Bağırmayın, – deyə ona təpindi, – qorxulu heç nə yoxdur. Güllə çiyninizə dəyib. Yaşayacaqsınız. Hətta belə olmağı yaxşıdır. Bu sizə bundan sonra peşəkarlara inanmaqda və Salambəyin qətlinin cəzası kimi ibrət dərsi olsun.

Qorçilin ağrıdan qışqırmaqda davam edirdi. Dronqo telefonu çıxarıb "Təcili yardım" çağırdı, sonra milisə zəng vurdu. Və öldürülənə yanaşıb təəssüflə ona baxdı.

– Yaşı qırxdan bir az çox olar, amma qoca kişiyə oxşayır, – açıq təəssüflə dedi. – Bəlkə siz mənə doğrudan da hər şeyi danışmamısınız, Qorçilin; bəlkə həmin döyüşdə sizi yoldaşlarınızın taleyindən daha çox brilyantlar maraqlandırırmış? Yoxsa güman edirsiniz ki, iyirmi il ərzində yaxşı mənada dəyişmisiniz? Qorxuram ki, bu sizin psixikanız üçün olmasın, Qorçilin. Əvvəl-axır yenə də başqa bir məbləğə satmaq istədiyiniz adam meydana çıxacaq. Ancaq o zaman mən onun arxasında olmayacağam.